AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**Maarifə Hacıyeva** **Tofiq Əbdülhəsənli**

# AZƏRBAYCAN DİLİ

***(Azərbaycan Dövlət İqtisad Universitetinin Türk Dünyası İşlətmə fakültəsinin tələbələri üçün dərs vəsaiti)***

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 avqust 2011-ci il tarixli 1466 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

**BAKI- 2011**

**Elmi redaktorlar**: **Elmira Cahangirova**
filologiya elmləri namizədi, dosent

**Elfira Bağırzadə**
ADİU-nun baş müəllimi, şərqşünas

**Rəyçilər:** **Mehmet Rıhtım**
Qafqaz Universiteti, Qafqaz Araşdırmaları İnstitutunun direktoru, dosent

**Firəngiz Kazımova**
filologiya elmləri namizədi, dosent

**Erdal Karaman**
Qafqaz Universiteti,
Pedaqoji fakültəsinin dekanı, dosent

**Kompyuter yığımı və dizaynı:** **Mətanət Əmrahova**
**Aybəniz Şirinova**

**prof. Hacıyeva M., dos. Əbdülhəsənli T. Azərbaycan dili. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" – 2011. - 242 səh.**

**© Hacıyeva M., Əbdülhəsənli T. - 2011**
**© İqtisad Universiteti - 2011**

## BİR NEÇƏ SÖZ

**Azərbaycan dili bizi**
**keçmişdə də, indi də**
**gələcəkdə də**
**birləşdirəcəkdir.**

*(Heydər Əliyev)*

«Bir millət, iki dövlət» olan Azərbaycan və Türkiyə dövlətləri arasındakı təhsil münasibətlərinin inkişafı fərəhləndirici bir haldır.

Azərbaycan Dövlət İqtisad Universitetində Türk Dünyası İşlətmə fakültəsinin fəaliyyət göstərməsi də Azərbaycan-Türkiyə təhsil əlaqələrinin uğurla həyata keçirilməsinin gözəl nümunəsidir.

Hazırladığımız dərs vəsaiti Azərbaycan dilinin fonetikasını və morfologiyasını əhatə edir. Bu vəsait Türk Dünyası İşlətmə fakültəsində təhsil alan türk tələbələri üçün nəzərdə tutulmuşdur. Azərbaycan dilinin fonetikası və morfologiyası ilə bağlı qrammatik materialların izahı Türkiyə türkcəsində də verilmişdir. Verilmiş tapşırıqlar, lüğət və suallar, tərcümə mətnləri, rəsmi və işgüzar sənəd nümunələri, Azərbaycan dilinin yazı qaydaları tələbələrin Azərbaycan dilini öyrənməsinə xidmət edir.

Vəsaitdə verilmiş oxu mətnləri Azərbaycanın və ümumiyyətlə türk dünyasının tarixi, coğrafiyası, mədəniyyəti, əlifbası, dili, dini, ədəbi irsindən nümunələrlə bərabər bəşər mədəniyyəti haqqında da bir sıra suallara cavab verir. Bu mətnlər və Azərbaycan türkcəsinə tərcümə məqsədi ilə verilmiş Türkiyə türkcəsində olan mətnlər tələbələrin Azərbaycan dilini öyrənməsi və mənimsəməsinə xidmət edir.

***Müəlliflər***



## KİTABIN İÇİNDƏKİLƏR

KİTABIN İÇİNDƏKİLƏR

Bir neçə söz........................................ 3

**FONETİKA (SESBİLGİSİ)**

Əlifba........................................ 10
Azərbaycan əlifbasında olan hərflər........................................ 15
Danışıq səsləri........................................ 22
Saitlər........................................ 23
Samitlər........................................ 25
Heca........................................ 26
Vurğu........................................ 29
Fonetik hadisələr........................................ 39
Səs uyğunlaşması........................................ 39
Səs fərqlənməsi........................................ 42
Səs artımı........................................ 45
Səs düşümü........................................ 47
Səslərin yerdəyişməsi........................................ 49

**MORFOLOGİYA (BİÇİMBİLİM)**

Nitq hissələri........................................ 53
**İsim........................................** 53
İsimlərin mənaca növləri........................................ 54
İsimlərin quruluşca növləri........................................ 57
Mürəkkəb isimlər........................................ 58
Ümumi və xüsusi isimlər........................................ 60
İsimlərdə cəm şəkilçiləri........................................ 63
İsimlərin mənsubiyyət şəkilçiləri ........................................ 64
İsmin halları........................................ 66
69

**Sifət**......................................................................... 71
Sifətin quruluşca növləri....................................... 74
Sifətin dərəcələri....................................................
78
**Say**........................................................................... 78
Sayın quruluşca növləri....................................... 79
Sayın mənaca növləri............................................
82
**Əvəzlik**................................................................. 83
Əvəzliyin mənaca növləri.....................................
86
**Fel**.......................................................................... 87
Felin quruluşca növləri......................................... 89
Felin zamanları...................................................... 92
Məsdər...................................................................
94
**Zərf**......................................................................... 95
Zərfin quruluşca növləri........................................ 97
Zərfin mənaca növləri...........................................
99
**Köməkçi nitq hissələri**........................................... 99
Qoşma.................................................................... 101
Bağlayıcı................................................................ 101
Bağlayıcıların quruluşca növləri........................... 101
Bağlayıcıların mənaca növləri..............................
102
**Ədat**......................................................................... 103
Ədatın mənaca növləri..........................................
104
**Modal sözlər**.........................................................
105
**Nida**.........................................................................



## OXU MƏTNLƏRİ

Azərbaycan Dövlət Himni.................................... 112
Şərqin ilk demokratik respublikası....................... 113
«Azərbaycan» sözünün mənşəyi və mənası haqqında………………………………………... 115
Türk əlifbaları........................................................ 117
Türk dünyası və onun dilləri................................. 118
Türklər.................................................................... 119
Sibir türkləri........................................................... 122
İlk yazını türklər yazdı........................................... 122
Qaqauzlar............................................................... 123
Oğuznamə.............................................................. 124
«Kitabi-Dədə Qorqud»da iqtisadi və sosial fikirlər.................................................................. 124
Uyğur mədəniyyəti................................................. 127
İlk möhtəşəm abidəmiz.......................................... 127
Kaşqarlı Mahmud................................................... 129
Ali Şir Nevai........................................................... 130
Nizami Gəncəvi...................................................... 132
Oğluma nəsihət (N.Gəncəvi)................................ 134
Nizami Gəncəvinin hikmətləri.............................. 135
Yunus Əmrə........................................................... 136
Salam olsun (Yunus Əmrə).................................. 138
Novruz bayramı..................................................... 139
Tariximizdən ......................................................... 141
Bunları unutmaq olmaz......................................... 143
Xocalı faciəsi......................................................... 144
Essendik, Yessentuki............................................. 145
Dil........................................................................... 146
Kültür..................................................................... 148
Qafan haqqında düşüncələr.................................. 150
Allahın 99 gözəl adı............................................... 151

Nəsrəddin Tusi idarəetmə və maliyyə islahatları haqqında................................................................ 152
Əhməd Cavad....................................................... 154
Azərbaycan bayrağına (Ə.Cavad)........................ 155
Al bayrağa (Ə.Cavad)........................................... 156
Hüseyn Cavid........................................................ 157
Qız məktəbində (H.Cavid).................................... 159
Mir Cəlal............................................................... 159
İtə ataram, yada satmaram (Mir Cəlal)............... 161
Məhəmmədhüseyn Şəhriyar ................................ 164
Türkün dili (M.Şəhriyar)...................................... 166
Bəxtiyar Vahabzadə............................................. 167
Allahü-Əkbər (B.Vahabzadə)............................... 169
Azərbaycan (B.Vahabzadə)................................. 169
Atalar sözləri......................................................... 170
Çoban çeşmesi (Efsane)....................................... 172
Halaçlar................................................................. 173
Biri ay, biri yıldız (Sevinç Çokum)....................... 174
Koroğlunun Türk kültüründeki yeri..................... 175
Atillanın qəmli hekayəti....................................... 176
Bayatılar............................................................... 180
Azərbaycana gəlsin (S.Rüstəm)........................... 181
Polietilen paketlər problemi................................. 181
Qrim qardaşları.................................................... 184
Gələnlər, dönənlər və qalanlar............................. 184
İslam və xeyriyyəçilik .......................................... 191
Qayaların göz yaşı................................................ 193
Sevdalı Anqara və Yenisey bahadırının nağılı...... 195
Sumqayıt əfsanəsi................................................ 196
Məhəmməd Peyğəmbər elm haqqında................. 198
Oqtay Rza............................................................. 199
Azərbaycan türkcəsidir dilim mənim (O.Rza)...... 200
General Paskeviç kimdir?..................................... 201





Ata və anaya hörmət............................................ 204
Nəriman Həsənzadə............................................. 205
Nuru Paşa (N.Həsənzadə).................................... 207
Göktürk alfabesi................................................... 209
Atatürkün söylemleri.......................................... 210
Prut əməliyyatı..................................................... 211
Türkçeyi koruyanlar............................................ 212
I Pyotrun «Vəsiyyətnamə»si............................... 214
Duz-çörəyi itirmə (Süleyman Rüstəm)................ 216
Ağbaba mahalı..................................................... 217
Yusuf Akçura....................................................... 219
Müdrik kəlamlar………………………………… 220


## AZƏRBAYCAN DİLİNİN YAZI QAYDALARI


Böyük hərflərin yazıldığı yerlər........................... 224
Nöqtə.................................................................... 225
Bitişik yazılan sözlər............................................ 225
Lar, lər şəkilçiləri………………………………… 226
Sual işarəsi........................................................... 226
Nida işarəsi.......................................................... 226
Vergül.................................................................. 227
Tərkibində xitab olan cümlələr............................ 228
İdi, imiş sözləri………….................................... 229


## RƏSMİ VƏ İŞGÜZAR SƏNƏDLƏR


Ərizə nümunələri.................................................. 231
Arayış nümunələri................................................ 233
Tərcümeyi – hal nümunələri................................ 234
Təbrik məktubları................................................ 236
Reklam nümunələri.............................................. 237
Elan ………….................................................... 238
Vəkalətnamə nümunələri..................................... 238
Etibarnamə nümunələri........................................ 239
**İstifadə edilmiş ədəbiyyat**……………………….. 241

# FONETİKA (SESBİLGİSİ)



## FONETİKA (SESBİLGİSİ)

Dilçilik elminin bir bölümü olan fonetika dildə olan sözləri əmələ gətirən səslərin əmələ gəlməsini, dilin səs sisteminin özəlliklərini, dilin tarixi inkişafı nəticəsində olan səs dəyişikliklərini və dildə olan səsləri incələyib öyrənən elm sahəsidir. Daha doğrusu, fonetika dildə olan səsləri, bunların növlərini, səslərin əmələ gəlməsini incələyən bir elm sahəsinə verilən addır.

**Dil bilgisinin bi dalı olan ses bilgisi, bir dilin sözcüklerini oluşturan seslerin, nasıl oluştuğunu, bir dilin ses yapısının ne gibi özellikleri olduğunu, seslerin birleşmesinin koşullarını, dilin tarihi geleşmesi iç̀inde görülen ses değişiklerini, bir dildeki ses olaylarını, inceleyen bilim dalıdır. Kısa bir deyişle sesbilgisi, bir dildeki sesleri, bunların türlerini, niteliklerini, ses olaylarını, inceleyen bir bilim dalına verilen addır.**

Səs və hərfləri öyrənən fonetika türk dilində olduğu kimi Azərbaycan dilinin və qrammatikasının bir bölümüdür.

Bu bölümdə Azərbaycan dilində olan hərflər, səslər, heca, vurğu, ahəng qanunu və fonetik hadisələr - səs uyğunlaşması, səs fərqlənməsi, səs artımı, səs düşümü, səslərin yerdəyişməsi kimi dil hadisələri öyrənilir.

## ƏLİFBA (ALFABE)

Hərf dildə olan səslərin yazıdakı işarəsidir.

Bir dildəki səsləri ifadə edən hərflərin hamısının əmələ gətirdiyi işarələrə əlifba deyilir.

**Harf seslerin yazı dilindeki ifade biçimidir.**

**Bir dildeki sesleri karşılayan harflerin, hepsinin birden meydana getirdiği, belli bir sırası olan harf toplularına alfabe denir.**

Bu gün Azərbaycan yazı dilində istifadə edilən latın qrafikalı əlifbada 32 hərf vardır. Latın qrafikalı türk əlifbasında isə 29 hərf vardır.

**Bugün Azerbaycan yazı dilinde kullanılan latın kökenli alfabede 32 harf, latın kökenli Türk alfbesinde ise 29 harf vardır.**

## LATIN QRAFİKALI AZƏRBAYCAN VƏ TÜRK ƏLİFBALARI

| Latın qrafikalı Azərbaycan əlifbası | | Latın qrafikalı Türk əlifbası | |
|---|---|---|---|
| **Aa** | **Qq** | **Aa** | **Mm** |
| **Bb** | Ll | **Bb** | Nn |
| **Cc** | Mm | **Cc** | Oo |
| **Çç** | Nn | **Çç** | Öö |
| **Dd** | Oo | **Dd** | Pp |
| **Ee** | **Öö** | **Ee** | Rr |
| **Əə** | Pp | **Ff** | Ss |
| **Ff** | Rr | **Gg** | Şş |
| **Gg** | Ss | **Ğğ** | Tt |
| **Ğğ** | Şş | **Hh** | Uu |
| **Hh** | Tt | **Iı** | Üü |
| **Xx** | Uu | **İi** | Vv |
| **Iı** | Üü | **Jj** | Yy |
| **İi** | Vv | **Kk** | Zz |
| **Jj** | Yy | **Ll** | |
| **Kk** | Zz | | |

Cədvəldən də göründüyü kimi, Azərbaycan əlifbasında türk əlifbasında olmayan üç hərf vardır: Əə, Xx, Qq



**Əə.** Azərbaycan əlifbasında olan «ə» hərfinin yazıdakı işarəsi belədir: Əə. Bu səs tələffüz edilərkən dil irəliyə doğru hərəkət edir, dilin ucu aşağı dişlərə toxunur və onun orta hissəsi damağa yaxınlaşır. Bu səs türk dilindəki «e» və «a» səsləri arasında orta bir vəziyyətdə tələffüz edilir. Bu zaman ağız boşluğu «e» səsinə nisbətən daha açıq, «a» səsinə nisbətən daha qapalı olur. Məsələn: əl, ət, əhali, məna, mənbə, əlli, mən, sən, fəna, bəlli.

**Xx**. Azərbaycan əlifbasında olan «x» səsi ilə ifadə olan sözlər türk dilində daha çox «h», «k» səsi ilə ifadə olunur.

Xanım – hanım, xoş-hoş, xəmir – hamur, xurma-hurma, xitab-hitab, xna-kna, axmaq-ahmak, xalis-halis.

**Qq**. Azərbaycan əlifbasında olan bu hərf türk əlifbasında olan «k» hərfinə daha yaxındır. Azərbaycan dilində «q» ilə tələffüz olunan əksər sözlər türk dilində «k» ilə tələffüz olunur. Məsələn: Qadın-kadın, qara-kara, qumaş-kumaş, doqquz-dokuz, saqqız-sakız, qüsur-kusur, qəbahət-kabahat, qıl-kıl.

**Tapşırıq.** *Aşağıdakı sözləri əlifba sırası ilə yazın:*

Tamaşa, mahnı, adam, çörək, qiymət, müəllim, kitab, sinif, dəftər, cərgə, çevrə, kağız, qələm, şagird, çiçək, ulduz, ülkər, bahar, elm, əmək, pendir, fəal, xoşbəxt, ulu, valideyn, zümrüd, yağmur, şən, tufan.

**Tapşırıq.** *Aşağıdakı mətndə tərkibində «ə», «x», «q» hərfləri olan sözləri ayırıb yazın.*

**Nəsihət**

Harun ər-Rəşid qardaşı Bəhlul Danəndəni çox sevir, nəsihətlərini dinləyirdi. Bir gün onlar sarayla qəbiristanlıq arasında görüşürlər.

Harun:

- Ey Bəhlul, nə vaxtdır səni görmək istəyirdim, - deyir.

Bəhlul sakit bir halda:

- Mən isə görmək istəmirdim, - deyə cavab verir.

Harun halını pozmadan söhbətinə davam edir:

- Nəsihətinə möhtacam.

Bəhlul sarayı və qəbiristanlığı göstərərək:

- Bir bu saraya, bir də qəbiristanlığa bax. Bundan ibrət almayan başqa nədən ibrət ala bilər ki? – deyir və davam edir:

- Sabah Allahın hüzuruna çaxacaqsan.
- Bilirəm.
- Hesab verəcəksən.
- Onu da bilirəm.
- Elə isə, nə cavab verəcəyini bilirsənmi?

Harun ər-Rəşid artıq öz nəsihətini almışdı. Oradan göz yaşları ilə ayrıldı.

**Tapşırıq.** *Türkiyə türkcəsi ilə olan aşağıdakı sözlərin Azərbaycan türkcəsi ilə qarşılığına diqqət edin.*

kırk – qırx
kıl- qıl
kılıç – qılınc
kın – qın
kınamak – qınamaq
kısa – qısa
kız – qız

köpek – köpək
kese-kisə
kesir – kəsir
keskin – kəskin
hâlâ – hələ
halef – xələf
hamal – hambal



kırmızı – qırmızı
kul – qul
korkak – qorxaq

hafıza – hafizə
hacı – hacı
haber – xəbər

elli-əlli
elma – alma
elmas- almaz
emek – əmək
Emine – Əminə
edep – ədəb

elif – əlif
efsun – əfsun
efsane – əfsanə
eda – əda
ebedi – əbədi
alfabe - əlifba

**Tapşırıq.** *Aşağıdakı mətni oxuyun. Tərkibində «ə», «x», «g» hərfləri olan sözləri ayırın və Türkiyə türkcəsi ilə qarşılığını yazın.*

Molla Nəsrəddin bir boyaqxana dükanı açıb boyaqçılıq eləməyə başlayır. Bir gün birisi paltarlıq parça gətirib deyir:

- Molla, bunu boya.
- Nə rəngə boyayım?
- Elə rəngə boya ki, ondan dünyada olmasın.
- Necə yəni dünyada olmasın?
- Yəni nə qırmızı olsun, nə qara, nə göy, nə yaşıl, nə sarı, nə də ki ağ olsun. Aydındır?!
- Kefin istədiyi kimi boyayaram.
- Yaxşı, nə vaxt gəlim aparım?
- Elə gün gəl ki, nə şənbə olsun, nə bazar, nə bazar ertəsi, nə çərşənbə axşamı, nə çərşənbə, nə cümə axşamı, nə də cümə günü.

## AZƏRBAYCAN ƏLİFBASINDA OLAN HƏRFLƏR

**Aa** - sözün əvvəlində, ortasında və sonunda yazılan hərfdir. **Məsələn**: Azərbaycan, ay, ağ, ayran, ana, ata, azadlıq, Ankara, alim, ağa.

**Bb** – sözün əvvəlində, ortasında və sonunda yazılan hərfdir. **Məsələn**: baha, bulud, cavab, bulaq, buynuz, budaq, abad, səbəb, bəli.

**Cc** - sözün başında, ortasında, sonunda yazılan hərfdir. **Məsələn**: cavan, cahil, acı, ac, cəbhə, canavar, gecə, canlı, sevinc.

**Çç** – sözün əvvəlində, ortasında, sonunda yazlan hərfdir. Məsələn: çiçək, çiy, çöl, çiban, çöhrə, açar, aç, açıq.

**Dd** – sözün əvvəlində, ortasında, sonunda yazılan hərfdir. **Məsələn**: dəvə, dəftər, dərd, qəddar, dəli, dodaq, abad, dülgər, ad.

**Ee** – sözün əvvəlində, ortasında yazılan hərfdir. **Məsələn**: el, eşq, ev, evli, memar, elan, etibar, erkən, verimli, vergi, elm.

**Əə** – sözün əvvəlində, ortasında, sonunda yazılan hərfdir. **Məsələn**: əmək, əhali, əsər, qələbə, tələbə, ərzaq, məhəllə, hə, tələ.
Ərəb və fars mənşəli sözlərdə bu səs uzun tələffüz olunur. Əla, bəzi, rəna, mötərizə, möcüzə, məna.



**Ff** – sözün əvvəlində, ortasında və sonunda yazlan hərfdir. **Məsələn**: faciə, fasilə, fateh, fəlakət, şəffaf, şəfəq, fərq, fərasət, təfəkkür, faiz, etiraf, fitnə.

**Gg** – sözün əvvəlində və ortasında yazılan hərfdir. **Məsələn**: gecə, gəlin, əgər, əsgər, gərgin, gəlir, gül, göl, göz, göygöz, gül.

**Ğğ** – sözün əvvəlində yazılmır, sözün ortasında və sonunda yazılır. **Məsələn**: ağıl, ağız, ağ, bağ, dağ, dümağ.

**Hh** – sözün əvvəlində, ortasında və sonunda yazılan hərfdir. Məsələn: hacı, hadisə, haram, məhbus, heybə, ehtiyac, həvəs, hörmət, sadəlövh, halal, hamı, hörmət.

**Xx** – sözün əvvəlində, ortasında və sonunda yazılan hərfdir. **Məsələn**: xahiş, axmaq, xatirə, xəfif, Xədicə, xurma, ixtiyar, ixrac, xərc, xanım, ox, çox, bax.

**Iı** – Azərbaycan əlifbasında bu hərf sözün əvvəlində yazılmır. Yalnız dialektlərdə ışıq, ılıq, ısmarış kimi tələffüz edilən sözlərdə rast gəlinir. Bu hərf sözün ortasında və sonunda yazılır. **Məsələn**: acı, ağı, artıq, arı, açıq, sarı, arıq, bayatı, qatı, sarı.

**İi** – sözün əvvəlində, ortasında, sonunda gələn hərfdir. **Məsələn**: iti, il, iş, ipək, inək, işçi, istisna, izzət, istiqbal, itki, iz.

**Jj** – daha çox alınma sözlərdə təsadüf edilən hərfdir. Sözün əvvəlində, ortasında yazılır. **Məsələn**: jaket, jurnal, jest, jeton, jüri, Əjdər, əjdaha.

**Kk** – bu səs Azərbaycan sözlərində yumşaq, rus və Avropa mənşəli sözlərdə isə qalın tələffüz edilir. Daha doğrusu, «k»

hərfinin Azərbaycan dilində iki rolu vardır. Bəzi sözlərdə (daha çox Azərbaycan mənşəli sözlərdə) «k» kimi, bəzi sözlərdə (daha çox Avropa mənşəli sözlərdə) «ka» kimi tələffüz edilir. Məsələn: kəmər, kitab, kələm, kağız, katib, kapitan, kommunizm, traktor, kombayn, aktiv, aktual, Afrika, konferans.

**Qq** – sözün əvvəlində, ortasında və sonunda yazılır. **Məsələn**: qaşıq, qatıq, ayaqqabı, qiymə, qisas, qəm, qüssə, qida.
Amma «q» sözün sonunda bəzən «x» kimi tələffüz olunur. **Məsələn**: papaq-papax, yarpaq-yarpax, torpaq-torpax, toxmaq-toxmax. Yazıda isə «x» deyil, «q» yazılır.

**Ll** – sözün əvvəlində, ortasında, sonunda yazılan hərfdir. Məsələn: lazım, laçın, lalə, hilal, liman, lövhə, lüzum, bal, al, yel.

**Mm** - sözün əvvəlində, ortasında, sonunda yazılır. **Məsələn**: maaş, mala, amal, mehmandar, mədə, məlum, məram, mərd, məsul, maraq, inam, hamam, ilham, alma.

**Nn** – sözün əvvəlində, ortasında və sonunda yazılır. Məsələn: nadan, nadir, nal, nəbz, nəhayət, nəzirə, nazir, namərd, nəhayət, pünhan, heyvan, anbar.

**Oo** – sözün əvvəlində, ortasında və sonunda yazılır. **Məsələn**: oba, ocaq, doğru, orta, ovçu, ovuc, otuz, boya, oyun, oho, boru, ordu doqquz.

**Öö** – sözün əvvəlində, ortasında yazılan hərfdir. **Məsələn**: öd, ölçü, böyük, ölkə, öyrənmək, ögey, övlad, bölgə, bənövşə.



**Pp** – sözün əvvəlində, ortasında və sonunda yazılan hərfdir. **Məsələn**: padşah, paxıl, pak, paşa, ipək, pəncərə, tap, pir, pünhan, ip, ipək, pambıq.

**RR** – sözün əvvəlində, ortasında və sonunda yazılır. **Məsələn**: Ramazan, rütbə, armud, rəsm, rifah, ruzi, novruz, rüsvay, sərdar, hökmdar, iftixar, rabitə, arzu, ərzaq.

**Ss** – sözün əvvəlində, ortasında, sonunda yazılan hərfdir. **Məsələn**: saat, sadə, saç, əsgər, əsmər, qisas, əsas, saz, səkkiz, səksən, əhsən, qüssə, kəsir.

**Şş** – sözün əvvəlində, ortasında, sonunda yazılan hərfdir. **Məsələn**: şəkər, şah, aşıq, şərab, eşq, işçi, şüa, aşağı, aş, daş.

**Tt** - sözün əvvəlində, ortasında və sonunda yazılan hərfdir. Məsələn: tale, tamah, tarla, tütün, büt, tüstü, it, iti.

**Uu** – sözün əvvəlində, ortasında və sonunda gələn hərfdir. **Məsələn**: uşaq, ustad, uzun, ulu, ulduz, bulud.

**Üü** – sözün əvvəlində, ortasında və sonunda gələn hərfdir. **Məsələn**: üç, üstün, ümid, üfüq, üzük, üzüm, hüzr, üç, üstün, mərhəmət, Hüsniyyə, ütü.

**Vv** – sözün əvvəlində, ortasında və sonunda gələn hərfdir. **Məsələn**: vacib, vahid, var, vəd, vəsiqə, arvad, Vahab, vacib, vahid, var, vəsiqə, varlı, vicdan, vida, övlad, vətən, ov, ovçu, ovqat.

**Yy** – sözün əvvəlində, ortasında və sonunda gələn hərfdir. **Məsələn**: yaba, yağ, yaxşı, yara, yaman, yer, yumaq, yumşaq, ayna, ayin, iy, iynə, küy, yemiş, yekə.

**Zz** – sözün əvvəlində, ortasında və sonunda gələn hərfdir. **Məsələn**: zaman, zəbt, zəruri, ziya, əzbər, əziz, ziyafət, ləziz, az, göz, ağız, əziz.

**Tapşırıq**. *Aşağıdakı sözlərin Türkiyə türkcəsi ilə qarşılığını yazın:*

əl, əlli, əlvan, qərənfil, qüdrət, qiymət, mən, sən, çiçək, əmək, ətək, xurma, xanım, qırx, xamır, xətir, qırmızı, qadın, qardaş, qələm, qumar, qisas, əhali, mən, sən, xeyr, yox.

**Tapşırıq.** *Aşağıdakı mətni oxuyun. Mətndə olan sözləri əlifba sırası ilə yazın.*

## TURAC
## (əfsanə)

Keçmişdə Turac adlı bir qız zalım xanın evində qulluqçu idi. Xanım onu çox döyür, incidirdi. Turaca qarın dolusu çörək, geyməyə paltar vermirdi. Günlərin bir günü xanım onu çağırdı:

- Ay qız, bu saat su isidib başımı, ayaqlarımı yuyarsan.

Turac gedib su isitdi. Nə qədər axtardı xanımın darağını tapmadı. Bilmirdi darağı hara qoyub. Xanımın səsi gəldi:

- Səni parça-parça olasan, bəs necə oldun?

Turac dedi:

- Xanım, bu saat gəlirəm.

Turac nə qədər axtardı, darağı tapmadı.

Xanımın ayağının səsi gələndə Turac ağladı və Allaha yalvardı:

- Nə olaydı, bir quş olaydım, xanımın zülmündən qurtaraydım.

Turac bir quş oldu. Xanım əli ağaclı qapıdan içəri girəndə, turac uçub bacadan getdi. Birdən yadına düşdü ki,



daraq taxçadakı boxçadadır. Uçub pəncərənin qabağına qondu və dedi:

- Xanım, taxçada, boxçada.

İndi də Turac həmişə bu sözləri oxuyur:

- Taxçada, boxçada.

**Tapşırıq.** *Türkiyə türkcəsi ilə verilmiş aşağıdakı mətni Azərbaycan türkcəsi ilə yazın*:

## ÇOK YEMEK, ÇOK UYUMAK,
## ÇOK KONUŞMAK

Hace Muhammed Bahaüddin Şah-ı Nakşibendi (k.s.) hazretlerinden, az yemenin, az uyumanın, az konuşmanın faydaları; çok yemenin, çok uyumanın, çok konuşmanın zararları ile alakalı ikazlar:

- Az ye, az uyu, az söyle; nimete kavuşulur böyle.
- Çok yemek tohumudur her derdin, az yemek ilacıdır her ferdin.
- Az yemek meyveli bir ağaçtır, hasta kalplere ilaçtır.
- Çok yemek hederdir, çox uyumak kederdir.
- Az yiyenin kalbinde hikmet kapıları açılır, ağzından inci-mercan saçılır.
- Çok yemek akıl için kıtlıktır, zeka için sakatlıktır.
- Az yemek nefsanı arzuları öldürür, kalbe ferahlık verir.
- Çok yemek mideyi bozar, midesi bozulanın dertleri azar.
- Az yemek nefse zindan, kalbe gülistandır.
- Çok yemek âzaları çok çalıştırıp yıpratır, tedavi için doktor aratır.

• Oruçtur vücudun zekatı, çok yiyenin bozulur sihhatı, azalır şefkati, tükenir takatı.

• Çok yiyen hakikati göremez, haramlardan kaçınamaz.

• İki cihan saadeti için midemizi düşünmek lazımdır. Acıkmadan yememeli, doymadan kalkmalıdır.

**Tapşırıq.** *Türk və Azərbaycan dillərində eyni mənanı ifadə edən aşağıdakı sözlərdəki səs fərqlərinə diqqət edin.*

| | |
|---|---|
| kitap – kitab | gönül - könül |
| anne – ana | aşk - eşq |
| kardeş – qardaş | merhemet - mərhəmət |
| kağıt – kağız | kaz - qaz |
| şehir – şəhər | davetiye - dəvətnamə |
| yüce – uca | kapı – qapı, |
| kebap-kabab | yıldız–ulduz |
| yanık – yanıq | cevap – cavab |
| müallim – müəllim | kalem – qələm |
| amca – əmi | komşu – qonşu |
| karanfil – qərənfil | fark – fərq |
| hurma – xurma | sınıf – sinif |
| kna – xna | ışık – işıq |
| boncuk – muncuq | ılık – ilıq |
| halis – xalis | kul – qul |
| zülüf – zülf | köşe – köşə |
| zehir – zəhər | tane – dənə |
| yatak – yataq | gömlek – köynək |
| kaza – qəza | kiraz – gilas |
| badem – badam | elma – alma |
| bahçe – bağça | güzel – gözəl |
| balık – balıq | peynir – pendir |
| hasta – xəstə | mesken – məskən |
| aynı – eyni | kayık – qayıq |

**Tapşırıq.** *Aşağıdakı sözlükdən istifadə edərək mətni Azərbaycan dilinə tərcümə edin.*



komşu – qonşu
urqan – örkən
nasıl – necə
şu – bu
gönül – könül

Nasrettin Noca`dan komşusu urgan istemiş. İçeri girip çıkan Hoca:

- İp boş değildir. Kadınlar, üstüne un sermişler, demiş.

Komşusu:

- Hoca bu nasıl iştir, ipe un serilir mi? Deyince, Hoca, şu cevabı vermiş:
- Vermeye gönlüm olmayınca ipe un da serilir.

## DANIŞIQ SƏSLƏRİ (DİLİN SESLERİ)

Bu gün Azərbaycan yazı dilində istifadə edilən latın qrafikalı əlifbada 32 hərf vardır. Bu hərflər danışıq səslərinin yazıdakı işarəsidir.

Danışıq səsləri iki yerə ayrılır:

1. Saitlər (ünlüler)
2. Samitlər (ünsüzler)

**Bu gün Azerbaycan yazı dilinde kullanılmış lâtın kökenli alfabede 32 harf bulunmaktadır. Bu harfler dilin seslerinin yazıdakı işaretidir.**

**Dilin sesleri ikiye ayrılır:**

1. **Ünlüler**
2. **Ünsüzler**

## SAİTLƏR (ÜNLÜLER)

Tələffüz zamanı heç bir maneəyə rast gəlməyən səslərə sait səslər deyilir. Azərbaycan dilində türk dilindən fərqli olaraq bunların sayı 9-dur:

a, ı, o, u, e, ə, i, ö, ü

Azərbaycan dilində olan «ə» sait səsinin işarəsi Türk dilinin əlifbasında yoxdur. Odur ki, türk dilində sait səslərin sayı 8-dir.

**Ses yolunda hiç bir engele uğramadan oluşan seslerdir. Azerbaycan dilinde 9 ünlu vardır:**

**a, ı, o, u, e, ə, i, ö, ü.**

Azərbaycan dilində olan sait səslər dilin vəziyyətinə görə iki yerə ayrılır:

1. Qalın saitlər: a, ı, o, u
2. İncə saitlər: e, ə, i, ö, ü

**Azerbaycan dilinde ünlüler dilin durumuna göre ikiye ayrılır:**

1. **Kalın ünlüler: a, ı, o, u**
2. **İnce ünlüler: e, ə, i, ö, ü**

Saitlər dodaqların vəziyyətinə görə də iki yerə ayrılır.

1. Dodaqlanan saitlər: o, u, ö, ü.
2. Dodaqlanmayan saitlər: a, ı, e, ə, i

**Dudakların durumuna göre ünlüler ikiye ayrılır:**

1. **Yuvarlak ünlüler: o, u, ö, ü**
2. **Düz ünlüler: a, ı, e, ə, i**



Azərbaycan dilində olan saitlər ilə türk dilində olan saitlərin tələffüzündə əsaslı fərq yoxdur. Hər iki dildə başqa dillərdən alınma sözlərdə saitlər uzun tələffüz edilir.
**Məsələn**:

ailə – aile
dəvət – davet
Rəna – Rana
cəza – ceza
alim – âlim
məna- mânâ

**Tapşırıq.** *Aşağdakı mətni oxuyun. Cümlələrdə olan qalın saitlərin altından bir xətt, incə saitlərin altıından iki xətt çəkin.*

Eyblərin böyüyü odur ki, səndə ola-ola başqasında axtarasan.
Hər insanın malına iki şərik var: vərəsələr və hadisələr.
Günah ilə qabağa gedən zəfər çalmaz.
Allah alçaltdığı bəndədən elm və biliyi əsirgəyər.
Alimlərin düz sözü dərmandır, səhv sözü isə dərd.
Hər bir qabı doldurmaq olar, elm qabından başqa.
Elm, ədəb üçün sərf etdiyin mal xərclənməyib.
Ən böyük dövlət ağıldır, ən böyük yoxsulluq isə nadanlıq.
İki tayfa doymaz: elm tələb edən və mal tələb edən.
Dilinə sahib olmayan öz sözünün zəlilidir.

*(Həzrət Əlinin kəlamlarından)*

**Tapşırıq.** *Aşağıdakı mətni oxuyun. Mətndə dodaqlanan və dodaqlanmayan saitlər olan sözləri ayırıb yazın.*

Birisini tutub Harun ər-Rəşidin yanına gətirmiş və demişlər:

- Bu kişi kafir olmuşdur!

Xəlifə bu sözün doğru olub-olmadığını soruşduqda, həmin adam «müsəlmanam!» - demişdir. Harun ər-Rəşid:

- - Aparın onu o qədər döyün ki, kafirliyini boynuna alsın! – deyə əmr verdikdə kişi:

- - Ya xəlifə, bir kafir gəlib «müsəlman oldum»! desə, ona xələt verərsiniz, amma mən müsəlmanı döyə-döyə kafir etmək istəyirsiniz! – demişdir

## SAMİTLƏR (ÜNSÜZLER)

Tələffüz zamanı səs yolunda bir maneəyə rast gələn səslər samit səslərdir.

Azərbaycan dilində 23 samit səs vardır:

b, c, ç, d, f, d, ğ, h, x, y, k, q, l, m, n, p, r, s, ş, t, v, j, z

**Ünsüzler ses yolunda az çok bir engele uğrayarak oluşan sesleridir.**

**Azerbaycan dilinde 23 ünsüz ses var:**

**b, c, ç, d, f, d, ğ, h, x, y, k, q, l, m, n, p, r, s, ş, t, v, j, z**

Samit səslər səs tellərinin iştirakına görə iki qrupa bölünür.

1. Kar samitlər (Sert ünsüzler)

Bunlar 9-dur:

k, p, s, t, f, x, h, ç, ş

2. Cingiltili samitlər (Yumuşak ünsüzler)

Bunlar 14-dür:

b, v, q, ğ, d, j, z, y, k, l, m, n, r, c



**Tapşırıq.** *Aşağıdakı mətni oxuyun. Mətndə olan sözlərdə kar samitlərin altından bir xətt çəkin.*

**Cəlil Məmmədquluzadə**

Azərbaycan ədəbiyyatının görkəmli siması, «Molla Nəsrəddin» jurnalının banisi və redaktoru Mirzə Cəlil (1869 – 1932), adəti üzrə azdanışan, sakit, çoxdüşünən və başqalarını dinləməyi bacaran bir adam idi. Bir gün onun köhnə dostlarından Həmid bəy Şaxtaxtlı evinə qonaq gəlir və bir neçə saat oturub çay içmək, kitab oxumaq və musiqi çalmaqla vaxt keçirirlər. Bu müddət ərzində onların arasında bir neçə kəlməlik sual-cavab olur. Nəhayət, Şaxtaxtlı durub gedərkən Mirzə Cəlil:

- Həmid, tez-tez gəl, belə şirin-şirin söhbətlərdən edək! – deyib onu yola salır.

## HECA (HECE)

Tələffüz zamanı sözlər asanlıqla hissələrə bölünür. Sözlərin hissələrə bölünməsinə heca deyilir. Sözdə neçə səs vardırsa, bir o qədər də heca olur.

**Konuşurken, sesler bir zincirin halkaları gibi bir-birine eklenir. Bu şekilde, bir soluk hamlesine çıkan seslere hece denir.**

**Məsələn**: bir hecalı sözlər: nar, gül, el, ev, əl, ox, pul, var, söz, yaş, göz və s.

Türk dilində olduğu kimi Azərbaycan dilində də sözlər bir, iki, üç, dörd, beş və daha artıq hecadan ibarət ola bilər. **Məsələn**: on, i+ki, al+tı, kə+pə+nək, im+ta+han, də+mir+çi, mü+qa+vi+lə, u+ni+ver+si+tet, tə+lə+bə, ic+ti+ma+i, mü+əl+lim, tə+mi+nat və s.

Azərbaycan dilində bəzi ərəb mənşəli alınma sözlər əslinə uyğun şəkildə tələffüz edildiyi üçün onların hecalanması da əslinə uyğun şəkildə olur. Məsələn: əla, elan, surət, cüzi, cürət, edam və s. (ə+la, e+lan, cüz+i, cür+ət, e+dam və s.)

**Tapşırıq.** *Aşağıdakı sözləri hecalara ayırıb yazın:*

Ata, sinif, məktəb, küçə, tələbə, kitab, müəllim, kitabxana, maşın, nəqliyyat, beşmərtəbəli, siyahı, ulduz, günəş, üfüq, kainat, mərtəbə, ayaqqabı, dükan, baqqal, şirniyyat, dünya, kitabxana, saray, institut, mənzil.

**Tapşırıq.** *Aşağıdakı mətndə olan bir və iki hecalı sözləri ayırıb yazın:*

Firdovsi «Şahnamə» əsərini yazarkən bir kəlmə də olsun ərəb sözü işlətməyəcəyinə söz vermişdi. Lakin əsər yazıldıqdan sonra orada Rüstəm Zalın rəşadətinə «fələk əhsən dedi, mələk mərhaba» misralarını görənlər:

- «Əhsən» də, «mərhaba» da ərəb kəlmələridir» - deyə etiraz etmişlər. Firdovsi bu etiraza:

- Onu mən deməmişəm. Mələk və Fələk demişdir - cavabını verib özünə bəraət qazandırmışdır.



**Tapşırıq.** *Aşağıdakı sözlərin türkcə qarşılığını yazın:*

| | | |
|---|---|---|
| əlli – | kəpənək - | müəllim - |
| əl – | dilək - | dərə - |
| ət- | dönər - | necə - |
| ətək- | didə - | neçə- |
| əmək- | səfər- | tərbiyə - |
| məktəb- | xeyli - | məmləkət - |
| xatirə- | kömək - | xəstə - |
| şən- | diqqət - | dəftər - |
| şəfəq- | mərhəmət - | səltənət - |

**Tapşırıq.** *Aşağıdakı sözlərin Azərbaycan türkcəsi ilə qarşılığını yazın*:

| | | |
|---|---|---|
| abone – | cami - | köylü- |
| acı – | çaba - | macera- |
| affetmek – | çabuk - | malzeme- |
| aşçı- | çağdaş - | özen - |
| alfabe – | çapkın - | özlem - |
| başkan- | çatal- | posta - |
| bekar- | eşit - | sakat - |
| bilim- | etki - | saklanmak - |
| bozkır- | kandırmak- | yıldız - |
| düğün- | kam - | ufak- |

**Tapşırıq.** *Aşağıdakı həftə günlərinin türkcə qarşılığını yazın:*

Bazar ertəsi-
Çərşənbə axşamı –
Çərşənbə –
Cümə axşamı –
Cümə –
Şənbə -
Bazar -

**Tapşırıq.** *Tərkibində qoşa sait və qoşa samit olan aşağıdakı sözləri hecalara bölün. Sözlərin türkcə qarşılığını yazın:*

Mətbəə, səadət, maarif, fəal, fəaliyyət, ailə, əmtəə, nəqliyyat, maliyyə, maaş, dairə, xammal, qəddar, cərrah, səlahiyyət, müvəffəqiyyət, doqquz, səkkiz, yeddi, milli.

## VURĞU (VURĞU)

Sözdə olan hecalardan birinin və ya cümlədəki sözlərdən birinin o birinə nisbətən daha qüvvətli və ucadan tələffüz edilməsinə vurğu deyilir.

**Konuşma sırasında kelimenin ezgisi hecelerinden birinin ve cümledeki sözlerden birinin küvvetlice söylenmesiyle ortaya çıkar.**

**(Kelimelerin ve kelime hecelerinden birinin ötekilerinden kuvvetlice söylenmeesine vurgu denir).**

**İşte bu sözlerde ve kelimelerde kuvvetli söylenen hece üzerindeki baskıya vurgu adı verilir.**

Azərbaycan dilində vurgunun düzgün deyilməsi çox vacibdir. Azərbaycan dilində danışan xarici vətəndaşların sözləri düzgün tələffüz etməməsinin bir səbəbi də sözdəki vurğunu bilməməsidir.

(Azerbaycan dilinde vurqunun dürüst söylenmesi çok önemlidir. Yabancıların Azerbaycan türkçesi ile sözcükleri dürüst bir biçimde söylememelerinin tek nedeni sözcüklerin vurqularını bilmemeleridir).

Azərbaycan dilində vurğunun üç növu vardır.

1. Heca vurğusu.
2. Məntiqi vurğu.
3. Həyəcanlı vurğu.



I. **Heca vurğusu** sözün tərkibindəki hecalardan birinin o birinə nisbətən qüvvətli tələffüz edilməsidir.

Türk dilində olduğu kimi Azərbaycan dilində də vurğu əsasən sözün son hecasının üzərinə düşür. Söz şəkilçi qəbul etdikdə belə, yenə vurğu şəkilçinin üzərinə düşür.

**Məsələn**: tələbə́-lə́r-də́, insán-líq, kitáb-lár-dá, müstəqil-dir, yaxşí-líq-lár, qardáş-líq-lár və s.

Yaxşılıqlar heç zaman unudulmaz.

Universitetdə çoxlu türk tələbə oxuyur.

Azərbaycan dilində vurğu qəbul etməyən şəkilçilər var. Bunlar aşağıdakılardır:

1. İnkar şəkilçisi: -ma; -mə.
2. Sual şəkilçisi: -mı; -mi;- mu; -mü.
3. Zaman şəkilçilərindən sonra gələn felin şərt şəkilçisi: -sa; - sə.
4. Feli bağlama şəkilçiləri –madan; - mədən.
5. Xəbər şəkilçiləri: -dır; - dir; - dur; -dür.
6. Adlara əlavə edilən xəbər şəkilçiləri: -am; -əm; -alı; - əli; - yam; - yəm.
7. Felin əmr formasının II şəxsinin cəm şəkilçiləri: -ın; -in; -un; -ün. Bu şəkilçilər sözə əlavə, oduqca vurğu həmin şəkilçilərdən əvvəl gəlir.

**Məsələn: álma, görmə, oxúma, gə́zmə, işlə́mə.**

Sən bu kitabı məndən álma,
İstəyirsən işlə, istəyirsən işləmə.

**Gəldínmi, gördünmü, apardínmı, oxudúnmu.**

Bu gün dərsə gəldínmi?
Aldığım romanı oxudúnmu?

**Gəlmişsə, yazdısa, görəcəksə, yatırsa.**
Əgər məktubu yazmíşsa, poçta ilə göndərsin.
Tələbə hər gün dərsə hazır gəlirsə, bir növ imtahana hazırlaşmış olur.

**Gəlmişdir, görmüşdür, oxumuşdur, ağlamışdır.**
O, səni dünən konsertdə görmüşdür.
Ağlámadan, gülmədən, eşitmədən, içmədən.
O, dükandan bir şey almadan geri döndü.

**Yaxşıyam, tələbəyəm,**
Mən indi tələbəyəm.
Bu vəziyyətdən çox razíyam.

**Gəlin, görün, bilin, yazın.**
Siz bu gün teatra gəlin.
Bu gün Sevinci görün və onunla söhbət edin.

**Azərbaycan dilində olan bir çox alınma sözlərdə də vurğu son hecaya düşmür.** Məsələn: Amerika, Rusiya, həqiqətən, bəzən, teatr, drama, komediya, xüsusən, amma və s.

**Tapşırıq.** *Aşağıdakı mətni oxuyun. Mətndə olan sözlərdə vurğunun yerini göstərin.*

## BAL HAQQINDA

Ən yaxşı bal saf və nisbətən qatı halda olandır. Tünd rəngli, bəzən yaşılsayağı, qaramtıl rəngli və iki ildən çox qalan bal keyfiyyətcə pis hesab olunur.

Bal selikli xıltları yumşaldır, öskürəyin qarşısını alır. O, mədə üçün münasibdir. Mədənin ağrısını sakitləşdirir. Bağırsaq üçün faydalıdır. Balın sidikqovucu təsiri vardır.



Ümumiyyətlə, bal istilik gətirir, ilkin mərhələdə qurudulucu xüsusiyyətə malikdir. Bəlğəm və rütubəti kəsir, bədən daxilindən rütubəti cəzb edir, damarları genişləndirir ki, bu da qan dövranını yaxşılaşdırır. Başqa dərmanlara bal qatdıqda onun təsiri çox qalır və bədən üzvlərinə daha tez çatdırılır. Sinə, nəfəs borusu, mədə, ciyər, dalaq, sarılıq, böyrək daşı, iflic, mədə köpü və iştaha üçün bal yemək müsbət təsir göstərir.

Balı su ilə qatıb içmək bədəni rütubətləndirir. Bal ilə özünü qusdurmaq soyuqdəymə və zəhərlənmə üçün münasibdir.

Qara arpa küləşindən alınan yağı bal ilə qatıb oynaqları ovmaq ağrıları sakitləşdirir. Ətə bal sürtdükdə o yaxşı qalır və iylənmir. Buğda unu ilə balın qatışığından təpitmə qoymaq şişləri, çibanı yetişdirir və açır.

Bal yemək ağız və damaq yarası üçün münasibdir. Şüyüdlə qaynadıb dəriyə sürtdükdə zərbə izini aparır. Bal ilə qarqara etmək boğaz ağrısını sakitləşdirir, boğaz yarası çirkini təmizləyir.

### Məntiqi vurğu

Cümlə tərkibindəki sözlərdən birinin mənasını qüvvətləndirmək məqsədilə ucadan və yüksək tələffüz olan ton məntiqi vurğu adlanır. Məntiqi vurğunu ifadə edən söz vurğulu söz adlanır.

Aşağıda verilmiş üç cümlədəki məntiqi vurğu cümlənin mənasına təsir edir. Məsələn:

**Müəllim** bu gün mühazirə oxuyacaq.

Müəllim **bu gün** mühazirə oxuyacaq.
Müəllim bu gün **mühazirə** oxuyacaq.

**Tapşırıq**. *Aşağıdakı mətni Azərbaycan türkcəsinə çevirin:*

Küçük Mustafa`nın, Mustafa Efendi adında bir öğretmeni vardı. Öğretmen Mustafa bir gün öğrenci Mustafa`ya:

-Senin de adın Mustafa, benim de. Bu böyle olmayacak.

Bundan sonra senin adın MUSTAFA KEMAL olsun dedi.

O günden sonra herkes O`na Mustafa Kemal dedi.

**Tapşırıq.** *Abbas Səhhətin dil haqqında söylədiyi aşağıdakı cümləyə diqqət edin və «Vətən» şerini oxuyun. Şeirdə məntiqi vurğunun yerini göstərin. Şeirin lüğətini tərtib edin. «Biz dünyanı dilimiz vasitəsi ilə öyrəndik, dilimiz ilə də tərbiyə tapdıq».*

**Vətən**

Könlümün sevgili məhbubi mənim
Vətənimdir, Vətənimdir, Vətənim.
Məni xəlq eyləmiş əvvəlcə xuda.
Sora vermiş Vətənim nəşrü-nüma
Vətənim verdi mənə nanü-nəmək.
Vətəni, məncə, unutmaq nə demək?!
Anadır hər kişiyə öz vətəni,
Bəsləyib sinəsi üstündə onu.
Südüdür kim, dolanıb qanım olub,
O mənim sevgili-cananım olub.
Saxlaram gözlərim üstə onu mən,
Ölərəm əldən əgər getsə Vətən.
Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.
Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.
Vətəni sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz!



**Tapşırıq.** *Aşağıdakı mətndə vurğunun yerini göstərin.*

**Mətn**

Nadir şah (1688-1747) Azərbaycanda rast gəldiyi bir kəndlidən soruşur:

-De görüm, Rüstəm güclü idi, ya mən?

Kəndli deyir:

- Rüstəm padşahlara tabe idi, sən isə heç kimə tabe deyilsən.

- Şah Abbas əzəmətli idi, ya mən?

- O, şahlığı irs olaraq almışdı, sən isə qılınc gücünə almısan.

- De görüm, Allah böyükdür, ya mən? – deyincə kəndli:

- O göydə bildiklərini edir. Sən isə yerdə. Məni bu işlərə qarışdırmayın - deyə cavab verir.

## HƏYƏCANLI VURĞU

Həyəcanlı vurğu bu və ya digər sözün cümlə daxilindəki ifadəliliyini tələffüzdə qüvvətləndirmək məqsədinə xidmət edir. Həyəcanlı vurğu ifadə edən sözlər imla qaydalarına rəayət etmədən tələffüz edilir. **Məsələn**:

| | |
|---|---|
| Sus - suss | qəşəng-qəşşşəng |
| Kəs – kəss | axmaq - axxmaq |
| Gözəl – gözəəəl | yaxşı-yaaxşıı |
| Yavaş - yavaaş | əfəl- əfffəl |
| Avara – avvara | qoçu-qoççu |
| Bıy - bııy | oho - ohoooo |

Avvvara, sənin burada nə işin var?
Ohooo… Xoş gördük səni.

**Tapşırıq.** *Aşağıdakı ay adlarının türkcə qarşılığını yazın:*

| | |
|---|---|
| yanvar - | iyul- |
| fevral - | avqust – |
| mart - | sentyabr – |
| aprel - | oktyabr – |
| may - | noyabr - |
| iyun - | dekabr – |

**Tapşırıq.** *Aşağıdakı şeri oxuyun. Sözlərdə olan vurğunun yerini müəyyənləşdirin.*

*Bəxtiyar Vahabzadə*

## UCALIQDA TƏNHALIQ

Ağaca bax ilahi, başı dəyir buluda
yəqin həsədlə baxır onun ucalığına
qara tikan kolu da.
Amma kol hardan bilər hər yaxşıda yaman var
Tənhadır ucalıqlar.
Zirvənin qulaqları həmdərd gəzib özünə
ətrafına şəklənir,
kol bilmir ki, ucalan ucaldıqca təklənir.

## AHƏNG QANUNU (ÜNLÜ UYUMU)

Azərbaycan dilində ahəng qanunu vardır, yəni bu dildə olan eynitipli səslər (incə, qalın, dodaqlanan, dodaqlanmayan) bir-birini izləyir.

**Azerbaycan Türkçesi`ndeki sözcüklerin heceleri kalın ünlü harfle başlarsa, diğer hecelerdeki ünlüler de kalın olur. İlk heceleri ince ünlü bir harfle başlarsa, diğer hecelerdeki ünlüler de ince olur.**



**Məsələn**: ana, ata, alma, aşıq, açıq, hava, oğlan, uşaq, yumaq, bucaq, ağac kimi sözlərdə ancaq qalın səslilər, dədə, dəvə, üzüm, ütü, çiçək, göyçək, məktəb, qəşəng kimi sözlərdə isə yalnız incə səslilər bir-birini izləyir.

Sözlərdə eynicinsli saitlərin (ünlülərin) və samitlərin (ünsüzlərin) bir-birini izləməsinə ahəng qanunu deyilir.

**Sözcüğün oluşmasındakı heceler ses bakımından bir-birine uygun olur. Buna ünlü uyumu ve ya ses uyumu denir.**

Ahəng qanunu təkcə söz köklərində deyil, şəkilçilərin artırılmasında da özünü göstərir.

**Məsələn**: tələbə+lər+in, kitab+lar+da, sinif+dən, küçə+lər+dən, biz+lər+dən, şəhər+li+lər, kənd+li+lər və s.

Hecaların bir qismi qalın, bir qismi incə olan sözlər ahəng qanununa tabe olmur.

Azərbaycan dilində az miqdarda olsa da ahəng qanununa tabe olmayan sözlər və şəkilçilər vardır.

**Hecelerin bir kısmı kalın, bir kısmı ince olan sözcükler ünlü ve ya ses uyumuna aykırıdır.**

**Məsələn**: azər, Azərbaycan, fəaliyyət, istirahət, istiqlaliyyət, nanə, şüa, vəba, əla, etiraz kimi sözlərdə və – daş, -ust - dan, -xana, -ğan kimi söz kökünə artırılan şəkilçilərdə ahəng qanununa tabesizlik özünü göstərir.

**Məsələn**:
v<u>ə</u>t<u>ə</u>n+<u>daş</u> – vətəndaş
s<u>o</u>s<u>ia</u>l+<u>ist</u>- sosialist
q<u>ə</u>l<u>ə</u>m+d<u>a</u>n –qələmdan
<u>ki</u>t<u>a</u>b+<u>xana</u> – kitabxana
gül+<u>dan</u> –güldan
kömürçü+<u>xana</u> – kömürçüxana və s.

**Azərbaycan dilində ahəng qanununun üç növü vardır.**

1. Saitlərin (ünlülərin) ahəngi.
- (Ünlülerin uyumu).
2. Saitlərlə (ünlülərlə) samitlərin (ünsüzlərlə) ahəngi.
- (Ünlülerle ünsüzlerin uyumu)
3. Samitlərin (ünsüzlərin) ahəngi
- (Ünsüzlerin uyumu)

I. **Saitlərin ahəngi**

Saitlərin ahəngi sözdə olan sait səslərin bir-birinin izləməsidir.

**Məsələn**: adamlar, insanlar, kitablar, tələbələr, üzümlük, maldarlıq, oxumaq, əkinçilik, işçilik, əmək, ayna, ələk, çiçək, şəhər və s.

**II. Saitlərlə samitlərin ahəngi.**

Azərbaycan dilində olan bir sıra sözlərin və şəkilçilərin tərkibində incə saitlər (e, ə, i, ö, ü) cingiltili samitlərlə (k, g, j), qalın saitlər (a, ı, o, u) kar samitlərlə (ğ, q, x) uyuşur.

**Məsələn**: vergi, itki, kəpənək, əsgərlik, tülkü, qatıq, qaşıq, toxum, bölgü.

**III. Samitlərin ahəngi.**

Bir çox sözlərdə kar samitlər kar samitləri (k, p, s, t, f, x, h, ç, ş), cingiltili samitlər cingiltililəri (b, v, q, ğ, d, j, z, y, g, l, m, n, p, c) izləyir.

**Məsələn**: vergi, bitki, kəskin, coşğun, bölgü, qurğu, təftiş, güzgü, baca.



**Tapşırıq.** *Verilmiş mətndə ahəng qanununa tabe olan sözlərin altından bir, tabe olmayan sözlərin altından iki xətt çəkin.*

## ARILAR HAQQINDA

Arı yerdə öz bədəninin çəkisindən iyirmi dəfə ağır yükü sürüyə bildiyi kimi, havada da çəkisi qədər ağırlıqda yükü daşıya bilir.

Bir kq bal toplamaq üçün arı beş milyona yaxın çiçəyi üzərinə qonur. Bal toplanışının ən qızğın vaxtında güclü arı ailəsinin uçuş yolu təxminən, Ay ilə Yer arasındakı məsafəyə bərabər olar.

Alimlər hesablamışlar ki, arıların bitkiləri tozlandırması nəticəsində kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artmasından əldə edilən fayda – bal, mum və arı zəhəri satışından əldə edilən pul gəlirindən xeyli çoxdur.

Arının on min yan gözləri və təpəsində üç böyük gözü vardır. Təpədəki gözlər uzaq marşrutları görmək üçündür. Arı çiçəyin üzərinə qonarkən yaxında olan hər şeyi yan gözləri ilə yaxşı görür.

Arının dəmir kimi əzələləri və qüvvətli qanadları vardır. Ona əfsanəvi qüvvəti verən tozcuqlar və nektardır.

Arılar insanlara böyük fayda verən, həqiqətən, ecazkar həşəratdır.

**Tapşırıq.** *Verilmiş mətndə ahəng qanununa uyğun artırılmış şəkilçilərin altından xətt çəkin.*

## ƏMƏKSEVƏR QOCA

Şam şəhərində qoca bir kişi var idi. O, hər gün kərpic kəsər, gündəlik çörək pulu qazanardı.

Bir gün bu qocanın yanına cavan bir oğlan gəldi. O, qocaya dedi: «Mən sənə heyran qalmışam. Bu qoca yaşında

gecə-gündüz əlləşirsən, kərpic kəsirsən. Axı, sən nə vaxta qədər bu ağır işdə çalışacaqsan».

Qocanın bu sözlərdən xoşu gəlmədi. Cavan oğlanı başa saldı ki, özgələrə möhtac olmaqdansa, işləmək yaxşıdır. Adam öz zəhməti ilə dolananda könlü şad olur.

Cavan oğlan qocanın bu sözlərindən utandı və ondan üzr istədi.

*(Nizami Gəncəvidən)*

## FONETİK HADİSƏLƏR (SESBİLİMSEL OLAYLAR)

Azərbaycan dilində bir çox söz və şəkilçilərin tərkibi tələffüz zamanı müəyyən dəyişikliyə uğrayır. Bəzi səslərdən biri və ya bir neçəsi ixtisar olur, ya da əlavə edilir, biri digəri ilə əvəzlənir, ya da səslər yerini dəyişir. Belə hadisələr qrammatikada fonetik hadisələr adlanır.

Azərbaycan dilində fonetik hadisələrin aşağıdakı növləri var:

Səs uyğunlaşması və ya assimilyasiya
Səs fərqlənməsi və ya dissimilyasiya
Səs artımı və ya proteza
Səs dəyişimi və ya eliziya
Səs yerdəyişməsi və ya metateza

**Telâffuzla ilgili olaylar Azerbaycan dilinde sesbenzeşmesi, sesfarklaşması, sesartımı, sesdüşümü, sesdeğişmesi olaylarıdır.**

## SƏS UYĞUNLAŞMASI (SES BENZEŞMESİ)

Azərbaycan dilində səs aydınlaşması və ya assimilyasiya hadisəsi danışıq dilinə xas olduğu üçün dialekt və şivələrdə yayılmışdır.



Assimilyasiya sözün tərkibində olan eyni və yaxın səslərdən birinin digərinə təsir edərək onu özünə uyğunlaşdırılmasına və yaxınlaşdırılmasına deyilir.

**Sesbenzemesi olayı sadece konuşmada görünür. Sesbenzeşmesi kelime içerisinde ve kelime ile ek arasında ünsüz benzeşmesi olayıdır. Bu olaya göre kelime içerisinde ünsüzlerden biri yanısıra gelen ünsüze geçer.**

Azərbaycan dilində səs uyğunlaşması (assimilyasiya) istqamətinə görə irəli assimlyasiya və geri assimlyasiya, tam və tam olmayan assimlyasiya terminlərilə ifadə edilir.

### İrəli assimlyasiya

İrəli assimlyasiyada bir səs özündən sonra gələn səsə təsir edərək onu tamamilə özünə oxşadır.

**Məsələn**: qarlı-qarrı, varlı-varrı, məndən-mənnən, səndən-sənnən, şəhərli-şəhərri, tapmaq-tappaq, narlar-narrar, qadınlar-qadınnar, üzərlik-üzərrik.

### Geri assimlyasiya

Geri assimlyasiyada bir səs özündən əvvəl gələn səsi tamamilə özünə oxşadır.

**Məsələn**: oturarlar-oturallar, oynayarlar-oynayallar, yavaşca-yavacca, alarlar-alallar, qanlı-qannı.

Digər assimlyasiya hadisələrində də sözlərdə fonetik dəyişmə hadisəsi müşahidə edilir. **Məsələn**: gözlük –gözdük, qızlar-qızdar, tənbəl-təmbəl, otlar-otdar, quşlar-quşdar və s.

**Tapşırıq.** *Aşağıdakı sözlərin assimilyasiyaya uğramış variantını yazın*:

ötdü, onlar, yazsaq, bazarlar, bunlar, gözlər, oğlanlar, qanlı, tapmaca, bazarlıq, düzlər, çəmənlər, getsə, canlı.

**Tapşırıq.** *Aşağıdakı şeri oxuyun. Assimilyasiyaya uğraya biləcək sözləri ayırıb yazın:*

**YALAN DÜNYA**

Sənin bəhrin yeyən kimdir?
Kiminkisən yiyən kimdir?
Sənə doğru deyən kimdir?
Yalan dünya, yalan dünya!

İgidlərin başın yeyən,
Qocalar bozbaşın yeyən.
Qəbirlərin daşın yeyən,
Özü yenə qalan dünya.

Biri ayna, biri pasdır,
Biri aydın, biri kasdır.
Gecə toydur, səhər yasdır,
Gül açdıqda, solan dünya.

Nə qandın kim gül əkəndir,
Kim qılınctək qan tökəndir.
Teymur hələ kürəkəndir.
Çingiz canın alan dünya!

Ocaq ikən sökünmüşsən
Çanaq ikən çönünmüşsən.
Nə pis qarı nənəymişsən,
Nağıl, yalan-palan dünya.

Səni fərzəndilər atdı,
Tapıb divanələr tutdu.
Kimi aldı, kimi satdı,
Satan dünya, alan dünya.

*(M.Şəhriyar)*

**Tapşırıq.** *Verilmiş sözlükdən istifadə edərək türkcə verilmiş aşağıdakı mətni Azərbaycan dilinə çevirin.*

«…Bir kırlangıç çifti, bir tabiat bilgininin evinin saçağı altında çamurdan yuvasını kurmuştu. Bir gün yabancı bir kırlangıç, sahipleri bulunmadığı sırada, gelip çamur yuvaya yerleşti. Sonra da onları yuvaya sokmadı. Kırlangıç



çifti kavga etmeden yuvadan uzaklaştı. Bir süre sonra yuva üzerinde bir kırlangıç sürüsünün uçtuğu görüldü. Kırlandıçların gagalarında çamur vardı. Biraz sonra hepsi yuva üzerinde alçaldılar. Hep birden, gagalarındaki çamuru ortaya bıraktılar.

Böylece, haksız yere yuvaya sahip olmak isteği, saldırgan kırlangıca mezar oldu…»

**Lüğət**

Kırlangıç – qaranquş
Çift - cüt
Bilgin - alim
Çamur - palçıq
Bulunmadığı – olmadığı
Yuvaya sokmadı – yuvaya buraxmadı
Kavqa-qovğa, dava-dalaş
Bir süre-bir müddət
Qaqa-dimdik
Hepsi-hamısı
Alçaldılar-endilər
Böylece-beləcə, beləliklə
Saldırqan-təcavüzkar

## SƏS FƏRQLƏNMƏSİ (SES FARKLAŞMASI)

Səs fərqlənməsi hadisəsi və ya dissimilyasiya dialekt və şivələrə xas olan fonetik hadisədir. Assimilyasiyadan fərqli olaraq dissimilyasiya hadisəsində sözdə eyni cinsdən olan iki səsdən biri həmin səsdən az və ya çox dərəcədə fərqlənən başqa bir səslə əvəz olunur, ya da düşür.

Məsələn: səkkiz-səkgiz, əlbəttə-əlbətdə, zərər-zələl, qərar-qəral.

**Sesfarklaşması olayı konuşma ile ilgili sesbilimsel olaydır. Bu olaya göre kelime içerisinde ünsüzlerden birinin kendi oluşum noktasından uzaklaşarak yakın ve ya aynı kalıplı seslerden biri gibi telâffuz olunmasıdır.**

**Tapşırıq.** *Dissimilyasiyaya uğramayan aşağıdakı sözlərdən cümlələr yazın:*

Tələbə, məktəb, küçə, şəhər, dükan, ev, dəftər, bina, isti, gözəl, ayaqqabı, kitab, şəhər, kənd, ağac, daş, xanım, ata, bacı.

## TOMRİS

Qədim zamanda İranda şahlıq edən Kir, zalım və qaniçən bir hökmdar idi. O, varlı və gözəl Azərbaycanı ələ keçirmək istəyirdi. Bu zaman Azərbaycana Tomris adlı qadın başçılıq edirdi.

Kir Tomrisə məktublar yazıb onu qorxutmaq və özünə tabe etmək istəyirdi. Lakin Tomris ondan heç də qorxmurdu və onun məktublarına kəskin cavablar verirdi. İşi belə görüb Kir çoxlu qoşun topladı və Azərbaycana hücum etdi. Ancaq Tomris qan tökmək istəmirdi. O, Kirə məktub yazıb təklif etdi ki, geri qayıtsın, əks halda bu müharibədə məhv olacaq. Kir Tomrisin sözlərinə qulaq asmadı. O, müharibəyə girişdi. Əvvəllər Kir bir qədər irəlilədi və Azərbaycanın bir hissəsini tutdu, əhalisini talan etdi. Ancaq Tomris, igid əsgərlərini toplayıb Kirin qabağına çıxdı. O, Kirə ikinci məktub yazdı. Məktubda Tomris Kirə bu sözləri yazmışdı:

- İnsan qanı içməkdən doymayan şah! İndi mən səni qanla doyduracağam.

İki böyük və güclü qoşun üz-üzə durdu. Böyük və qanlı bir döyüş oldu. Bu döyüşdə Tomrisin qoşunu qalib gəldi. İran qoşunu əzildi. Bu döyüşdə Kir özü də öldürüldü.



Tomris Kirin başını kəsdi. Bir tuluğu qanla doldurub Kirin başını o tuluğa saldı. Tomris Kirin qan içində batan kəlləsinə müraciət edib dedi: «Mən səni qanla doyurmağa söz vermişdim. İndi istədiyin qədər iç, bəlkə doyasan».

**Tapşırıq.** *«Tomris» mətnini oxuyun. Verilmiş suallara cavab yazın.*

1. Kir hansı ölkənin şahı idi?
2. Tomris hansı ölkənin hökmdarı idi?
3. Kirin məqsədi nə idi?
4. Tomris Kirə necə cavab yazdı?
5. Müharibədə kim qalib gəldi?
6. Tomris Kirdən necə intiqam adlı?

**Tapşırıq.** *Azərbaycan və türk dillərinin lüğət tərkibinə daxil olmuş Avropa mənşəli sözlərin hər iki dildəki yazılış fərqinə diqqət edin.*

| **Türkcə** | **Azərbaycanca** |
|---|---|
| otomobil | avtomobil |
| fotoğrafçı | fotoqraf |
| televizyon | televizor |
| qramer | qrammatika |
| epope | epopeya |
| madalya | medal |
| seksiyon | seksiya |
| istatistik | statistika |
| kaos | xaos |
| akademi | akademiya |
| üniversite | universitet |
| dekorasyon | dekorasiya |
| diskotek | diskoteka |
| konqre | konqres |
| panik | panika |

| | |
|---|---|
| sansür | senzor |
| stüdyo | studiya |
| salata | salat |
| kasa | kassa |
| jöle | jele |

## SƏS ARTIMI (SESARTIMI)

Proteza və ya səs artımı hadisəsi də şivə və dialektlərə xas olan bir fonetik hadisədir.

Tələffüzdə bir sıra sözlərin tərkibinə bu və ya digər səs artırılır. Bu fonetik hadisəyə proteza deyilir.

**Sesartımı olayı telâffuzla ilgili olarak konüşma dilinde bir olaydır.**

**Telaffuzda birtakım kelimelere bir ses eklenir. Bu ses-bilimsel olaya sesartımı və ya proteza olayı denir.**

Azərbaycan dilində proteza, yəni səsartımı hadisəsi sözün əvvəlində, ortalarında səsin artırılması şəklində müşahidə edilir.

**Məsələn**:

Sözün əvvəlinə artırılıb tələffüz edilən sözlər: rəng-irəng, Rza-İrza, stəkan-istəkan, razı-irazı, rahat-irahat.

Sözün ortalarına artırılıb tələffüz edilən sözlər. Məsələn:

Cəbr-cəbir, klub-kulub, dövr-dövür, qrup-qurup, briqada-biriqada, dairə-dayirə, qram-qıram, sədr-sədir.

**Tapşırıq.** *Aşağıdakı mətni oxuyun. Verilmiş sözlükdən istifadə edərək mətni Türkiyə türkcəsinə çevirin:*

| | |
|---|---|
| Qul – kul | cırtqoz – oyunbaz, mızıkçı |
| Alver – ticaret, alış-veriş | acgöz-haris |
| Filosof – filozof, düşünür | dünyapərəst – dünya malını seven |



| | |
|---|---|
| Hərəsinin – hepsinin | özünə baxan – kendine dikkat edən |
| Müsbət – müsbet, olumlu | xoşətirli – hoşetirli |
| Mənfi - menfi, olumsuz, neqatif | təsərrüfatçı – ırgatçı |
| Cəhət – yön | zarafatçı – şakaçı |
| Ümumi – genel | bədfel – kötü işler yapan |
| Yaxşı – iyi | kündəbədən topakbeden |
| Pis – kötü | oğru – hırsız |
| Kobud – kaba, küstah | gözügötürməyən – çekemeyen |
| Qəşəng – güzel, iyi | hay-küy salan – şamatacı |
| Nasaz – arızalı | riyakar – riyakâr |
| Söyüşsevən – küfreden | |

## QUL ALMAQ VƏ ONLARIN ŞƏRTLƏRİ HAQQINDA

Qul alsan çox ayıq ol. Adam almaq çox çətin bir elmdir. Qul var ki, yaxşı görünər, lakin elm gözü ilə baxdıqda əksi olar. Adamların çoxu elə güman edir ki, qul almaq da başqa alver kimidir, lakin bilməzlər ki, qul almaq və onun elmi filosofluqdur.

İndi də onların hərəsinin müsbət və mənfi cəhətlərini deyirəm, biləsən.

Türklərin gözəllikləri ümumi görünüşlərindən məlum olar, onların yaxşı cəhətlərini tərif, pis tərəflərini tənqid etməkdən bir şey çıxmaz. Hindlilərdə isə əksinə. Məsələn, türkə baxdıqda, başı böyük, üzü enli, gözləri kiçik, burnu yastı, dişləri kobud nəzərə çarpır və ayrılıqda bunların heç biri gözəl deyildir, lakin hamısına bir yerdə baxanda sima çox qəşəng görünər.

Ruminin eyibləri: danışıq bilməyən, kinli, süst təbiətli, nasaz, cırtqoz, acgöz və dünyapərəst olmaqdır.

Üstün cəhətləri: özünə baxan, mehriban, xoşətirli, təsərrüfatçı, zarafatçı, dillərini saxlayan olmalarıdır.

Ermənin eybi: bədfel, kündəbədən, oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan, əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, söyüş sevən, ürəyi xıltlı, ağasına düşmənçilikdir. Ümumiyyətlə, onlar başdan ayağa müsbətdən çox mənfiyə yaxındırlar.

*Mətn «Qabusnamə» əsərindən götürülmüşdür.*
*Bakı, 1963, səh.117-121.*

## SƏSDÜŞÜMÜ (SESDEYİŞİMİ)

Sözlərdə səsin düşməsi hadisəsi eliziya və ya səsdəyişimi hadisəsidir.

Həm yazıda, həm də tələffüzdə bir sıra sözlərin və ya onlara qoşulan şəkilçilərin tərkibindəki səslərdən biri düşür. Bu fonetik hadisə qrammatikada eliziya, yəni səsdüşümü hadisəsi adlanır.

Eliziya hadisəsinə uğramış sözlərin bir çoxu digər fonetik hadisələrdən fərqli olaraq yazıda da sabitləşmişdir.

**Azerbaycan Türkçesi`nde de birtakım kelimelere ünlüyle başlayan ek eklendiği zaman kelimenin ikinci hecesideki ünlü düşer. Bu fonetik olaya eliziya veya sesdüşümü denir.**

**Sesdüşümü olayına uğramış kelimelerin bir kısmı diğer sesbilimsel olaylardan farklı olarak yazıda sabitleşmişdir.**

**Məsələn**: Əliəkbər sözü yazıda artıq Ələkbər şəklində sabitləşmişdir.

Eləcə də Əliabbas – Əlabbas, Ağaəli- Ağəli, Əliqulu-Əlqulu, Mirzəəli – Mirzəli, Əliməordan – Əlmərdan kimi sözlər artıq ədəbi dildə sabitləşmişdir.

Azərbaycan dilində elə sözlər vardır ki, onlar hallanarkən ismin yiyəlik, yönlük və təsirlik hallarında eliziya hadisəsinə uğrayır.



**Məsələn**: sinif, nəsil, beyin, şəkil, fikir, sətir, ətir, çətir, kimi sözlərdə ismin yiyəlik, yönlük və təsirlik hallarında «i» səsi düşür.

Adlıq halda isim olan söz yiyəlik halda ismin , yönlük halda ismə, təsirlik halda ismi kimi fonetik dəyişikliyə uğrayaraq yazıda sabtləşmişdir.

**Tapşırıq.** ***Eliziya hadisəsinə uğramış aşağıdakı sözlərdə sözün ilkin şəklini müəyyənləşdirin.***

Beyinin, sinifdə, nəslə, şəklin, Əlsahib, fikrin, Əlağa.

**Tapşırıq.** *Aşağıdakı şeri oxuyun. Fonetik hadsələrə uğramış sözləri ayırıb yazın və fonetik hadisənin növünü göstərin.*

Eşidin, məclisdə arif olannar,
Sərrafam, göhərim, kanım gedibdi.
Ah çəkibən yar yoluna baxmaqdan,
Yəqin bilin, yarı canım gedibdi.

Nazik barmaqlıdı, şümşad əllidi,
Ayna qabaqlıdı, siyah tellidi,
Şəkər söhbətdidi, şirin dillidi,
Tuti kimi xoş zəbanım gedibdi.

Müddətdi gözümnən olubdu iraq,
Əridib ürəyim dərdü qəm, fəraq.
Büllur buxaq, lala yanaq, ay qabaq,
Ala gözdü Səhnəbanım gedibdi.

İş sana agahdı, qədir ilahı,
Eşq əlinnən itirmişəm irahı.
Ələsgərəm, budu sözün kütahı,
Yar gedənən din-imanım gedibdi.

*Aşıq Ələsgər*

## SƏSLƏRİN YERDƏYİŞMƏSİ (SESDEĞİŞMESİ)

Sözlərdəki səs fərqlənməsi olan səsdəyişmə (metateza) hadisəsi dialekt və şivələrə xas olan hadisədir. Bu hadisə zamanı sözün tərkibindəki yanaşı gələn səslər qarşılıqlı şəkildə dəyişir. Bu hadisə yalnız danışıq dilinə xas fonetik hadisədir.

**Bu sesbilimsel olaya göre kelime içerisinde sesler yerlerini değişirler. Bu olay konuşma dili ile ilgili sesbilimsel olaydır.**

**Məsələn**: layihə – lahiyə, süfrə-sürfə, torpaq-topraq, yarpaq-yapraq, məşhur-məhşur, Fərhad-Fəhrad, kirpik-kiprik.

**Tapşırıq.** *Aşağıdakı mətni oxuyun. Mətndə olan yanlış sözlərin doğru variantını yazın.*

### Səni də yeyim, xörəyi də!

Qonşu qonşuya keçib görür ki, ev sahibinin kiçik qızı mətbəxdə məşğuldur.

- A qızım, səni yiyim, hayındı horda nağarırsan?
- Xörək bişirirəm, a xala.
- A səni də yiyim, sən bişirən xörəyi də!

Qızın atası o biri otaqdan dillənir:

- A qonşu, qızı yiyirsən yi, amma xörəhdə işin olmasın!

*(Mətn «Şəkinin gülüş çələngi» kitabından götürülmüşdür. Bakı,1987, səh.11)*



**Tapşırıq.** *Verilmiş sözlükdən istifadə edərək türkcə verilmiş mətni Azərbaycan dilinə tərcümə edin.*

Soğuk bir kış günüydü. Küçük kardeşim Leylây`ı aramak için sokağa çıkmıştım. Akşama kadar dolaştığım halde Leylây`ı bulamadım. Soğuktan donacak hale gelmiştim. Ağlamaya başladım. Birden çok yaşlı bir adamın yanıma yaklaştığını gördüm. Bu adam Ankara`nın en yaşlılarından Şakir amca idi. Beni donmaktan o kurtardı.

### Sözlük

| | |
|---|---|
| soğuk – soyuq | yaklaştığını – yaxınlaşdığını |
| kış – qış | amca – əmi |
| küçük – kiçik | kurtardı – qurtardı |
| aramak – axtarmaq | sokak – küçə |
| bulamadım – tapmadım | |

**Tapşırıq.** *Azərbaycan və türk dillərində işlənən meyvə, səbzə, tərəvəz, bitki adlarına diqqət edin.*

| | |
|---|---|
| alma – elma | keşniş – kişniş |
| almurd – armut | gilas – kiraz |
| turp – turp | ərik – kaysı |
| cəfəri – maydonoz | heyva – ayva |
| fındıq – fındık | kələm – lahana |
| şabalıd – kestane | kəkotu – kekik |
| incir – incir | gicitkən – ısırqan |
| düyü – pirinç | kərəviz – kereviz |
| un – un | pomidor – domates |
| kişmiş – kuru üzüm | xiyar – hiyar, salatalıq |
| arpa – arpa | qabaq – kabak |
| kök – havuç | mərci – mercimek |
| zirə – kimyon | yonca – yonca |

| | |
|---|---|
| xurma – hurma | nar – nar |
| çiyələk – çilek | mandarin – mandalina |
| ispanaq – ıspanak | portağal – portakal |
| moruq – ahududu | zeytun – zeytin |
| kartof – patates | üzüm – üzüm |
| lobya – fasulya | qarpız – karpuz |
| üzərlik – üzerlik | yemiş – kavun |
| zoğal – kızılçık | soğan – soğan |
| çuğundur – pancar, pazı | sarmısaq – sarımsak |
| quşburunu – kuşburnu | |

**Tapşırıq.** *Aşağıdakı mətni Türkiyə türkcəsi ilə yazın:*

Xalq bir dəryadır. Onun mənəvi sərvəti tükənməzdi. Dahi sənətkarlar xalqdan öyrəndiyi, xalqa arxalandığı üçün sənətin zirvəsinə çıxa bilmişlər. Boş uydurmalar və fantaziyalar əsasında yaranan bir əsər jamaatın, xalqın zövqünü oxşamaz, onun xoşuna gəlməz. Yaxşı bir şey yaratmaq istəyənlər yaratmağı xalqdan öyrənməlidir.

*(Üzeyir Hacıbəyli)*



# MORFOLOGİYA (BİÇİMBİLİM) (BİÇİM BİLGİSİ)

## NİTQ HİSSƏLƏRİ
## (KELİME BÖLÜKLERİ)

Morfologiya dildə sözlərin bölgülərindən bəhs edir. Bu bölgü nitq hissləridir.

(**Morfoloji dilde sözlerin bölgüsünü ifade eder.**

Azərbaycan dilində on bir nitq hissəsi var: isim, sifət, say, əvəzlik, fel, zərf, qoşma, bağlayıcı, ədat, modal sözlər, nida.

Nitq hissələri iki yerə ayrılır:

a) Əsas nitq hissələri (**Anlamlı sözler birimi**).

Əsas nitq hissələri lüğəti mənası olan sözlərdən ibarət olur. Azərbaycan dilində altı əsas nitq hissəsi var: isim, sifət, say, əvəzlik, fel, zərf (**isim, sıfat, sayı, zimirler, fiil, zarf**);

b) Köməkçi nitq hissələri (**Anlamsız sözler birimi**). Köməkçi nitq hissələri lüğəti mənası olmayan sözlərdən ibarət olur. Azərbaycan dilində beş köməkçi nitq hissəsi var: qoşma, bağlayıcı, ədat, modal sözlər, nida (**sontakı, bağlaç, ilgeç, modal sözler, ünlem**).

## İSİM (İSİM)

Əşyanın adını bildirən sözlərə isim deyilir. (**İsimler nesneleri karşılayan kelimelerdir**).

İsim kim? nə? bəzən də hara? sualına cavab verir.

**Məsələn***:*

***Sevil*** *bu il universitetə qəbul oldu.*

***Kitab*** *bilik mənbəyidir.*

***İstanbul*** *gözəl şəhərdir.*

Bu cümlələrdə «Sevil» kim? sualına, «kitab» nə? sualına «İstanbul» hara? sualına cavab verir.



**Tapşırıq 1.** *Aşağıdakı şeirdən isimləri tapıb dəftərinizə yazın. Şeiri əzbərləyin.*

### ANA

Ana! Mənası var bu böyük adın,
Dahilər yaradır bu ana qadın.
Südilə bəsləyir, böyüdür bizi,
Gözlərilə çəkir keşiyimizi.
Lakin qurtarmasa qadın zillətdən,
Nə azad ana var, nə azad Vətən.
Ana müqəddəsdir, ana doğmadır,
Ən böyük məhəbbət yalnız onadır.
Vətən də yaranmış böyük bir ana,
Bütün bəşəriyyət borcludur ona.
Yoxsa da dünyanın ucu-bucağı,
Hər yerdən istidir ana qucağı…
O girir körpənin hər qılığına,
Alqış anamızın cansağlığına

*(Səməd Vurğun)*

## İSİMLƏRİN MƏNACA NÖVLƏRİ
## (ANLAMALARINA GÖRE İSİMLER)

İsimlərin aşağıdakı məna növləri vardır.

***1. Şəxs bildirən isimlər.***

Belə isimlər kim? sualına cavab verir.

**Məsələn**: Sevinc, Akif, Heydər, Əli, Süleyman, Təranə, Xatirə, ana, bacı, ata, dayı, xala, bibi, oğlan, qız, qadın

**Məsələn**: **Süleyman** mənə kitab bağışladı.

**Ana** dünyanın ən müqəddəs adıdır.

2. ***Canlı əşyaların adlarını bildirən isimlər.*** Belə isimlər nə? sualına cavab verir: quş, qoyun, heyvan, həşərat, quzu, inək, öküz, tülkü, dovşan kimi isimlər.

**Məsələn**: **Quş** qanadla uçar
Bu **qoyun** qurbanlıqdır

**Tapşırıq 1.** *Oxuyun. Mətni türkcəyə çevirin.*

Hər bir xalqın öz vətəni olduğu kimi, öz dili də var. Bu dilə ana dili, doğma dil, vətən dili deyilir. Xalqın bütün oğul və qızları o dildə danışır, beşik başında, toyda, yasda o dili işlədirlər. Vətəndaşlar o dilin vasitəsilə ünsiyyət tapır, bir-birinə məhəbbət yetirirlər. Ana dili o dildir ki, onu bütün xalq bilir, bütün xalq o dildə danışır.

*(Mirzə İbrahimov)*

3. ***Cansız əşyaların adlarını bildirən isimlər.*** Belə isimlər nə? sualına cavab verir: dəftər, kitab, qələm, taxta, şüşə, çiçək, alma, armud kimi isimlər.

**Məsələn**: **<u>Kitab</u>** bilik mənbəyidir
**Çiçək** ən gözəl hədiyyədir

4. ***Mücərrəd məfhumların adlarını bildirən isimlər.*** Belə isimlər nə? sualina cavab verir: məhəbbət, eşq, diqqət, hafizə, könül kimi isimlər.

**Məsələn**: **Arzu** insanı qanadlandırır.
**Hafizə** insan həyatında müstəsna rol oynayır.

5. ***Zaman adlarını bildirən isimlər.*** Belə isimlər nə? sualına cavab verir. Həftə, ay, gün, yaz, qış, bahar, saat, axşam, gündüz.

**Məsələn**: **Yaz** ilin ən gözəl fəslidir.

6. ***Su ilə əlaqədar obyektlərin adlarını bildirən isimlər:*** çay, okean, kanal, bulaq, Kür, Araz, Xəzər.

7. ***Təbiət hadisələrinin adlarını bildirən isimlər.*** Belə isimlər nə? sualına cavab verir. Qar, yağış, ildırım, külək.

**Məsələn**: **Qar** yağır
**Külək** əsir



***8. Peşə, sənət, ixtisas bildirən isimlər.*** Belə isimlər kim? sualına cavab verir. Müəllim, tələbə, katib, professor, laborant.

**Məsələn:** Bu gün **müəllim** bizə maraqlı bir mövzu danışdı.

***9. Yer adlarını bildirən isimlər:*** Belə isimlər hara? sualına cavab verir. Gəncə, Bakı, Ankara, Qarabağ.

**Məsələn:** Qarabağ Azərbaycanın gözəl diyarlarından biridir.

**Tapşırıq 1.** *Şeiri oxuyun. İsimləri ayırıb yazın.*

*Könlümdə bir dərya nəcib arzular,*
*Yenə dərdli Araz qırağındayam.*
*Xeyli var, üzünü görmədiyimin –*
*Cənublu dilbərin sorağındayam.*
*Deyirəm, silinsin sinəmdən bu dağ,*
*Qəlbləri oxuyum mən varaq-varaq,*
*Hər iki sahildə deyiləm qonaq,*
*Dədələr, babalar ocağındayam.*

*(Süleyman Rüstəm)*

**Tapşırıq 2.** *Aşağıdakı mətndə olan isimləri ayırıb yazın. Mənaca növlərini göstərin.*

Ashabi-kəhf Naxçıvan şəhərindən on iki kilometr aralıda qədim təbii abidə, həm də ziyarətgahdır. Ashabi-kəhf ərəb dilində mağara adamları deməkdir. Qədim müsəlman və xristian ədəbiyyatında, eləcə də "Quran"da adı çəkilir. Əfsanəyə görə, Allaha inanan gənclər təqibdən yaxa qurtarmaq üçün bir itlə birlikdə mağarada gizlənmişlər. Allah onları yuxulatmış, bir neçə yüz ildən sonra oyatmışdır. Lakin gənclər özlərinə yad dünyanı görüb əbədi yuxuya getmişlər.

## İSİMLƏRİN QURULUŞCA NÖVLƏRİ
## (İSİMLERİN YAPI BAKIMINDAN ÇEŞİTLERİ)

İsimlərin quruluşca üç növü var (**İsimler yapı bakımından üç çeşittir**).

1. Sadə isimlər. (**Basit isimler**)
2. Düzəltmə isimlər. (**Türemiş isimler**)
3. Mürəkkəb isimlər. (**Bileşik isimler**)

Sadə isimlər bir kökdən ibarət olur. Məsələn: Ceyran, Həsən, Murad, İsmayıl, ev, küçə, otaq, məktəb, divar, qız və s.

Düzəltmə isimlər sözdüzəldici şəkilçilər vasitəsilə düzəlir. Bu şəkilçilər aşağıdakılardır:

**çı, çi, çu, çü.** qapı+çı, dəmir+çi kömür+çü, futbol+çu, bostançı

**lıq, lik, luq, lük.** bataq+lıq, çəmən+lik, tələbə+lik, qum+luq, üzüm+lük, yaxşı+lıq, gözəllik

**ça, çə.** meydan+ça, gödək+çə

**istan, ustan, ıstan, üstan.** Dağ+ıstan, Macar+ıstan, Gül+üstan, Özbək+istan, Monqol-ustan

**ma, mə.** Qaz+ma, süz+mə, suvar+ma, dol+ma, bağlama

**ış, iş, uş, üş**. Yağ+ış, uç+uş, gəl+iş, gör+üş.

**Tapşırıq 1.** *Aşağıdakı sadə və düzəltmə isimlərdən cümlələr yazın:*

ev, kitab, insan, meşə, süzmə, gözlük, yazıçı, qumluq, cütcü, dilçi, birlik.



**Tapşırıq 2.** *Aşağıdakı şeiri oxuyun. Düzəltmə isimləri ayırıb yazın.*

**Azərbaycan ayrılmaz**

Gözəllik, incəlik, sevgi, vəfa, insandan ayrılmaz,
Coşan sellər, axan çaylar necə ümmandan ayrılmaz.
Uzaq düşsə gözümdən dilbərim, könlüm dözər, çünki
Sevənlər bilməmiş olmaz vüsal hicrandan ayrılmaz.
Vəfasızdan vəfa ummaz, vəfadan yoğrulub eşqim,
Canından ayrılar aşiq, fəqət canandan ayrılmaz.
Bütün dünya yerindən, məhvərindən qopsa, ayrılsa,
Süleyman Rüstəmin qəlbi Azərbaycandan ayrılmaz.

*(Süleyman Rüstəm)*

## MÜRƏKKƏB İSİMLƏR
## (BİLEŞİK İSİMLER)

Mürəkkəb isimlər iki, bəzən də üç sözün birləşməsindən əmələ gəlir. **Məsələn**: Böyükxanım, günəbaxan, istiot, əlüzyuyan, Qarabağ, xalaoğlu, Aygün, Göyçay.

Mürəkkəb ismi əmələ gətirən sözlər bir vurğu ilə tələffüz olunduğu üçün bir yerdə yazılır. **Məsələn**: boşqab, istiot, Ağdam, Koroğlu və s.

Yaxın mənalı mürəkkəb isimlər isə defislə yazılır.

**Məsələn**: qoyun-quzu, dağ-daş, var-yox, yer-göy, əl-qəl və s.

Mürəkkəb isimləri əmələ gətirən tərəflər eyni nitq hissəsinə və müxtəlif nitq hissəsinə aid ola bilər.

**Məsələn**: Arpaçay, Məmmədəli, Allahverdi (bu sözlərin hər iki tərəfi isimdən əmələ gəlib).

Ağsu, Ağdam, Göyçay, istiot, Qarabağ (bu sözlərin birinci tərəfi sifətdən, ikinci tərəfi isimdən əmələ gəlib).

Tozsoran, aşsüzən (bu sözlərin birinci tərəfi isimdən, ikinci tərəfi feldən əmələ gəlib.

Vurhavur, qaçaqaç, gəlhagəl (bu sözlər aralarında «ha», «a» şəkilçiləri işlənməklə fel təkrar olur. Belə sözlər bitişik yazılır.

Ayaqqabı, kəklikotu, dəvədabanı (belə sözlərin ikinci tərəfində mənsubiyyət şəkilçisi olur).

**Tapşırıq 1.** *Aşağıdakı mürəkkəb isimlərin Türkiyə türkcəsi ilə qarşılığını yazın.*

| | |
|---|---|
| istiot - | günəbaxan - |
| tozsoran - | suiti - |
| qayınana - | boşqab - |
| quşburnu - | kəklikotu - |
| əlyazması - | dəvədabanı - |

**Tapşırıq 2.** *Aşağıdakı mürəkkəb isimləri ayırıb yazın: Bakıxanov, Əlibəy, Mehparə, Qaraqoyunlu, Qarapapaq, Qarabork, Güneyqışlaq, Güneytəpə, Ağatlı, Şahsevən, Qarabağ, Qarayazı, Məmmədəli, Əliağa, Abbasqulu.*

**Tapşırıq 3.** *Verilmiş mətni Azərbaycan türkcəsinə çevirin.*

**Yemekhane**

Yemekhane uzun, rutubetli, loş bir salondu. Küçük dar pencerelerinden gelip geçenlerin yalnız ayakları görünürdü. Pencereye yakın masalar çoktan kapandı, bir de sobaya yakın olanlar. Yemekhane ne olsa ısınmazdı zaten. Ayaklarım buz keserdi, ellerim ekmeği zorla koparırdı. Sefertasılarımız her gün birbirine karışır, içinden çıkılmaz bir hal alırdı. Herkes sonunda kendi sefertasını bulur, soba başına koşardı.

*Oktay Akbal*



## ÜMUMİ VƏ XÜSUSİ İSİMLƏR
## (ORTAK VE ÖZEL İSİMLER)

**Ümumi isimlər**

Ümumi isimlər eynicinsli əşyalara verilən adlardır.

(**Ortak isimler esas itibariyle cins varlıkların adlarıdır**).

Məsələn: ağac, daş, dəniz, şəhər, ay, ulduz, saat, bulaq, dəqiqə, saç, göz və s. Ümumi isimlər yalnız cümlə başında böyük hərflə yazılır. Qalan hallarda kiçik hərflə yazılır.

**Tapşırıq 1.** *Aşağıdakı ata sözlərində olan ümumi isimləri seçib ayrı yazın.*

Zəhmətsiz bal yeməzlər.
Zəhmətsiz elm olmaz.
Ağac bar gətirdikcə, başını aşağı tikər.
El bir olsa, dağ oynadar yerindən.
Torpaq onu becərənindir.
Çıraq öz dibinə işıq salmaz.
Ot kökü üstə bitər.

**Tapşırıq 2.** *Aşağıdakı ümumi isimlərin Türkiyə türkcəsi ilə qarşılığını yazın:*

| | | |
|---|---|---|
| ana – | daş – | ata – |
| dəftər – | meşə – | bibi – |
| kitab – | şəhər – | xala – |
| kağız – | çay – | göz – |
| insan – | uşaq – | dodaq – |

## Xüsusi isimlər (Özel isimler)

Xüsusi isimlər eynicinsli əşyaları fərqləndirmək üçün onlara verilən xüsusi adlardır. (**Özel isimler varlıkların sonradan takılmış hususi adlarıdır**).

Xüsusi isimlər böyük hərflə yazılır. Məsələn: Azərbaycan, Türkiyə, Bakı, Trabzon, Amerika, Hüseyn, Aybəniz, Murad, Hüsniyə və s.

Xüsusi isimlər:

a) İnsan adları bildirir. Məsələn: Abdulla, Məhəmməd, Arif, Həmzə, Məhəbbət və s.;

b) Yer adları bildirir. Məsələn: Naxçıvan, Gəncə, İstanbul, Təbriz;

c) Ölkə, dövlət, qitə adları bildirir. Məsələn, Fransa, Niderland, Afrika, Özbəkistan və s.;

d) Dəniz, çay, okean və s. adları bildirir: Kür, Araz, Xəzər dənizi, Sakit okean və s.;

e) Əsər, qəzet, jurnal adları bildirir. Belə isimlər cümlə içərisində dırnaqda yazılır. Məsələn: «Azərbaycan» jurnalı, «Kamança» əsəri, «Almaz» dramı, «Respublika» qəzeti, «Zaman» qəzeti və s.;

ə) Mürəkkəb idarə, təşkilat adları bildirən xüsusi isimlər. Belə isimlər böyük hərflə yazılır. Məsələn: Azərbaycan Təhsil Nazirliyi, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Mədəniyyət Nazirliyi və s.

**Tapşırıq 1.** *Aşağıda verilmiş cümlələri Azərbaycan türkcəsi ilə yazın.*

### Atatürk`ten seçmeler

Benim hayatta yegane fahrim, servetim Türklükten başka bir şey değildir.

Ne mutlu Türküm diyene!
Ben asil bir milletin evlâdıyım.



Türk milleti kahramanlıkta olduğu kadar, istidat ve liyâkatte de bütün milletlerden üstündür.

Türk! Öğün, çalış, güven!

Bir türk dünyaya bedeldir.

Anladık kı, kabahatimiz kendimizi unutmaklığımızmış

Bu memleket, tarihte Türktü,
Halde Türktür ve ebediyen Türk kalacaktır

Yurtta sulh, cihanda sulh için çalışıyoruz

Biz bize benzeriz!

**Tapşırıq 2.** *Aşağıdakı mətndə olan xüsusi isimləri ayırıb yazın.*

### Aşıq Ələsgər

Aşıq Ələsgər Azərbaycan aşıq poeziyasının ən görkəmli nümayəndələrindən biridir. O, 1821-ci ildə anadan olmuş, yüz ildən artıq ömrü olmuşdur.

Aşıq Ələsgər məşhur Aşıq Alının şagirdi olmuşdur. Onun yaradıcılığında azad və səmimi məhəbbət mövzusu əsas yer tutur. Bundan başqa. Aşıq Ələsgər xalqın o zamankı ağır həyatını təsvir edən şeirlər də yazmışdır.

Aşıq Ələsgərin şeirləri Qafqazda, Dağıstanda və başqa yerlərdə böyük şöhrət qazanmışdır. O, 1926-cı ildə vəfat etmişdir.

**Tapşırıq 3.** *Aşağıdakı şeiri əzbərləyin.*

**Düşdü**

Çərşənbə günündə, çeşmə başında
Gözüm bir alagöz xanıma düşdü.
Atdı müjgan oxun, keçdi sinəmdən,
Cadu qəmzələri canıma düşdü.

İşarət eylədim, dərdimi bildi,
Gördüm həm gözəldi, həm əhli-dildi.
Başını buladı, gözündən güldü,
Güləndə qadası canıma düşdü.

Ələsgərəm, hər elmdən halıyam.
Dedim: sən təbibsən, mən yaralıyam,
Dedi: nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım, yanıma düşdü.

*(Aşıq Ələsgər)*

## İSİMLƏRDƏ CƏM ŞƏKİLÇİLƏRİ (İSİMLERDE ÇOKLUK EKLERİ)

Azərbaycan dilində isimlər cəm şəkilçisi qəbul edərək cəmlənir. Cəm şəkilçiləri bunlardır: lar, lər.

(**Çokluk eki isimlerin çokluk şekillerini yapar. Çokluk eki-lar, ler′dir**).

**Məsələn**: ağac+lar, ev+lər, insan+lar, çiçək+lər, dağ+lar, daş+lar.

Azərbaycan dilində elə isimlər də var ki, cəm şəkilçisi qəbul etmədən çoxluq bildirir. **Məsələn**: taxıl, buğda, ordu, sürü, ilxı, naxır, cəmiyyət, əsgər, ordu, qoşun, camaat və s.



**Tapşırıq 1.** *Aşağıdakı topluluq bildirən isimlərin türkcə qarşılığını yazın:*

| | | |
|---|---|---|
| qoşun - | taxıl - | əsgər – |
| sürü - | cəmiyyət - | camaat – |
| ilxı - | buğda - | saç – |
| naxır - | ordu - | əsgər – |

**Tapşırıq 2.** *Aşağıdakı mətni Türkiyə türkcəsinə çevirin.*

**Diş ağrısı**

Deyirlər ki, Mollanın çox tez-tez dişi ağrıyarmış. Həftələrlə üzünü sarıyıb ufuldaya-ufuldaya gəzərmiş, amma gedib çəkdirməzmiş.

Bir gün o, yenə də üzünü böyük bir dəsmalla bağlayıb gedirmiş. Dostlarından biri ona deyir:

- Ay molla, bir diş çəkdirmək nədir ki, sən belə qorxursan? Əgər o diş mənim ağzımda olsaydı, mən elə o saat gedib çəkdirərdim.

Molla deyir:

- Sənin ağzında olsaydı, elə mən də çəkdirərdim. Dərd orasındadır ki, mənim ağzımdadır.

## İSİMLƏRİN MƏNSUBİYYƏT ŞƏKİLÇİLƏRİ (İYELIK EKLERİ)

İsimlər mənsubiyyət şəkilçiləri qəbul edərək şəxslərlə şəxslər arasında, əşyaların özləri arasında mənsubiyyət bildirir. **Məsələn**:

1. Şəxslərlə əşyalar arasında:

| | |
|---|---|
| mənim kitabım | bizim kitabımız |
| sənin kitabın | sizin kitabınız |
| onun kitabı | onların kitabı |

2. Şəxslərlə şəxslər arasında

| | |
|---|---|
| mənim bacım | bizim bacımız |
| sənin bacın | sizin bacınız |
| onun bacısı | onların bacısı |

3. Əşyalar arasında:

Ağacın yarpağı, pəncərənin şüşəsi, dağın zirvəsi

**İyelik ekleri ismin karşılaştığı nesnenin bir şahsa veya bir nesneye ait olduğunu gösteren eklerdir. İyelik ekleri bir sahiplik, aitlik, mülkiyet ekleridir. Bu sahiplik ve mülkiyeti yalnız şahıslar halinde ifade ederler. Yani getirildikleri isimlerin ben, sen, o, biz, siz, onlar şeklindeki sahiplerini belirtirler. İyelik ekleri iki isim arasında münasebet kurarlar.**

**Mənsubiyyət şəkilçilərini göstərən cədvəl**

| Şəxslər | Şəkilçilər | Misallar |
|---|---|---|
| I şəxs tək | ım, im, um, üm, m | dəftərim, gözüm, kitabım, anam |
| Şəxs cəm | ımız, imiz, umuz, ümüz, mız, miz, muz, müz | dəftərimiz, gözümüz, kitabımız, anamız |
| II şəxs tək | ın, in, un, ün, n | dəftərin, gözün, kitabın, anan |
| II şəxs cəm | ınız, iniz, unuz, ünüz, nız, niz, nuz, nüz | dəftəriniz, gözünüz, kitabınız, ananız |
| III şəxs tək | ı, i, u, ü, sı, si, su, sü | dəftəri, gözü, kitabı, anası, dostu, |
| III şəxs cəm | ları, ləri | dəftərləri, gözləri, kitabları, anaları |



**Tapşırıq 1.** *Verilmiş mətni Azərbaycan türkcəsi ilə yaz:*

## Haber

Haber nedir? Haber, ilk kez biraz önce meydana gelmiş, zamanı belli olaydır. Haber için zaman esastır.

Hayal değil, olgu haberi meydana getirir. Bu olgular insanlarla ilgilidir. Haber, gazete, radyo, televizyon gibi yayın organları için önemli materyaldır. Okur veya dinleyicinin en çok ilgi duyduğu olaylar da yakın çevresi ve tanıdıkları kişilerle ilgili olanlardır. Fakat iyi bir yayın organı, okura veya dinleyiciye yalnız ilgi uyandıran bir haberi vermekle yetinmez; daha ilerisini, halkın huzurunu, menfaatini de düşünür. Yayın organlarının amacı: 1) Halkı, olup bitenlerden doğru bir yolda haberdar etmek, 2) Demokratik bir anlayış içinde halkın huzurunu sürdürmektir. Yayın organı: 1) Haberleri toplar, 2) Onları biçimlendirir, 3) Yorumlar, 4) Haber halinde yayımlar.

**Tapşırıq 2.** *Müəllim, dost, şəhər, qala isimlərinə I şəxsin mənsubiyyət şəkilçilərini əlavə edib cümlədə işlədin.*

## İSMİN HALLARI (İSİMİN HALLERİ)

İsmin cümlədə hal şəkilçiləri qəbul edərək dəyişməsinə ismin halları deyilir.

(**Cümle içinde isimleri başka kelimelerle olan ilişkilere göre çeşitli hallere sokan ekler**).

Türkcədə olduğu kimi Azərbaycan dilində ismin altı halı var:

| | |
|---|---|
| Adlıq hal | (Yalın h.) |
| Yiyəlik hal | (İlgi h.) |
| Yönlük hal | (Yönelme h.) |
| Təsirlik hal | (Gösterme h.) |

Yerlik hal (Bulunma h.)
Çıxışlıq hal (Ayrılma h.)

**İsmin hallarının şəkilçiləri**
**(İsmin hal ekleri)**

Adlıq halın şəkilçisi yoxdur
Yiyəlik hal – ın, in, un, ün, nın, nin, nun, nün
Yönlük hal – a, ə, ya, yə
Təsirlik hal – i, ı, u, ü, nı, ni, nu, nü
Yerlik hal- da, də
Çıxışlıq hal – dan, dən

**İsmin hallarının sualları**

İsmin adlıq halı – kim? nə? hara?
Yiyəlik halı – kimin? nəyin? haranın?
Yönlük halı – kimə? nəyə? haraya?
Təsirlik halı – kimi? nəyi? haranı?
Çıxışlıq halı – kimdən, nədən? haradan?

**İsmin hallarını, şəkilçilərini və suallarını göstərən cədvəl**

| İsmin halları | İsmin hallarının şəkilçiləri | İsmin hallarının sualları |
|---|---|---|
| Adlıq hal | ın, in, un, ün | kim? nə? hara? |
| Yiyəlik hal | nın, nin, nun, nün | kimin? nəyin? haranın? |
| Yönlük hal | a, ə, ya, yə | kimə? nəyə? haraya? |
| Təsirlik hal | ı, i, u, ü, nı, ni, nu, nü | kimi? nəyi? haranı? |
| Yerlik hal | da, də | kimdə? nədə? harada? |
| Çıxışlıq hal | dan, dən | kimdən, nədən? haradan? |



**İsmin hallanmasını göstərən cədvəl**

| | |
|---|---|
| Adlıq hal – kim? nə? hara? | İnsan, kitab, Bakı |
| Yiyəlik hal – kimin, nəyin, haranın. | İnsanın, kitabın, Bakının |
| Yönlük hal – kimə? nəyə? haraya? | İnsana, kitaba, Bakıya |
| Təsirlik hal – kimi? nəyi? haranı? | İnsanı, kitabı, Bakını |
| Yerlik hal – kimdə? nədə? harada? | İnsanda, kitabda, Bakıda |
| Çıxışlıq hal – kimdən? nədən? haradan? | İnsandan, kitabdan, Bakıdan |

İsmin hallarını ifadə edən cümlə nümunələri:
Adlıq hal – Bakı Azərbaycanın paytaxtıdır
Yiyəlik hal – Bakının görkəmi günbəgün dəyişir
Yönlük hal – Bakıya hər gün çoxlu qonaqlar gəlir
Təsirlik hal – Bakını çox yaxından tanıdım
Yerlik hal – Bakıda tarixi abidələr çoxdur
Çıxışlıq hal – Bakıdan uzaqlarda yaşayıram.

**Tapşırıq 1.** *Mətndə olan isimləri seçin və hal şəkilçilərini göstərin:*

**Vladimir Dal**

Çoxsahəli məlumata malik olan 4 cildlik lüğətin müəllifi Vladimir Dal 1836-cı ildə A.S.Puşkinin xəstəliyini eşidir və Peterburqa ona baş çəkməyə gəlir. Əldə olan məlumata görə böyük şair Dalın qolları üzərində can vermişdir. Puşkin barmağında zümrüd qaşlı bir üzük gəzdirirmiş. Dostlarına zarafatla deyirmiş ki, bu sehrli üzükdür. Əgər mən həmin üzüyü barmağımdan çıxarsam, poeziya pərisi inciyər, ilhamım məndən üz döndərib göylərə uçar. Puşkin ölüm ayağında olarkən həmin üzüyü barmağından çıxarmış və Dala bağışlamışdır. Sonra Puşkin özünün sevimli bir kürkünü də Dala bağışlamış və demişdir: «Qoy bu, məndən sənə yadigar olsun».

**Tapşırıq 2.** *Aşağıdakı şeirdə olan isimləri ayırıb yazın və hansı suala cavab olduğunu göstərin:*

**Torpaq**

Torpaq – çölmü, çəmənmi, torpaq – qayamı, daşmı?
Torpaq – kolmu, çayırmı, ağacmı, gandalaşmı?
Torpaq – cəddim, tarixim, torpaq – yurdum, məkanım.
Torpaq – mənim namusum, torpaq – mənim ünvanım.
Torpaq – torpağa dönmüş əcdadımın məzarı,
O torpaqda qeyb olan şöhrətimin, şanımın
Öz adımın məzarı.

Necə dözdük bu dərdə, ay ellər, biz daşmıyıq?
Düşmənə verdiyimiz o halal torpaqlara
Halal vətəndaşmıyıq?
Biz Vətəni itirib Vətən torpaqlarında
Cansız, ruhsuz daş olduq.
Vətəni itirərkən necə vətəndaş olduq?
Yalanlara aldanıb doğrumuzu itirdik,
Düzümüzü itirdik,
Kişi mənliyimizi salıb ayaq altına
Özümüzü itirdik.

*(Bəxtiyar Vahabzadə)*

## SİFƏT
## (SIFAT)

Əşyanın əlamətini və keyfiyyətini bildirən sözlərə sifət deyilir. (**İsimleri niteleme, belirtme, gösterme gibi çeşitli yönlerdən bildiren kelimeler**). **Məsələn**: gözəl, ağ, qara, sarı (əlamət bildirir), uzun, acı, böyük, kiçik (keyfiyyət bildirir).



Sifətlər cümlədə ismə aid olur, onu müxtəlif cəhətlərdən təyin edir və necə? nə cür? hansı? suallarına cavab verir.

**Məsələn:**
Sifət isim
**Şirin arzular** – necə? nə cür?

Sifət isim
**Gözəl qız** (necə?)

**Tapşırıq 1.** *Aşağıdakı sifətlərin beşini cümlə içərisində işlədin. Qırmızı, yaşıl, sarı, acı, turş, böyük, kiçik, uzun, qısa, uca, çirkin, isti, soyuq, qara, ulu, tənbəl, sağlam.*

**Tapşırıq 2.** *Aşağıdakı sifətlərin antonimini yazın*

| | |
|---|---|
| gözəl – | kiçik- |
| tənbəl – | acı – |
| qara – | uca – |
| ağ – | ağıllı – |
| sağlam - | qoca – |

**Tapşırıq 3.** *Şeirdəki sifətləri ayırıb yazın:*

**Dağlar**

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, laləli dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur,
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar!

Yazın bir ayıdır çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın…
Zənbur çiçəyindən bal alı dağlar!

Yayın əvvəlində dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana,
Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən cəlalı, dağlar!

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnun tək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar!

*(Aşıq Ələsgər)*

## SİFƏTİN QURULUŞCA NÖVLƏRİ
## (Sıfatın yapı bakımından çeşitleri)

Sifətlər quruluşca sadə (basit), düzəltmə (türemiş) və mürəkkəb (bileşik) olur.

***Sadə sifətlər*** yalnız bir kökdən ibarət olur.

**Məsələn**: nazik, ağır, uzun, yaxşı, sarı, yaşıl, göy

**Gözəl** qız səssiz-səmirsiz yoluna davam etdi.

***Düzəltmə sifət*** şəkilçilər vasitəsilə əmələ gəlir

Düzəltmə sifətləri əmələ gətirən şəkilçilər

1. lı, li, lu, lü

güclü (oğlan), ağıllı (qız), bilikli (tələbə, könüllü (əsgər);

2. lıq, lik, luq, lük

aylıq (iş), üzümlük (sahə), illik (plan), qumluq (sahil)

3. sız, siz, suz, süz

ağılsız (adam), gərəksiz (iş), duzsuz (xörək), sözsüz (mahnı);



4. dakı, dəki

evdəki (masa), küçədəki (elan), başdakı (ağıl)

5. i, vi

ədəbi (əsər), nümunəvi (tələbə)

6. dar

əməkdar (müşhəndis), əməkdar (müəllim)

7. cıl

qabaqcıl (işçi), qabaqcıl (tələbə)

**Tapşırıq 1.** *Aşağıdakı düzəltmə sifətləri cümlədə işlədin. İllik, səssiz, tarixi, tərbiyəli, duzsuz, güclü, ədəbi, səssiz.*

**Tapşırıq 2.** *Aşağıdakı şeirdə olan sifətləri ayırıb yazın. Şeiri əzbərləyin.*

Üzür nə vaxtdandır məni xiffəti
Boyu şümşad kimi xallı gözəlin
Qüruru, həyası, abrı, iffəti
Üzündən, gözündən bəlli gözəlin.

Hicrindən ürəyim olubdur şan-şan,
Gözləri məstanə, zülfü pərişan,
Hər gecə yüz dəfə küsüb-barışan
O qönçə dodağı ballı gözəlin.

Həsrəti dən olub telimdə qalıb,
Dadı ləblərinin dilimdə qalıb.
Açılıb bəndindən, əlimdə qalıb
Kəməri, o incə belli gözəlin.

Ömrümün kitabı çox varaqlanıb,
Eşq ilə alışıb, yanıb, dağlanıb.
Saçının bəndinə gör nə bağlanıb,
Ürəyim o qara telli gözəlin!

Baxmaz eyləsə də tənə pərilər,
Zöhrabi diz çöküb, yerə sərilər.
Hər gündə yüz dəfə olüb-dirilər
Yolunda bir belə hallı gözəlin.

*(Nizami Zohrabi)*

**Tapşırıq 3.** *Aşağıda verilmiş mətni Azərbaycan türkcəsinə çevirin.*

Fatih parkında çocuklar koşuyorlardı. Tahta sıralarda oturmuş insanlar güneşleniyorlardı. Bütün birgün cömertçe harcadığı suyu emen yeşillikler bir gürleşmiş, koyulaşmışlardı. Zaman zaman esen rüzgara karşı, güneşe kafa tutarcasına dikiliyorlardı.

**Mürəkkəb sifət (Bileşik sıfat)**

İki və daha çox kökdən ibarət olan sifətlərə mürəkkəb sifət deyilir.

Mürəkkəb sifət aşağıdakı kimi əmələ gəlir:

1. Bir sadə sifətlə bir ismin birləşməsindən. Məsələn: qısaboy (adam), acıdil (kişi), alagöz (qız), qıvrımsaç (oğlan)
2. Nisbət şəkilçili bir ismin sadə sifətlə birləşməsindən. Məsələn canıbərk (kişi), dilişirin (qız)
3. Sadə sifətlə bir düzəltmə sifətin birləşməsindən. Məsələn: uzaqvuran (top), ucaboylu (adam)
4. Sayla düzəltmə sifətin birləşməsindən əmələ gəlir. Məsələn: üçmərtəbəli (ev), beşguşəli (ulduz)
5. Sadə sifətlərin təkrarı ilə. Belə sifətlər defislə yazılır. Məsələn: uca-uca (dağlar), şirin-şirin (sözlər), sərin-sərin (sular).



**Tapşırıq 1.** *Aşağıdakı sözlərdən mürəkkəb sifət düzəldin və cümlə içərisində işlədin:*

*Qaş, şirin, alnı, acı, qara, boy*

**Tapşırıq 2.** *Verilmiş mətndə olan sifətləri ayırıb yazın.*

**Gəlin gözəl danışaq**

Dil bəşər tarixinin, insan dühasının ecazkar və hikmətli kəşflərindəndir. Milyon illər əvvəl insanın mağaralardan çıxaraq yavaş-yavaş inkişaf edib bugünkü mədəniyyət zirvələrinə gəlb çıxmasında dilin rolu böyükdür. Yer üzündə insanın mədəniyyət yoluna qədəm qoyması əməklə və ilk sözü tapması və danışması ilə başlayır. İnsanlar danışdıqları gündən bir-birini daha tez və rahat anlamaq, daha iti və aydın düşünmək yolunu tapmağa səy göstərmişlər.

## SİFƏTİN DƏRƏCƏLƏRİ (SIFATLARIN DERECELENMESİ)

Azərbaycan dilində sifətin üç dərəcəsi var.

1. Adi dərəcə
2. Azaltma dərəcəsi
3. Çoxaltma dərəcəsi.

***Adi dərəcə.*** Sifətin adi dərəcəsi əşyanın norma hesab edilən əlamət və keyfiyyətini bildirir. Məsələn: ağ, qara, sarı, yaşıl, göy, mavi, acı, şirin, turş, düz, əyri, dərin, dayaz, arıq, kök, laciverd, məxməri, palıdı

**Tapşırıq 1.** *Yaşıl, acı, hündür, dərin, turş, isti, soyuq, kiçik, böyük* sifətlərinin türkcə qarşılığını yazın və cümlələrdə işlədin.

**Tapşırıq 2.** *Mavi, yeşıl, beyaz, kara, lacivert, kırmızı* **sifətlərinin Azərbaycan türkcəsi ilə qarşılığını yaz**

**Tapşırıq 3.** *Verilmiş mətni Azərbaycan türkcəsinə çevirin***.**

## Mustafa Kemal

İki gün sonra, öğleden önce gene aynı evdeyim. Aynı odada Mustafa Kemal Paşa, gene aynı sivil kiyafette… Bir garp çehresiyle haritasına bakıyor. Haritanın üstü mavi, kırmızı renkli birçok kalem çizgisi ile dolu… Paşa, yerli, yabancı, türk gazetelerinden, ajanslardan ve tebliğlerden edindiği bilgilere göre o çizgileri ileri götürüyor, geri çekiyor. O haritayı, sanki o toprağın üstünde kendi geziyormuşçasına tanıyor.

*Ruşen Eşref Ünaydın.*

***Azaltma dərəcəsi.*** Sifətin azaltma dərəcəsi əşyanın əlamət və keyfiyyətinin normadan az olduğunu bildirir.
Sifətin azaltma dərəcəsi aşağıdakı şəkilçilərlə düzəlir.

1.ımtıl, imtil, umtul, ümtül.
Məsələn: ağ+ımtıl, sarı+mtıl, göy+ümtül, boz+umtul.
2.sov
məsələn: dəli+sov, uzun+sov
3.mtraq
Məsələn: qırmızı+mtraq
4.təhər, açıq (bu sözcüklər sifətdən ayrı yazılır)
Məsələn: sarıtəhər, açıq qırmızı

**Tapşırıq 1.** *Aşağıdakı mətndə olan sifətləri ayırıb yazın.*

## Bal

Qədim Yunanıstan və Romada arıçılıq xeyli inkişaf etmişdi. O vaxt yunanlar bir çox xəstəlikləri, yaraları balın köməyi ilə sağaldırdılar. Romalılar bilirdilər ki, balın şeyləri çürüməkdən qorumaq xüsusiyyəti var.



Bal qədim ölkələrin çoxunda çox qiymətli qida mənbəyi və dərman hesab edilirdi. Məşhur riyaziyyatçı Pifaqor uzun ömür sürməsinin səbəbini bal yeməsi ilə izah etmişdi. Bal boy artımına, orqanizmin fizioloji inkişafına, beynin yaxşı işləməsinə müsbət təsir göstərir. Alimlər öyrənmişlər ki, orqanizm bütün qidalar sırasında yalnız balı 100% mənimsəyir. Halbuki ət orqanizm tərəfindən 35, süd 31, kartof isə 89% mənimsənilir.

**Tapşırıq 2.** Mənası Azərbaycan və Türkiyə türkcəsi ilə eyni olan sözlərin Türkiyə türkcəsi ilə qarşılığını yazın.

| | | |
|---|---|---|
| ana – | möhtəşəm – | ev – |
| xala – | torpaq – | qonşu – |
| məhəbbət – | ayaq – | dəftər – |
| eşq – | divar – | düz – |
| qulaq – | ağac – | çiçək – |
| dırnaq – | sevgi – | alma – |
| dodaq – | dəniz – | soğan – |
| kitab – | dərya – | kitab – |
| cavab – | divar – | qələm – |

***Çoxaltma dərəcəsi***. Sifətin çoxaltma dərəcəsi əlamət və keyfiyyətin normadan çox olduğunu bildirir.

Sifətin çoxaltma dərəcəsi aşağıdakı üsulla düzəlir.

1. al, təhər, tund, ən, düm, zil sözcükləri vasitəsilə düzəlir və bəzi sifətlər bir yerdə, bəzisi də ayrı yazılır. Məsələn: al qırmızı, açıq yaşıl, tünd qara, ən gözəl, **dümağ**, zil qara, **dümdüz**.
2. Sifətlərin təkrarı ilə. Məsələn: gözəl-gözəl, yaxşı-yaxşı, yaşıl-yaşıl.
3. sap, göm, tər, yam, appaq, qap kimi ünsürlərlə: **Məsələn**: sapsarı, gömgöy, tərtəmiz, yamyaşıl, qapqara, ağappaq

**Tapşırıq 1.** *Qapqara, gömgöy, sapsarı, yamyaşıl, aqappaq, ən gözəl, şirin-şirin* **sifətlərinin türkcə qarşılığını yaz**.

**Tapşırıq 2.** *Aşağıdakı şeirdəki sifətin dərəcəsini göstərin:*

*Uca-uca dağlar başı*
*Çənli də olur, çənsiz də olur*
*Cəhd elə bir işdə tapıl,*
*Sənli də olur, sənsiz də olur («Koroğlu»dan)*

**Tapşırıq 3.** *Türk dilində işlənən aşağıdakı sifətlərin Azərbaycan türkcəsi ilə qarşılığını yazın: hafif, büyük, yüvarlak, siyah, yassi, beyaz, tembel, kurnaz, inatçı, tatlı, karakara, kokulu*

**Tapşırıq 4.** *Aşağıdakı mətni Azərbaycan türkcəsinə çevir.*

### Kahve

Kahve, ışıklarını yakınca dışarıdaki karın ışığı söndü. İçeriye göz attım. Sekiz kişi ya var, ya yoktu. Küçük kapağın içinden alevler atarak yanan sac sobanın ağ etrafının neredeyse kıpkırmızı kızaracağını biliyor, bekliyordum.

**Tapşırıq 5.** *Aşağıdakı cümlələrdə olan sifətlərin dərəcələrini təyin edin.*

...Çox bərk şimal küləyi əsirdi. Birdən qapı açıldı. Gödərək bir adam içəri girdi. Gələn adam ev sahibinin sapsarı saralmış üzünü gördükdə, çox mülayim bir səslə danışdı.

...Bu yer birdən-birə dəyişmişdi. Ətrafda çox qalın meyvə bağları, yamyaşıl tarlalar uzanıb gedirdi. Bu meşələr qədim insanların yaşaması üçün çox yararlı yerlər idi.



...Burada hər tərəfə axan dumduru çaylar keçilməz meşələrin ən yaxşı yolu idi. Sonralar bu meşələrin yerində yamyaşıl tarlalar, gömgöy çəmənlər əmələ gəldi.

## SAY
## (SAYI)

Əşyanın miqdar və sırasını bildirən sözlərə say deyilir (**Varlıkların miktarını ve sayısal durumunu bildiren kelimeler**).

Say neçə? nə qədər? neçənci? suallarına cavab verir. Məsələn: üç, beş, on, yüz, min, az, çox, xeyli.

Saylar cümlədə əsasən ismə aid olur. Məsələn: Meydanda on beş tamaşaçı var idi.

Beş gün idi ki, külək dayanmırdı.

### Sayın quruluşca növləri
### (Sayın yapı bakımından çeşitleri)

Sayın quruluşca 3 növü var:

1. Sadə say (**Basit sayı**)
2. Düzəltmə say (**Türemiş sayı**)
3. Mürəkkəb say (**Bileşik sayı**)

***Sadə say*** bir kökdən ibarət olur. **Məsələn**: bir, on, doqquz, dörd, yüz, əlli, min, milyon, milyard. Fakültəmizdə Azərbaycan dili fənni bir il tədris olunur.

***Düzəltmə say*** sadə sayların sonuna inci, ıncı, uncu, ncı, ünsü şəkilçiləri artırmaqla əmələ gəlir. **Məsələn**: qırxıncı, əllinci, altıncı, üçüncü.

***Qeyd:*** Əgər düzəltmə saylar rəqəmlə yazılarsa, o zaman rəqəmdən sonra cı, ci, cu, cü şəkilçiləri yazılır. Məsələn: 2-ci, 6-cı, 3-cü, 9-cu.

***Mürəkkəb saylar*** iki və daha çox sayın birləşməsindən əmələ gəlir. **Məsələn**: on bir, yüz on səkkiz, min doqquz yüz səksən, beşdə bir, üçdə iki.

**Tapşırıq 2.** *Aşağıdakı sayların Azərbaycan türkcəsi ilə imlasını yazın:*

| | |
|---|---|
| kırk – | on üç – |
| dört – | on sekiz – |
| yedi – | yüz kırk |
| sekiz – | otuz yedi – |
| dokuz – | elli beş – |
| bin - | seksen altı – |

**Tapşırıq 3.** *Verilmiş mətni Azərbaycan türkcəsinə çevir.*

## Dünya dilleri

Yeryüzünde dillerin hangi kaynaklardan doğduğu, hangileri arasında akrabalık bulunduğu dilcilerce araştırma konusu olmuştur. Bir anadilden geldiği kabul edilen dillere dil ailesi denir. Başlıcaları Ural – Altay, Hint – Avrupa, Sami, Bantu, Çin – Tibet… dil aileleridir. Türkçe, Moğolca, Fince, Macarca… gibi diller Ural-Altay; Hint lehçeleri, Farşça, Yunanca, Latince, Almanca, Fransızça, İngilizce… gibi diller Hin-Avrupa; İbranice, Arapça, Berberi dili gibi diller Sami; Çince, Çin – Tibet dili ailelerindendir.

## Sayın mənaca növləri
## (Anlamlarına göre sayıların çeşitleri)

Sayların mənaca aşağıdakı növləri var:
1. Miqdar sayları (**asıl sayılar**)
2. Sıra sayları (**sıra sayılar**)
3. Qeyri-müəyyən saylar (**belirsiz sayılar**).



***Miqdar sayları*** əşyanın miqdarını bildirir və neçə? nə qədər? suallarına cavab verir. Miqdar sayları həm sözlə, həm də rəqəmlə yazıla bilir.
**Məsələn**:

| | |
|---|---|
| Beş – 5 | Qırx – 40 |
| On – 10 | Səksən – 80 |
| Yüz – 100 | Doxsan – 90 |
| Altmış – 60 | Min – 1000 və s. |

Mən bu il on gün istirahət etdim.
Mən bu il 10 gün istirahət etdim.

***Sıra sayları*** əşyanın sırasını bildirir və neçənci? sualına cavab verir. **Məsələn**: üçüncü, altıncı, ikinci və s.

Sıra saylarının yazılışı düzəltmə saylarda olduğu kimidir. Yalnız sıra sayları rum rəqəmi ilə yazılarsa, heç bir şəkilçi yazılmır.

**Məsələn**: XX əsr, II kurs, V bölüm.
Mən universitetin I kursunda oxuyuram.
Biz XXI əsrdə yaşayırıq.

### *Sıra saylarının yazılışı*

| Hərflərlə | Rəqəmlərlə | Rum rəqəmi ilə |
|---|---|---|
| Birinci | 1-ci | I |
| İkinci | 2-ci | II |
| Üçüncü | 3-cü | III |
| Dördüncü | 4-cü | IV |
| Beşinci | 5-ci | V |
| Altıncı | 6-cı | VI |
| Yeddinci | 7-ci | VII |
| Səkkizinci | 8-ci | VIII |
| Doqquzuncu | 9-cu | IX |
| Onuncu | 10-cu | X |

**Tapşırıq 1.** *Şeirdə olan sayları ayırıb yazın*

**Bənzərsən**
(«Koroğlu» dastanından)

Üç yaşından beş yaşına varanda,
Yenicə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına varanda,
Arıdan saçılmış bala bənzərsən.

Otuzunda kəklik kimi səkərsən,
İgidlik eləyib qanlar tökərsən,
Qırxında sən haramdan əl çəkərsən,
Sonası ovlanmış gölə bənzərsən.

Əllisində əlif qəddin çəkilər,
Altmışında ön dişlərin tökülər.
Yetmişində qəddin, belin bükülər,
Karvanı kəsilmiş yola bənzərsən.

Səksənində sinir enər dizinə,
Doxsanında qubar qonar gözünə,
Koroğlu der, çünki yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən.

**Qeyri-müəyyən** saylar müəyyənlik bildirmir. **Məsələn**: bir qədər, bir çox, bir az, xeyli, çox, az.
*Mən **bir qədər** düşünüb, sonra cavab verdim.*
*Sevda **xeyli** şeir əzbərləmişdi.*

**Tapşırıq 1.** *Aşağıdakı cümlələrdə qeyri-müəyyən sayları ayırıb yazın.*

Çox yer var ki, orada aylarla gecə olur.
İclasda xeyli adam var idi, ancaq zalda yer az idi.



Akif bir qədər sakit dayandı, ancaq sonra danışmağa başladı.
Çox yaşayan çox bilməz, çox gəzən çox bilər (Atalar sözü)

**Tapşırıq 2.** *Aşağıdakı sözlərin Azərbaycan türkcəsi ilə qarşılığını yaz:*

| | | |
|---|---|---|
| Acil – | Lokanta – | Yaya – |
| Acı – | Mahsus – | Yayın – |
| Demin – | Peki – | Yakmak – |
| Hafif – | Pembe – | Sonbahar – |
| Hamur – | Pirinç – | Patlıcan – |
| Kaba – | Soru – | Kolay – |
| Kesin – | Cevap – | Konuşmak – |
| Sömürü – | Ünlü – | Konuk – |
| Suç – | Varmak – | Komşu – |
| Uzman – | Yazar – | Doğa – |

## ƏVƏZLİK
## (ZAMİRLER)

İsmi, sifəti, sayı, zərfi əvəz edən sözlərə əvəzlik deyilir.
(**İsmin, sifatın, sayın, zarfın yerini tutan kelimeleridir. Zamirler her şahsın ve her varlığın yerini tuttukları için kelime olarak manasız, fakat şümulleri çox geniş kelimelerdir**).
Azərbaycan dilində olan əvəzliklər bunlardır: mən, sən, o, biz, siz, onlar, bu, həmin, öz, kim, nə, hara, necə, haçan, neçə, kimsə, biri, belə, elə, hər, hərə, hamı, bütün, bəzi, filan, filankəs.
***İsmi əvəz edən əvəzliklər:*** mən, sən, o, biz, siz, onlar, kim, nə, hara, kimsə, nəsə, biri, hərə, hamı, filankəs.

*Sifəti əvəz edən əvəzliklər:* hansı, bu, həmin, öz, necə, elə, belə, hər, bəzi.

*Sayı əvəz edən əvəzliklər:* neçə, haçan, hara.

*Qeyd:* Bəzi əvəzliklər (məsələn: hara) həm ismi, həm də zərfi; bəzi əvəzliklər (məsələn: necə) həm sifəti, həm də zərfi əvəz edə bilir.

## ƏVƏZLİYİN MƏNACA NÖVLƏRİ (ANLAM BAKIMINDAN ZAMİLER)

Əvəzliyin mənaca beş növü var:

1. ***Şəxs əvəzlikləri*** (Kişi zamirlerı)

mən, sən, o, biz, siz, onlar
Bu əvəzliklər şəxsi bildirir.
Mən bu kitabı çox sevirəm.
Sən nə zaman məmləkətə gedəcəksən.
O, bu imtahandan yüksək qiymət aldı.
Biz Türkiyədən gələn tələbələrik.
Siz hansı şəhərdə yaşayırsınız.
Onlar əcnəbi tələbələrdir.

**Tapşırıq:** *Verilmiş şeirdə olan şəxs əvəzliklərini ayırıb yazın.*

Mən sənin dilinə dəymirəm, cəllad,
Gəl sən də bu ana dilimə dəymə!
Sənin də bağın var, gülün var, çəkin,
Bağımda əkdiyim gülümə dəymə!

Mən ağa ağ dedim, qaraya qara,
Sən məni istədin çəkəsən dara.
Yenicə sağalır vurduğun yara
Mənim bu yaralı könlümə dəymə

*(Süleyman Rüstəm)*



2. ***İşarə əvəzlikləri*** (gösterme zamirleri)

Bu, həmin, belə, elə. Bunlar işarə əvəzliyidir.
Məsələn: Bu ev hansı küçədə yerləşir.
Həmin xanım mənim bacımdır.
Belə kitablar çox tərbiyəvidir.
Elə danışır ki, adam heyran qalır.

**Tapşırıq.** *Aşağıdakı mətni Azərbaycan türkcəsinə çevir.*

*Bir dilin iki cephesi vardır. Biri, insanları karşı karşıya sesli olarak görüşürken, yani konuştukları zaman kullandıkları konuşma dili, diğeri yazıda kullanılan, yani insanların söylemek istediklerini yazı ile anlatmak istedikleri yazı dili.*

3. ***Qeyri-müəyyən əvəzlik*** (belirsiz zamirler)

Bu əvəzliklər də isimləri əvəz edir, şəxs və əşya bildirir. Ancaq onların mənasında qeyri-müəyyənlik var. Qeyri-müəyyən əvəzliklər bunlardır: kim, kimsə, nəsə, biri, hərə, hamı, bəzi, kimi.

Qeyri-müəyyən əvəzliklər kim? nə? suallarına cavab verir.

**Məsələn**: Kimsə ona bir söz demədi. Hərə öz işi ilə məşğul idi. Hamı onu təbrik etdi.

**Tapşırıq 1.** *Verilmiş mətni Azərbaycan türkcəsinə çevirin.*

### Sonbahar Şiirleri

Bahçelerde sarı çiçeklerin açtığı, havanın keskin incir yaprağı kokularıyle dolduğu, ufuklarda gümüş ve bakır bulutların anlaşılmaz işler hazırlamakla meşgul olduğu; akşamüstü, otları kurumuş tepelerde, yeşil eşarp, kırmızı örtü, beyaz veya lâcivert elbiselerle dolaşan genç kızların etekleri rüzgarda uçuş-

tuğu ve saçları çözülüp dağıldığı bu mevsimde, sonbahar şiirlerinden daha munis bir konuşma mevzuu olabilir mi?

## SUAL ƏVƏZLİKLƏRİ (SORU ZAMİRLERİ)

Sual əvəzlikləri sual məqsədi ilə işlənən sözlərdir.

Sual əvəzlikləri bunlardır: kim, nə, hara, necə, neçə, neçənci, hansı, haçan

**Məsələn**: Bu gün kim dərsə hazırdır?
Sən nə danışırsan?
Sizin qonşunuz necə adamdır.

**Tapşırıq 1.** *Kim, nə, haçan, necə sual əvəzliklərinə aid cümlələr yazın.*

**Tapşırıq 2.** *Aşağıdakı bəndi oxuyun. Əvəzlikləri ayırıb yazın və mənaca növünü göstərin:*

*Kim nə deyir desin, kim gülür gülsün,*
*Mən də öz yerimdə gülən şairəm.*
*Ağzın süd qoxuyur, körpəsən hələ*
*Mən xalqın dərdini bilən şairəm.*
*(Süleyman Rüstəm)*

## TƏYİN ƏVƏZLİKLƏRİ

Təyin əvəzlikləri təyinedici sözlərin yerində işlənir.

Təyin əvəzlikləri bunlardır: hər, bütün, öz, filan, eyni.

Məsələn:
**Hər** tərəf yamyaşıl idi
**Bütün** insanlar yer üzünün sakinidir.
**Öz** anam məni bir kursa yazdırdı.



**Tapşırıq 1.** *Filan, öz, eyni əvəzliklərinə aid cümlələr yazın.*

**Tapşırıq 2.** *Aşağıdakı şeir bəndində olan əvəzlikləri tapın və növünü göstərin.*

Mən onu sevmişdim bir ilk baharda,
O, məni tərk etdi boranda, qarda.
Hər yara sağalıb unudular da
Sağalmaz yarası ilk məhəbbətin
*(Süleyman Rüstəm)*

**Tapşırıq 3.** *Verilmiş mətni Azərbaycan türkcəsinə tərcümə et.*

«…Bahçede dolaşıyordum. Ağaçların yanında küçük erik fidanları gördüm. Bunları evin önünde açtığım çukurlara diktim.

Fidanları babam görmüş, beni çağırmış:

- Bunların kaçını büyüteceksin? söylemiş
- Hepsini, dedim.
- Ben de tarlamıza diktim. Bakalım hangimizinki çabuk meyve verecek? dedi…»

## FEL
## (FİİL)

İş, hal və hərəkət bildirən sözlərə fel deyilir (**Fiiller hareketleri karşılayan kelimelerdir. İş, hareket ve oluş bildiren sözlere fiil denir**).

**Məsələn**: oxu, yaz, otur, bil, gəl, get, işlə, düşün, gül, yat, dur və s.

## Felin quruluşca növləri
## (Yapı bakımından fiilin çeşitleri)

Felin quruluşca üç növü var:
Sadə fellər (**Basit fiiller**)
Düzəltmə fellər (**Türemiş fiiller**)
Mürəkkəb fellər (**Bileşık fiiller**)

Sadə fellər bir kökdən ibarət olur (Sade fiiller bir kökten oluşur)
**Məsələn**: gör, bil, oxu, gəl, get, yaz, danış.

**Tapşırıq 1.** *Aşağıdakı sadə fellərdən cümlələr qurun: danış, otur, qaç, dur, yaşa, sevin*

**Tapşırıq 2.** *Türkcə olan aşağıdakı sadə fellərin Azərbaycan türkcəsi ilə qarşılığını yaz:*

| | | |
|---|---|---|
| gel – | uyu – | kalk – |
| oku – | kes – | kır – |
| yap – | ver – | ara – |
| git – | dur – | bul – |
| başla – | bekle – | oyna – |
| otur – | götür – | gör – |

## Düzəltmə fellər
## (Türemiş fiiller)

Sözdüzəldici şəkilçilər vasitəsilə əmələ gələn fellərə düzəltmə fel deyilir (kök ve eklerden oluşan fiillerdir)
Həmin şəkilçilər bunlardır:
a) la, lə
başla, işlə, təmizlə
b) lan, lən
ağıllan, dillən
c) al, əl



azal, çoxal, düzəl
ç) laş, ləş
uzaqlaş, birləş

**Tapşırıq 1.** *Aşağıdakı düzəltmə feillərdən cümlə qurun: səpələ, birləş, yollan, alovlan, daşla, müasirləş.*

**Tapşırıq 2.** *Aşağıdakı şeiri oxuyun, felləri ayırıb yazın.*

### Ölkəm

Şiş ucları buludlarla döyüşən
Dağlarında buzları var ölkəmin!
Göy otlardan ipək paltar geyinən
Tarlaları, düzləri var ölkəmin.
Coşqun Xəzər oynar ayaqlarında,
İşıq saçan neftli torpaqlarında,
Tarixlərin qızıl yarpaqlarında
Dadlı-dadlı sözləri var ölkəmin.
*(Cəfər Cabbarlı)*

## Mürəkkəb fellər
## (Bileşik fiiller)

Mürəkkəb fellər əks və yaxın mənalı iki sözdür (iki sözden oluşan fiillerdir). Belə sözlər defislə yazılır.
**Məsələn: atılıb-düşmək, gedib-gəlmək, durub-baxmaq, yeyib-işmək.**
Bu qədər yolu **gedib-gəlmək** mənə sərf etmir.
Uzaqdan **durub-baxmaq**, sadəcə olanları seyr etmək məni təmin etmədi.

**Tapşırıq 1.** *Aşağıdakı mətni Azərbaycan türkcəsinə çevirin.*

**Bir Bayram Günü**. Caddelerdeki takların her biri, bir yüksek sanat eseri idi ve her biri, inkilap savaşının bir menkıbesini anlatıyordu. Kimi bir kule, kimi bir köprü, kimi bir kale kapısı şeklinde yapılmış bir taklar dizisinin en başında Ergenekon masalını temsil eden bir allegorik abide duruyordu. Halk, evvelâ bunun içinden geçiyor; sonra, sırasıyle milli tarihinin bütün mühim merhalelerini adım adım geçerek, nihayet, Gazisarayının mermer eşiklerine varıyordu.

Şenlik, asıl bu noktada mehabetli bir halk coşkunluğu şeklini alıyordu; çünkü muhtelif kafileler, burada birikiyor, toplanıyor, kabarıyor; Homeros`un «bin bir sesli unsur» dediği bir poyrazlı deniz manzarasını gösteriyordu. (Yakup Kadri Karaosmanoğlu)

## Felin zamanları
## (Fiilin zamanları)

Felin üç zamanı var:
a) İndiki zaman (Şimdiki zaman)
b) Keçmiş zaman (Çeçmiş zaman)
c) Gələcək zaman (Gelecek zaman)
Felin hər zamanının öz şəkilçisi var.

### İndiki zaman

Felin indiki zamanı hərəkətin indiki zamanda olduğunu bildirir. (Şimdiki zaman fiili şimdiki zamanı ifade eder)

Felin indiki zamanı sözün kökünə ır, ir, ur, ür, yır, yir, yur, yür şəkilçiləri (ekleri) artırmaqla düzəlir.

**Məsələn**: al+ır, yaz+ır, gəl+ir, gör+ür, başla+yır, işlə+yir, oxu+yur və s.



O, hər gün dərsə gəlir.
Sevinc əlaçı oxuyur.
Arzu işə vaxtında başlayır.

**Tapşırıq 1.** *Verilmiş mətni Azərbaycan türkcəsinə çevirin.*

Dil, insana düşünme ve düşündürücü söyleme, konuşma yeteneği kazandırır, öğrenme ve öğrendiğini biriktirme ve iletme yetisi sağlar. Bu yetenek ve yeti, insanı öteki canlılardan ayıran en önemli özelliktir.

İnsan, düşünce, duygu, dilek ve istekleri dille kavrar, dille biriktirir, dille anlatır. Bu belirtilen nedenlerle ve birçok gerekçelerle dil, her kişi için, her halk için, her millet için, her ulus için, dahası her devlet için çok önemlidir.

### Felin keçmiş zamanı
### (Fiilin geçmiş zamanı)

Felin keçmiş zamanı hərəkətin keçmişdə baş verdiyini bildirir.

(Geçmiş zaman fiili geçmiş zamanı ifade eder)

Keçmiş zamanın iki növü var:
a) Şühudi keçmiş zaman (Görülen geçmiş zaman)
b) Nəqli keçmiş zaman (öğrenilen veya duyulan geçmiş zaman).

***Şühudi keçmiş zaman*** hərəkətin nisbətən yaxın keçmişdə icra olunduğunu bildirir. Şuhudi keçmiş zaman sözün kökünə dı, di, du, dü şəkilçiləri artırmaqla düzəlir.

**Məsələn**: al+dı, gəl+di, gör+dü, oxu+du.
Dostum mənə beş kitab aldı.
Arzu saat beşdə bizə qonaq gəldi
Müğənni mahnını sonadək oxudu
O, məni uzaqdan gördü.

***Nəqli keçmiş zaman*** hərəkətin nisbətən uzaq keçmişdə icra olunduğunu bildirir. Nəqli keçmiş zaman sözün kökünə mış, miş, muş, müş şəkilçiləri artırmaqla düzəlir. Məsələn, al+mış, gör+müş, sus+muş, gəl+miş.

**Gələcək zaman**

Felin gələcək zamanı hərəkətin gələcəkdə baş verəcəyini bildirir. (Gelecek zaman fiili – fiilin gösterdiği hareketin geleceğe bağlı olduğunu ifade eder).

Gələcək zamanın iki növü var:

a) qəti gələcək zaman

b) qeyri-qəti gələcək zaman

***Qəti gələcək zaman*** hərəkətin gələcəkdə baş verəcəyinin qətiliyini bildirir və acaq, əcək (samitlə bitən sözlərdə), yacaq, yəcək (saitlə bitən sözlərdə) şəkilçiləri ilə düzəlir.

**Məsələn**: al+acaq, bil+əcək, gör+əcək, yaşa+yacaq, işlə+yəcək.

O, mənim qəlbimdə daim yaşayacaq.

Dostum Bakıda işləyəcək.

***Qeyri-qəti gələcək zaman*** hərəkətin gələcəkdə baş verəcəyinin qeyri-qətiliyini bildirir və ar, ər (samitlə bitən sözlərdə) yar, yər (saitlə bitən sözlərdə) şəkilçiləri ilə düzəlir.

**Məsələn**: al+ar, gəl+ər, oxu+yar, ağla+yar. O, bu işi bu gün başlayar, sabah qurtarar.

**Tapşırıq.** *Aşağıdakı mətni Azərbaycan türkcəsinə çevirin və feillərin zamanını göstərin.*

«… önce kuşların bulunduğu tarafa saptım. Hepsi birer büyük oda genişliğindeki kafeslerinde bulunuyor. Çin′den getirilmiş olan leylek biçiminde birtakım kuşlar, kara kara düşünüp duruyorlar. Bu zavallı kuşların kafesi yanında, kazıkların ucundaki halkalara tünemiş renkli papağanlar var. Biraz daha



ötede büyük bir kafesi dolduran başka kuşlar duruyor. Bunlar Senegaldan gelmiş kuşlar. Renkli tüyleri, bir sonbahar bahçesinin çiçeklerini andırıyor…»

*Ahmet Haşim*

**Tapşırıq 1.** *Aşağıdakı mətndə olan felləri ayırıb yazın. Hansı zamana aid olduğunu göstərin.*

**Dilbər**

Dilbər orta məktəbin 7-ci sinfində oxuyurdu. Atası Həsən kişi yoxsul bir kəndli idi; O, savadlı deyildi. Ancaq savadsızlığın bir bəla olduğunu da təcrübədə görmüşdü. Ona görə də qızını oxutmağı qərara almışdı. Qışın uzun gecələrində Dilbər kitabını alıb atasının qarşısında otururdu. Onun üçün Avropadan, Amerikadan, Afrikadan, dünyanın yaranışından oxuyurdu. Həsən kişi bunları böyük həvəslə dinləyirdi. O, qızının bilikli olduğuna inanıb, çox sevinirdi. Dilbər gələcəkdə oxuyub həkim olmağı, atasına kömək etməyi düşünürdü. Amma zavallı Dilbər gələcəkdə onun üçün nələr hazırlandığını bilmirdi.

*(Cəfər Cabbarlı)*

**Tapşırıq 2.** *Verilmiş mətni Azərbaycan türkcəsinə çevirin.*

## MƏSDƏR (ADEYLEM)

Məsdər zaman, şəxs, kəmiyyət bildirməyən, yalnız maq və mək şəkilçiləri ilə bitən feillərdir.

(Fiil kök ve gövdelerinin karşılaştıkları oluş, kılış ve durumları şahıs ve zamana bağlı olmadan göstermek üzere mak ve mek ekleri ile kurulan kelimeler).

**Məsələn**: bil+mək; gör+mək, oxu+maq, danış+maq

Onu sevmək, onunla evlənmək istədim.

Məsdərin həm felə aid, həm də ismə aid xüsusiyyətləri var.

1. O, fel kimi

a) hərəkət bildirir (qarşılaşmaq, işləmək)

b) təsdiq və inkarlıq bildirir (yazmaq-yazmamaq, göndərmək-göndərməmək)

c) təsirli və təsirsiz olur (görmək, öyrənmək (təsirli), baxmaq, getmək (təsirsiz).

2. İsim kimi hallanır və ismin hal şəkilçilərini qəbul edir. Məsələn:

| | | |
|---|---|---|
| Adlıq hal | nə? oxumaq, | işləmək |
| Yiyəlik hal | nəyin? oxumağın, | işləməyin |
| Yönlük hal | nəyə? oxumağa, | işləməyə |
| Təsirlik hal | nəyi? oxumağı, | işləməyi |
| Yerlik hal | nədə? oxumaqda, | işləməkdə |
| Çıxışlıq hal | nədən? oxumaqdan, | işləməkdən |

Oxumaq gözəl şeydir.
Oxumağın faydası çoxdur.
Oxumağa başladım.
Oxumağı çox sevirəm.
Oxumaqda bacısına çəkib.
Oxumaqdan yorulmadım.

**Tapşırıq 1.** *Aşağıdakı şeirdəki məsdərləri seçin. İsmin hansı halında olduğunu göstərin.*

Yıxıldın?
Qalx! İnləmə!
Nə çıxar inləməkdən,
Ah çəkib, uf deməkdən?!

Yıxılmaq ayıb deyil,
Hamı yıxılıb durur.



Yıxılmağın cəbrini,
Yerimək unutdurur.

Yıxılıb öyrənirik
Ayaq üstə durmağı
Gözümüzü açandan…

Danışmaq istəyirik
Dil topuq çala-çala
Yerimək öyrənirik
Biz yıxıla-yıxıla.

*(Bəxtiyar Vahabzadə)*

**Tapşırıq 2.** *Aşağıdakı sözlərdən məsdər düzəldin və həmin sözlərin türkcə qarşılığını yazın. Gözlə, yaşa, öyrən, məsləhətləş, izlə, fərəhlən, canlan, dinlə, gülmə*, danışma, bişir, götür, yarış, barış.

**Tapşırıq 3.** *Aşağıdakı mətni Azərbaycan türkcəsinə çevirin.*

Züleyha babasının dönüşünü tam iki ay sabırsızlıkla bekledi. Eskiden onun adını anmağa utanırken, şimdi Balkan muharebesinden kalma resmini boynundaki madalyonun içinde taşyor ve her gece yatarken dudaklarına götürüp öpüyordu.

Reşat Nuri Güntekin.

## ZƏRF (ZARF)

Hərəkətin icrasını müxtəlif cəhətdən izah edən sözlərə zərf deyilir. Zərf daha çox felə aid olur, bəzən də başqa nitq hissələrinə də aid olur və necə? nə cür? nə vaxt? nə zaman? hara? harada? haradan? nə qədər? suallarına cavab verir

(Zarf – fiillerin, sıfatların ve görev bakımından zarf niteliğindeki kelimelerin anlamlarını zaman, ölçü, niteleme, yer, yön gibi çeşitli bakımlardan etkileyerek daha belirgin duruma getiren veya sınırlayan kelime türudür)

## Zərfin quruluşca növləri
## (Yapı bakımından zarfın çeşitleri)

Zərfin quruluşca üç növü var: ***sadə (basit)***, ***düzəltmə (türemiş)*** və ***mürəkkəb (bileşik)***.

***Sadə zərflər*** yalnız bir kökdən ibarət olur. **Məsələn**: axşam, sabah, gecə, indi, cəld, yuxarı, az, əvvəl.

***Düzəltmə zərflər*** kökdən və şəkilçidən ibarət olur. Zərf düzəldən şəkilçilər aşağıdakılardır

ca, cə; rusca, türkcə (danışmaq)

casına, cəsinə; qəhrəmancasına (döyüşmək) xaincəsinə (hərəkət etmək)

yanə, yana, anə; zarafatyana (demək), dahiyanə (düşünmək), şairanə (görünmək)

dan, dən; ucadan (danışmaq), ürəkdən (bəyənmək)

ən; daxilən (saflaşmaq), qəflətən (danışmaq)

la, lə; namusla (yaşamaq), cəsarətlə (söyləmək)

akı, əki; yanakı (baxmaq), çəpəki (baxmaq)

da, də; gündə (yemək), birlikdə (yaşamaq)

**Tapşırıq 1.** *Aşağıdakı cümlələrdə olan düzəltmə zərfləri ayırıb yazın. Cümlələri Azərbaycan türkcəsinə çevirin.*

Xörəyi duzsuz bişiribsən.
Paltarı sulu sərmə.
O, yolu keçib, rahatca oturdu
Bədahətən şeir demək xüsusi istedaddır
İkisi də sakitcə oturmuşdu.
O, əlinin səsini eşitcək dayandı.
Biz onu çoxdan gözləyirik.

***Mürəkkəb zərflər*** iki sözdən ibarət olur. Belə sözlərin bir qismi bitişik, bir qismi də defislə yazılır.



Bitişik yazılanlar müxtəlif leksik mənalı sözlərin birləşməsindən əmələ gəlir. Məsələn: gözucu, arabir, birbaşa, üzüyuxarı, addımbaşı, atüstü, gözaltı.

Defislə yazılan zərflər

a) eyni sözün təkrarı ilə olur. **Məsələn**: az-az, tez-tez, ağır-ağır

b) bir və ya hər iki tərəfi şəkilçi qəbul etmiş sözlərin təkrarı ilə. Məsələn: yan-yana, birdən-birə, günü-gündən və s.

c) yaxın və əks mənalı sözlərin birləşməsi ilə. **Məsələn**: gecə-gündüz, irəli-geri, az-çox, ara-sıra və s.

**Tapşırıq 1.** *Aşağıdakı şeiri oxuyun. Şeirdən çıxan nəticəni Azərbaycan türkcəsi ilə yazın.*

### Şeir deyilmi?

Məndən təzə şeir xəbər alan dost,
Bəs yazın gəlməsi şeir deyilmi?
Çıxanda gəzməyə çölün, çəmənin,
Üzünə gülməsi şeir deyilmi?

Yenə gözüm qalıb bağçada, bağda,
Min-min gül açılır aranda, dağda,
Eyvana əyilən çarpaz budaqda,
Bülbülün nəğməsi şeir deyilmi?

Seyr elə hüsnünü göydə durnanın,
Qayada kəkliyin, göldə sonanın,
Aynabənd otaqda gəlin ananın,
Şirin lay-lay səsi şeir deyilmi?

Kim deyir şeirin meydanı dardır?
Sonu görünməyən o, bir bahardır.
Nə qədər həyat var, şeir də vardır.
Həyatın nəfəsi şeir deyilmi?
*(Hüseyn Arif)*

## ZƏRFİN MƏNACA NÖVLƏRİ
## (ANLAM BAKIMINDAN ZARFIN ÇEŞİTLERİ)

Hərəkəti hansı cəhətdən izah etməsindən asılı olaraq zərflər növlərə bölünür:

1. Tərzi-hərəkət zərfi (**Durum ve hal zarfı**)
2. Zaman zərfi (**Zaman zarfı**)
3. Yer zərfi (**Yer yön zarfı**)
4. Kəmiyyət zərfi (**Azlık-çokluk və ya nicelik zarfı**)

Tərzi-hərəkət zərfi hərəkətin hansı tərzdə icra olunduğunu bildirir və necə? nə cür? suallarından birinə cavab verir.

**Məsələn**: yavaş, təəccüblə, güclə, xəfifcə, astadan və s.

Sahil güclə görünürdü.

Dan yeri yenicə ağarırdı.

O, güclə yeriyirdi.

**Tapşırıq 1.** *Aşağıdakı tərzi-hərəkət zərflərinin türkcə qarşılığını yaz.*

| | |
|---|---|
| yavaşca – | ucadan – |
| tez-tez – | astadan – |
| sürətlə – | güclə – |
| zorla – | sakitcə – |
| dərindən – | qəfildən – |
| heyrətlə – | həyəcanla – |
| səssizcə - | dəhşətlə - |

**Tapşırıq 2.** *Aşağıdakı tərzi-hərəkət zərflərini cümlə içərisində işlət: dəhşətlə, təəccüblə, təbəssumlə, yavaşca, sürətlə.*



Zaman zərfi hərəkətin icra olunduğu zamanı bildirir və nə vaxt? nə zaman? haçan? suallarına cavab verir. **Məsələn**: indicə, dünən, səhər, gecə, həmişə, əvvəlcə, sonra, o vaxt

Dünən güclü qar yağırdı

Əvvəlcə məni dinlə, sonra fikrini de

Əvvəl-axır mən dediyim olacaq.

**Tapşırıq 3.** *Aşağıdakı şeiri oxuyun. Şeirdəki zaman zərfini ayırıb yazın:*

Ölüm! O matəmin pərişan səsi,
Bəşərin ilk dərdi, ilk faciəsi.
Düşündürür bizi bu gün və yarın.
Böyük dahilərin, filosofların,
Duyub düşündüyü bu qorxunc cahan,
Sirlər yuvası olmuş hər zaman.

*(Səməd Vurğun)*

Yer zərfi hərəkətin icra olunduğu yeri bildirir və hara? haraya? harada? haradan? suallarına cavab verir. **Məsələn**: irəli, geri, aşağı, yuxarı, sağa, sola, ora-bura, üzüaşağı və s.

Hüseyn üzüaşağı gedirdi

İrəli çox qaranlıq idi

Ora bizim yaşadığımız evdir.

Yuxarı çox sərin idi.

***Kəmiyyət zərfi*** hərəkətin miqdarını bildirir və nə qədər? sualına cavab verir.

**Məsələn**: az, çox, xeyli, azca, azacıq, az-çox, bir az, bir qədər, az-maz, birə-beş.

Universitet xeyli inkişaf etmişdi.

Ona olan hörmətim birə-beş artmışdı.

O, verdiyi sözə qismən əməl etmişdi.

**Tapşırıq 1.** *Mətni Azərbaycan türkcəsinə çevirin.*

***Canlı dil***

*Halen yaşamakta, çeşitli toplumlarda konuşma ve yazı dili olarak varlığını devam ettiregelmekte olan dil. Macarca, Fince, Almanca, Türkçe, Çince, Yaponca gibi. Sümerce ölü, Arapca, Türkçe canlı bir dildir.*

## KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ
## (YARDIMÇI SÖZ BÖLÜĞÜ)

Köməkçi nitq hissələri ayrılıqda leksik mənaya malik olmayan, suala cavab verməyən, cümlə üzvü olmayan sözlərdir.

(**Yardımcı sözler vazifeli kelimelerdir. Manaları yoktur, sadece gramer vazifeleri vardır. Tek başlarına bir mana ifade etmez, fakat diğer kelimelerle münasebet sırasında manalanırlar**).

Azərbaycan dilində beş köməkçi nitq hissəsi var: Qoşma (Sontakı). Bağlayıcı (Bağlaç). Ədat (İglec). Modal sözlər (Modal sözler). Nida (Ünlem).

Köməkçi nitq hissələri sözləri və cümlələri bir-birinə bağlamağa (bağlayıcı), müəyyən məna çalarları yaratmağa (qoşma), sözlərin, cümlələrin təsir gücünü artırmağa (ədat), danışanın fikrə münasibətini bildirməyə (modal sözlər), hiss-həyəcanı ifadə etməyə (nida) xidmət edir.

## QOŞMA
## (SONTAKI)

İsmin adlıq, yiyəlik, yönlük və çıxışlıq halında olan sözlərə qoşularaq müəyyən məna çalarları yaradan köməkçi nitq hissəsinə qoşma deyilir. Qoşmaların ayrılıqda heç bir leksik mənası yoxdur. Yalnız qoşulduğu sözlə birlikdə cümlə üzvü olur.



**Məsələn**: Hamı onun kimi düşünmür. Mənim qədər bu işi öyrənən azdır.

Qoşmalar bunlardır: üçün, ilə, qədər, kimi, tək üzrə, tərəf, doğru, sarı, qarşı, savayı, əsasən, aid, görə, əsasən, əvvəl, qabaq, sonra, bəri, başqa, özgə, qeyri, ayrı, ötrü. (Bu qoşmalar qoşuduğu sözdən ayrı yazılır). Məsələn: səndən başqa, ona aid, sənə görə, dünəndən bəri, ondan ötrü və s.

Aşağıdakı qoşmalar isə qoşulduğu sözə bitişik yazılır. **Məsələn**: tək, ca, cə, la, lə, dək, can, cən, çün

**Məsələn**: sənin<u>tək</u>, dərya<u>ça</u>, onun<u>la</u>, bizim<u>lə</u>, evə<u>dək</u>, evə<u>cən</u>.

*Mən səninlə bir müqavilə bağladım.*
*Sənintək qəhrəman sevilməlidir.*
*Rəfiqəmi evlərinəcən ötürdüm.*
*Səninçün bu qədər əziyyət çəkməyə dəyərmi?*

**Tapşırıq 1.** *Ayrı yazılan qoşmalara aid 6 cümlə yaz.*
**Tapşırıq 2.** *Verilmiş mətni Azərbaycan türkcəsinə çevir.*

### Güvercinler

Sayfiye sahibinin büyük bir merakı vardır: Güvercin. Bu güzel, zarif, minimini mahluklar! Onların yarım saat saadetlerine şahit olduktan, bu küçük mahlukların, küçük kalpleriyle nasıl sevdiklerini, yaşamak lezzetini ne güzel bir şiir dersiyle etrafındakilere gösterdiklerini görüp hissetikten sonra onların dostu olmamak mümkün değildi.

**Tapşırıq 3.** *Aşağıdakı şeirdə olan ədatları göstərin*

Mən sənintək dağa saldım nəfəsi,
Sən də qaytar aləmə sal bu səsi.
Bayquşun da dar olmasın qəfəsi,
Burda bir şir darda qalıb bağırır,
Murivətsiz insanları çağırır.

*(Məmmədhüseyn Şəhriyar*)

## BAĞLAYICI (BAĞLAÇ)

Sözləri və cümlələri bir-birinə bağlayan sözlər (**Söz içinde iki kelimeyi, iki cümleyi biri birine bağlayan kelimeler**).

Ana və oğul söhbət edirdilər.

Hava soyuyur və qış yaxınlaşırdı.

Birinci cümlədəki «və» bağlayıcısı sözləri, ikinci cümlədə isə «və» bağlayıcısı cümləni bir-birinə bağlayır.

### Bağlayıcıların quruluşca növləri (Bağlaçların yapı bakımından çeşitleri)

Bağlayıcılar quruluşca sadə (basit), mürəkkəb (bileşik) və tərkibi (aydınlaşdırma) olur.

***Sadə bağlayıcılar*** bir tərkib hissədən ibarət olur: ki, yəni, gah, ilə, əgər, çünki, lakin, ancaq və s.

**Məsələn**: O, yavaş-yavaş danışır, lakin heç kəs onu dinləmirdi.

***Mürəkkəb bağlayıcılar*** iki və daha çox tərkibdən ibarət olur. Belə bağlayıcılar bir vurğu ilə deyildiyi üçün bitişik yazılır. Hərgah, habelə, nəinki, halbuki, çünki və s.

***Tərkibi bağlayıcılar*** ayrı yazılan tərkib hissələrindən ibarət olur: gah da, belə ki, ona görə ki, və s.

### Bağlayıcıların mənaca növləri (Bağlaçların anlamca çeşitleri)

1. Birləşdirmə bağlayıcıları: və, ilə,
2. Bölüşdürmə bağlayıcıları: gah, gah da, ya, ya da.
3. Qarşılaşdırma bağlayıcıları: amma, ancaq, fəqət, lakin, isə, halbuki.



4. İştirak bağlayıcıları: həm, həm də, nəinki, hətta, habelə.
5. İnkarlıq bağlayıcıları: nə, nə də, nə də ki.
6. Aydınlaşdırma bağlayıcıları: yəni, məsələn, belə ki.
7. Şərt bağlayıcıları: əgər, hərgah, indi ki, madam ki.
8. Səbəb bağlayıcıları: çünki, ona görə ki, ondan ötrü ki, buna görə də, onun üçün ki.
9. Güzəşt bağlayıcıları: hərçənd, hərçənd ki.

**Tapşırıq 1.** *Aşağıdakı cümlələrdə bağlayıcıların quruluşca növünü göstərin. Cümlələri Türkiyə türkcəsinə çevirin.*

O, oxumaq istəyirdi, lakin maddi imkanı yox idi.

Maraqlı kitab oxudum, amma kitabı sona çatdıra bilmədim.

Biz inanırıq ki, torpaqlarımız düşmənlərdən azad olacaq.

Ana və Vətən müqəddəs kəlmələrdir.

Yağış yağır, ona görə də təbiət canlanırdı.

## ƏDAT (İLGEC)

Sözlərin və cümlələrin təsir gücünü artıran köməkçi nitq hissəsidir. Ədatların ayrılıqda heç bir mənası olmur, fəqət başqa kəlmələrlə münasibətdə mənalanırlar.

(Edatların manaları yoktur, sadece qramer vazifeleri olan dilin yardımcı kelimeleridir. Tek başlarına bir mana ifade etmezler, fakat diğer kelimelerle münasibet sırasında manalanırlar)

1. Mən ki gözəl deyildim
2. İnsan üstünlüyü yalnız elm və sənətlə əldə edə bilər.

Birinci cümlədə «ki» ədatı sözün, ikinci cümlədə «yalnız» ədatı cümlənin təsir gücünü artırır.

## Ədatların mənaca növləri
## (İlgeclerin anlamca çeşitleri)

Ədatların aşağıdakı məna növləri var:

1. Qüvvətləndirici ədatlar:

Ən, lap, daha, olduqca, axı, hətta, ki, neçə, nə, artıq.

**Məsələn**: Artıq bu, son görüşümüzdür.

2. Dəqiqləşdirici ədatlar:

Elə, əsl, məhz.

Elə onun dediyi olacaq?

Sən getdin elə bil dünya boşaldı. (B.Vahabzadə)

3. Məhdudlaşdırıcı ədatlar:

Yalnız, tək, ancaq, təkcə, bircə, bir.

Mən yalnız oğlumun gələcəyini düşünürəm.

4. Sual ədatları:

Məgər, yəni, ki, mı, mi, mu, mü.

Yəni məni bu qədər düşüncəsiz bildin?

O qıza inanırsanmı?

Qeyd: mı, mi, mu, mü sual ədatları sözə bitişik yazılır.

5. Əmr ədatları:

Bax, baxsana, gəl, gəlsənə, qoy, qoysana, da, də, ha, di.

Di din, bu qədər susmaq olmaz.

Qoysana sözümü bitirim.

6. Arzu ədatları:

kaş, kaş ki, təki, barı

Kaş hər şey sənin düşündüyün kimi olaydı.

Təki sənin canın sağ olsun.

7. Təsdiq və inkar ədatları:

hə, yox, bəli, xeyir.

Cümlədə bu ədatlardan sonra vergül yazılır. Bəli, mən vətənimlə fəxr edirəm. Xeyr, bu işin sonu görünmür.

**Tapşırıq 1.** *Türkiyə türkcəsində və Azərbaycan türkcəsində olan ədatları ayrı-ayrı sütunlarda yazıb müqayisə edin.*



**Tapşırıq 2.** *Ədatların sözün, yoxsa cümlənin təsir gücünü artırdığını ifadə edən 10 cümlə yazın.*

**Tapşırıq 3.** *Aşağıdakı mətni Azərbaycan türkcəsinə çevirin.*

**Dillerin Doğuşu.** Dil, bir arada yaşayan insanların birbirleriyle anlaşma ihtiyacından doğmuştur. Dilin tarihi, insanlık tarihinin enginliekleri içinde – henüz aydınlanmamış çağlara kadar – uzanıp gitmektedir. Bu yüzden de «Önce hangi dil doğmuştur?», «İlk dil nerede ve kimler arasında konuşulmuştur?» gibi soruların cevaplarını bugün verebilmek mümkün değil. Bugüne kadar dilin veya dillerin doğuşu hakkında bazı görüşler ortaya konmuşsa da bunlar bir teori olmaktan ileri gidememiştir. Yalnız, bugün eldeki belgelere göre Sümer dilinin en eski dillerden biri olduğuna inanılmaktadır. (M.Ö. 4000-3000 yılları).

## MODAL SÖZLƏR
## (MODAL SÖZLER)

Modal sözlər danışanın ifadə etdiyi fikrə münasibət bildirən köməkçi sözlərdir.

Belə sözlər mənasına görə:

1. Əminlik bildirir. Məsələn: sözsüz, əlbəttə, şübhəsiz, düzü, doğrusu, düzdür, doğrudur, həqiqətən.

Əlbəttə, bu işə bir son qoyulsa, yaxşıdır.

Doğrusu, mən bu gəlişə heç sevinmədim.

2. Güman, şübhə bildirir. Məsələn: deyəsən, görəsən, bəlkə, görünür, yoxsa, yəqin ki, ehtimal ki.

Görəsən, bu romanı oxumaq neçə gün çəkər.

Görünür, onu hələ də sevirsən.

3. Nəticə bildirir: Məsələn: deməli, axır ki, xülasə, nəhayət, beləliklə, qərəz, ümumiyyətlə.

Beləliklə, imtahanların nəticəsi ürəkaçan oldu

Axır ki, səni görə bildim.

4. Sıra və ardıcıllıq bildirir: Məsələn: birincisi, əvvəla, ikincisi.

Birincisi, sən özün ağıllısan.

5. Təəssüf bildirir. Məsələn: heyf ki, təəssüf ki, əfsus ki.

Əfsus ki, o gözəllikləri bir də görmək mümkün olmayacaq.

6. Fikrin mənbəyini bildirir:

Məsələn: məncə, səncə, bizcə, fikrimizcə, mənə görə.

Məncə, bu işlərin məsuliyyəti çox böyükdür.

7. Bənzətmə və müqayisə bildirənlər:

**Məsələn**: sanki, elə bil, guya ki, elə bil ki.

Elə bil ki, mən də sənin yanındayam.

**Tapşırıq 1.** *Tərkibində fikrimcə, doğrudur, ehtimal ki, nəhayət, heyf ki, sanki sözləri olan cümlələr yazın.*

**Tapşırıq 2.** *Aşağıdakı mətni Azərbaycan türkcəsinə çevirin.*

### Düğün

Köyde, kına gecesi olacak: Atlar koşacak. Pehlivanlar güreşecek. Şehirden, dolayı köylerden çağrılanlar geliyorlar. Bunları köy kıyısından davul zurna ile karşılıyor, misafir olacakları evlere yerleştiriyorlardı. Hemen bütün köylü, gelenleri ağırlamağa uğraşıyor.

## NİDA (ÜNLEM)

Danışanın hiss və həyəcanını ifadə edən sözlər (**Konuşanın duyğu ve heyecanını anlatmaya varan kelimeler**)

Nidaların müxtəlif məna növləri var.



1. ***Sevinc, heyranlıq bildirənlər*** (Sevinc, hayranlık bildirenler)

Ay can, bəh-bəh, of, paho,

Paho, bu nə gözəl təsadüf oldu.

***2. Kədər, narahatçılıq, qorxu bildirənlər***

(üzüntü, korku, endişe bildirenler)

Ay aman, uf, ah, vay-vay, ay dad və s.

Ay aman, bu qız lap ağını çıxartdı.

***3. Çağırış bildirənlər:***

Ay, Ay, hey.

Ey, bu nə zəhmətdir.

4. ***Təəccüb bildirənlər*** (Şaşkınlık bildirenler)

Ah, vay, a, bıy və s.

Bıy, sən onu haradan tanıyırsan?

5. ***Nifrət, ikrah bildirənlər*** (nefret, ikrah bildirenler)

Xox, bah, xa-xa-xa

Xox, səndən qorxdum.

Nidalar cümlənin əvvəlində gəldikdə ondan sonra vergül və ya nida işarəsi yazılır. Məsələn:

Ah, mən səni bu qədər qorxaq bilməzdim.

Nidalar cümlənin ortasında gəldikdə hər iki tərəfdən vergül yazılır. Məsələn:

Sən, ay aman, bu qədərmi qəddarsan?

Qeyd: Təkrar olan nidalar defislə yazılır. Məsələn: bəh-bəh, xa-xa, bıy-bıy, vay-vay və s.

**Tapşırıq 1.** *Türk dilində və Azərbaycan dilində işlənən nidaları ayrı-ayrı sütunlarda yazın.*

**Tapşırıq 2.** *Tərkibində nida olan beş cümlə yazın.*

**Tapşırıq 3.** *Verilmiş mətnləri Azərbaycan türkcəsi ilə yazın.*

### Karşılaşma

- Vay efendim!
- Vay beyim!
- Maşallah! Böyle olmalı. Neredesiniz ayol!
- Vah vah! Geçmiş olsun! Neniz var?
- Mide.

*Ahmet Rasim*

### Sabahleyin

Çare yok. Kalkmalı, işi azdırmadan giyinip dışarıya çıkmalı. Fakat takat mi var? Baş kalmıyor ki. Kestiririm ama rahat yok. Aman durun, biraz daha dalayım! Of! Of! Tabanlarım! Vay vay! Yanlarım! Üşümüşüm! Akşamki ayaz neydi ya!

*Ahmet Rasim*

**Tapşırıq 4.** *Aşağıdakı şeirlərdəki nidaları ayırıb yazın. Quruluşca növünü göstərin.*

Düşdü bütün qəzetlər qiymətdən, ay can! Ay can!...
Xəlqin canı qurtardı töhmətdən, ay can! Ay can!...

*(Mirzə Ələkbər Sabir)*

Ah!... necə kef çəkməli əyyam idi,
Onda ki, övladi-vətən xam idi!

*(Mirzə Ələkbər Sabir)*

Ah! Bu uzun sevda yolu,
Vurulurmu başa, könül!

*(Mikayıl Müşfiq)*



Bah! Bu imiş dərsi üsuli-cədid

*(M.Ə.Sabir)*

**Tapşırıq.** *Aşağıdakı mətnə diqqət et. Şeirdən istifadə edərək Mübariz haqqında düşüncələrini yaz:*

«Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Şəhid olsam, ağlamayın, əksinə, sevinin ki,o mərtəbəyə yüksəldim… Vətən sağ olsun. Oğlunuz Mübariz.»

### VƏTƏN OĞLU MÜBARİZ

*Azərbaycanın Milli qəhrəmanı, xalqımızın qeyrətli oğlu Mübariz Ağakərim oğlu İbrahimovun əziz xatirəsinə*

Səda verdi vətənin haray çəkən səsinə,
Şığıdı qartal kimi düşmənin cəbhəsinə.
Etdi mümkün hər şeyi, nə düşür öhdəsinə,
Qeyrəti, şəhidliyi ürəklərdə saldı iz,
Mübarizə ölüm yox, ölümsüzdü Mübariz!

Məhv edib düşmənləri, saldı yasa, şivənə,
Dedi ölüm dərsidir bu dərs xain düşmənə.
Bir evə, elə deyil, oğul oldu Vətənə,
Ucaltdı Vətənini, oldu güvənc yerimiz,
Yaddaşlara yazıldı, ölümsüzdü Mübariz!

İntiqam, qisas dedi, damarında axan qan,
Yazdırdı qanı ilə torpağa qurbandı can.
Mübarizlər doğulur, göz aydın, Azərbaycan!
Mübarizin ruhuna and içir hər birimiz.
Mübarizdən dərs alaq, ölümsüzdü Mübariz!

Ölümündən qorxmayan Vətənin ər oğludu,
Cəsarətlə döyüşən igiddi, nər oğludu.
Pak ruhları oyanan Babəkdi, Koroğludu,
Təkrarlanan Mehdidi, bənzərsiz əfsanəmiz,
Qəhrəmanlar ölməzdi, ölümsüzdü Mübariz!

Ana vətən uğrunda sarıldı silahına,
Canını fəda etdi Vətənin sabahına.
Ölməz ruhu yol gedir Tanrının dərgahına.
Şəhidlik zirvəsində vicdanı, ruhu təmiz,
Olməzliyə qovuşub, ölümsüzdü Mübariz!

*( Oqtay Zəngilanlı)*

**Tapşırıq.** *Aşağıdakı Avropa mənşəli sözlərinin Azərbaycan və Türkiyə türkcəsi ilə yazılışına diqqət edin.*

| **Azərbaycan türkcəsi ilə** | **Türkiyə türkcəsi ilə** |
|---|---|
| Avtobus | Otobüs |
| Avstraliya | Avustralya |
| Teatr | Tiyatr |
| Anarxiya | Anarşi |
| Artist | Artist |
| Avropa | Avrupa |
| Antanta | Antanta |
| Arqo | Arqo |
| Animasiya | Animasyon |
| Asfalt | Asfalt |
| Depressiya | Depresyon |
| Despot | Despot |
| Etnoqrafiya | Etnoqrafya |
| Etüd | Etüt |
| Şans | Şans |
| Şantaj | Şantaj |
| Diskoteka | Disko, diskotek |
| Maniken | Manken |
| Mavzoley | Mozole |
| Menecer | Menejer |
| Stadion | Stad, stadyum |
| Stansiya | İstasyon |
| Statistika | İstatistik |
| Status | Statu |
| Viza | Vize |
| Radio | Radyo |
| Kadr | Kadro |



**Tapşırıq.** *Hüseyn Caviddən verilmiş aşağıdakı şeir misralarına diqqət edin:*

Turana qılıncdan
daha kəskin,
ulu qüvvət –
Yalnız mədəniyyət,
mədəniyyət,
mədəniyyət!..

# OXU MƏTNLƏRİ



## AZƏRBAYCAN DÖVLƏT HİMNİ

Azərbaycan Respublikasının Dövlət Himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzidir. Musiqisi Üzeyir Hacıbəyovun, mətni Əhməd Cavadın olan «Azərbaycan marşı» Azərbaycan Respublikasının Dövlət Himni kimi Milli Məclisin 27 may 1992-ci il 142№-li qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

## ŞƏRQİN İLK DEMOKRATİK RESPUBLİKASI

28 may 1918-ci il. Bu gün Azərbaycan xalqının milli mübarizə tarixinə ən şərəfli gün kimi daxil olmuşdur. Bir əsrdən çox rus imperiyasının əsarəti altında yaşayan xalqımızın ilk demokratik dövləti olan Azərbaycan Demokratik Respublikası (ADP) məhz 28 may 1918-ci ildə yarandı. Azərbaycan Demokratik Respublikası Şərqdə ilk demokratik cümhuriyyət idi.

Görkəmli siyasi xadim və publisist, xalqımızın qeyrətli oğlu M.Ə.Rəsulzadə gizli səsvermə yolu ilə Azərbaycan Milli Şurasının sədri seçildi. Mayın 28-də Milli şura Azərbaycanın istiqlaliyyatı haqqında Bəyannamə qəbul etdi. Bəyannamədə deyilirdi ki, Azərbaycan demokratik respublika formasında müstəqil və suveren dövlətdir. Ali hakimiyyət bütün xalqa məxsusdur.

Azərbaycan cümhuriyyətinin parlamentində hökumətin qarşısında duran bir nömrəli vəzifə milli Azərbaycan ordusunu yaratmaqdan ibarət idi. Çünki milli ordunu yaratmadan ökənin dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumaq mümkün deyildi. Xüsusilə erməni daşnaqları tərəfindən işğala məruz qalan Azərbaycan torpaqları, habelə mübahisəli ərazi məsələləri o zaman ciddi problemlərdən biri, silahlı toqquşmaların başlıca obyekti idi. Belə bir ordunu yaratmaq çox çətin idi. Əvvəla ona görə ki, çarizm əsarətinin xalqımıza vurduğu ən böyük zərbə ondan ibarət idi ki, milli ordunu qısa vaxt ərzində yaratmaq ciddi çətinliklərlə qarşılaşırdı. İkinci, Azərbaycan hərbi işini bilən milli kadrlar çatışmırdı. Buna görə də ordunu təşkil etmək çox çətin idi. Ordusuz isə Azərbaycan cümhuriyyəti öz müstəqilliyini qoruyub saxlaya bilməzdi. Ancaq çox çətin olsa da bu işin təşkili görkəmli Azərbaycan generalları olan Səməd bəy Mehmandarov və Əliağa Şıxlinskiyə həvalə edildi. Onlar çox böyük sürətlə milli ordunun yaradılmasına



başladılar. Bu işdə qardaş türk zabitlərinin təmənnasız köməyi olmuşdur. Artıq 1919-cu ilin axırlarında iyirmi beş minlik Azərbaycan ordusu, iki piyada və suveren diviziya yaradılmışdı.

ADP-nin Hərbi Nazirliyi 1920-ci ildə şəxsi heyətin 40 minə çatdırılmasını planlaşdırmışdı. Yenicə yaradılmasına və az təcrübəsinə baxmayaraq Azərbaycan cümhuriyyətinin milli ordu 1918-ci ilin yayında Şaumyan və Andranikin qaniçən daşnaq ordusunu Göyçay yaxınlığında darmadağın etdi ki, bu döyüşün də Azərbaycanın hərb sənəti tarixində müstəsna əhəmiyyəti oldu. Çünki bu qələbədən sonra milli ordumuzun Bakı istiqamətində irəliləməsi, Bakıya daxil olması üçün şərait yaradıldı. Bundan sonra ADP-nin paytaxtı Gəncədən Bakıya köçürülmüşdü.

Milli dövlət quruculuğu istiqamətində həyata keçirilən tədbirlərdən biri də 1918-ci il noyabrın 9-da Azərbaycan tərəfindən milli bayrağın təsdiq edilməsi oldu. Azərbaycanın milli bayrağı mavi, qırmızı və yaşıl rəngli parçadan hazırlanaraq üzərində aypara və səkkizguşəli ulduz təsvir edildi.

Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ildə açdığı Bakı Dövlət Universiteti müstəqil Azərbaycan dövlətinin mədəni həyatında əlamətdar hadisə idi. Xalqın maariflənməsi işinə xüsusi diqqət verən ADP qısa müddətdə 637 ibtidai məktəb, 23 orta ixtisas məktəbi, 6 kişi, 4 qadın gimnaziyası, 5 pealnı məktəb, 3 müəllimlər seminariyası, 3 qadın tədris müəssisəsi açdı. Bu tədris müəssisələrinin hamısı dövlət hesabına işləyirdi.

ADP-nin xarici siyasət sahələrində fəaliyyəti daha geniş olmuşdu. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü dünyanın əksər dövlətləri tərəfindən tanınmışdı.

28 aprel 1920-ci ildə ADP bolşevik Rusiyası tərəfindən süqut etdirildi.

Cəmi 23 ay yaşamasına baxmayaraq ADP-nin fəaliyyət dövrü Azərbaycan milli dövlətçilik tarixinin ən şərəfli mərhələlərindən biridir.

Müqəddəs amallar uğrunda mübarizə aparan ADP-nin tarixi ənənələri bu gün qətiyyətlə davam və inkişaf etdirilir. İnanırıq ki, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə müvəffəqiyyətlə irəliləyən Azərbaycan xalqı müstəqillik uğrunda aparılan mübarzədə daha böyük nailiyyətlər qazanacaq, qabaqcıl dünya ölkələri arasında özünə layiq yer tutacaqdır.

## «AZƏRBAYCAN» SÖZÜNÜN MƏNŞƏYİ VƏ MƏNASI HAQQINDA

Hələ eramızdan əvvəlki dövrlərdən başlayaraq «Azərbaycan» sözünün yaranması haqqında müxtəlif mənbələrdə bir-birinə bənzəməyən məlumatlara rast gəlirik. Bu sözü Yunan və Roma coğrafiyaşünasları «Atropatena», ərəb və fars müəllifləri «Adərbadekan», «Atarpatakan», nəhayət, «Azərbaycan» şəklində qələmə almışlar. Eramızdan əvvəl I və eramızın I əsrində yaşamış Yunan coğrafiyaşünası Strabonun yazdığına görə bu ad Makedoniyalı İsgəndərin (356-323) istilası zamanı Böyük Midiyadan ayrılmış Kiçik Midiyanın başçısı olmuş sərkərdə Atropatın adından alınmışdır. Orta əsr tarixçilərinə görə (İbn Müqəffa, Müqəddəsi, İbn Fəqih, Yaqut Həməvi və b.) «Azərbaycan» sözü Sasani padşahı Şapurun (240-272) vaxtında Nuhun nəslindən olub, peyğəmbərlik iddiası ilə zühur etmiş «Azərbaz» adlı şəxsin adından alınmışdır.

Orta əsr tarixçilərindən Əhməd ibn Məhəmməd «Tarixi-aləm» adlı kitabında «Azərbaycan»ın Oğuz xanın Uçan səhrasında yandırdığı süni təpənin adından yarandığını yazır və «Azərbaycan», yəni «Qüvvətlilər yeri» demək olduğunu göstərir.

Mahmud Kaşqarli məşhur «Divani-lüqət-it-türk» əsərində «Azərbaycan»ı Azərabad – yəni «Odun abad etdiyi yer» şəklində yazmışdır.

Ə.Dəmirçizadə «Atropat»ı üç hissəyə bölüb, «A» - Allah, «tur – atəş», «pat» - baş – deyə, sözün ümumi mənasını: «Baş atəş allahı», yaxud «Atəş allahı başçılarının yurdu» kimi izah etmişdir. Sonrakı bir izahında «Ahuramazdanın od qılıncı» demək olması mülahizəsini irəli sürmüşdür.

«Azərbaycan» «Tanrı odunun bulağı-qaynağı» və ya «Od tanrısının yeri» kimi mənalandırılır. Bu araşdırmaların heç biri, «Azərbaycan» sözünün dürüst mənşə və mənasını aça bilmir.

Həm qədim zamanlarda yazıb-yaradan, həm də müasir dövrümüzdəki bir sıra tarixçilər Azərbaycanda türkdilli tayfaların hələ eramızdan çox əvvəllərdə yaşadıqlarını faktik materiallar əsasında qeyd edirlər. Görkəmli tarixçi O.Tumanoviç «Türkmənistan və türkmənlər» adlı əsərində «Hakim kütləsi təmiz türk mənşəlidir» - deyə qeyd etdiyi qədim skif-sak tayfaları hələ eramızdan əvvəl VIII-VII əsrlərdən etibarən ön Asiyada və o cümlədən, Azərbaycan ərazisində sakin olmağa başlamışlar. Tarixdən məlumdur ki, içərisində türkdilli tayfalar olan bu saklar-skiflər e.ə. V əsrdə Midiya tərəfindən əzildikdən sonra geri çəkilməyə məcbur olmuş, onun əsas özəyi Qara dəniz sahili ilə indiki Ukrayna torpağına səpələnmiş, digər kiçik bir hissəsi isə Azərbaycanda, əsasən Kür-Araz ovalığında sakin olmuşlar. Çox ehtimal ki, onları bura cəlb edən özlərindən əvvəl burada yurd salmış məhz türkdilli qohum qəbilələrin varlığı olmuşdur. Bizcə, Azərbaycan ərazisində vaxtilə bütöv bir «Saklar Ölkəsi» mövcud olmuşdur.

«Azərbaycan» sözünün ilkin şəkli olan «Atropate»nin də məhz eramızdan əvvəl Makedoniyalı İsgəndərin hücumundan çox əvvəllər də mövcud olduğunu göstərən akad. N.Y.Marrın fikrincə, «Atropat» sözü Atropatın yaşadığı vaxtdan xeyli əvvəl var imiş».

Odərbad, yaxud Adərpate, nə Əhəmənilər sülaləsi hakiminin, nə də Makedoniyalı İsgəndərin sərkərdəsinin adı deyil, Azərbaycanın qədim dövləti olan Kiçik Midiyanın öz daxilində təşəkkül tapmış etnik-coğrafi addır. Deməli, ölkə

öz adını hökmdarın adından deyil, əksinə, hökmdar öz adını ölkənin adından almışdır.

*(Məqalə prof. Şamil Cəmşidovun «Azərbaycan sözünün mənşə və mənası haqqında» məqaləsindən ixtisarla verilmişdi)*

## TÜRK ƏLİFBALARI

Bugünkü Türk dünyasında əsasən üç əlifba: latın, ərəb və kiril əlifbaları işlənilir. Tarixin alt qatlarına baxsaq Orxon-Yenisey və Uyğur əlifbalarının mövcud olması bəlli olur. X əsrə qədər yaşayan və ilk Türk əlifbası sayılan Orxon əlifbasına aid mətnlər VII əsrə təsadüf edir. VIII və XV əsrlər arasında isə Uyğur əlifbası (əsasən Şərqi Türküstanda) yayılmışdır. Alban (Ağvan) əlifbası isə Azərbaycanda yayılmışdır.

Türkdilli xalqların uzun müddət istifadə etdikləri əlifba ərəb qrafikalı türk əlifbasıdır. İslam dinini qəbul edəndən istifadə edilməyə başlanan bu əlifba on əsrdən artıq bir müddətdə bütün Türk dünyasında istifadə edilmişdir.

1928-1939-cu illərdə latın qrafikalı türk əlifbası ilk dəfə Azərbaycanda işlədilmişdir. 1928-ci ildən isə Türkiyə türkləri də bu əlifbaya keçmişlər. Qeyd edək ki, Sovet ideoloji maşını Türk xalqları arasına əlifba və ad ayrılığı salmaq üçün 1940-cı illərdən latın əlifbasını kiril əlifbası ilə əvəz etmişdir. Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra mühüm addımlardan biri olaraq yenidən latın əlifbasından istifadə edilmişdir.

İslam dininin çatmadığı Sarı Uyğur, Altay, Tuva, Abakan (Xakas), Yakut, Çuvaş, Qaqauz və Karayım türklərindən başqa bütün türklər X əsrdən XX əsrin əvvəllərinədək ərəb qrafikasından istifadə etmişlər. Keçmiş Sovet məkanında Altay türkləri 1937-ci ildə, Krım, Kazan, Noqay, Qaraçay, Balkar və Qumuq türkləri 1938-ci ildə,



Yakut və Abakan türkləri 1939-cu ildə, Türkmən, Özbək, Başqırd, Qaraqalpaq və Qırğız türkləri 1940-cı ildə, Uyğur türkləri 1947-ci ildə kiril əlifbasına keçmişdir. 1991-ci ildə Sovet İttifaqının dağıdılmasından sonra müstəqilliyini qazanan Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan kimi türkdilli dövlətlərdə yavaş-yavaş kiril əlifbasından latın əlifbasına keçildi. Hal-hazırda Azərbaycanda latın qrafikalı Azərbaycan əlifbasından istifadə edilir.

## TÜRK DÜNYASI VƏ ONUN DİLLƏRİ

Bu problem bir sıra məsələlərlə bağlıdır. Ona görə də türk anlayışı, türkün inamı, xarakteri, türklərin yayıldığı yerlər, yaratdığı dövlətlər haqqında qısa biliklər əldə etməyin xüsusi əhəmiyyəti vardır. Şübhəsiz ki, belə elmi məlumatlar problemin ətraflı və düzgün aydınlaşdırılmasına yaxından kömək edər.

**«Türk kimdir»** sualı əvvəlcə Avropa alimlərini, daha sonra bütün dünyanı maraqlandırmışdır. Türklərin bacarığı, şan-şöhrəti dostlarını heyran etmiş, düşmənlərini düşündürmüşdür. Zaman-zaman bir çox qeyrilərinin məhz «Mən də türkəm» deməsi, heç də əbəs olmamışdır.

Müasir dünyamızda bütün türk soylu insanlar **türk sözü** ilə ifadə olunur. Lakin ən uzaq keçmişlərdə bu belə deyildi. O zamanlar q ə d i m t ü r k a d a m ı **Kun→hun** adlanırdı. Türklərin türk adlanması xüsusi tarixi yol keçmişdir.

«Türk» sözü türk millətinin və dövlətinin adı kimi ilk dəfə VI əsrin II yarısında «Göytürk imperatorluğu»nda işlənilmişdir. Bundan sonra imperatorluğa aid olan türk soylu qəbilələr də «türk» sözü ilə adlandırılmışdır.

Hazırkı dövrdə «türk» sözü konkret və ümumi olaraq iki başlıca mənada işlənilir.

1. «Türk» sözü dar mənada – Anadoluda yaşayan türk soylu, Osmanlı adı ilə məşhurlaşmış xalqın və onun dilinin xüsusi rəsmi adını bildirir. **Məsələn**: *türk xalqı, türk milləti,*

*türk dili.*Türk millәti bu sözlә bağlı ölkәnin, dövlәtin dә adını yaratmışdır. *Türkiyә dövlәti, Türkiyә ölkәsi, Türkiyә cümhuriyyәti.*

2. «Türk» sözü geniş vә ümumi mәnada bütün türk soylu xalqların, qrupların vә onların dillәrinin ortaq adını bildirir. **Mәsәlәn**: *türk dövlәtlәri, türk millәtlәri, türk xalqları, türk tayfaları, türk qәbilәlәri, türk dillәri.*

Türk xalqlarının hәr birinin özünә aid fәrqli adı vardır. Eyni zamanda bu ad hәmin xalqın dövlәtinin vә dilinin dә rәsmi adı kimi işlәnilir.

| | | |
|---|---|---|
| Azәrbaycan xalqı | - | *Azәrbaycan dili* |
| Qazax xalqı | - | *Qazax dili* |
| Qırğız xalqı | - | *Qırğız dili* |
| Özbәk xalqı | - | *Özbәk dili* |
| Türk xalqı | - | *Türk dili* |
| Türkmәn xalqı | - | *Türkmәn dili* vә s. |

Bu dillәrin hәr biri müstәqil dil olub, mәnşәcә Altay dillәri ailәsinin türk dillәri qrupuna mәnsubdur. Planetimizdә 260 milyondan çox türk soylu vә dilli insan yaşayır.

*(Mәtn Afat Qurbanovun «Türkoloji dilçilik» kitabından götürülmüşdür, sәh. 33-34)*

## TÜRKLӘR

Türklәr bәşәr tarixinin müxtәlif dövrlәrindә öz qәhrәmanlığı, cәngavәrliyi, igidliyi vә comәrdliyi ilә fәrqlәnmişdir. Yaratmış olduğu qüdrәtli tayfa birlәşmәlәri, dövlәtlәr, xaqanlıqlar vә hәtta imperiyaların sayına görә tarixdә türk xalqına bәrabәr tutulacaq ikinci bir xalq tapmaq çәtindir, desәk, yanılmarıq. Bunu tarixi mәnbәlәr dә aydın sübut edir.

Hun tayfa birlәşmәlәri vә Hun ittifaqı, Türk xaqanlığı, Qırğız xaqanlığı, Xәzәr xaqanlığı, Sәlcuqilәr dövlәti, Teymurilәr dövlәti, Göktürk imperatorluğu, Osmanlı dövlәti, sonra isә imperiyası, Ağqoyunlu vә Qaraqoyunlu dövlәtlәri, Sәfәvilәr dövlәti… Türklәrin tarix boyu yaratdıqları dövlәt qurumlarının tam olmayan siyahısı belәdir.



Hәlә eramızdan әvvәl birinci minilliyin başlanğıcında türk dilindә danışan Hun tayfaları Mәrkәzi Asiya çöllәrindә tәşәkkül edәn, eramızdan әvvәl üçüncü әsrin sonunda isә özlәrinin qüdrәtli tayfa birlәşmәlәrini yaradaraq sәrkәrdә Mәtәnin başçılığı ilә bir sıra güclü tayfaları mәğlubiyyәtә uğradıb Çinә hücum etmiş vә 200 illik bir dövr әrzindә bu böyük ölkәni özlәrinә bac vermәyә mәcbur etmişlәr.

Eramızın II-IV әsrlәrindә Hun tayfalarının qәrbә doğru hәrәkәt etmiş qolundan Ural boyunda meydana gәlmiş köçәri Hun tayfa birlәşmәlәrinin sonralar qәrb istiqamәtindә özlәrinin müzәffәr yürüşlәrini davam etdirәrәk, oradakı dövlәtlәri necә lәrzәyә saldığı tarixdәn yaxşı mәlumdur. V әsrin birinci yarısında mәşhur Hun sәrkәrdәsi Attilanın Avropa üzәrinә müvәffәqiyyәtli hücumları qüdrәtli Hun ittifaqının yaranması ilә nәticәlәnmişdi.

N.M.Karamzinin on iki cildlik mәşhur «Rusiya dövlәtinin tarixi» әsәrindәki verilәn mәlumat maraqlıdır: «…onların qәzәbli hökmdarı Attilanın dövründә hunlar Volqadan Reynәdәk, Makedoniyadan Baltik dәnizi adalarınadәk bütün ölkәlәri özlәrinә tabe etmişdilәr» (göstәrilәn әsәr, I cild, sәh. 39).

Sonralar ayrı-ayrı tayfa başçılarının xәyanәtkarlığı vә mәrkәzdәnqaçma meylinin güclәnmәsi nәticәsindә aramsız davam edәn ara müharibәlәri türk xalqlarının yaratmış olduqları dövlәtlәri zәiflәtmiş, daha çox döyüş meydanlarında fәrqlәnәn bu cәngavәr xalqlar mәkrli siyasәtçilәrin hiylәgәrliyi vә ikiüzlülüyünün qurbanı olmuşlar.

Tarixdә müxtәlif türk tayfa vә dövlәtlәrinin bir-birinә qarşı qanlı müharibәlәr aparması, bir türk dövlәtinin digәr türk dövlәt qurumunu mәhv etmәsinә dair dә istәnilәn qәdәr nümunәlәr vardır. Bu da öz növbәsindә yadelli düşmәnlәrin

onların üzərinə ayaq açmasına imkan yaradır, türk xalqlarının müqavimətini zəiflədir, müqəddəratını xeyli dərəcədə təhlükə altına alırdı.

XVIII əsrdən türk xalqlarının müqəddəratı xüsusilə böyük təhlükə altında qaldı. Məhz bu əsrdən başlayaraq onlar daha güclü və amansız, daha xəbis və rəhmsiz düşmənlərlə üz-üzə gəldilər. 1721-ci ildə Rusiya imperiyasının yaranması və tatarların, başqırdların, Krım tatarlarının, noqayların, yakutların və digər türk xalqlarının, XIX əsrdə isə həm də Şimali Azərbaycanın və Orta Asiya xalqlarının əksəriyyətinin bu imperiyanın tərkibinə qatılması, həmçinin 1760-cı ildə Çini idarə edən mancur sülaləsinin, ara müharibələri nəticəsində taqətdən düşmüş Şərqi Türküstanın Çinə qatılması ilə bu xalqların qismən və mənən məhv edilməsi təhlükəsi qat-qat gücləndi. Doğrudur, hələ qərbdə Osmanlı imperiyası dururdu, lakin o da özünün əvvəlki qüdrətini itirməkdə idi. Əsrin ikinci yarısından başlanan ənənəvi Rusiya-Türkiyə müharibələri hər dəfə Türkiyə əraziləri hesabına Rusiya imperiyasının ərazilərinin genişlənməsilə nəticələnirdi. Daha kiçik türk dövlətlərinə və türk xalqlarına qarşı isə Rusiya və Çin açıq-aşkar qəsbkarlıq və genosid siyasəti yeridir, öz ərazilərini türk torpaqları hesabına genişləndirməkdə davam edirdilər.

Dünya irticaçılarının fəal köməyilə yeridilən həmin məqsədyönlü siyasət yaşadığımız günlərə qədər müxtəlif adlarla, müxtəlif formalarda həyata keçirilsə də onun mahiyyəti həmişə eyni olmuşdur: öz ərazi bütövlüyünü hər cür qəsdlərdən qəhrəmanlıqla qoruyub saxlaya bilmiş Türkiyə istisna olmaqla, daha dünyanın heç bir yerində türk xalqlarının istiqlaliyyət qazanmasına və milli dirçəlişinə, müstəqil türk dövlətlərinin yaranmasına yol verməmək! Şərqdə ilk müsəlman və türk respublikası olan Azərbaycan Demokratik Respublikası 1920-ci ilin aprelində bolşevik Rusiyası tərəfindən süqut etdirilsə də, 70 ildən sonra yenə də müstəqilliyinə qovuşdu. İndi dünya xəritəsində Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan kimi müstəqil türk dövlətləri öz yerini alsalar da, hələ də 250 milyonluq Türk xalqlarının bir çoxu federasiyalar və dövlətlər daxilində yaşamaqda davam edir.



## SİBİR TÜRKLƏRİ

Tobol, İrtış, İşim, Ob, Yenisey, Abakan, Lena çaylarının axdığı, Altay, Sayan dağlarına qədər uzanan ərazi Sibir adlanır. Bu ərazidə yaşayan yerli əhaliyə Sibir türkləri deyilir. 1992-ci ilin siyahıyaalınmasına görə burada yaşayan Sibir türklərinin sayı bir milyon üç yüz min (1300000) nəfərdir. Sibir türkləri etnik köklərinə görə Yakut, Tuvan, Xakas, Altay, Şor, Dolqan, Sibir tatarları və Buxarlardan ibarətdir.

Bu ərazinin iqlimi çox sərtdir. İllik orta temperatur mənfi 11 dərəcədir. Ərazinin böyük hissəsi tayqa meşələridir. Sibirin yeraltı sərvəti qızıl, almaz, neft, qaz və başqa faydalı qazıntılarla zəngindir.

## İLK YAZINI TÜRKLƏR YAZDI

Arxeoloqlar türklərin ana vətəni olan Orta Asiyada hələ elmə məlum olmayan bir mədəniyyətin izinə rast gəliblər. Aşqabad ərazisində aparılan qazıntılarda heç bir mənbədə adı çəkilməyən bir mədəniyyətə aid yazılar tapılıb. 4 min il yaşı olan kitabələr elmə məlum olmayan bu mədəniyyətdə Çindən də əvvəl yazı olduğunu göstərir.

Pensilvaniya universitetindən, arxeoloq Fredrik Hiebert isə bu barədə deyib: «Arxeoloji qazıntılar nəticəsində əldə edilən tapıntılar Orta Asiyada ən azı İran mədəniyyəti qədər inkişaf etmiş bir mədəniyyət olduğunu göstərir. Bu dövrdə yaşayanlar maldarlıq və əkinçiliklə məşğul olmuş, çini və bürünc alətlər düzəltmişlər».

Frederik Hiebertin tapdığı yazı isə bir möhürün üstün-

dədir. Bu yazı təqribən e.ə. 2300-cü ilə aiddir. Bu tarix Mesopotamiya və İran kimi dövlətlərdə yazının meydana çıxdığı tarixlə toqquşur. Xatırladaq ki, o tarixdə çinlilərdə hələ yazı yox idi.

*(«Zaman» qəzeti 2001-ci il, 12-13 iyun)*

## QAQAUZLAR

Qaqauzlar Moldaviyada, Şimali Qafqazda və Qazaxıstanda, habelə Bolqarıstanda, Rumıniyada yaşayırlar. 1990-cı ilin siyahıyaalınmasına görə keçmiş SSRİ-də qaqauzların sayı 200 min nəfərdən artıq idi. Xaricdə isə onların sayı 10 min nəfərdir.

Akademik L.S. Berq yazır ki, qaqauzlar türkdilli xalqlardandır, qaqauz dili türk dilinə çox yaxındır, amma bu xalq xristian dininə inanır.

Qaqauzların ulu babaları Orta Asiyada Aral dənizi, Sır-Dərya bölgələrində Öğuz dövlətinin (Oğuzıstan) tərkibində yaşamışdır. Oğuz dövləti çox uzun yaşamayaraq üç yerə parçalanır. Səlcuq oğuzları, Xak oğuzları, Yerli oğuzlar. Müsəlmanlığın yayılması ilə bağlı Səlcuq oğuzları müsəlman oldular və cənub tərəfə çəkildilər. Yerli oğuzlar öz yerlərində qaldılar, sonralar onlar da müsəlmanlaşdılar. Xak oğuzlar (Hakoğuzlar) müsəlman dinini qəbul etməyərək Don və Dnepr tərəflərə köçdülər. Zaman keçdikcə yavaş-yavaş hakoğuzlar qaqauz adlandı: Rus knyazları bu xalqı himayə edib düşmənlərə qarşı onlardan istifadə edirdi.

A.Aleksandrov yazır: «Rus tarixinin birinci əsrlərində qaqauzların babaları ulu rus dövlətinə qonşu olmuşlar. O vaxtlar rus padşahları düşmənlərindən qorunmaq üçün köç edən qaqauzlara yer vermiş, sonralar bu nəsillər pravoslav dinini qəbul etmişlər».

Qaqauzların ana dilində məktəbi 1958-ci ildə açılmışdı. 1961-ci ildə isə bu məktəblər qapandı. 1986-cı ildə yenə



onlara ana dilində milli məktəblərin açılmasına icazə verildi.

Qaqauzların şifahi xalq ədəbiyyatı çox zəngindir. Onların folklorunu ilk dəfə V.A.Moşkov toplayıb 1901-1902-ci illərdə «Bender qəzasının qaqauzları» adlı kitabda nəşr etdirmişdir.

## OĞUZNAMƏ

Hal-hazırda Azərbaycanda, Türkmənistanda, Türkiyədə, İranda və İraqda yaşayan türkdilli xalqların əcdadı olan oğuzlar və onların əsatiri əcdadı Oğuz xan haqqında dövrümüzədək çoxlu rəvayətlər gəlib çıxmışdır. Erkən orta əsrlərdə ağızdan-ağıza şifahi çatdırılan bu rəvayətlər sonralar yazıya köçürülmüş, bir çox orta əsr müəllifləri (Mahmud Kaşqarlı, Rəşidəddin, Əbu-Qazi və b.) tərəfindən qələmə alınmışdır. Oğuz haqqında dastanlar barədə ən erkən məlumat XIV yüzilliyin əvvəllərinə aiddir. «Oğuznamə» adlandırılan bu dastanlar Oğuz xan haqqında çoxəsrlik rəvayət və əhvalatları özündə birləşdirmişdir. Burada Oğuz xanın yaxın qohumları ilə mübarizəsi və onlara qalib gəlməsi, bir çox ölkələrə, o cümlədən Azərbaycan ərazisinə, oradan Şama, Ruma və s. yürüşü, oğlanları Günxan, Ayxan, Ulduzxan, Göyxan, Tarxan, Dəniz (Tenqiz) xan və onların 24 oğuz qəbiləsinin təməlini qoyan övladları haqqında məlmat verilmişdir. «Oğuznamə»lər sırasına «Kitabi- Dədə Qorqud» boylarını, həmçinin ozanların qoşduqları qəhrəmanlıq mahnılarını da daxil etmək olar.

## «KİTABİ-DƏDƏ QORQUD»da İQTİSADİ VƏ SOSİAL FİKİRLƏR

«Kitabi-Dədə Qorqud» türkdilli xalqların tarixinə möhtəşəm və monumental bir sənət əsəri kimi daxil olub. O, bütün türk ədəbi-bədii, tarixi, iqtisadi, sosial, maddi, mənəvi həyatı, adət və ənənələri əks edirən qədim zəngin qaynaqlardandır.

Məlum olduğu üzrə «turanlılar»ın ən öncül qollarından biri oğuzlar olub. Dastanda oğuz tayfalarının o zamankı məşğuliyyətlərindən xəbər verilir. Orada maddi nemətlər istehsalının müxtəlif sahələri, təsərrüfat rəngarəngliyi, onların konkret strukturu, əmək bölgüsü və bunun aparıcı təmsilçisi olan ixtisaslaşma növləri aydın duyulur.

«Kitabi-Dədə Qorqud» türkdilli xalqların mədəniyyət salnaməsidir, lakin oradakı müxtəlif səpkili süjet və motivlər, hekayət və əhvalatlar, iqtisadi və sosial həyata dair ayrı-ayrı ştrixlər, ifadə və məfhumlar onun bilavasitə qədim oğuz-türk tayfalarına aid olduğunu bildirir.

Tarixi məlmatlara görə oğuzlar, ümumiyyətlə, 24 boydan, qəbilədən ibarət olub. «Kitabi-Dədə Qorqud» dastanlarında oğuzların Rumla, Suriya ilə, Çinlə Misirlə, Gürcüstanla, Roma ilə ticarət əlaqələrindən bəhs edilir.

Bütün bunların hamısı küll halında tarixi «Dədə Qorqud» dastanlarının Azərbaycanda baş vermiş hadisələrlə bilavasitə bağlı olduğunu şübhəsiz təsdiqləyir.

Oğuz tayfalarının o zamankı həyatında heyvandarlıq səciyyəvi olsa da dastanda bağçılıqdan, üzümçülükdən, bostan təsərrüfatçılığından, dənli bitkilərdən xəbərlər verilir, onların su ilə becərilməsinə istinadlar vardır. Taxılçılıq ən çox Şəki, Naxçıvan, Muğan, Təbriz, Urmiya, Beyləqan və s. yerlərdə geniş yayılıbmış.

Baramaçılıq, arıçılıq kimi sahələrlə bərabər qədim oğuz türkləri ovçuluq ilə də yaxından, məşğul olublar.

Qədim-oğuz türk tayfalarında heyvandarlıq, əkinçilik məşğuliyyətləri ilə yanaşı emalçılıq, dəmirçilik, keçəçilik, gön-dəri hazırlığı, dabbaqlıq, xalçaçılıq, kilimçiilk, şərabçılıq, dulusçuluq, zərgərlik kimi məşğuliyyətlərinin də hər biri bu və ya digər dərəcədə yayılmışdır.

«Kitabi-Dədə Qorqud» dastanında maliyyəni səciyyələndirən bir sıra anlayışların adına rast gəlinir. Xəzinə, bol xəzinə, qızıl-gümüş, pul, xərclik vermək, altun və ticarət, tacirlik məsələlərilə bağlı bəhslər buna misal olna bilər.

«Kitabi-Dədə Qorqud» dastanı etik-davranış normaları, əhvalatlar, anlayışlarla zəngindir. Dastanda müxtəlif



geyimlərin adları qeyd olunub. Məs: şalvar, çadra, kaftan, yapıncı, kürk, cübbə, çuxa, tacir donu, atlas geyimləri və s.

Oğuzların, ümumiyyətlə, dadlı yeməklər yemələrindən, həyatlarını yeyib-içməkdə, ziyafətlərdə, qonaqlıqlarda, həm də mənalı, şən keçirmələrindən xəbər verilir. Qonaqsevərlik hər zaman özünü büruzə vermiş, yoxsullara əl tutmaq, onlara kömək göstərmək kimi incə xüsusiyyətlər həmin dövrə xas olmuşdur.

«Kitabi-Dədə Qorqud» dastanında anaya, qadına yüksək ehtiram hissi aşılanır. Bu özünün ən yüksək ifadəsini «Ana haqqı-Tanrı haqqı» məfhumlarında tapır. Boylarda oğuz ellərində valideynlərin övlad məhəbbətli, övladcanlı, xüsusilə oğulcanlı olma ənənəsi öz ifadəsini tapmışdır. El, yurd, vətən uğrunda savaş, döyüş, mübarzə aparmaq tarixən oğuz türklərində dərin kök salmışdı.

«Kitabi-Dədə Qorqud» və başqa oğuz dastanlarındakı müəyyən anlayış və ifadələr göstərir ki, ümumiyyətlə oğuzların hər bir işin təşkilində müxtəlif vəzifə bölgüsü varmış: qaravulda duranlar, yeravullar (bunlar cəsur gənc döyüşçülərdən təyin olunurdu), sağ cinah, sol cinah, mərkəz cinah. Sağ cinahla sol cinahın arasında duran mərkəz cinahda komandanın başçısı sayılan yasav dayanırmış və s. Belə nizami ordu ilə qələbə çalmaq imkanı yüksək imiş.

«Kitabi-Dədə Qorqud» iqtisadi və sosial təlimlər tarixini öyrənmək baxımından da qədim oğuz türklərinin tayıbərabəri olmayan monumental bir abidəsidir. Burada oğuz türklərinin iqtisadi və sosial həyat sahəsində də bir neçə əsr boyu formalaşmış meyarları, zəngin mənəvi irsi, onların tarixi təkamül prosesində həmin istiqamətdə mühüm uğurları parlaq surətdə nümayiş olunur.

*(Mətn Teymur Vəliyev və Ağayar Həsənovun «Azərbaycan iqtisadi fikir tarixi» kitabından ixtisarla yazılmışdır. Bakı, Azərbaycan Dövlət İqtisad İnstitutu, 1996. səh.21 – 62).*

## UYĞUR MƏDƏNİYYƏTİ

Uyğur türkləri hər baxımdan yüksək mədəniyyət yaratmış, zamanımıza çox dəyərli əsərlər çatdırmışlar. Onlar elm, sənət, idarə baxımından bütün Asiyaya təsir etmiş, ərəblərə və qərblilərə bir çox sahədə örnək olmuş, elm və texnikaya səy göstərmişdilər.

Uyğur türkləri Altay dil qrupunun «xaqaniyə» ləhcəsində danışırdılar. Qədim türk ədəbiyyatının ən dəyərli əsərləri olan «Divani lüğət-it-türk», «Kutatqu-Bilik», «Atabetül Xaqayiq»... kimi qızıl kitablar türkcənin bu ləhcəsi ilə yazılmışdır.

Uyğurlar bir müddət türklərin milli yazısı olan Orxon əlifbasını işlətdikdən sora mani dininin  təsiri ilə soqd əlifbasına keçmişdilər. Daha sonra islamiyyəti qəbul edincə ərəb əlifbasını götürsələr də Xaqaniyə ləhcəsində danışmağa davam etmişdilər. XV əsrdə dah çox «Cağatay ləhcəsi» adlanan bu danışıq tərzi Çingiz xan imperatorluğunda və Teymurilərdə də rəsmi dil olaraq işlədilmişdir. Uyğurlar maniheizm təsiri ilə aldıqları soqd əlifbasını dillərinə uyğunlaşdırmış və islamiyyətə qədər bu əlifbanı işlətmişlər.

Uyğur türklərinin ən böyük xətaları milli Orxon əlifbasını buraxıb, soqd əlifbasını qəbul etmələri olsa da, onlar bu yazı ilə də çox dəyərli əsərlər yaratmışdılar.

## İLK MÖHTƏŞƏM ABİDƏMİZ

XI əsr yadigarı «Qutadqu bilik» türkdilli xalqların ilk poeması, onların dil xüsusiyyətlərini, bədii təfəkkür gücünü öz aynasında göstərən birinci möhtəşəm əbədi abidəsidir. Bu əsər bir xalqın deyil, bütün türkdilli ulusların ortaq sərvətidir və çox güman ki, həmin dövrdə, yəni Qaraxanlılar deyilən Türk sülaləsinin əzəmətli bir dövlət kimi çiçəkləndiyi çağlarda həmin dövlətin himayəsində yaşayanların və ədəbi dili bilənlərin hamısı üçün anlaşıqlı olmuşdur.



Poemanın yazıldığı dövrdə Qaraxanlılar dövləti Yuxarı Çindən tutmuş, Xəzər sahillərinədək olduqca geniş bir ərazini əhatə edən möhtəşəm bir məmləkətin başında dururdu və dastanın ruhundan bəlli olur ki, özünün renesans çağlarını yaşayırmış. Başqa sözlə desək, həmin Türk dövlətinin, Türk ruhunun çiçəklənməsi üçün belə bir əsərin yaranması zəruri imiş. Dövlət quruluşu, dövlət başçısı necə olmalıdır? Dövlət başçısı ilə rəiyyət, cəmiyyət ilə fərd arasındakı münasibətlər necə qurulmalıdır? Ayrı-ayrı sinif, təbəqə və zümrələrin əxlaqı, dünyagörüşü, borcu, məsuliyyət dərəcəsi, imtiyazları, Allah və bəndə qarşısında başlıca vəzifəsi nədən ibarətdir? Poema bu kimi sorğulara cavab vermək üçün yazılmışdır. Dövlət başçısı və rəiyyət necə davranmalıdır ki, bu möhtəşəm türk dövləti daha da çiçəklənsin, düşmən qarşısında sarsılmasın, öz milli istiqlalını, ərazi böyüklüyünü axıradək qoruyub saxlaya bilsin, ayrı-ayrı tayfalar, xanlar, dərəbəylər arasındakı didişmələrə son qoysun, onları düşmənə qarşı vahid bir cəbhədə birləşdirə bilsin. Poema yaradıcısı bu kimi məqsədləri də aydınca izləyir, ən tutarlı, ən dürüst cavablarını verməyə çalışır.

Əzəmətli Kaşğarı (Ötükəni) özünə paytaxt seçmiş Qaraxanlılar dövləti şimalda Balasaqun, qərbdə Səmərqənd, ortalıqda Herat kimi böyük elm, sənət, ticarət, mədəniyyət, mərifət mərkəzlərinə malikdi. Yaradılan elmi və bədii əsərlərin çoxu ərəbcə, farsca idi, lakin tarixi gedişat, xalqın təfəkkür tərzi, mənəvi ehtiyacı məhz ana dilli doğma ədəbiyyatın yaradılmasını tələb edirdi. Poema yaradıcısı Yusif Xas Hacib Balasaqunlunun dahiliyi bundan ibarətdi ki, həmən ehtiyacı hamıdan öncə duymuş, böyük idrak gücünü, aşıb-daşan ilhamını doğmalıq üstündə kökləmiş və demək olar ki, öz dövrünün ensiklopediyası adlana biləcək möhtəşəm bir abidə yaratmışdır. Poemanın dil saflığı,  ərəb-fars sözlərinin, yabançı kəlmələrin çox nadir hallarda, yalnız zərurət məqamlarında işlədilməsi göstərir ki, Balasaqunlu Yusif bəy Türkcənin incə bilicisi, təəssübkeşi, cəfakeşi və

mətin qoruyucusudur. Poemadan bəlli olur ki, o, öz dövrünün bütün elmlərindən xəbərdardır. Tarixi, coğrafiyanı, ulduzşünaslığı, ilahiyyatı, Quranı, fiqhi kamil bilir, ən başlıcası adı böyük hərflərlə yazılmağa layiq insandır, müsəlmandır, haramı yaxın qoymayan, halallığa güvənən, öz gündəlik ruzusunu, səadətini daşdan çıxaran zəhmət xadimidir, hər iki dünya qarşısında üzüağdır.

Balasaqunda anadan olmuş Yusif Xas Hacib bu əsəri 50 yaşına əlvida dediyi çağlarda, 462-cü ildə (miladi hesabla 1069-1070) on səkkiz aya tamamlamışdır.

*(Mətn Yusif Balasaqunlunun «Qutadqu biliq» əsərinə Xəlil Rza Ulutürkün yazdığı ön sözdən götürülmüşdür)*

## KAŞQARLI MAHMUD
## (1029-1126)

Kaşqarlı Mahmud 1029-cu ildə Şərqi Türküstanın (bu gün Çinin tərkibində olan Sincan bölgəsi) Azık kəndində anadan olmuşdur. Atasının türklərin kınık qəbiləsindən, bəzi mənbələrdə isə Qaraxanlılar sülaləsindən olduğu yazılmaqdadır.

İlk təhsilini Kaşqarda almış, sonra təhsilini bir müddət Bağdadda davam etdirmişdir. Türk dünyasının, demək olar ki, hər yerini gəzərək, türk qəbilə və boylarının dil və mədəniyyətindəki ən incə nöqtələri öyrənməyə çalışmışdır. 97 yaşında Kaşqar şəhərinə dönmüş və orada vəfat etmişdir. Məzarı Kaşqarın güneyindəki Opal kəndindədir. Qəbri Həzrəti Molla adı ilə müqəddəs bir məkan olaraq mühafizə edilməkdədir.

Kaşqarlı Mahmud türk dünyasına ən böyük xidməti 1074-cü ildə yazdığı «Divani-lüğət-it-türk» əsəri ilə göstərmişdir. Bu əsərin əlyazma nüsxəsi İstanbulda mühafizə edilməkdədir. Əsər 1912-1915-ci illər arasında Türkiyədə Kilisli Rüfət tərəfindən yayımlanmışdır. Dörd cilddən ibarət



olan bu əsərdə 9000-ə yaxın kəlmə və ifadə, zəngin folklor örnəkləri vardır.

Kaşqarlı Mahmud bu lüğətinə Məhəmməd Peyğəmbərin «Türklərin dilini öyrənin, onların uzun müddət davam edən hakimiyyəti vardır» kəlamını zikr edərək başlamışdır. Lüğətin önəmli tərəflərindən biri də budur ki, bu sözlükdə hər hansı bir məsələ izah edilərkən atalar sözü, şer və dastan parçaları, xalq ifadələri örnək olaraq verilir.

Kaşqarlı Mahmud bu əsərində kəlmələrin etimologiyasını, türk dillərindəki səs uyumu qanununu incələyərək, onların leksik və morfoloji xüsusiyyətlərini də izah etmişdir.

Bu lüğətdə türk boyları haqqında da məlumat verən Kaşqarlı Mahmud əsil türklərin 20 qəbilədən ibarət olduğunu qeyd edir və onları sıra ilə Rum yaxınlığından Şərqə qədər belə sadalayır: Beçənək, Qıfcaq, Oğuz, Yemak, Başqurd, Basmıl, Qay, Yabğu, Tatar, Qırğız, Çigil, Toksı, Yağma, Uyğur, Cumul və s. Bunların başlıca qəbilə olduğunu, bunlardan başqa çoxlu kiçik qəbilə və tayfaların da olduğunu qeyd etmiş, o dövrdə türkdilli əsas qəbilələrin yayıldığı və yaşadığı yerlərə dair xəritə də tərtib etmişdir.

Kaşqarlı Mahmudun türk dünyasına ən böyük xidməti olan bu əsəri tərtib edildiyi tarixdən 9 əsrə yaxın bir vaxt keçməsinə baxmayaraq hələ də diqqət və tədqiqat mərkəzindədir.

Bəzi qaynaqlara görə Kaşqarlı Mahmudun dilçiliyə aid «Kitabi Cavahirül-məhvfil-lüğət-it-türk» adlı kitabı da vardır.

## ALİ ŞİR NEVAİ
## (1441-1501)

Çokyönlü bir yazar, şair, ilim ve devlet adamıdır. 1441`de Horasanın Herat şehrinde Giyasettin Kiçikgine adlı bir saray adamı ailesinde dünyaya gelmiştir. 6 yaşında ailesi Herat`tan ayrılmış, bir süre Irak, İran (Meşhed`de),

1466-69 yıllarında ise Semerkant`ta yaşamıştır. Tahsilini Herat, Meşhed ve Semerkant`ta tamamlamıştır. 1468`de Nevainin okul arkadaşı Hüseyin Baykara iktidara geçince Nevai`yi Herat`a getirmiş ve sarayda önce mühürdar, 1472`de vezir rütbesine yükseltmiş, emir ünvanını vermiştir.

Devrinin alim, şair, musıki ve hattatlarını himaye eden Nevai, iktidarda olduğu süre içinde medrese, hastane ve kervansaraylar inşa ettirmiş, yollar yaptırmıştır. Kendisini çekemeyenlerin iftirası sonucu 1476`da vezirlikten çekilir, yine de H.Baykara tarafindan Astarabad vilayetine vali olarak gönderilir. 1488`de Herat`a döner ve ömrünün sonuna kadar burada yaşar.

Küçük yaşlarında Sadi`nin «Gülistan» ve «Bostan»; Feridüddin–i Attar`ın «Mantıku`t-Tayr» adlı eserlerini mütalaa eden Nevai`nin 12 yaşında eser verdiği, 15 yaşında tanındığı ifade edilmektedir. 6 divanı vardır. İlk şiirlerini «Bedayi`ül-Nihaye» adlı divanında toplamıştır (1470). İkinci divanı «Nevadirül – Nihaye» (1476-1483) adını taşır. 1498-99`da yazdığı türkçe şiirlerini «Çahar Divan» adını verdiği dört ciltte toplamıştır. Hiç şüphesiz Nevai sanatının zirvesi Özbek türkçesi`yle (Cağatayca) yazdığı «Hamse»dir. Bu eser, türkçe konuşan boyların edebiyatını derinden etkilemiştir. Bu eseriyle Nevai Özbek edebi dilinin temelini sağlamlaştırmıştır. M.E.Resulzade onu, bu hizmetinden dolayı «Türkoğlu Türk» (Bkz. Azerbayjan Şairi Nizami, Bakü, 1990) olarak tavsif etmiştir. Cami`nin tavsiyesi ile Nizami`nin ve Emir Dehlevi`nin «Hamse»lerine cevap olmak üzere Özbek Türkçesiyle bir «Hamse» vücuda getirmiştir.

Özbek Türklerinin ebediyat tarihinde bedii nesrin en olgun örneklerini vermiştir. 1500`de yazdığı «Mahbubu`l-Kulüb»unda devlet ve günlük hayat meselelerine dokunur. Türkçeye çok büyük önem veren Nevai, «Muhakemetü`l-Lüğateyn» adlı eserinde Farsça ile Türkçeyi mukayese ederek Türkçenin zenginliklerini ortaya koymuş, Türkçeyi



aşağılayıp Farsçayı üstün tutanlara karşı çıkmıştır.

*(Məqalə Maarifə Hacıyeva, Şahin Köktürk və Kərim Sarılarla birgə hazırladıqları «Türk Dünyası ve Kardeş ülkeler Edebiyatı» kitabından ixtisarla götürülmüşdür. Samsun, 1997, s. 84-85)*

## NİZAMİ GƏNCƏVİ
*(1141-1209)*

Azərbaycan xalqının XII əsrdə yetişdirdiyi ən böyük simalardan biri Nizami Gəncəvi olmuşdur. O, 1141-ci ildə Gəncədə anadan olmuşdur. Şairin adı İlyas, atasının adı Yusifdir. Nizami onun təxəllüsüdür. Bu sözün mənası sözləri nizama salan, nəzmə çəkən, bir sözlə, şair deməkdir.

Nizami Gəncə şəhərində anadan olduğu üçün Gəncəvi (Cəncəli) ləqəbini qəbul etmişdir. O, ilk təlim-tərbiyəsini Gəncə mədrəsələrində almışdır. Azərbaycan dilindən başqa, fars, ərəb dillərini mükəmməl bilmiş, yunan və latın dillərinə bələd olmuşdur.

Şair bütün ömrünü Gəncədə keçirmiş və zəmanəsinin ən bilikli, məşhur sənətkarlarından olmuşdur.

Nizami öz dövrünün, «şairlər şahı» Xaqani ilə dost imiş. Xaqaninin vəfatı Nizamiyə ağır təsir etmiş, onun ölümü münasibətilə yanıqlı bir mərsiyə söyləmişdir:

Hey deyirdim ki, mən Xaqani mənim mərsiyəçim olsun.

Təəssüf ki, indi mən Xaqaninin mərsiyəçisi oldum.

Nizami Gəncəvi öz dövrünün bir çox elmlərini dərindən bilirdi. O, otuz yaşında artıq məşhur şair idi. Yaradıcılığını qəzəl, qəsidə və rübailərlə başlayan şair dünya ədəbiyyatında özünə görkəmli yer tutmuşdur. İlk böyük əsəri «Sirlər xəzinəsi» ona böyük şöhrət qazandırmışdır. Nizami Gəncəvini dünya ədəbiyyatında məşhur edən onun beş ölməz poemasıdır. Bunlar bütün dünyada «Xəmsə»

(«Beşlik») adı ilə məşhurdur. «Sirlər xəzinəsi» (1170), «Xosrov və Şirin» (1180), «Leyli və Məcnun» (1188), «Yeddi gözəl» (1196) və ömrünün sonlarında yazdığı ən böyük əsiri olan «İsgəndərnamə» (1200).

Nizami çox sevdiyi qadını Afaqdan Məhəmməd adlı yeganə övladını çox sevmiş, ona həm atalıq, həm də analıq etmişdir. Şairin oğlu gənc yaşlarından şeirə həvəs göstərmişsə də, atası onu öz nəsihətləri ilə bu yoldan çəkindirmiş, alim və birinci növbədə həkim olmağa həvəsləndirmişdir:

Görürəm şöhrətə ləyaqətin var,
Şeirdə, sənətdə məharətin var.
Şairlik eləmə, dövrana bax ki,
Tərif əvəzinə pislənir şer.
Şeirdən ucalıq umma dünyada,
Çünki Nizamilə qurtardı o da.

Nizami Gəncəvi öz əsərlərində xalq həyatının misilsiz gözəlliklərini məharətlə təsvir etmiş və söz sənətini yüksək qiymətləndirmişdir.

«Xosrov və Şirin» poemasını bitirən şair, o dövrün hökmdarı Qızıl Arslanın dəvətilə onun yanına gedib poemanı ona təqdim etmiş, əvəzində hökmdar ona Həmdünyan kəndini bağışlamışdır. Nizami ona hədiyyə verilən kənd haqqında şikayətlənmişdir.

Kənd nə kənd, andırar dar bir kürəni,
Yarımca ağacdır uzunu, eni.
Gəlirdən artıq onun xərci var,
Yarılığa əkər onu abxazlar.

Nizaminin adı Homer, Firdovsi, Ömər Xəyyam, Dante, Şekspir kimi söz ustalarının adı ilə bir sırada durur. Hazırda elə bir mədəni xalq yoxdur ki, Nizamini tanımasın. Şairin əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş



və geniş yayılmışdır. O, 1209-cu ildə Gəncə şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdur.

*Nizami Gəncəvi*

## OĞLUMA NƏSİHƏT

Sən, ey on dörd yaşlım, hər elmə yetkin!
Gözündə əksi var iki aləmin!

Yeddi yaşar oldun o zaman ki, sən,
Açıldın gül kimi, güləndə çəmən.

İndi ki, çatmışdır yaşın on dördə,
Başın sərv kimi durur göylərdə.

Ucalmaq istəsən, bir kamala çat,
Kamala ehtiram göstərər həyat.

Elə ki, böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?

Öz adına layiq işlər gör ki, sən,
Axırda utanma xəcalətindən.

Oğul, sözlərimə yaxşı qulaq as!
Ata nəsihəti faydasız olmaz…

Ol öz vicdanının sirrinə açar,
Çünki bu mərifət qəlbə nur saçar…

Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.

Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.

Məndən söyləməkdir, səndən eşitmək,
Bir insan əliboş gəzməsin gərək.

İnci tək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin!..

## NİZAMİ GƏNCƏVİNİN HİKMƏTLƏRİ

«Döyüşdən yaxşıdır barışıq, şəfqət,
Biri dərd gətirir, biri səadət.

«Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular».

«Şərab halalsa da mindirmə başa,
O haramzadadan uzaqda yaşa».

«Haram söyləmişdilər bir məqamda içkiyə,
Sonra haram etdilər ağla düşməndir deyə.

…Yol göstərsən ağılı məst eləmək yaramaz,
Sərçə üçün tərlana qəsd eləmək yaramaz».

«Çox gözəl olsa da eybi gizlətmək,
Dost dostun eybini örtməsin gərək».

«Nə çox əylənən ol, nə də çox yeyən,
Bunlardan süstləşər, boşalar bədən».

«Çox yemək, az yemək yaxşı iş deyil,
Etidalı gözlə, hər qaydanı bil».



«İnsana arxadı onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı».

«Qüvvət elmdədir başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz».

«Sükut çox yaxşıdır pis danışmaqdan,
Sükutdan olmamış heç kəs peşiman».

«Hər kəs yaxşı-yaman nə qoysa əsər,
Bununla zatını büruzə verər».

«Dəli o kəsdir ki, dünya malını,
Çox sevib bərkidir ev hasarını».

Oxudum, oxudum, sonra da vardım,
Hər gizli xəznədən bir dürr qopardım».

## YUNUS ƏMRƏ
*(1240-1320)*

Yunus Əmrə 1240-cı ildə indiki Əskişehirə bağlı Sivrihisarın Sarıköy adlanan kəndində anadan olmuşdur. Bu kənd Porsuk çayının Sakaryaya töküldüyü bir yerdədir. Bu gün bu kənd Yunus Əmrənin adını daşıyır.

Yunus Əmrənin bir neçə şerindən məlum olur ki, o, mədrəsə təhsili almışdır. Onun ailə həyatı, anası, atası haqqında ətraflı bir məlumat zəmanəmizə qədər gəlib çatmışdır və şerilərində də bu barədə bir işarə yoxdur. Bir rəvayətə görə iki dəfə evlənmiş, başqa rəvayətə görə isə mürşüdü Tapdıq Əmrənin qızına aşiq olmuşdur. Onun adı, həyatı, məzarı rəvayətlərə dönmüşdür.

Anadolunu gəzən Yunus Əmrənin daha sonralar Azərbaycana, Şama gəlməsi, Konyada Mevlana ilə görüşdüyü, son günlərini Sarıköydə keçirərək, 1320-ci ildə həmin kənddə öldüyü tədqiqatçılar tərəfindən yazılmaqdadır. Anadolunun bir çox yerlərində (Əskişehir, Karaman, Bursa, Ərzurum, İsparta, Konya, Sandiklı, Ünyə, Sivas) məzarları olduğu söylənsə də məzarının Sarıköydə (indiki Yunus Əmrə Bələdiyyəsində) olduğu artıq qəbul olunmuşdur.

Onun adı Azərbaycanla da bağlıdır. Mürşidi Tapdıq Əmrənin və Yunus Əmrənin Qax rayonunun Oncalı kəndində Oğuz məzarlığında qəbirləri olduğu yazılmaqdadır. Prof. Məşədixanım Nemətin yazdığna görə Qax rayonunun Oncalı kəndindəki qəbiristanlıqdakı Şeyx Yunus və Hacı Tapdıq baba pirləri yerli əhali tərəfindən müqəddəs sayılan ən önəmli ziyarətgahlardan biridir. Alimin yazdığına görə «Yunus haqqında Bektaşı vilayətnaməsinə əsasən verilmiş rəvayətlər qaxlıların yaddaşında əsrlərdən-əsrlərə keçərək bu gün də eynilə söylənməkdədir».

Türkiyənin 9 şəhərində olduğu kimi Azərbaycanda da Yunus Əmrəyə aid məzarın olması Bəxtiyar Vahabzadənin yazdığı kimi «…Bir cisim, 9 məzar! Ululuğun doğurduğu heyrət! Hər şəhər, hətta hər kənd əhli Yunusun öz torpaqlarında gömülmüş olmasını istəmiş, onu özündən saymış və bağrında ona layiq bir məzar hazırlamışdır: hər məchul məzarı Yunusun torpağa basılmış əbədiyyət möhürüdür».

Yunus Əmrənin ilahiləri əsrləri aşaraq xalqın könlündə, dərgahlarda və təkkələrdə yaşamış və yaşamaqdadır. Bir çox əsərləri ölümündən sonra yazıya alınmışdır.

Yunus Əmrənin ölümündən 118 il sonra onun divanı Mahmud Mustafa Bin Xan tərəfindən yazılmışdır. Bu divanda onun 412 şeiri vardır. Sonralar prof.Fuad Körpülü, prof.Abdulbakı Gölpınarlı bu divanı nəşr etdirmişlər.

Hal-hazırda Yunus Əmrənin elm aləminə iki əsəri məlumdur. Biri bütün şeirlərindən ibarət divanı, digəri isə Risaletün Nüshiye («Öyüdlər kitabı») adlı əsəridir. Bu əsər



573 beytlik məsnəvi olmaqla Yunus Əmrənin görüşlərini əks etdirən nəsihətləridir.

6 may 1957-ci ildən Türkiyənin Əskişehir adlanan şəhərində hər ilin 6 – 10 mayında Uluslararası mədəniyyət və sənət həftəsi kimi Yunus Əmrə anma proqramları keçirilir.

Yunesko təşkilatının qərarı ilə 1991-ci il bütün dünyada Yunus Əmrə ili elan olunmuşdur.

*(Mətn Maarifə Hacıyevanın «Türk aşıqları» kitabından ixtisarla götürülmüşdür. Bakı, 2004. s.13-16.*

*Yunus Əmrə*

## SALAM OLSUN

Biz dünyadan gedər olduq,
Qalanlara salam olsun!
Bizim üçün xeyir-dua
Qılanlara salam olsun!

Əcəl bükə belimizi,
Söylətməyə dilimizi,
Xəstə ikən halımızı
Soranlara salam olsun!

Tənim ortaya açıla,
Yaxasız köynək biçilə…
Bizi asan bir vəch ilə
Yuyanlara salam olsun.

Kimsə durmaz qəsdimizə,
Gedər olduq dostumuza,
Namaz üçün üstümüzə

Duranlara salam olsun!

Bu qaydadı: gələn gedər,
Əcəl ki var, bizi güdər…
Bizim halımızdan xəbər
Soranlara salam olsun!

Dərviş Yunus söylər sözü,
Yaş doldurur iki gözü,
Bilməyən nə bilsin bizi?!
Bilənlərə salam olsun!

## NOVRUZ BAYRAMI

Novruz dünyanın ən qədim bayramlarından biridir. Tarixi eradan əvvələ təsadüf edən Novruz türkdilli xalqların ortaq mədəniyyətini yaşadan bir xalq bayramıdır. Bu xalqlar baharın gəlişini, təbiətin canlanmasını dastanlarda, nağıllarda, şeirlərdə, mahnılarda, aşıq sazlarında tərənnüm etmiş, ilk bahardan çoşğunluqla söhbət açmışdılar.

Qədim türkdilli xalqlar ilk baharın gəlişi ilə təbiətin oyanıb canlanmasını sevinclə qarşılamış, onu bayram etmiş, yeni gün mənasına gələn novruz kəlməsilə ifadə edərək milli bir bayram şəklinə salmışlar.

Miladdan əvvəlki yüzilliklərdən günümüzə qədər çətin qış şərtlərinin sona yetib təbiətin oyandığı, qar və buzların əriyib axdığı, çayların coşub daşdığı, çiçəklərin açdığı, ağacların yaşıllaşdığı, gecə ilə gündüzün bərabərləşdiyi və insanların qəlbində gözəl duyğuların canlandığı, baharın müjdəçisi olan 21 mart günü Azərbaycanda, Qafqazdan Anadoluya, Orta Asiyadan Altaya, Sibirdən, Hindistandan Çinə qədər bütün Türk dünyası tərəfindən sevgi və coşqu ilə bayram edilməkdədir.

Əcdadlarımız gecə ilə gündüzün bərabərləşdiyi 21 martı yeni ilin başlanğıcı olaraq qəbul etmiş, o günü təbiətin



canlanması ilə əlaqələndirərək ilin yeni gününü təqvim günü kimi də qəbul etmişlər. Mütəxəssislər VII-XV əsrə qədər türk boylarının 12 illik təqvimdən istifadə etdiklərini yazmaqdadırlar. Kaşqarlı Mahmud «Divani-lüğət-it-türk» adlı məşhur əsərində «Türklər 12 ay və göydəki 12 bürcü əsas olaraq 12 heyvanın adını 12 ilə vermişlər» deyə yazmışdır.

Göründüyü kimi, Novruz türkdilli xalqların milli mədəniyyətinin əsas ünsürü olan bir xalq ənənəsidir.

Qədim türklər, o cümlədən azərilər İslam dinini qəbul etdikdən sonra da Novruz bayramına əhəmiyyət verərək onu bütün canlılığı ilə xalq arasında yaşatmağa davam etmişlər. Novruz bayramının çox canlı yaşandığı yerlərdən biri, bəlkə də birincisi Azərbaycandır, deyə bilərik. Bir çox Şərq xalqları kimi azərilər də Novruzu yeni ilin başlanğıcı qəbul edərək bolluq, bərəkət və rifahın simvolu olaraq görmüş və bu münasibətlə bir çox ayinlər icra etmişlər. Bunlardan biri səməni göyərtməkdir. Azərbaycanlılar təbiətin canlanmasının bir əlaməti olaraq qəbul etdikləri «səməni göyərtmə» ənənəsi ilə ömrün uzanacağına etiqad etmişdilər. Səməni ilə bağlı olaraq musiqimizdə də iki melodiya mövcuddur.

Azərbaycan türkləri Novruz mərasiminə hazırlığa yeni ilin başlamasına (martın 21-nə) 4 həftə qalmış başlayırlar. Hər həftənin çərşənbə axşamı evlərdə bayram əhval-ruhiyyəsi olmuş, yeməklər bişirilmiş, ocaqların üstü boş qalmamışdır. Hər çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilmişdir. İnanclara görə bu çərşənbənin hər birində təbiətin 4 ünsüründən (su, od, torpaq, hava) biri canlanır. Odur ki, novruz gününə qədər 4 çərşənbə ayini icra edilmişdir.

- Birinci çərşənbə – su çərşənbəsidir ki, buna xalq arasında xəbərçi çərşənbə, əzəl çərşənbə, ilk çərşənbə, su çərşənbəsi, sular novruzu, gül çərşənbə kimi adlar verilmişdir. İnanclarımıza görə ilk çərşənbədə sular təzələnir.
- İkinci çərşənbə – od çərşənbəsi adlanır. Bəzi yerlərdə buna «Addı çərşənbə» də deyilir. Bu çərşənbə günəş-

od inancı ilə bağlıdır. Bu çərşənbədə hodu, qodu, nəğmələri oxunur, xalq günəşin hərəkəti şərəfinə şənliklər düzəldir.

- Üçüncü çərşənbə – yel çərşənbəsidir. Milli inanclarımıza görə bu çərşənbədə əsən yel dünyanı gəzər, oyanmış suyu və atəşi hərəkətə gətirər. Yel çərşənbəsində əsən isti və soyuq külək gün ərzində bir neçə dəfə dəyişərək təmizlənir.
- Dördüncü çərşənbə – torpaq çərşənbəsidir. Buna İlaxır çərşənbə də deyilir. İnanclarımıza görə bu çərşənbədə torpaq oyanır, havanın isinməsi normallaşır. İlaxır çərşənbə gecəsi novruzun ən əziz və müqəddəs gecəsi hesab olunur. Martın 22-si Novruzun ilk günüdür. Bayram günü hər şey təzələnir. Evlər təmizlənmiş olur. Uşaqlara təzə paltarlar tikilir. Dost, qohum, tanışlar bir-birini təbrik etmək üçün evlərə gedir, bayram süfrələri bəzənir.

## TARİXİMİZDƏN

Məsudinin yazdığına görə 914-cü ildə ruslar Xəzər dənizinə 500 gəmi çıxardılar. Həmin gəmilərdə təxminən 50 min nəfər rus döyüşçüsü var idi. Sacilər dövlətinin başçısı Yusif İbn Əbu Sac torpaqlarımızı ələ keçirmək istəyən ruslara qarşı ölüm-dirim mübarizəsinə qalxdı.

943 – 944-cü illərdə ruslar Qafqazın ən böyük şəhəri olan Bərdəni tutub yerlə-yeksan etdilər, ruslar əvvəlcə Arranın və bütün Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri olan Bərdəni müflis vəziyyətinə salıb onun əhəmiyyətini azaltdılar.

Hələ XV əsrdə IV İvan Qroznı (1530 – 1580) Bakı və Dərbənd şəhərlərini ələ keçirmək üçün səfir Vasilçikovla birlikdə xüsusi plan hazırlamşdı.

1723-cü il iyul ayının 21-də rus general-mayoru Matyuşkin Bakı xanına təslim olmaq barədə ultimatum



verdi. Rədd cavabı alan general Bakını 5 gün gecə-gündəz atəşə tutduqdan sonra iyulun 26-da şəhərə girdi.

I Pyotr general-mayor Matyuşkinə tapşırıq vermişdi ki, müsəlmanları ruslar tərəfindən zəbt edilmiş Azərbaycan torpaqlarından köçürüb əvəzində orada rusları, erməniləri, yaxud digər xristian xalqlarından olan adamları yerləşdirsin.

I Pyotr özünün İstanbuldakı səfiri Rumyantsevə tapşırmışdı ki, əgər Osmanlı Türkiyəsi etiraz etməzsə, ruslar tərəfindən zəbt edilməmiş ərazilərdə yaşayan müsəlmanlar osmanlı türklərinin ölkəsinə köçə bilərlər. Bu məqsədlə türklərə hər vasitə ilə yol tapmaq lazımdır.

1776-cı ildə Quba xanı Fətəli xan II Yekaterinanın Dərbəndə göndərdiyi rus çinovnikləri Qaragözov və Batırevə bildirmişdi ki, Rusiya dövləti Azərbaycanın daxili işlərinə qarışmamalıdır. II Yekaterina 1795-ci ilin əvvəllərində bir dəstə rus generalını öz sarayına dəvət edərək, Gürcüstanı və o vaxtlar hələ mövcud olmayan indiki Ermənistanı müsəlman hökmdarlarının əlindən qoparmaq üçün xüsusi plan hazırlatdırmışdı.

1796-cı ildə Azərbaycana yürüş edən rus generalı, qraf. B.Zubov öz hökmdarından belə bir tapşırıq almışdı ki, «Muğanı ələ keçirdikdən sonra orada bir qala tikdirsin, adını Yekaterina Cert («Yekatrinanın ürəyi») qoysun və orada iki min cavan rus əsgəri məskunlaşdırsın. Həmin gənc əsgərləri erməni və gürcü qızları ilə evləndirib, onları xüsusi torpaq sahəsi və silahla təmin etsin.

XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarını zorla Rusiya ərazisinə qatan rus qoşunları müqavimət göstərənləri dərhal aradan qaldırır, onların ərazisində «hərbi dairə»

adlanan və çar zabitləri tərəfindən idarə olunan vahidlər yaradılırdı. Qafqazın baş komandanı P.D.Sisyanovun təklifi ilə Gəncə xanlığının ərazisi I Aleksandrın arvadının şərəfinə «Yelzavetpol dairəsi» adlandırılmış P.D.Sisianov çarın bu barədəki fərmanını 1804-cü il martın 2-də Gəncənin Cümə məscidində oxumuşdu.

1837-ci ildə Azərbaycanda baş vermiş məşhur Ruba üsyanı Türkmənçay məqaviləsinə qarşı ən böyük etiraz aksiyası idi.

## BUNLARI UNUTMAQ OLMAZ

1813-1828-ci ilə qədər Azərbaycan ərazisi təxminən 410 min kv.km. idi. 1813-1828-ci illərdə Azərbaycan əraziləri:

*1813-1828-ci illərdə İrana ilhaq edilmiş Cənubi Azərbaycanın sahəsi təxminən **280** min kv.km,*

*Həmin illərdə Rusiyaya ilhaq edilmiş indi Şimali Azərbaycanın (indiki müstəqil Azərbaycan dövlətinin) sahəsi təxminən **130** min kv.km. idi.*

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı – *sahəsi 9 min kv.km.idi.*

Hal-hazırda Rusiya sərhədləri içərisində olan Dərbənd xanlığının *sahəsi 7 min kv.km.idi.*

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin *sahəsi təxminən* 114 *min kv.km idi..*

1920-ci ildə Azərbaycan Demokratik Respublikasını işğal edən rus sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri**:**

Ermənistan Sovet Sosialist Respublikasının nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və gürcülərin nəzarətinə verilən azərbaycanlıların yaşadıqları torpaqların Borçalı ilə *birlikdə sahəsi təxminən **27,4** min kv.km.*



1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan Sovet Sosialist Respublikasının ərazisi – *sahəsi **86,6** min kv.km.*

Bu, hər bir azərbaycanlının tarixi yaddaşı olmalıdır.

## XOCALI FACİƏSİ

Xocalı Azərbaycanın qədim diyarlarından biridir. Dünya tarixçiləri, arxeoloq və antropoloqlar yaxşı bilirlər ki, Azərbaycan torpağı olan Dağlıq Qarabağ bütöv Qarabağın ayrılmaz bir hissəsidir. Yeni eradan neçə min illər əvvəl Qarabağ torpağında Azərbaycan türkləri yaşayıb. Tarixə bəlli olan və dünya muzeylərini bəzəyən Xocalı – Gədəbəy - Quruçay mədəniyyət inciləri Qarabağla bağlıdır. Qarabağın Füzuli bölgəsində aşkar edilmiş Azıx mağarası da dünya alimlərinə məlumdur. Xocalıda aparılan qazıntılar nəticəsində aşkar edilən qədim sandıq qəbirlər, kurqanlar, tökmə təpələr, abidələr bu diyarın qədim insan məskəni olduğunu sübut edir, onların da məhz Azərbaycan türkləri olduğunu elmi əsaslarla təsdiqləyir.

Xocalı Qarabağda yerləşən 7000 əhalisi olan bir şəhərdir. Bu şəhər strateji cəhətdən çox vacib olan Ağdam-Şuşa, Əskəran-Xankəndi yollarının üstündə yerləşir.

1992-ci ilin oktyabr ayından Xocalı şəhəri ermənilərin blokadasına məruz qalmışdı. Şəhər yerli əhalinin cəsarət və qəhrəmanlığı sayəsində yaşayırdı. Yerli mühafizəçi və milis dəstələri şəhərin mühafizəsini təmin etməyə çalışırdılar. 1991-ci ilin ikinci yarısından erməni silahlı dəstələrinin hücumları müntəzəm olaraq davam edirdi. Fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri keçmiş Sovet İttifaqının 366 saylı piyada moto-atıcı alayının köməyi ilə Xocalı şəhərini işğal etdi. Şəhərin tutulması zirehli maşınlardan, tanklardan və «Alazan» tipli raketlərin atəşi ilə başladı. Xocalı üç tərəfdən mühasirəyə alınmışdı və yerli dinc əhali xilas olmaq üçün Əskəran istiqamətində qaçmağa

cəhd etmişdi. Amma hadisənin gedişindən məlum olmuşdur ki, bu yolda ermənilər onlara tələ qurmuşdular. Naxçıvanik kəndinin yaxınlığında erməni silahlı qüvvələri silahsız dinc əhalini amansızcasına qətlə yetirmişlər.

Əskəran-Naxçıvanik istiqamətində bu dəhşətdən qaçıb qurtulmağa çalışan insanların bir qismi dərə və meşələrdə qaçmaqdan taqətdən düşərək qışın şaxtasında donaraq məhv oldular, insanların çoxu da onları izləyən erməni quldurlarının amansız işgəncələrinə məruz qalaraq qətlə yetirildilər. Uşaqlar, qadınlar, qocalar erməni quldurları tərəfindən amansızlıqla öldürüldülər. Erməni silahlı qüvvələri hər bir Xocalı sakininin arxasına düşərək taqətsiz qız-qadınları, hətta körpə uşaqları öldürür, meyitləri tanınmaz hala salırdılar.

Erməni silahlı qüvvələri keçmiş Sovet İttifaqının 366 saylı moto-atıcı alayının köməyi ilə Xocalı şəhərini darmadağın etdi və bütün əhalinin başına amansız vəhşiliklər gətirdi, nəticədə ***613*** nəfər öldürüldü.

Onlardan ***63-ü*** uşaq, ***106-sı*** qadın və ***70-i*** yaşlı insandır. ***8*** ailə tamamilə yer üzündən silindi, ***25*** uşaq hər iki valideynini, ***130*** uşaq isə bir valideynini itirdi, ***487*** nəfər yaralandı, onlardan ***76-sı*** uşaqlardır, ***1275*** nəfər girov götürüldü, ***150*** nəfər itkin düşdü.

## ESENDİK. YESSENTUKİ

Yessentuki müasir Stavropol ölkəsində eyniadlı çayın üzərində şəhərdir. Mineral mədənləri ilə məşhurdur. Şəhərin kənarında Tambukan gölündən palçıq müalicəsində istifadə edirlər.

Qədim türkcə Esenluk – esenlik «sağlıq, sağlamlıq, xoşbəxtlik» deməkdir. Esen, əsən noqaycada sağlamlıq deməkdir. Türk dillərində, o cümlədən dilimizin qədim qatında sağ-salamat (Sağmısan, əsənmisən, çoban («Kitabi-Dədə Qorqud») mənasında istifadə olunmuşdur.



1798-ci ildə kənd ruslar tərəfindən istila olunaraq hərbi qala kimi möhkəmləndirilib kazak keşikçisi məntəqəsinə çevrildi. Yalnız XIX əsrin 2-ci yarısından ondan kütləvi şəkildə kurort kimi istifadə edilməyə başlandı. Şəhərin qədim mərkəz hissəsində onun stansiya çağından qalma kənd tipli evlər saxlanılır. 1917-ci ildə Yessentuki şəhərə çevrilmişdir.

Şəhərin türk adını Yessentuki şəklində yunanlaşdırmaqla bu torpaqların tarixi də saxtalaşdırılmışdır.

**(***Mətn Minaxanım Təkləlinin «İstilalar, müharibələr, türk şəhərlərinin taleyi» kitabından götürülmüşdür. Bakı, «Adiloğlu» 2005, səh.50)*

## DİL

İnsanların birbiryle anlaşabilmelerini sağlayan tek araç dildir. Dil, insanlar arasındakı en önemli anlaşma aracı olup seslerden örülmüş doğal ve toplumsal bir olgudur.

Dil, sararan yarpaklarını döküp yenilerini açan canlı bir ağaç gibidir. Dilde zaman zaman düşen sözcükler olduğu gibi, başlangıçtan beri yaşayan ve canlılığını koruyan sözcükler de vardır. Duyguları ve düşünceleri başkalarına kusursuz iletebilmenin yolu dili iyi kulanabilmekten geçer.

Eğer çağdaş uygarlık düzeyinin koşullarına uygun gençler yetiştirmek istiyorsak yazılı ve sözlü anlatım kurallarına yeteri kadar önem vermemiz gerekmektedir.

Atatürk`ün «*Türk dili, dillerin en zenginlerindendir, yeter ki bu dil, şuurla işlensin*» deyişi her zaman dilimiz konusunda göz önünde bulundurulmalıdır.

İnsanlar çeşitli şekillerde anlaşabilirler. Jestler, mimikler, flamalar, düdükler, trafik işaretleri kullanıldıkları yerlere göre anlaşma ya da haberleşme aracı olarak iş görürler.

İlkel toplumlarda davul ve tamtam seslerinin haberleşmede kullanıldığı bilinmektedir. Resim, müzik, mimari

gibi sanat dallarında verilmek istenen mesaj; sözlerle değil, ışıklarla, renklerle, geometrik çizgilerle verilir. İşaretlerle anlaşma sistemini inceleyen *bilim dalına semiyoloji* adı verilmektedir.

Dil, insanlar arasında anlaşmayı sağlayan doğal bir araç, kendi kanunları içinde yaşayan ve gelişen bir varlık, milleti birleştiren, koruyan ve oun ortak malı olan sosyal bir kurum, seslerden örülmüş bir yapı, temeli blinmeyen zamanlarda atılmış bir antlaşmalar ve sözleşmeler sistemidir.

İnsanların düşündüklerini ve duyduklarını anlatmak için kullandıkları her türlü ses işaretleri sistemine dil denir.

Her ulusun konuşup yazdığı bir dili vardır. Türkçe, Türk ulusunun; İngilisce, İngiliz ulusunun dilidir. Her ulusun dilinin adı o ulusun adının sonuna ulanacak *–ce, -ca* eki ile oluşur. *Fransızca, İspanyolca, İngilisce, Urduca, Türkçe, Farsça* gibi.

Dil, sözcükler bütünüdür. Bir dili oluşturan sözcüklerin tümüne «*Söz dağarcığı*» denir. Dilin zenginliği, sözcük sayısıyla, sözcüklerin anlam zenginliğiyle ve kavramları karşılayabilmesiyle ölçülür. Doğal bir varlık olan dilin kendine özgü birtakım kanunları vardır. Bu kanunlar o dilin kurallarıdır.

*Dil:*

1. D*oğaldır*
2. *Dil seslidir*
3. *Dil canlıdır*
4. *Dil sosyaldır*
5. *Dil millidir*
6. *Dil sistemli bir yapıya sahiptir*
7. *Dil birlik ve uyum içindedir*
8. *Dil düşüncenin ayrılmaz bir parçasıdır*



## KÜLTÜR

Kültür, bir milletin, bir topluluğun bütün bireylerinin sahip olduğu olayları ve sorunları karşılayan; duygu, düşünce şekilleriyle, tarih içinde meydana gelen fikir ve sanat verimlerinin yanısıra değer yargılarının bütünüdür.

Belirli bir topluluğa ait sosyal davranış ve teknik kuruluşlar kültürü meydana getirirler. Kültür daha ziyade her topluluğun kendine özgü yaşayış ve davranış biçimidir.

Kültür kavramı değişik bağlamlarda, degişik ortamlarda kullanılmaktadır.

Günlük konuşmalarda çoğu kez kültür ve uygarlık sözcüklerinin bir arada ya da eşanlamlı olarak kullanıldığı görülmektedir.

Kültür kavramı sonradan doğmuş olduğuna göre XIX. Yüzyıla gelinceye kadar kültürü de kapsayacak biçimde geçerli olan sözcük ya da terim *uygarlık (medeniyet)* olmuştur.

Türkce`de uygarlık sözcüğü Atatürk`ün öncülük ettiği dil devrimi yıllarında dilimize yeniden kazandırılmıştır.

Kültürlü insan denilince, nerede, nasıl davranılması gerektiğini bilen, değişik konularda yeterli bilgisi bulunan kişi anlaşılır. Genel kültür deyimi de bu kullanımın ürünüdür.

Kültür karakter ve yapı bakımından özel, uygarlık ise geneldir.

Her toplum medeniyetini yâni uygarlığını kendinde taşır ve kendisiyle götürür. Uygarlık yayıldığı zaman insanlığın ortak mirasını zenginleştirir.

Uygarlık, insanların doğaya üstün gelebilmek, toplu olarak daha iyi koşullar altında yaşayabilmek için gösterdikleri çabadan elde edilen sonuçların tamamıdır, biçiminde tanımlanabilir.

Uygarlık tanımı için yaygın olarak; «Medeniyet milletlerarası ortak değerler seviyesine yükselen anlayış ve yaşama vasıtaları bütünüdür» ifadesi de kullanılmaktadır. Yazı

dilinde kültür, genellikle sanat kavramıyla birleştirlir. Bu anlamda sanatla ilgilenmeyi, değişik türlerdeki sanat ürülerini tanımayı ve bu ürünlere ilişkin bilgileri anlatır.

Kültür, daha geniş anlamda ise sanat ve düşünce yapıtlarını kapsar. Buna göre kültürlü olmak sanat yapıtlarının yanı sıra felsefe, toplumbilim vb, alanlarda bilgili olmak demektir.

**Kültürün Özellikleri**

1. Kültür millidir, yani millete aittir.
2. Kültür orijinaldır bir kez oluşur.
3. Kültür doğal ve canlıdır.
4. Kültür sürekli ve tarihidir.
5. Kültür bütünleştiricidir.
6. Kültür toplumun ortak malıdır.
7. Kültür kapsamlı ve yayılıcıdır.
8. Kültürün özü değiştirilemez.
9. Kültür ahenkli bir bütündür.
10. Ne kadar millet varsa o kadar da kültür vardır.
11. Kültür medeniyyetten farklılık gösterir.
12. Kültür bireylere ve topluma hizmet eder.
13. Kültür varlığını nesilden nesile gelmesine borçludur.
14. Kültür bir topluluğun yaşama tarzıdır.
15. Kültür atalardan gelen maddi-manevi değerler toplamıdır.
16. Kültür bir milletin kişilerinin iştirak halinde olduğu manevi hayattır.

*(Mətn Mehmet Yardımcının «Türkçe`nin ses özellikleri yazın kuralları ve noktalama kitabından götürülmüşdü. İzmir, 2000, səh.8-9)*



## QAFAN HAQQINDA DÜŞÜNCƏLƏR

Hələ əsatirlərdən bizə məlumdur ki, Azərbaycanda «Qaf» adlı yanar bir dağ varmış, bu yanar dağın atəşi içərisində Simurq quşu yaşayırmış. Bu qışa zümrüd və ya ənqa da deyirlər. Belə də deyirlər ki, guya Qafqazın adı da bu dağın adından götürülmüşdür. Lakin indiyə qədər onun harada yerləşməsi xalqımıza bəlli deyil. «Qafan» toponimi bizə bu dağın yerləşdiyi məkanı tapmaqda kömək edir. Azərbaycan dilində «an» şəkilçisi məkan bildirən şəkilçidir. «Qafan» deyəndə, biz bu yeri «Qaf»-ın yerləşdiyi ərazi kimi başa düşməliyik. «Qaf» sözünün izahına gəldikdə isə bu toponim xalqımızın zehnində tarixən həkk olunmuş «Qap»dır. Bu adı türkdilli xalq həmin dağa vermişdir. «Qap» sözündə olan «p» səsi də p-f əvəzlənməsi ilə əlaqədardır.

«Qaf» dağı tarixən olduqca məşhur olmuş, demək olar ki, ərəb, fars, yunan və sair xalqların istər yazılı ədbiyyatında, istərsə də dillərində əsatirə çevrilmişdir.

Ordubad rayonu ilə Qafan rayonunu bir-birindən Zəngəzur dağ silsiləsi ayırır. Tarixən Şərq ölkələrinin tacir və səyyahları Ordubada və indi xarabalığı qalan Gilana gəlir, buradan isə yaxın yol ilə Qafan, Sisyan, Zəngilan və başqa mahallara getmək üçün ancaq Gilançay boyunca yuxarı qalxan ticarət yolu ilə hərəkət edərək Qıpcaq dağının Gəmi qaya adlı ətəyindən keçib Oxçuçaya endirdilər. Həmin bu çətin yol son dövrlərə qədər işləyirdi. Bir sözlə, bu keçid hər iki ərazi arasında bir qapı di. Xustub dağı ətəyində Bəsit çayının keçdiyi dar, olduqca qalın meşəli bir dərənin də adı «Qapcığaz»dır. Bu ad da məna etibarilə «Ayın balaca qapısı» deməkdir. Zərdüştlüyə sitayiş edən əcdadlarımız yəqin ki, bu qapıcıqdan keçərək əfsanəvi Qap dağının harasında isə yerləşən müqəddəs Ay məbədinə ziyarətə gedirlərmiş. Bütün bu dediklərimizin nəticəsi odur ki, «Qap» türk mənşəli söz olub qapı mənasını daşıyır. «Qafan» sözü isə «Qaf» dağı yerləşən ərazi deməkdir.

*(Mətn Həmzə Vəlinin «Qafan haqqında düşüncələr» məqaləsindən götürülmüşdür. Bax «Vətən səsi» qəzeti, 7 mart 1991-ci il).*

## ALLAHIN 99 gözəl adı

«Qurani-Kərim»də Yaradanın 99 gözəl adı ifadə olunur. Allahın gözəl adları «Əsmaül-Hüsna» adlanır:

| | | |
|---|---|---|
| 1. Allah | 34. Ər-Əzim | 67. Əl-Vahid |
| 2. Ər-Rəhman | 35.Əl-Qafur | 68. Əs-Səməd |
| 3. Ər-Rəhim | 36. Əş-Şükür | 69. Əl-Qadir |
| 4. Əl-Məlik | 37. Əl - Ali | 70. Əl-Müqtədir |
| 5. Əl-Qüddüs | 38. Əl – Kəbir | 71. Əl-Muqəddim |
| 6. Əs-Salam | 39. Əl – Hafiz | 72. Əl-Müəhhir |
| 7. Əl-Mömin | 40.Əl-Mükit | 73. Əl-Əvvəl |
| 8. Əl-Müheymin | 41. Əl-Xasib | 74. Əl-Axir |
| 9. Əl-Əziz | 42. Əl-Cəlil | 75.Əl-Zahir |
| 10. Əl-Cabbar | 43.Əl-Kərim | 76. Əl-Batin |
| 11. Əl-Mütə-Kəbbir | 44. Ər-Rakib | 77. Əl-Vali |
| 12. Əl-Xalis | 45.Əl-Mücib | 78. Əl-Mütəali |
| 13. Əl-Bari | 46.Əl-Vasi | 79. Əl-Bərr |
| 14. Əl-Müsəvvir | 47.Əl-Hakim | 80. Ət-Təvvab |
| 15. Əl-Qaffar | 48.Əl-Bədud | 81. Əl-Müntəkim |
| 16. Əl-Kahhar | 49. Əl - Məcit | 82. Əl-Afuv |
| 17. Əl- Vəhab | 50. Əl- Bais | 83. Ər-Rauf |
| 18. Ər-Rəzzaq | 51. Əl – Şəkid | 84. Malikül-Mülk |
| 19. Əl-Fəttah | 52. Əl- Hakk | 85. Zül-Cəlali vəl-İkram |
| 20. Əl-Alim | 53. Əl- Vəkil | 86. Əl-Muqsid |
| 21. Əl-Kabid | 54. Əl- Kaviy | 87. Əl-Cami |
| 22. Əl-Basit | 55. Əl-Mətin | 88. Əl-Qani |
| 23. Əl-Xafit | 56. Əl-Vəli | 89. Əl-Muqni |
| 24. Ər- Rəfi | 57. Əl-Həmid | 90.Əl-Maani |
| 25. Əl-Muizz | 58. Əl- Muhsi | 91. Əq-Darr |
| 26. Əl- Müzill | 59. Əl-Mübdi | 92. Ən-Nafi |
| 27. Əs- Sami | 60. Əl-Muid | 93. Ən-Nur |
| 28. Əl-Basir | 61. Əl-Mihi | 94. Əl-Hadi |
| 29. Əl-Kamil | 62. Əl-Momit | 95. Əl-Bədi |
| 30. Əl-Adil | 63. Əl-Hay | 96. Əl-Baki |
| 31. Əl-Lətif | 64. Əl-Qəyyum | 97. Əl-Varis |
| 32. Əl-Xəbur | 65. Əl-Vacid | 98. Ər-Rəşid |
| 33. Əl – Xəlim | 66. Əl-Macid | 99. Əs-Səbir |



## Nəsrəddin Tusi idarəetmə və maliyyə islahatı haqqında

Azərbaycan xalqının böyük mütəfəkkiri Nəsrəddin Tusi (1201-1274) elmin inkişaf tarixində xüsusi xidməti olan böyük şəxsiyyətlərdən biridir. Onun astronomiya, riyaziyyat, həndəsə, tibb, fəlsəfə, məntiq, əxlaq, iqtisadiyyat kimi elm sahələrində xüsusi çoxsaylı əsərləri olmuşdur.

Tusini ən çox maraqlandıran problemləndən biri cəmiyyətdə dövlətin yeri və rolu, idarəetmənin forma və metodlarıdır. Tusi «Əxlaqi-Nasiri» və «Maliyyə haqqında» əsərlərində keçmiş dövlətlərin tarixi təcrübəsindən, idarəetmə qayda-qanunlarından, öz dövrünün dövlət quruluşundan və ən çox xalqa xidmət edən, onun mənafeyini ifadə edən ümumbəşəri dövlətdən bəhs edir.

Tusi «Əxlaqi-Nasir»i əsərinin üçüncü məqaləsini «Ölkəni idarəetmə qaydaları» adlandırmış və burada dövlətin inzibati və iqtisadi funksiyalarının təhlilini vermişdir. Tusi yazır: «Cəmiyyətdə ictimai əməyi təşkil etmək, istehsal prosesində özbaşınalığa yol verməmək, «hər kəsi öz yerində oturtmaq, hərənin öz payın verib başqasının haqqına əl uzatmağa qoymamaq, ictimai əmək prosesində ona tapşırılan işi yerinə yetirməyə məcbur etmək üçün tədbirlər görmək zərurəti doğur. Bu təcrübələri «siyasət» adlandırmışlar.

Tusi göstərir ki, dövlət, hökmdar elə qanunlar verməlidir ki, bu qanunlar hamı tərəfindən qəbul olunsun və yerinə yetirilsin. «Əgər o (hökmdar) bir şey deyir, yerlərdə valiləri başqa cür edirlər, onda qayda-qanun pozular, hərcmərclik yaranar, zülm ərşə dayanar». Buna görə də Tusi monarxiya dövlət quruluşunda belə vəziyyətin, idarəetmənin ağıla, elmə əsaslanmasını zəruri hesab edirdi. O yazır ki, bu haqda «cəmiyyətin möhkəmliyi isə hikmətə, elmə bağlı olmalıdır».

N.Tusi ölkə iqtisadiyyatının yüksəlişinə, abadlıq və mədəniyyətin inkişafına, xalqın bütün tələblərinin mülkiyyət

və əmlakının qorunmasına yönəldilən siyasəti ən faydalı siyasət hesab edirdi. O, cəmiyyətdə siniflərin, təbəqələrin arasındakı ziddiyyətləri kəskinləşdirməyə deyil, onlar arasında uyğunluq yaradılması ideyasını müdafiə edirdi. O yazır ki: «Siniflər, təbəqələr arasında uyğunluq (ahəngdarlıq) yaratmaq, hər adamın ləyaqət və istedadına görə rütbə vermək» dövlətin mühüm vəzifələrindəndir.

Tusi «Əxlaqi-Nasiri» əsərinin «ölkə dolandırmaq siyasəti və şahların xisləti haqqında» fəsildə iki cür siyasətdən ağıla, fəzalətə əsaslanan və zorakılıqla dayanan siyasət növlərindən və onların nəticələrindən bəhs edir. Tusi göstərir ki, elm və ağıl əsasında yürüdülən siyasət nəticəsində ölkədə ədalət və birlik bərpa olar, cəmiyyət üzvləri bir-birnə xeyir verən işlərlə məşğul olurlar. Zorakılıq və özbaşınalığa dayanan siyasət isə ən çox xalqın, rəiyyətin iqtisadi vəziyyətinin ağırlaşmasında özünü göstərir.

Tusi göstərir ki, «Dövlətin inkişafdan dayanması və süquta uğramasnın bir səbəbi də hökmdarların mal toplamağa, sərmayə yığmağa, vəzifə tutmağa aludə olmalarıdır. Çünki mal-dövlət onların gözlərini tutar, təkəbbür, mənsəb, lovğalıq, qürrə və qüvvə onları qudurdar, ixtilaf, münaqişə meydana çıxar.

Tusi insanın insana rəhbərlik etməsinin bütün əxlaqi, psixoloji cəhətlərinə də toxunur. O yazır: «Həqiqətdə hökmranlıq o adama yaraşır ki, dünya xəstələndikdə onu müalicə edə bilsin, sağlam olduqda səhhətini qoruya bilsin… Xəstəlik isə iki şeydən törəyər: biri ölkədə qəddar şahlıq olanda, digəri ölkə özbaşına buraxılanda». O, sözünə davam edərək deyir ki, qəddar şahlıq üsul-idarəsi dövründə alçaq, qabiliyyətsiz, zalım və şər adamlar təriflənərlər, qabiliyyət sahibləri, işbilənlər və elm adamları isə unudular.

Tusiyə görə dövlətin və hökmdarın gəlirləri və xərcləri ədalətli, sağlam qanunlar əsasında tərtib edilməlidir. Bu, bütövlükdə ölkə iqtisadiyyatının yüksəlişinə, müdafiə qabiliyyətinin saxlanılmasına və əhalinin rifahının yaxşılaşdırılmasına əsaslanmalıdır.



Ümumiyyətlə, dövrünün böyük mütəfəkkiri kimi Nəsrəddin Tusi dövlətin idarəetmə işlərinə dərindən bələd olan bir mütəfəkkir kimi onun mövcud və gələcək forma və metodlarına hərtərəfli nəzər salmış, idarəetmənin səmərəli yollarını açıb göstərə bilmişdir.

*(Mətn Teymur Vəliyev və Ağayar Həsənovun «Azərbaycan iqtisadi fikir tarixi» kitabından götürülmüşdür. Bakı, 1996, səh.126-135, ixtisarla)*

## ƏHMƏD CAVAD
## (1892-1937)

Cavad Məmmədəli oğlu Axundzadə 1892-ci ildə Şəmkir mahalının Seyfəli kəndində anadan olmuşdur. Səkkiz yaşında atasını itirən Cavadı anası Yaxşıxanım Gəncədə yaşayan dayısının yanına aparır. Gəncədə «Cəmiyyəti-xeyriyyə» məktəbində təhsil alan Cavad ərəb və fars dillərini öyrənməklə bərabər Şərq ədəbiyyatının görkəmli klassiklərinin yaradıcılığı ilə də yaxından tanış olur və ilk şeirlərini Əhməd Cavad imzası ilə yazmağa başlayır. «Şəriət müəllimi» ünvanını alan Əhməd Cavad 1915-ci ildən müəllimlik fəaliyyətinə başlayaraq əvvəlcə Qubada, sonra Bakıda dərs deyir.

1928-ci ildə Azərbaycan Dövlət Universitetini bitirir və 1928-1934-cü illər arasında Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda müəllimlik fəaliyyətini davam etdirir.

1934-cü ildə Bakıda Azərnəşrdə redaktor vəzifəsində işləyir. Bir müddət işlədikdən sonra işdən çıxarılaraq həbs edilir. «Xalq düşməni» adı verilən Ə.Cavad elə həmin il öldürülür. Həyat yoldaşı Şükriyyə xanım sürgün edilərək Qazaxıstanın Akmulinsk şəhərinə göndərilir. Övladları yetim evlərində yerləşdirilir. Ailəsi pərən-pərən olur. Vətən-

sevər və türkçü bir şair olduğu üçün ona pantürkist damğası vurulur. 1953-cü ildə Stalinin ölümündən sonra sürgünə göndərilən bir çox ziyalı ailələri kimi Əhməd Cavadın ailəsinə də «bəraət» verilir.

Vətənpərvər bir şair olan Əhməd Cavad 1918-1920-ci illərdə Azərbaycanda meydana gələn ictimai-siyasi hadisələrə fəal münasibət bəsləyirdi. 1918-1920-ci illərdə qurulan müstəqil Azərbaycan Demokratik Respublikasının üzvü olan Əhməd Cavad o illərdə «Mən çeynənən bir ölkənin haqq bağıran bir səsiyəm» deyərək «Azərbaycan bayrağına», «Al bayrağa», «Çırpınırdı Qara dəniz», «Şəhidlərə», «İstanbul», «İsmayıl bəy Qaspirallı üçün» kimi şeirlərini yazır. Onun şeirlərində millət sevgisi, Vətən eşqi, ana dilinə məhəbbət, türklük sevdası, Türkiyəyə məhəbbət yüksək sənətkarlıqla ifadə olunurdu. Odur ki, Azərbaycan Demokratik Respublikasının 1920-ci ilin 28 aprelində süqut etdirilməsindən sonra onun şeirlərində nöqsanlar aranaraq 1937-ci ildə həbsinə və ölümünə fərman verildi. Şeirləri və kitabları məhv edildi. Adı yaddaşlardan silinməyə çalışıldı. 1937-1953-cü illər arasında suçlanıb həbs edilən, Sibirə göndərilən ziyalılar kimi Əhməd Cavad da «bəraət» aldıqdan bir neçə il sonra - 1958-ci ildə vətənində onun «Şeirlər» kitabı, sonralar «Sən ağlama, mən ağlaram» kimi bir neçə kitabı nəşr olunmuş, haqqında elmi-tədqiqat işləri yazılmışdır.

*Əhməd Cavad*

**AZƏRBAYCAN BAYRAĞINA**

*10 aprel 1919-da parlament binası üzərində dalğalanan milli bayrağa söylənilmişdir.*

Türküstan yelləri öpüb alnını,
Söyləyir dərdini sana, bayrağım!
Üç rəngin əksini quzğun dənizdən
Ərmağan yollasın yara, bayrağım!



Gedərkən Turana çıxdın qarşıma.
Kölgən dövlət quşu, qondu başıma.
İzn ver gözümdə coşan yaşıma
Dinlətsin dərdini aha, bayrağım!

Qayi xan soyundan aldığın rəngi,
Qucamış Elxanla müsəlman bəyi.
Elxanın övladı – dinin dirəyi,
Gətirdin könlümə səfa, bayrağım!

Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri,
Allahın ulduzu o gözəl pəri
Sığınmış qoynunda aya, bayrağım!..

*Əhməd Cavad*

**AL BAYRAĞA**

*(Türk bayrağına yazılmışdır)*

Gül rəngində bir yarpağın
Ortasında bir hilal.
Ey al bayraq, sənin rəngin
Söylə neyçün, böylə al?

Hakim olub bir torpağa,
Ona etmək böylə naz;
Səndən başqa bir gözələ
Söylə, neyçün yaraşmaz?

Bu bənzəyiş nədən, gözüm,
Şəhidlərin qanına?!
Uğurunda can verənlər
Neyçün qıyar canına?!

Yol üstündə dərdli ninni
Görür səni ağlamaz.
Sən öylə bir şeirsən ki,
Sevməyənlər anlamaz!

Ey sevgili bayrağımın
O dalğalı duruşu:
Sandım salam rəsmi sənə
Buludların yürüşü!

Sən ey hilal, al qoynuna,
Aldın göydən ulduzu.
Məftun etdin sən kəndinə
Ən sevdalı bir qızı!

## HÜSEYN CAVİD
*(1882-1944)*

Hüseyn Cavid Rəsizadə 1882-ci ildə Naxçıvanda anadan olmuşdur. İlk təhsilini mədrəsədə almış, orada ərəb, fars dillərini öyrənmiş, sonra Naxçıvanda açılan «Məktəbi tərbiyə» adlanan məktəbdə oxumuşdur. XX əsrin əvvəllərində Təbrizə getmiş, orada şərq fəlsəfəsi və tarixi ilə maraqlanmışdır.

1905-1909-cu illərdə Türkiyəyə getmiş, İstanbul Universitetində dinləyici kimi dərslərdə iştirak etmişdir. O zamankı Türkiyənin ədəbi mühiti ilə yaxından tanış olan Hüseyn Cavid İstanbulda olduğu illərdə Rza Tofik, Tofik Fikrət, Əbdülhaq Hamid kimi yazıçı və şairlərlə yaxından tanış olmuşdur.

1910-cu ildə Türkiyədən Naxçıvana dönən Hüseyn Cavid 1919-cu ilə qədər Tiflis, Gəncə şəhərlərində, 1919-1937-ci illərdə Bakıda müəllimlik fəaliyyətini davam etdirmişdir.

Sovet hakimiyyətinin 1937-1953-cü illəri bir çox Azər-



baycan ziyalısı kimi Hüseyn Cavidə də baha başa gəldi. Türkiyədə təhsil alması, əsərlərində Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsindəki ortaq sözlərdən istifadə etməsi və Osmanlı ləhcəsində yazması, əsərlərinin mövzusunu bəşəri mövzulardan alması, əslində müstəsna yaradıcılıq istedadına malik olan görkəmli şairin həyatını təhlükəyə atdı. Onu türkçülükdə suçlayıb «pantürkist» deyə həbsə atdılar. 1937-ci ilin səssiz gecələrindən birində Sibirə göndərilən H.Cavidin nə zaman dünyasını dəyişməsi də bəlli olmadı. Gah 1941, gah da 1944-cü ildə ölməsi 1953-cü ildən, yəni Stalinin ölümündən sonra məlum oldu.

Həbsə atıldığı gündən Hüseyn Cavidin adı millətin hafizəsindən silinməyə çalışıldı, əsərlərinin nəşri qadağan olundu. 1958-ci ildən başlayaraq onun «Seçilmiş əsərləri», 1968-1971-ci illərdə üçcildlik əsərləri, 1975-ci ildə «Dram əsərləri», 1982-1983-cü illərdə rus dilində ikicildlik pyesləri, 1982-1985-ci illərdə dördcildlik əsərləri və son dövrdə bir çox əsərləri nəşr olundu.

H.Cavidin ədəbi irsinin öyrənilməsində və tədqiq olunmasında 1969-cu ildən Azərbaycanda hakimiyyətdə olan Heydər Əliyevin müstəsna rolu olmuşdur. Onun böyük səyi nəticəsində 1982-ci ildə Hüseyn Cavidin anadan olmasının yüz illiyi ərəfəsində şairin cənazəsi Azərbaycana gətirilərək, dünyaya göz açdığı Naxçıvanda torpağa verildi.

1982-ci ildə bu böyük insan haqqında «Cavidi xatırlarkən» adlı qiymətli bir kitab yayımlandı.

H.Cavidin ədəbi irsi günümüzdə tədqiq olunur, əsərlərinin yeni nəşrləri işıq üzü görür.

## QIZ MƏKTƏBİNDƏ

- Quzum, yavrum! Adın nədir?
- Gülbahar.
- Pəki, sənin anan, baban varmı?
- Var.
- Nasıl, zənginmidir baban?
- Əvət, zəngin, bəyzadə…
- Öylə isə, geydiyin geyim neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə yavrum! Heç sıxılma…
- Var, əfəndim, var.., lakin
Müəllimən hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
- Pək doğru söz… Bu dünyada sənin ən çox sevdiyin
kimdir quzum söylərmisin?
- Ən çox sevdiyim ilkin
O Allah ki, yeri, göyü, insanları xəlq eylər.
- Sonra kimdir?
- Sonra onun göndərdiyi elçilər.
- Başqa sevdiklərin nasıl, yoxmu?
- Var…
- Kimdir onlar?
- Anam, babam, müəllimən, bir də bütün insanlar…

## MİR CƏLAL
*(1908 – 1978)*

Görkəmli yazıçı Mir Cəlal Əli oğlu Paşayev 1908-ci ildə Cənubi Azərbaycanda anadan olmuşdur. Uşaq ikən atası onu Gəncə şəhərinə gətirmiş, ilk təhsilini Gəncədə almışdır. 1823-cü ildə Gəncə Pedaqoji Texnikumuna daxil



olub, 1928-ci ildə oranı bitirmiş, bir müddət Gəncədə və Gədəbəydə müəllimlik etmişdir. İki illik müəllimlik fəaliyyətindən sonra 1930-cu ildə Kazana gedib Kazan Dövlət Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində oxuyur. 1931-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olur. 1933-cü ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim, professor və kafedra müdiri vəzifəsində çalışmışdır.

1940-cı ildə «Füzulinin poetik xüsusiyyətləri» adlı kitabı ilə filologiya elmləri namizədi və 1947-ci ildə «Azərbaycanda ədəbi məktəblər» adlı əsəri ilə filologiya elmləri doktoru elmi dərəcəsini alır.

Bədii yaradıcılığa 1928-ci ildən başlamışdır. İlk hekayə və oçerkləri qəzet və jurnallarda çap edilmişdir.

1932-ci ildə «Sağlam yollarda», 1935-ci ildə «Boy» adlı hekayələr və oçerklər məcmuəsi, «Dirilən adam» romanı, 1937-ci ildə «Bostan oğrusu», 1939-cü ildə «Gözün aydın» adlı kitabları və «Bir gəncin manifesti» adlı romanı, 1940-cı ildə «Açıq kitab» romanı nəşr edilmişdir. Sonralar «Onun həyat hekayələri» (1944), «Yaşıdlarım» (1947), «Yeni kəndin adamları» (1948), «Təzə şəhər» (1952), «Sadə hekayələr» (1955), «İnsanlıq fəlsəfəsi» (1961), «Xatirə hekayələri» (1962), «Gülbəsləyən qız» (1965) kimi kitabları nəşr olunmuşdur.

Mir Cəlal 1978-ci ildə vəfat etmişdir.

Mir Cəlalın yaradıcılığı hələ sağlığında qiymətləndirilmiş, müxtəlif orden və medallarla təltif olunmuşdur. O, yetmiş illik mənalı ömrünün tam 50 ilini bədii, elmi və pedaqoji yardıcılığa həsr etmişdir. Böyük elmi fəaliyyəti ilə yanaşı mükəmməl bir qələm ustadıdır. Onu oxuculara sevdirən başlıca cəhətlərdən bir də müəllifin səmimiyyəti, insanlıq adını ləkələyənlərə güclü nifrəti və sadə, əməksevər insanlara olan məhəbbətidir.

Mir Cəlal bir alim, tədqiqatçı və ədəbiyyatçı kimi hər zaman yüksək məqamda durmuş, elmi üslubu ilə ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuşdur.

*Mir Cəlal*

## İTƏ ATARAM, YADA SATMARAM

Sərin bir payız səhəri idi. Səhər demək olmazdı. Çünki hələ hava tamam işaqlanmamışdı. Şəhərə doğru gedən əyri-üyrü və palçıqlı yol bu ala-toranda camaatla dolu idi. Kimi qabağına qatdığı sağmal inəyini, kimi qoyun-quzusunu haylayıb satmağa aparırdı…

Sona da bu yolun yolçusudur. Sona ilk bazar səfərinə çıxırdı. O, yetim uşaqlarına çörək pulu, dustaq oğlu Mərdana isə xərclik əldə etmək üçün «Yusif-Züleyxa» xalçasını qoltuğuna vurub bazara aparırdı. O, evinin yaraşığını, oğlunun toy günündə ona bağışlamaq üçün uzun illər boyu əzizləyib saxladığı xalçanı satmaq istəyirdi.

Sona bazara yetişdi. Həftəbazarı köhnə, uçuq bir hasarın içində idi. Kənardan baxanda hasar üstündən adamların başı görünürdü. Camaat qarışqa kimi qaynaşırdı. Burada hər cür adam görmək olardı. Satan satana qarışmışdı. At kişnəməsi, alıb-satanların səsi dərvişlərin qəsidəsinə, dilənçilərin sızıltısına qarışmışdı.

Sona bir kənara, ev şeyləri satılan tərəfə çəkilib boxçasını açdı. Xalçanı təmiz yerə saldı. Bir daşın üstündə oturub həsrətlə ona baxdı. Sonanın xalçası, doğrudan da bir tamaşa idi. Elə bil meydana işıq salmışdı. Görənlər yaxın gəlir və heyrətlə baxırdılar. Xalçanın tamaşasına yığışanlar get-gedə artırdı.

Gödəktuman, bozsifətli bir ingilis taciri bazarda məğrur-məğrur gəzirdi. O, istədiyi hər şeyə diqqət yetirir, heç nədən çəkinmirdi. Bu ağaya nifrət və ikrahla baxan adamlar onu bir-birinə barmaqla göstərib «ingilis» deyirdilər. İngilisin gözü Sonanın xalçasına sataşan kimi rəngi daha da bozardı.



Mister soyuq əllərini xalçaya uzatdı. Yanına düşüb ona nökərçilik edən azərbaycanlı tacirə nə isə dedi. Tacir Sonaya yaxınlaşdı:

- Bacı, bu xalçanın qiyməti neçədir?

Sona duruxdu. O, bazara gəlməmişdən xalçaya qiymət qoydurmamışdı.

Özü də ürəyində bir qiymət tutmamışdı. Tacir Sonanın duruxduğuna dözə bilmədi, daha da yaxınlaşıb soruşdu.

- Bacı, bu xalçanın qiymətini deyin, biz alırıq.

Sona altdan yuxarı tacirin üzünə baxdı, köksünü ötürdü. Elə bir, onun danışmağa dili gəlmirdi. Qəzəbindənmi, həsrətdənmi, ya peşmançılıqdanmı qızaran sifətində mənalı bir sükut görünürdü. Sona dinmirdi.

İngilis həyəcan içində idi. O, bu sükuta dözə bilmirdi. Çılpaq qıçlarını qatlayıb diz çökdü. Xalçaya bir də nəzər saldı. Ayağa qalxdı, xalçanı qaldırıb öz sinəsinə tutdu.

Sonra yanındakı tacirə verib divardan asılı kimi saxlatdı.

Tacir, quldurlara təslim olan qorxaq yolçular kimi qollarını geniş açdı, xalçanı qabağına tutdu. İngilis baxdı, baxdı, yaxın yeridi, kənara çəkildi, baxdı. Yandan, aşağıdan, yuxarıdan baxdı. Sevincini gizlədə bilmədi, dodaqaltı nə isə mırıldandı.

Tacir də sevincək danışdı. Onlar danışanda heç kəs dinmirdi. Birdən kənardan kiminsə səsi eşidildi:

- Neçəyə desə alacaqlar.

Elə bil bu səslə Sonaya sayıq olmaq üçün xəbərdarlıq edirdilər. Tacir qayıdıb səs gələn tərəfə acıqla baxdı və hiddətini boğa-boğa dedi:

- Bilmirəm, bu camaat nə üçün mane olur. Ay qardaşlar, bir kənara durun görək. Axı nə xəbərdir, adam var axı, burada meymun oynatmırıq ha!

Sona xalçanın qırağından tutub durmuşdu. O, danışanlara həsrətlə baxdı. Sonra xalçanın qiymətini dedi:

- On qızıl.

Tamaşaya yığışanların içində bir cavan fəhlə vardı. O, əllərini dizinə çırpdı və bərkdən «vay» - deyə çığırdı. Oğlan başını aşağı salıb oradan uzaqlaşdı.

Sona oğlanın dediyini eşitsə də, əlini çoxdan açmışdı. Bir əli xalçanın ucunda idi, o biri əlinə isə ingilis qızıl sayırdı. Bir, iki, üç…

Ovcuna toxunan soyuq pullar Sonanın bütün əsəblərini titrədirdi. Onu hirs boğurdu. Sona üzünü ingilisə tutub dedi:

- Satmıram!

Bunu dediyi ilə ovcundakı qızılların yerə sərildiyi bir oldu. Camaatı maraq götürdü. Tacir irəli yeridi, əlini cibinə saldı:

- Azdırsa, al, on beş olsun.
- Satmıram!
- Bu da iyirmi!
- Satmıram! Yorğan əvəzi üstümə çəkəcəyəm!
- Otuz qızıl, daha sözün yoxdur ki?!
- Paltarım yoxdur, bürünəcəyəm.
- Əlli qızılını al, üstündə bir dəst də paltar.

Tacir əl-ayağa düşüb yalvarırdı. Sonanın isə dizinə qüvvət, iradəsinə möhkəmlik gəlir, səsi ciddiləşirdi:

- Satmıram, canım, satmıram!
- Bu da yüz qızıl, yüzcə qızıl…

Sona xalçanı çəkib bükdü. Pəhləvan kimi qoltuğuna vurdu. O, daha da acıqlı görünürdü. Sona iti və həyəcanlı nəzərlə həm misteri, həm də taciri süzdü. O, qəti və nifrətlə dedi:

- İtə ataram, yada satmaram!



## MƏHƏMMƏD HÜSEYN ŞƏHRİYAR
*(1904-1988)*

XX əsrdə Cənubi Azərbaycanda yetişən ünlü şairlərdən biri də Məmmədhüseyn Şəhriyardır. O, 1904-cü ildə Təbrizdə vəkil ailəsində anadan olmuşdur. Təhsilini Təbrizdə «Füyuzat» mədrəsəsində tamamladıqdan sonra 1922-ci ildə Tehran Universitetinin tibb fakültəsinə daxil olur. Beş il oxuduqdan sonra ailə vəziyyəti ilə bağlı olaraq işləmək məcburiyyətində qalır. Odur ki, diplom almadan universiteti tərk edir. 1935-ci ilə qədər Xorasanda və Tehranda Ziraət Bankında işləyir.

1934-cü ildə atasının ölüm xəbərini alan Şəhriyar Təbrizə gəlir. Bundan sonra onun həyatının məşəqqətli günləri başlayır. Bütün ailəni dolandırmaq üçün işləmək məcburiyyətində qalan Şəhriyar iş üçün bu şəhərdən o biri şəhərə getməli olur.

1950-ci ildə Şiraza gedib orada yaşamaq istəyir, lakin fikrini dəyişdirib Təbrizə gedir. 1953-cü ildə orada evlənir və bu evlilikdən Şəhrzad, Məryəm və Hadi adlı övladları dünyaya gəlir.

1972-ci ildə yenidən Tehrana gələrək orada yaşamağa başlayır. Tehranda həyat yoldaşının vəfatı ilə əlaqədar olaraq mənəvi cəhətdən çox sarsıntılar keçirir. Maddi cəhətdən də sıxıntılar keçirən Şəhriyarın 1976-cı ildə «Etellaat» qəzetinin müxbirinə verdiyi müsahibə onun həyatının bu dövrünə işıq tutmaqdadır. Şəhriyar müxbirə belə demişdir:

«İllərdir ki, mən yalnız vacib olduqda evdən çıxıram. Mənim hər şeyim bu otaqda yerləşmişdir. Gördüyünüz kimi onun bəzəyi ancaq sadəlikdir. Mən üç övladımla burada yaşayıram. Onlar hələlik kiçikdirlər. Təhsildən başqa işləri yoxdur. Mənim qazancım vaxtilə işlədiyim, iftixari-ustad adı aldığım yerdəndir. Azərbaycan Universiteti mənə üç min tümən maaş verir. On altı aydır ki, maaşımın bir az artırılması üçün qərar çıxarılmışdır. Qərar var, amma pul

yoxdur. Bilmirəm, qənaət falı niyə elə şairin bəxtinə düşür. …Mənim şəxsən xərcim yoxdur. 22 il bundan əvvəl aldığım paltarı hələ təzələməmişəm, Hara gedirəm ki, ayaqqabıya ehtiyac olsun? Amma övladlarım ki, gedirlər. Təhsil Nazirliyi ayda 1500 tümən bu evin kirayəsini verir. Ev sahibi məni çox istəyir. Amma mən istəmirəm ki, onun mənə bu xüsusda güzəşti olsun. Qulağıma hey çatdırırlar ki, hər şey bahalaşıb. İcarə haqqını ən azı iki dəfə artırmalıyam. O, haqlıdır. Mən buradan hara gedə bilərəm? Para mənim üçün bəlkə əl kiridir, lakin başqaları üçün belə deyil. Bu məsələlər mənim daxili rahatlığımı pozur. Heç kimdən gileyim yoxdur. Dərvişliyi övladlarıma və başqalarına aşılaya bilmərəm». («Etellaat» qəzeti, №13357).

M.Şəhriyar 18 sentyabr 1988-ci ildə Tehranda vəfat etmiş. Azərbaycanın qədim şəhəri olan Təbrizdə «Məqbərətüş – şüara» məzarlığında dəfn edilmişdir.

Şəhriyar Azərbaycan və fars dillərində əsərlər yazmışdır. Azərbaycan türkcəsi ilə ilk dəfə yazdığı əsər «Behcətabad xatirələri» adlı qəzəlidir. Şeirlərinin ana mövzusu Azərbaycan olan Şəhriyar ana dilində «Heydərbabaya salam», «Türkün dili», «Yalan dünya», «Türk övladı qeyrət vaxtıdır», «Dan ulduzu da batdı», «Əzizə», «Pərvanə və şam», «Qardaşım Süleyman Rüstəmə», «El bülbülü» və s. kimi əsərlər yazmışdır. Onun Azərbaycan türkcəsi ilə yazdığı əsərləri «Divani – türki» adlı şeirlər kitabında toplanmışdır.





## TÜRKÜN DİLİ

Türkün dili tək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.

Öz şeirini farsa, ərəbə qatmasa şair,
Şeiri oxuyanlar, eşidənlər kəsil olmaz.

Fars şairi çox sözlərin bizdən aparmış,
Sabir kimi bir sürətli şair pəxil olmaz…

Türkün məsəli, folkloru dünyada təkdir,
Xan yorğanı kənd içrə məsəldir, mitil olmaz.

Azər qoşunu Qeysəri, Rumu əsir etmiş,
Kəsra sözüdür, bir belə tarix nağıl olmaz.

Bişmiş kimi şeirin də gərək dad-duzu olsun,
Kənd əhli bilirlər ki, doşabsız xəşil olmaz.

Sözlər elə cəvahir kimidir, əsli bədəldən,
Təşxis verən olsa, bu qədər zir-zibil olmaz.

Şair ola bilməzsən, anan doğmasa şair,
Missən, a balam, hər sarı köynək qızıl olmaz.

Çox qısaboy olsan, olursan cin kimi şeytan,
Çox da uzun olma ki, uzunda əqil olmaz.

Məndən də nə zalım çıxar, oğlum, nə qisasçı,
Bir dəfə bunu qan ki, ipəkdən qəzil olmaz.

Azad qoy, oğul, eşqi təbiət də bəyənsin,
Dağ – daşda doğulmuş dəli ceyran həmil olmaz.

İnsan odu tutsun, bu zəlil xəlqin əlindən,
Allahı sevərsən, belə insan zəlil olmaz.

Çox da ki, Sərabın suyu var, yağ-balı vardır,
Baş ərşə də çatdırsa, Sərab Ərdəbil olmaz.

Düz vaxtda dolar taxta – tabaq ədviyə ilə,
Onda ki, nənəm sancılanar, zəncəfil olmaz.

Bu Şəhriyarın təbi kimi çimməli çeşmə,
Kövsər ola bilsə, demirəm, Səlsəbil olmaz.

## BƏXTİYAR VAHABZADƏ
*(1925-2009)*

Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci ildə Şəki şəhərində anadan olmuşdur. İlk təhsilini Şəkidə tamamladıqdan sonra ailəsi Bakıya köçmüşdür. 1942-ci ildə orta məktəbi Bakıda bitirən Bəxtiyar Vahabzadə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub 1947-ci ildə həmin fakültəni bitirir və əmək fəaliyyətinə universitetdə başlayır.

1951-ci ildə elmlər namizədi, 1964-cü ildə isə elmlər doktoru, professor adını alır.

Azərbaycanda və onun hüdudlarından çox-çox uzaqlarda adı hörmətlə çəkilən xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Dəfələrlə millət vəkili seçilmişdir.

Bəxtiyar Vahabzadə ilk şeirlərini 1943-cü ildən çap etdirməyə başlamışdır. Onun ilk mətbu şeri «Ana və şəkil»dir. İlk şeir kitabı «Mənim dostlarım» olan B.Vahabzadə sonra-



lar «Bahar», «Əbədi heykəl», «Dostluq nəğməsi», «Çinar», «Sadə adamlar», «Aylı gecələr», «Şəbi-hicran», «Etiraf», «İnsan və zaman», «Bir ürəkdə dörd fəsil», «Köklər-budaqlar», «Dörd yüz on altı», «Bir baharın qaranquşu», «Dan yeri», «Açıq söhbət», «Açılan sabahlara salam», «Payız düşüncələri», «Özümlə söhbət», «Muğam», «Şəhidlər», «Nağıl-həyat», «Axı dünya fırlanır», «İstiqlal», «Vətəndaş» kimi onlarla şeir kitabının müəllifidir. Şeirləri, poemaları iki cilddə və bir neçə cilddə dəfələrlə çap olunmuşdur. Son zamanlar əsərlərinin 12 cildliyi çap edilmişdir.

B.Vahabzadənin şeirləri dünyanın bir çox xalqlarının dillərinə tərcümə olunmuşdur. Bir çox şer kitabları rus, türk, özbək, alman, rumın, ərəb, fars və başqa xalqların dillərində nəşr edilmişdir. Özü də dünya poeziyasından qiymətli tərcümələr etmişdir.

Bəxtiyar Vahabzadə görkəmli filosof – şair olmaqla bərabər görkəmli alimdir. Onun sanballı elmi əsərləri «Səməd Vurğun», «Sənətkar və zaman», «Vətən ocağının istisi» kimi kitablarda, elmi-publisistik əsərləri «Şənbə gecəsinə gedən yol», «Yanan da mən, yaman da mən» kimi kitablarda toplanmışdır.

B.Vahabzadə «Fəryad», «Özümüzü kəsən qılınc», «Yollara iz düşür», «İkinci səs», «Vicdan», «Yağışdan sonra», «Kimdir haqlı» və s. dram əsərlərində ailə-məişət məsələləri ilə bərabər ictimai-siyasi və tarixi hadisələri də qələmə almışdır.

*Bəxtiyar Vahabzadə*

## ALLAHÜ-ƏKBƏR

Allaha ucalan ulu bir yolun,
İlkin pilləsidir Allahü-Əkbər.
Haqqı dananların üzünə dəymiş,
Haqqın silləsidir Allahü-Əkbər
Göylərin nidası ucalıb yerdən,
Daim xilas edər xeyiri-şərdən.
Qüdrəti-Kamilin minarələrdən,
Gələn nəğməsidir Allahü-Əkbər.
Məkana, zamana, dövrə o, sultan,
Odur həqiqətə qapılar açan,
Möminlik yolunda qəlbə nur saçan,
İman şöləsidir Allahü-Əkbər.

*Bəxtiyar Vahabzadə*

## AZƏRBAYCAN

Azərbaycan, adın oddur, özün – işıq, sözün – işıq.
Biz də sənin bu müqəddəs torpağından boy atmışıq.
Sənsən bizim bu dünyada məsləkimiz, amalımız,
Yolumuza işıq saçsın ulduzumuz, hilalımız.

Nəfəsimiz – ulu Qorqud dədəmizin öz nəfəsi,
Mahnımızda yaşar bizim babaların addım səsi.
Bu torpaqda, bu diyarda dünən vardıq, bu gün varıq,
Biz keçmişə güvəndikcə gələcəyə addımlarıq.

Vətən bizsiz də keçinər, keçinmərik biz Vətənsiz,
Bu məramla boy atmışıq Çənlibellər üstündə biz.
Şəhidlərin qanı ilə yoğrulubdur torpağımız,
Qəlbimizdə dalğalanır öz üç rəngli bayrağımız.



Qardaşlıqdır şüarımız, biz həmişə əl tutanıq,
Düşmən bizə əl uzatsa düşmənliyi unudarıq.
Könlümüzdə bir vahiddir güneyimiz, quzeyimiz,
Vətən – bizim namusumuz, biz Vətənik, Vətən də biz

## ATALAR SÖZLƏRİ

«Anlayanla daş daşı, anlamayanla yemə aşı».

«Adamı göndərdilər bitməz işə, adını qoydular yarıtmaz».

«Bağa baxarsan bağ olar, baxmazsan dağ».

«Bal tutan barmaq yalar».

«Bəxşiş var tümən-tümən, hesab var qəpik-qəpik».

«Bir dəli bir quyuya daş atdı, yüz ağıllı çıxara bilmədi».

«Bu günün işin sabaha qoyma».

«Qələm yazanı qılınc poza bilməz».

«Qanı qanla yumazlar».

«Quş dimdiyindən tələyə düşər, insan dilindən».

«Qohum gəlməyə-gəlməyə yad olar, yad gələ-gələ qohum».

«Qızım sənə deyirəm, gəlinim sən eşit».

«Dərziyə köç dedilər, iynəsini sancdı yaxasına».

«Evində yox uvarlıq, könlündən keçir dargalıq».
«Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş».

«İki qoçun başı bir qazanda qaynamaz».

«İlan vuran ala çatıdan qorxar».

«İşləməyən dişləməz».

«İşini möhkəm tut, qonşunu oğru görmə».

«Yaman qonşu, yaman arvad, yaman at,
Birini boşla, birini boşa, birini sat».

«Könül sevən göyçək olar».

«Mərdin qulu ol, namərdin ağası».

«Örtülü bazar dostluğu pozar».

«Rəhmət düzənə, lənət pozana».

«Sirkə tünd olsa, öz qabını çatladar».

«Ucuz ətin şorbası olmaz».

«Tələsən təndirə düşər».

«Utan utanmazdan, qorx qorxmazdan».

«Hər şey naziklikdən sınar, insan yoğunluqdan».

«Can yanmasa, gözdən yaş çıxmaz».

«Şərti şumda kəsək, xırmanda yabalaşmayaq».



«Keçəl dərman bilsə, öz başına çəkər».

«Çağrılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə».

## ÇOBAN ÇEŞMESİ
*(Efsane)*

Anadolumuzun, birçok yerinde göçebeler vardır. Onlar, kışın sahilde, yazın ise, daha serin olan yaylalarda günlerini geçirirler. Çoban için, su o kadar önemlidir ki, onsuz ne kendisinin, ne de sürüsünün bir tadı vardır.

Elazığ ilimizin Sivrice bağlı Güney köyünde, bir çoban, sürüsünü otlatırken öğle olur, güneş, tam tepesine dikilir. Sıcak arttıkça artar ve bütün kuvvetiyle kavurucu bir sıcaklık başlar… Susuzluğun had safhaya vardığı bir anda çoban:

«Allahım, ne olur, beni ve sürümü sıcaktan kurtar, ya da bir su ver. Eğer, bunlardan birisini verirsen, sana en iyi koçumu kurban edeceğim,» diye adakta bulunur.

Allah, çobanın duasını kabul eder ve bir anda, yerden su fışkırmaya başlar. Çoban ve sürüsü kana kana su içerler. Fakat, sıra kurban kesmeye gelince, çoban niyetini bozar:

«Nasıl olsa kan akıtmak değil mi? Koç yerine köpeği kurban edeyim,» der.

Koç yerine köpeğin kurban edilmesi, Allah indinde hoş karşılanmaz ve çoban, sürüsü ile birlikte orada taş kesilir.

Şimdi Güney köyüne gittiğimiz vakit, orada çoban çeşmesini ve etrafında taş kesilen çoban ile sürüsünü görmemiz mümkündür.

*(«Firat havzası efsaneleri»nden)*

## HALAÇLAR

Bu Türk elinin adı ikisi müstesna, diğer bütün kaynaklarda Halaç (Halaç) şeklinde geçer. Diger iki kaynakta yani Oğuz Kağan Destanı ile Camiü`t-tevarih`te Halaçlar Kalaç şeklinde anılır. Kalaç Oğuz Kağan Destanı`nda: «kal ve (evi) aç» şeklinde, Camiüt-tevarih`те ise «aç kal» tarzında manalandırılmıştır.

Halaçlara dair en eski bilgiyi İbn Hurdadbih veriyor. Adı geçen coğrafiyacı (IX. Yüzyıl), Taraz (Talas)`dan yukarı Başgan`a (Nuşicanul-ala) giden yoldakı konaklardan söz ederken, ikinci konak olan Cermiyye`de Karlukların kışladıklarını, Halaçların kışlaklarının da Karluklarınkine yakın olduğunu söyler. Aynı müellif eserinin daha sonrakı sayfalarından birinde Türk ellerinden söz ederken Halaçların irmağın (Ceyhun) bu yönünde (yani Horasan yönünde) olduğunu bildirir. Bunlara göre Halaçlardan bir küme Taraz`ın 30 km. doğusunda otururken, onlardan daha kalabalık bir küme de Horasan`da yaşamaktaydı.

Halaçların Oğuzdar gibi, On Okların Nuşepi kolundan olmaları daha muhtemeldir. Horasan`dakı Halaçlar sonra oradan Siistan`a inerek Zemin Daver`de yurt tutmuşlardır. Bu Halaçlar Gazneliler ve sonra Gorluların hizmetine girerek onların Hindistin`a yaptıkları seferlere katılmışlardır. Hatta bununla ilgiili olarak, bu Halaçlardan bir kısmı Gorlular devrinde Hindistan`a göç ederek bu ülkede yapılan fetihlerde önemli roller oynadıktan sonra, 1290 – 1320 yılları arasında Hint Müslümanlarına kısa fakat parlak bir devir yaşatmışlardır.

1221 yılında Halaçlar, Türkmenlerle birlikte Gazne`de görünmüşlerdir. Bu Halaçlar Maveraün-nehr`den gelmişlerdir. Başlarında Seyfeddin Oğrak adlı bir bey vardır. Fakat kaynakta bu Halaçların da Moğollar tarafından yok edildikleri bildiriliyor.



Zamanımızda Orta İran`da Save ve Kum yörelerinde çok kalabalık sayıda Halaçlar yaşarlar. Hatta Save Halaçlarının yaşadıkları yere Halacistan da denilir. Bu Halaçlar, Fars`takı ünlü Kaşkay elinin yönetici zümresinin kendilerinden çıktığını söylerler. Halaçların İran`dakı bu yurtlarına Moğol istilası üzerine Türkistan, Horasan ve Afganistan`dan geldiklerine şüphe yoktur. Çalışkan insanlar olan ve umumiyetle çiftçilik yapan Halaçların, kolayca anlaşılır güzel bir Türkçe konuştukları görülür.

Anadolu`ya gelince, bu ülkede ikisi Kalaç, ikinci de Kalaçlı olmak üzere dört köy vardır. Halaç adlı köy sayısı ise 21`dir. Bu yer adlarından çoğunun Anadolu`da yurt tutmuş olan Halaç eline ait oldğuna şüphe yoktur.

*(Mətn F.Sümerin «Türk cümhuriyyetlerini meydana getiren eller ve Türk destanları» əsərindən götürülmüşdür. İstanbul, 1997. səh.103.*

*Sevinç Çokum*

## BİRİ AY, BİRİ YILDIZ

Herkes üşüyordu. Farkına varmadan herkes birbirine sokulmuştu. Cezmiyle Müslüm de iskeledeki kalabalığın arasındaydılar. Bir vapur yanaşmak üzereydi. Pencerelerinde buğulu, mavimsi bir aydınlık vardı. Cezmi:

- Kar yağacak, dedi. Ortalıkta kar kokusu var.

Karın kokusu olur mu? Müslüm, «Hikayeci işte..» diye düşündü.

- Daha bahçelerde güller açıyor, dedi.
- Onlar, yediveren gülleridir. Yaz kış açarlar.

Müsliümün elindeki torbada yeni aldığı palto vardı.

Arasıra içine kırık duygular salan gıcır gıcır bir palto. Cezmi, «Giy şunu. Hava soğuk.» demişti de, Müslüm giymye kıyamamıştı. Hem bu yepyeni paltoya, buruşuk pantolonu, eskimiş, çamurlu ayakkabıları uymazdı ki… Onu elinde taşırken ısınır gibi oluyordu. Bu yetmez miydi? Peki, arasıra içinde beliren o kırık duygular da neyin nesiydi?

## KÖROĞLUNUN TÜRK KÜLTÜRÜNDEKİ YERİ

Köroğlu`nun Türk kültüründe tek mühim bir yeri vardır. O, milli kültürün kutsal bir şahsiyetidir. Kültür hayatımızın birçok sahasında adı mutlâka alınır. Güreşlerde, değnek (cirit) oyununda Köroğlu havaları çalınır. Atlar ve insanlar heyecana gelirler. Bu havalar çalınmaz ise değnek oynu o kadar zevkli olmaz. Bu havaları evvelce birkaç defa dinlemiş olan atlar, o havanın çalınmasını isterler ve o zaman ciritte kendilerini hazırlarlar. Çekiçle Köroğlu ezgisi çalınarak nal imal edilir. Köroğlu adını taşıyan mevki, çeşme, ağaç, mağara, kale gibi yerler ona izafe edlir. Yani onun adını taşıdığına inanılır.

Vesikalarda ne denilirse denilsin, Köroğlu Türkçe konuşulan ülkelerin hepsinde halkın sevgili ve aziz kahramanıdır; destanlarında ifade edildiği gibi o, aynı zamanda manevi bir şahsiyyettir, bir velidir. Türk topluluklarının en aziz varlığı olarak kalplerinde yaşamaktadır ve yaşayacaktır. Çünkü Köroğlu Türk alp erenliğinin yüce abidesidir.

İranda yaşayan Kaşkay Türkleri arasındaki Köroğlu sevgisi anlatılamaz şekilde köklü ve derinditr. «Köroğlu aramızda yaşamakta ve bizleri yaşatmakta ve korumaktadır». dediklerinde, bu sözleri işiten Türkiyeli ziyaretçiler gözyaşları içinde Kaşkay kardeşlerimize sarılmışlar, sonra hep birlikte «Benden selam lsun Bolu Bey`ne «türküsünü çağırarak hem Kaşkayları memnun bırakmışlar, hem de



büyük kahramanın ruhunü taziz etmişlerdir. Köroğlu gerçekten şimdi bütün Türk topluluklarının aynı ruhta birleştiren, Türklüğü koruyan yüce bir manevi şahsiyettir.

(*Mətn F.Sümerin «Türk cümhuriyyetlerini meydana getiren eller ve türk destanları» əsərindən götürülmüşdür. İstanbul, 1997, səh.196.*

## ATİLLANIN QƏMLİ HEKAYƏTİ

Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərə könüllü yollanan və bu mübarizədə Azərbaycan naminə ermənilərin min bir işgəncəsinə cəsarətlə dözən Türkiyə vətəndaşı Atilla Həmdi oğlu Yumak 1959-cu ildə Türkiyənin Kayseri şəhərinin Böyük Büründüz kəndində anadan olub. 11 yaşında ikən atasını itirib. Natamam orta təhsil alıb. Bir müddət xırda ticarətlə məşğul olub. Hazırda II qrup əlildir. İki övladı var.

770 gun ermənilərin əlində əsir olmuş bir insanın sifətində söndürülmüş siqaret kötüklərinin, barmaqlarında kəlbətinin izləri açıq-aydın görünür. Qara eynəyin altında gizlətməyə çalışdğı gözlərində də o müdhiş günlərin işgəncələri görünür. «Təəssüf ki, şəhidlik mənə qismət olmadı, hələ ki ürəyimdə qalan yeganə arzum budur» deməklə o, təbriklərimizi qəbul etdi. Sonra eynəyinin altından süzülən göz yaşlarını silərək dedi: «Müharibəyə getməmişdən əvvəl Şamaxı yolundakı igid türk zabitinin məzarını ziyarət etdim. Ona müraciətlə: «Sən yalqız deyilsən, sənin mənim kimi əsgərin var, sənin kimi vuruşub, sənin kimi şəhid olacağam. Elə sənin yanında da dəfn olunmağımı rica edəcəyəm». Və bu sözlərdən sonra o bizi bütün müqəddəslərin – şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad etməyə dəvət etdi.

Sükutdan sonra Atilladan o dəhşətli əsirlik günləri barədə danışmağını xahiş etdik. O, birmənalı şəkildə təkliflərimizi rədd etdi. «Hər şey burada yazılıb» - deyərək bizə öz əlyazmalarını təqdim etdi və xahiş etdi ki, mümkünsə, səhərisi günü görüşək. Razılaşdıq. Redaksiyaya qayıdıb onun əlyazmalarını oxumağa başladıq.

Azərbaycanda baş verən prosesləri izləməyə çalışırdım. Xocalı hadisəsi məni lap sarsıtdı. Sanki məni qəflət yuxusundan ayıltdı. Özümü birtəhər Bakıya yetirdim. Bakı Kəndlər Birliyinin o vaxtkı sədri Nəsir Ağayevlə tanış oldum (sonradan mən ona «dədə» deyə müraciət edərdim). Bu birlik tərəfindən təşkil olunan yardım karvanları ilə cəbhə bölgələrinə gedib gəlirdim. Lakin ön cəbhədə olmaq könlümdən keçirdi. Onu da deyim ki, bu torpağa ayaq basdığım gündən onun vətəndaşlığını qəbul etmək üçün müvafiq instansiyalara dəfələrlə müraciət etdim. Lakin bir nəticə hasil olmadı.

...1993-cü ilin fevralında Milli Ordu sıralarına yazıldım. N saylı hərbi hissədə xidmət etdim. Sonra kəşfiyyatçıların komandiri təyin olundum.

1993-cü il avqustun 23-ü idi. Döyüş bölgəsinin ön postunda olan komandiri görməyə getdik. Aradan beş dəqiqə keçməmiş düşmənin hücumu başlandı. Əsgərlərdən biri mühasirəyə düşdüyümüzü söylədi. Döyüşə-döyüşə geri çəkilmək istədik. Doğrusu, neçə saat vuruşduğumuzu bilmədim. Yanıma düşən top mərmisindən başımdan ağır yaralandım. Səhər tezdən ayıldım. Əllərim və gözlərim bağlı idi. Əsir düşdüyümü yəqin etdim. Düşmənin çoxsaylı işgəncələrindən sonra səsimi çıxarmalı oldum. Onlar mənim türkiyəli olduğumu bildilər.

Onlara ticarətlə məşğul olduğum və təsadüf nəticəsində «ablavaya düşərək» təsadüfən cəbhə bölgəsinə gəldiyimi dəfələrlə söylədim. Lakin kimsə mənə inanmadı. Məni dilə tutmağa çalışdlar. Dedilər ki, düzgün danışsan, səni azad edəcəyik. Əks halda güllələnəcəkləri ilə hədələdilər. Hərbi



sirləri öyrənmək məqsədilə daha dəhşətli üsullara əl atdılar. Qılçalarımı bıçaqladılar, əllərindəki siqaretləri sinəmdə, üzümdə söndürüb ləzzət aldılar. Hətta qulağımı kəsmək istədilər. İnanın ki, indi də onların söylədikləri qulağımdan getmir: «Elə türklər də bizim düşmənlərimizdir». Məni maşına tullayıb bir kazarmaya gətirdilər.

...Şuşa türməsində idim. Bir gün mişarı boynuma qoydular. Kəsmək istədilər. Lakin bir erməni nadzorunun Azərbaycan türkcəsində «o türkü çox incitməyin, onu Andronikin məzarına qurbanlıq üçün saxlayın» deməsi ilə bu əməliyyatı təxirə saldılar.

...Bir gün bir neçə nəfər ingilis dilində danışa-danışa kamerama yaxınlaşdı. Ermənilərin məni aradan çıxara bilmədiklərinə görə təlaşa düşdüklərini hiss etdim. Gələnlər Qırmızı Xaç təşkilatının nümayəndələri idilər. Onlar məni bu vəziyyətdə görüb öz aralarında nə isə danışdılar. Yaralarımı sarıdılar, məni qeydiyyata götürdülər. Erməni zülmündən şikayət etmədim, çünki eşitmişdim ki, xaricilərə şikayət edənlərin aqibəti daha pis olur. Doğrusu, onlar da mənim səmimiyyətimə inanmadılar. İki gündən sonra Qırmızı Xaç təşkilatı tərəfindən Xankəndindəki xəstəxanaya göndərildim. Uşaqların biri dedi ki, Atilla, əgər səni yenidən Şuşaya aparsalar öldürəcəklər. Ora göndərilməmək üçün özümü dəliliyə, karlığa, korluğa vurdum. Yeməklərdən imtina etdim. Bu müddət ərzində qəbələli Ömər Nəsirovun mənə böyük köməyi oldu. İnanın ki, məni ayaqyoluna öz çiyinlərində aparırdı. Qırmızı Xaçın yeni nümayəndələri Piyer və Yelizavet Xankəndinə gəldilər. Onların gəlişi, demək olar ki, mənim işgəncələrimə son qoydu. 1995-ci ilin mayında əsirlərin dəyişdiriləcəyi xəbəri dolaşırdı. Həmin vaxt ermənilər məni məhkəməyə verdilər. Müstəntiqə «nayomnik» olmadığımı bir daha bildirdim. Ağır vəziyyətdə olduğuma görə Qırmızı Xaçın üzvləri məhkəməyə aparılmağıma icazə vermədilər. Lakin bütün bunlara baxmayaraq, məhkəmə mənə ölüm hökmü çıxardı. 40 – 45

gün heç nə yemədim. Ayaq üstə dura bilmirdim. Vəziyyətim barədə nəzarətçilər özləri yuxarılara xəbər göndərdilər. Son həkim müayinəsi belə oldu: «Canlı meyitin saxlanılmasına heç bir ehtiyac yoxdur». Bir neçə gündən sonra Qırmızı Xaç tərəfindən azad ediləcəyim xəbərini aldım. 1995-ci il oktyabrın 1-də məni Ağdamın Sarıcalı kəndinə gətirdilər. Doğrusu, doğmalarım arasında olduğuma inana bilmirdim. Çünki başıma o qədər oyun açmışdılar ki. Bir həkimin (sonradan öyrəndim ki adı Məleykədir) «Qardaş, bura vətəndir» sözündə bir doğmalıq duydum. Xəstəlik arabasının kəmərlərini açaraq ayağa qalxmaq istədim. Lakin taqətim çatmadı, yıxıldım».

1997-ci ildə Türkiyəyə getdim. Anamla, qardaşımla, bacımla, qayınatamgildə yaşayan Salimimlə, Tubumla görüşdüm. İndi Salimin 11 yaşı var.

- Əsirlik günlərin haqqında danışmaqdan niyə imtina etdiniz?

- Bilirsinizmi, 2 il 20 günlük əsirlik həyatımdan (6 ay Şuşada, 19 ay Xankənddə) danışanda o günləri bir daha yaşamalı oluram, özümü yenidən əsir düşərgəsində zənn edirəm.

- 770 gündə sizə ən dəhşətli görünən nə oldu?

- Doğma torpaqda, fəqət düşmən əlində əsir olmaq! Allah bunu heç kimə göstərməsin.

*(Məqalə «Zaman» qəzetindən götürülmüşdür. 20 – 21 iyul, 2000-ci il)*



**BAYATILAR**

Burda yolum oldu tən,
Varmı bu yoldan ötən.
Bu dünyada şirin şey,
Bir anadır, bir vətən.

Bu yol yola tən deyil,
Yar burdan ötən deyil.
Qürbərdə xoş gün görsəm,
Yenə də vətən deyil.

Qolunda var qüvvətin,
Arzum var olsun mətin.
El yolunda baş qoyan,
Qazanar el hörmətin.

Çobanı qoyun əyməz,
Eyləyən toyun əyməz.
İgid oğul düşmənə,
Yalvarıb boyun əyməz.

Əzizim günü günə,
Gəl satma günü günə.
Keçən günə gün çatmaz,
Calasan günü günə.

Araz qalmaz axmaqdan,
Şimşək doymaz çaxmaqdan.
Gözlərimə qan saldı,
O taylara baxmaqdan.

Əzizim yar aşıqdır,
Bu yara yar aşıqdır.
Çox bilib az danışmaq,
İgidə yaraşıqdır.

Əgər sevsə el səni,
Yıxa bilməz sel səni.
Namərdə boyun əymə,
Qoy aparsın sel səni.

Ovçu əlində oxdur,
Oxun hesabın yoxdur.
Dost çox olsa nə eybi,
Bir düşmən yenə çoxdur.

Əzizim, hər aylar,
Hər ulduzlar, hər aylar.
Dəryada bir gül bitib,
Yandım deyə haraylar.

Mən aşıq oda giryan,
Pərvanə oda giryan.
Mən dedim: oddan kənar,
Demədim oda gir, yan.

Mən aşıq sabah sənsiz,
Sübh sənsiz, sabah sənsiz.
Gecələr ilə dönüb,
Açılmır sabah sənsiz.

## AZƏRBAYCANA GƏLSİN

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin.
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin.

Qanımızda dövr edən sədaqətdir, sədaqət,
Günəşdən də parlaqdır gözümdə bu həqiqət.
Dostuna, qardaşına təmənnasız məhəbbət,
Hörmət görmək istəyən Azərbaycana gəlsin.

Gözəlliklər Vətənə gözəllərindən gəlir,
Dostluğun, qardaşlığın təməllərindən gəlir,
Könüllərin müqəddəs əməllərindən gəlir,
Qüdrət görmək istəyən Azərbaycana gəlsin.

Sanki dolu kitabdır burda hər vuran ürək,
Məhəbbətsiz bir həyat xalqa deyildir gərək.
Dosta qəlbitək açıq süfrəsindən duz-çörək
Nemət görmək istəyən Azərbaycana gəlsin.

## POLİETİLEN PAKETLƏR PROBLEMİ

Artıq çoxdandır ki, dükan-bazarlardan aldığımız məhsul bizə polietilen paketlərdə təqdim olunur və biz buna öyrənmişik. Əlbəttə, bu, həyatımıza bir qədər rahatlıq gətirmişdir. Bəs görəsən bu paketlərin sonrakı aqibəti necə olur? İlk baxışdan adi görünən bu məsələ indi bütün dünyanı qayğılandıran problemə çevrilmişdir. İngiltərənin «Nyu sayentist» elmi-kütləvi dərgisi problemin geniş müzakirəsini açmışdır.



Məlum olmuşdur ki, dəqiq statistika olmasa da, bəzi mülahizələrə görə, hər il dünyanın bütün alıcıları evlərinə 500-dən 1000 milyardacan plastik paket aparırlar. Bu hesabla hər Yer sakininə ildə 150 ədəd paket düşür. Britaniyanın plastmas istehsalçıları assosiasiyası iddia edir ki, «plastik paketlər qorxusu, gigiyenik, möhkəm, sukeçirməz və alış-veriş üçün rahat taradır». Lakin «Yerin dostları» beynəlxalq təşkilat nümayəndəsinin dediyinə görə, bu, yalnız bir dəfə – məhsulu dükandan evə qədər gətirməyə lazım olan, resursların gərəksiz bir şeyə sərf olunmasıdır. İstehsalçılar isə bu arqumenti rədd edərək söyləyirlər ki, hər qablaşdırıcı paket minimum iki dəfə istifadə olunur: yəni rahat olduğu üçün bu paketlərdə həm də zibil tullanır.

Polietilen paket zibilin hər yerə dolaşa bilən ən «fəal» növündən sayılır. Ona hər yerdə, hətta ağac budağında da rast gəlmək mümkündür. Bir neçə il əvvəl iki Nyu York sakini şəhərdəki ağacları paketlərdən təmizləmək üçün firma yaratmış, lakin şəhərdə bu cür fəaliyyəti maliyyələşdirmək üçün pul tapılmamışdır. Polietilen zibilləri məhv etmək də ucuz başa gəlmir: Avropada bir top plastik tullantının yandırılmasına 100, basdırılmasına isə 60 avro pul sərf olunur.

Lakin bu, məsələnin görünən tərəfidir. İngilis alimləri dəniz çimərliklərinin qumunda və başqa su hövzələrindəki gildən polietilen və digər problemlərin mikroskopik hissəciklərini aşkar etmişlər. Bu, əlbəttə ki, su qabları, çanta və başqa plastik tullantıların qırıqlarıdır. Polimer hissəcikləri plankton nümunlərində belə tapılmışdır. Özü də keçən əsrin 60-cı illərindən başlayaraq planktonlarda onların miqdarı artmaqdadır. Aparılan təcrübələr nətcəsində sübut olunmuşdr ki, plakton xarçənglər qidalanma prosesində sudakı polimer hissəciklərini də udurlar. Hələlik planktonla qidalanan balıqların bədənində polietilenin olub-olmaması və beləliklə, onun insan orqanizminə də düşməsi məlum deyil.

Bütöv şəkildə dənizdə üzən paketi isə istənilən dəniz canlısı uda bilər. Meduzalarla qidalanan dəniz tısbağaları

polietilen paketi də meduza hesab edərək udur və bağırsaq tıxanmasından məhv olurlar. 2002-ci ildə Normandiyada dalğaların sahilə atdığı balinanın bağırsağında 880 kiloqram plastik paket və başqa bükülü aşkar edilmişdir. Avstriya ekoloqlarının hesablamalarına görə, polietlen paketlər hər il on minlərlə quş, balina, suiti və tısbağaların ölümünə səbəb olur.

Bəs buna qarşı bir tədbir görülürmü? 1994-cü ildən etibarən Danimarkada bütün plastik paketlər üçün vergi müəyyən edilmişdir. Özü də vergini alıcılır deyil, «pulsuz» paket paylayan dükanlar ödəməlidir. Nəticədə, alıcılara sırınan plastik paketlər 66 faiz azalmışdır. Tayvanda isə 2001-ci ildən hər paketə iki pens vergi qoyulmuş və az müddətdə bunlardan istifadə 69 faiz aşağı düşmüşdür.

Banqladeşdə bu sahədə daha irəli gedərək 2002-ci ildən etibarən polietilen itehsalı və ondan hazırlanan məhsulların satışı təhlükəli zibil mənbəyi kimi, ümumiyyətlə, qadağan edilmişdir. Əslində polietilenlə tutulan hər kəs 5 funt sterlinq cərimə ödəməlidir, istehsalçını isə 10 il həbs cəzası gözləyir. Cəza çox sərt təsir bağışlayır, lakin nəzərə alnmaldır ki, Banqladeşdə zibilin yığılması, yenidən emalı, yaxud basdırılması sistemi yerli-dibli mövcud deyildir.

Bu və buna bənzər qadağalar müxtəlif şəkildə Avstraliya, CAR, İrlandiya və bir sıra başqa dövlətlərdə də mövcuddur.

İngiltərə hökuməti isə hələlik analoji tədbirlərə əl atmır. Məmurların dediyinə görə, polietilen kisələr əslində zibilxanalardakı tullantıların bir faizindən də azını təşkil edir. Bir ekoloji təşkilatın 2003-cü ilin yayında İngiltərə çimərliklərində keçirdiyi əməliyyat nəticəsində məlum olmuşdur ki, plastik paketlər oradakı zibilin yalnız 2, su qabları daxil olmaqla bütün plastmas tullantılar isə 56 faizini təşkil edir.

*(Məqalə «Respublika» qəzetindən götürülmüşdür. 28.12.2005)*



## QRİM QARDAŞLARI

Yakob (1765-1863) və Vilhelm (1786-1859) Almaniyanın məşhur filoloqları olmuşlar. 1837-ci ilədək Hottingen Universitetinin professorları idilər. Konstitusiyanı pozan Bannover kralına and içməkdən imtina etdikləri üçün işdən çıxarılmışdılar. Üç il sonra (1841) Berlin Universitetinin professoru və Prussiya Elmlər Akademiyasının üzvü seçilmişlər.

Orta əsr alman mətnlərini «Zavallı Henrix» (1815), «Gülüstan» (1836) və s. nəşr etdirmişlər. Onlar «Alman qəhrəmanlıq eposu» (1829) tədqiqat əsərinin müəllifi, mifoloji məktəbin baniləri kimi də tanınırlar.

Qrim qardaşlarının alman folklorunun toplanıb nəşr edilməsində («Uşaq və ailə nağılları», «Alman əfsanələri») mühüm xidmətləri olmuşdur. Böyük qardaş Yakob «Alman qrammatikası» və «Alman dilinin tarixi» əsərləri ilə alman dili tarixinin əsasını qoymuşdur.

Qrim qardaşlarının nağılları bir çox dillərə, o cümlədən Azərbaycan dilinə tərcümə olunmuşdur. Qardaşların «Nağıllar» (Bakı, Gənclik, 1988) kitabında uşaqların sevə-sevə oxuduqları 24 nağıl toplanmışdır. İnamla demək olar ki, Qrim qardaşlarına dünya şöhrəti qazandıran məhz qələmə aldıqları nağıllardır.

## GƏLƏNLƏR, DÖNƏNLƏR VƏ QALANLAR…

*Ermənilərlə savaşmaq üçünAzərbaycana gələn Osmanlı Ordusunun zabiti Nəhmətullahbəyin oğlu Əhmədin həyat hekayəsi*

Bu gün Azərbaycanın təxminən bütün rayonlarında «türk oğlu və ya türk filankəsin oğlu» adıyla tanınan insanlar var.

Bakıda qalan Osmanlı əsgərlərindən biri də Nəhmətullah bəy idi və o, yaralı aslan kimi hər şeyi göz altına alıb, gözünün ağı-qarası, tək övladını axtarırdı.

Antanta I Dünya müharibəsində Üçlər İttifaqına qalib gəlir və bu nəticə Osmanlı dövlətinin boynuna çox ağır şərtlər qoyur. Avropadakı 500 illik bütün Osmanlı torpaqları əldən çıxır, İngiltərə, Fransa, Yunanıstan, Rusiya kimi dövlətlər Osmanlını paramparça etmək üçün müxtəlif strateji planlar həyata keçirmək istəyirdilər. Odur ki, ingilislərin tələbi ilə Osmanlı ordusu qısa müddətdə Azərbaycandan çıxarılır.

1918-ci ilin noyabr aynın 17-də Qafqaz-İslam Ordusu Bakını tərk edir. Türk əsgərləri vaqonlara doluşub Bakını tərk edəndə general Tomsonun başçılıq etdiyi ingilis hərbi birləşmələrini Ənzəlidən gətirən gəmi Bakı limanına yanaşırdı. Amma o dövrdə çox sayda Osmanlı əsgəri müxtəlif səbəblərdən Azərbaycanda qalmışdı. Bu gün Azərbaycanın təxminən bütün rayonlarında «türk oğlu və ya trk filankəsin oğlu» adıyla tanınan insanlar var.

Bakıda qalan Osmanlı əsgərlərindən biri də Nəhmətullah bəy idi. Nəhmətullah bəy oğlu Əhmədin dalınca Gəncəyə gedir, ancaq onu ortada tapa bilmir. Nəhmətullah bəy narahat halda yenidən Bakıya dönür, soruşur, soraqlaşır, amma yenə oğlunu tapa bilmir. Balaca Əhmədi isə Bakıda da burdan-ora, ordan-bura yerləşdirir və nəhayət, Lənkərandakı bir uşaq evinə göndərirlər. Artıq o, ayrılıqlara öyrəşib, intizara, iztiraba alışıb. Nə gəlib-gedəndən soruşur, nə də kimi isə narahat etmirdi.

Əhməd Lənkəranda qaldığı uşaq evindən qaçaraq atasından bir xəbər tutmaq üçün türk əsgəri axtarmağa başlayır. Ona məsləhət görürlər ki, Astaraya getsin. Atasını tapmaq ümidlə hər təhlükəni göz altına alan Əhməd İran Astarasına gedir və orada kasıb bir evdə qonaq olur:

Kasıb da olsa, ailə Əhmədə xoş münasibət göstərir, onu doğma övladdan seçmirlər. Amma Əhməd bir yerdə qərar tuta bilmir, rahatlıq tapmırdı. Nəhayət o, qərarını verir, yenidən Lənkərana dönür və bir il əvvəl tərk elədiyi uşaq evinə alınır. Uşaq evində ona yaxşı baxırlar, qəribdir deyə qəlbini qırmırlar. Aylar keçir və bir gün Əhməd küçədə atasını görür, qaçıb onun boynuna sarılır. Ata-oğulun göz yaşları bir-birinə qarışır. Nəhmətullah bəy o günü ömrünün ən xoş gününü yaşayır.

Nəhmətullah bəy bu məmləkətə savaşmaq üçün gəlmişdi, müsəlman-türk qardaşlarını erməni-rus zülmündən qurtarmaq üçün gəlmişdi, şəhid olmaq üçün gəlmişdi. Savaşdı da, qardaşlarını zülmdən qurtardı da, amma bircə övladını axtardığı üçün birlikdə gəldiyi silahdaşları ilə geri dönə bilmədi. Və bundan sonra dönüş yolu görünmürdü də. Qalırdı tale ilə barışmaq və bu məmləkətin insanına qarışıb hamı kimi həyatına davam etmək üçün. Amma bu da o qədər asan olmayacaqdı. Keçmiş Osmanlı zabitinin bu qədər dəyişməsi və öz keçmişini unutması nə qədər çətin görünsə belə, onun qarşısında bundan daha asan bir yol görünmürdü. Nəhmətullah bəy bu çətin yolun öhdəsindən gəlməyi bacardı. Oğlunu uşaq evindən aldı, Lənkəran şəhərində köhnə, boş bir evə yaxşıca əl gəzdirib ata-bala orada yaşamağa başladılar. Öz adını dəyişib Nəhmət, oğlunun adını isə Novruz qoydu. Keçmişdə nə vardırsa hamısını unutmaq, yaddaşdan silmək, yeni insan kimi həyata başlamaq, hər şeyi yenidən qurmaq lazım idi. Köhnə bir qarmon tapdı və toy-düyünə gedib onunla çörəkpulunu qazanmağa başladı. Şəhərdə qeydəalınma aparılanda oğlunun tərcümeyi-halına «1912-ci ildə Lənkəran rayonunun Mamusta kəndində doğulub» yazdırdı. Belə daha rahat idi, çünki Azərbaycan artıq rus bolşevikləri tərəfindən işğal edilmiş, milli hökumətin yerində sovet hökuməti qurulmuşdu. Təbii ki, bu qurum keçmiş Osmanlı zabitinə xoş gələcək vəd eləmirdi.

Sonralar Azərbaycanın məşhur sərkərdəsi olmuş Həzi Aslanovla Novruz uşaqlıq dostu olublar. Dostlaşıblar da,

küsüşüblər də, amma hər dəfə gözlər bir-birini axtarıb. Bakıda uşaqlar üçün hərbi məktəb açılır və rayonlardan ora şagird yığırlar: Həzi Aslanov, Novruz Cəfərov da təhsil almaq üçün bu məktəbə göndərilirlər. O zaman bu məktəb indiki «Bakı Soveti» metrosunun qarşı tərəfində yerləşirmiş. İlk günlər hər şey qaydasında gedir, amma bir gün Novruz möhkəm soyuqlayır və müalicə olunmaq üçün Lənkərana gedir. Təxminən on gün Lənkəranda qalır, müalicə olunur, təhsilini davam etdirmək üçün geri qayıdanda divarda məktəbdən qovulması haqqında əmri oxuyur. Üstəlik, hərbi məktəbi özbaşına tərk etdiyi üçün hərbi məhkəməyə verilir və 3 il həbs cəzası alır. Gənc yaşında başına gələn bu hadisələr onu bərk sarsıdır. Həbsdən qurtardıqdan sonra təhsil almaq arzusunu başından çıxarır və qarşısına çıxan hər hansı münasib bir yerdə işləib çörəkpulu qazanmağa başlayır.

Almaniyanın SSRİ üzərinə hücumu ilə ölkədə kütləvi səfərbərlik başlanır və Novruz Cəfərov da cəbhəyə ilkin göndərilənlərdən olur. Elə ilk günlərdən cəsarəti ilə fərqlənir. Çiyin-çiyinə döyüşdüyü silahdaşları onun bir hərbçi kimi bacarığından çox danışıb, çox yazıblar. İstefada olan polkovnik Mirdaməd Seyidov onu əfsanəvi bir qəhrəman kimi dəyərləndirir. 1942-ci ilin noyabr ayında Xarkov istiqamətində döyüşlərdə Novruz ağır yaralanır və almanlara əsir düşür.

Əsir düşərgəsində almanların kommunistlər əleyhinə apardıqları təbliğat onun düşüncələrində yeni səhifələr açır. Onsuz da hələ döyüş meydanlarında ruslardan kifayət qədər ögeylik, yad münasibət görmüşdü. O, almanları belə xatırlayır: «Bir alman generalı ilə dost oldum, soyadı Hönfe idi» - general Hönfe. General olsa da çox təvazökar insan idi. Mənimlə bir hərbi əsir kimi deyil, dost kimi münasibət saxlayırdı.

Biz tanış olanda mən əsir, o isə general idi, amma qısa müddətdə dost olmuşduq, ayrılanda isə o, göz yaşlarını saxlaya bilmirdi.



Əsir azərbaycanlılar arasında SSRİ və kommunizm əleyhinə təbliğat aparmaq, siyasi hazırlığı gücləndirmək sahəsində də Novruz Cəfərov çox işlər görürdü.

Xüsusi ayrılmış təyyarə ilə bir gecə İstanbula uçdu. Bu onun həyatının ən çox arzulanan, eyni zamanda ən kövrək və məsuliyyətli bir səfəri idi. Aldığı tapşırıqsa Məmməd Əmin Rəsulzadəni bu şəhərdən götürüb, ləngimədən geri dönmək idi.

Cəmisi iki saata yaxın İstanbulda qalır və Məmməd Əmini də götürüb gəldiyi hava yolu ilə geri dönür.

Məmməd Əminin gəlişi Azərbaycan legionunda xüsusi canlanmaya səbəb olur. Legiona «fərağət» deyərək təntənəli addımlarla Məmməd Əminin qarşısına yeriyib, «Baş komandanım» Azərbaycan legionu sizinlə görüşə hazırdır!» raportunu vermək vəzifəsini Novruz Cəfərov yerinə yetirir.

1946-cı ildə Avstriyada qəfil bir basqı ilə həbs olunaraq SSRİ-yə gətirildi. Bakıda KQB-nin zirzəmisində başına olmazın müsibətlər gətirdilər: dırnaqlarını kəlbətinlə çəkdilər, barmaqlarını qapı arasına qoyub qırdılar, sapsağlam dişlərini vurub sındırdılar, əl-qolunu bağlayıb huşunu itirənə qədər döydülər.

Sonra Sibirə sürgün etdilər. Müddəti nə qədər uzun, mənzili nə qədər soyuq olsa da, sürgün KQB zirzəmisindən çox yaxşı idi. Sibir meşələrində yay-qış demədən odun qırırdılar. Artıq yaraları sağalmış, əl-qolu düzəlmiş, özünü yaxşı hiss eləyirdi.

1953-cü ilin soyuq bir mart günündə Stalinin ölüm xəbəri yayıldı. Milyonlar bu xəbərə göz yaşı töksə də, o, ürəyində çox sevindi, həm də bu sevinc əbəs yerə deyildi. Çox keçmədi ki, Xruşov geniş amnistiya elan elədi və bu aksiyadan yararlananlardan biri də Novruz Cəfərov oldu. 8 illik həbs həyatından sonra, 1956-cı ilin sonlarında azad olunaraq Azərbaycana döndü.

Məhbəsdən qurtarıb gəlib, amma üstündən göz götürmürdülər. Lənkərana dönmək fikrini başından çıxardı,

çünki orada hamı bir-birini tanıyır, «vətən xaini», «xalq düşməni» deyib salam da verməyəcəkdilər. Əvvəlki iş yerlərinə baş çəkdi, köhnə dostları soraqladı. Kömək eləyən də oldu, arxa çevirən də. Onsuz da o illərdə SSRİ-nin hər yerində həyat qaynayırdı, inşaat meydanlarından tutmuş, teatr truppalarına qədər hər yerdə qabiliyyətli işçi axtarırdılar.

Novruz Cəfərov da hər sahədə öz istedadını yoxlamağı qərara aldı. Xorda oxudu, tikintidə fəhlə işlədi, teatrda aktyor kimi rol aldı, fabrikdə fəhləlik elədi… Ancaq illərdən bəri ürəyindəki arzusunu gerçəkləşdirə bilmədi – oxuya bilmədi, çünki artıq gec idi.

Zaman keçdikcə ətrafındakıların ona münasibəti da yavaş-yavaş dəyişirdi. Daha əvvəlki kimi ona satqın, xain kimi baxmır, salam verib-salam alırdılar. Yaxın dostların, qonşuların təkidi ilə ailə qurdu və 50 yaşında ilk dəfə ata olmağın ləzzətini yaşadı. Hərdən darıxır, canı sıxılır, kül altında sozalan qor kimi uzaq xatirələr yadına düşür, bütün yaddaşını səfərbər edib, nəyi isə tapıb yerinə qoymaq, bərpa eləmək istəyir.

Heç özü də bilmədən bir də gördü ki, əlində fırça böyük bir kətan parça ilə üzbəüz dayanıb. Bir neçə ay ərzində iki İstanbul mənzərəsini yaddaşından alıb kətan parçaya köçürdü. Bu «İstanbul»lar onun rəssam karyerasının ilk və son nümunələri olmaqla yanaşı, həm də xatirələrinin istinad nöqtəsidir.

Evində bir dəst kostyumu cırılmasın deyə əyninə almır. Deyir ki, Məmməd Əmin Rəsulzadə ona pay verib. 2+3 sm ölçüsündə balaca dəmir sandıqçada olan Qurani-Kərim də öndərin Novruz dayıda yadigarıdır. Evində daha bir dəyərli yadigar var: Paşa papağı. Həmin bu paraq kimin olsa yaxşıdır. Qafqaz-İslam Ordusunun komandanı Nuru paşanın. Evində o papağı başına qoyar, güzgünün qabağına keçər, ağ saçlarına, üzündəki qırışlara, bir də Nuru paşanın yadigarına tamaşa eləyər.



Atası ilə ayrılandan sonra çox az görüşdülər. Çünki ilk illərdə hər ikisi üçün belə daha rahat idi, üz-üzə gələndə istər-istəməz qoyub gəldikləri yerlər, ikisini bir-birinə bağlayan vəfalı həyat yoldaşı-ana gəlib aralarında durur, onları bu yeni mühitə, bu yeni həyata alışmağa qoymurdu. Ona görə də yaxşı olardı ki, hər kəs öz içindəkini götürüb bir tərəfə çəkilsin və başını aşağı salıb işi ilə məşğul olsun. Bu həqiqəti hər ikisi anlamışdı. Üstəlik, atanın Lənkəranda yeni ailəsi, üç övladı vardı. O da hər kəs kimi işləyib qazanmalı, balalarını dolandırmalı idi. Əhməd, yəni Novruz bunları yaxşı başa düşürdü, onun üçün də ürəyi nə qədər çox istəsə də, atasından uzaq qaçır, onu buradakı həyatı, ailəsi ilə baş-başa buraxırdı.

Bir gün də ölüm xəbərini aldı, tək-tənha gedib məzarının başı üstündə oturdu, içindən gələn bir fəryadla hönkürdü, hönkürdü, ürəyində bir düyünün əriyib yox olduğunu hiss elədi, durub gəldiyi kimi də səsiz-səmirsiz çıxıb getdi. Bir neçə il sonra ailəsini itirdi, ardınca da sevimli oğlu Fəxrəddini.

94 yaşı var. Saçı, saqqalı qar kimi ağappaqdır; qəddini şax tutar. Çox nəzakətlidir. Yaş öz işini görsə də, ruhu sapsağlam, dili dualı… Şəhərə də çıxanda ən çox Şəhidlər Xiyabanındakı məscidə namaza gələr.

Bu dünyada ən böyük istəyi nəvələri Günel və Hüseyni xoşbəxt görməkdir.

Kimi üçün adicə qonşudur, kimi üçün müştəri, kimlərsə də onu uzaq qohum kimi tanıyırlar. Amma iztirab və işgəncələrlə dolu ömür yolu, məhrumiyyət və ehtiyaclarına rəğmən ruhundakı zənginlik, fədakarlıq duyğusu ona qəhrəmanlıq haqqı qazandırmaq üçün yetirilibdir.

*(Məqalə ixtisarla «Zaman» qəzetindən götürülmüşdür. 1-3, 4-5 may, 2004-cü il)*

## İSLAM və XEYRİYYƏÇİLİK
(*ixtisarla*)

Xeyriyyəçilk xeyir iş görmək, ehtiyacı olanlara kömək etmək, arzusundan və əməlindən irəli gələn xeyriyyə işlərinin icraçısı kimi çıxış edən kəslər və onların bu məqsəd üçün qrup halında yaratdığı müəssisələrdir (cəmiyyət, təşkilat, idarə və s.). Bu, bəşər cəmiyyətinin varlığında həmişə nəciblik, alicənablıq, mərdlik, hətta fədakarlıq nümunəsi olmuş və olmaqdadır. Xeyriyyəçinin tarixi kökü çox dərinliklərə gedir. Bəşər aləminin yarandığı andan Allahın zəkat (sədəqə) vermək haqq işidir buyuruğu ilə başlanıb. Məhz O, Özünün xəlq etdiyi bəşər övladlarını xeyrə dəvət etmiş və etməkdədir: «(Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən, nicat tapmış şəxslərdir. (Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılan və ixilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar». (s.3,104-105)

Xeyriyyəçilik yoxsulluqla bağlıdır. Bu nəcib insan fəaliyyəti bəşər aləmində, icmalarda baş qaldıran yoxsulluq zərurətindən irəli gəlib.

Tarixən xeyriyyə işi zəkatla başlayıb. Xeyriyyənisə, Cənabi-Haqqın yanında olduğu üçün, orada tapmaq olar. «...Özündən ötrü (əvvəlcə) etdiyiniz xeyri (yaxşı əməllərin əvəzini) Allah yanında taparsınız. Həqiqətən Allah bütün etdiklərinizi görəndir». (s.2, 110),-buyurmaqdadır Ulu Tanrı.

Xeyriyyəçiliyin növlərindən biri də mesanatlıqdır. Mesenat elm və incəsənətə kömək edən varlıya deyilir. Yoxsullar içərisində də elələri olur ki, bu sahədə böyük istedada malik olur, fəqət yoxsulluq ucundan istedadını tətbiq edə bilmir. «Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et) ...Allah sənə (sərvət



verməklə) yaxşılıq etdiyi kimi, sən də... yaxşılıq et...» (s.28-77). Bu müqəddəs ayə varlının insanlara, illah da yoxsullara maddi kömək göstərməklə yanaşı, həm də elm, incəsənət, bütövlükdə mədəniyyət sahəsində yardım etməyə də işarədir.

«Səxavətli adam Allaha yaxındır... Səxavətlik cənnət ağaclarından biridir, budaqları dünyanın üstünə sallanmışdır; kim bu ağacın bir budağından yapışsa, həmin budaq onu cənnətə aparar...», - andırıbdır Allahın rəsulu Mühəmməd əleyhissalam öz kəlamlarının birində.

Xəsislik də elə bir ağacdır ki, onun da budaqları dünyanın üstünə sallanmışdır. Lakin bu, «cəhənnəm ağacıdır. Kim bu ağacın bir budağından yapışsa, həmin budaq onu cəhənnəmə aparar», - bu sözlər də peyğəmbərimizin həmin kəlamlarındandır.

Təmənnasız (faizsiz və s.) dövlət, hökumət və bunlara bərabərləşdirilən qurumların yardımı da xeyriyyəçilik əlamətidir. Bu yardım da ədalətli və ancaq yoxsullara məxsus olmalıdır. Əslində bu yardım yoxsullara qarşı mübarizə kimi çıxış etməli və onun xüsusi proqramı olmalıdır. Həm də bu proqram iki kateqoriyaya ayrılmalıdır. Bunlardan biri yoxsullara əvəzsiz pul ödənişlərinin verilməsi, digəri isə onlara müstəqillik verməklə yanaşı, kasıblıqdan qurtarması üçün qazanc götürmək imkanı yaradılmasıdır.

Xeyriyyə işlərinin əsasını halallıq təşkil edir. Halallıq olmayan yerdə, yaxud kəsdə əsl xeyriyyəçilik da ola bilməz. Ulu Tanrı haram şeyləri nəinki kasıb-kusuba, yoxsula verilməsini qadağa edir, onları heç digər bəşər övladlarının özünə də qıymır.

Pak, təmiz və halal şeylərdən zəkat (sədəqə) vermək xeyriyyəçiliyin mühüm şərtidir. İslam qazanılan və İlahi tərəfindən yetişdirilən şeylərin ən pakından və halalından zəkat (sədəqə) verməyi tövsiyə edir.

İnsan özünün pak əqidəsi və qənaəti sayəsində insandır. Əqidə və iman insanla Allah arasında mənəvi bir rabitədir. Məxluqu, adamı insanlığa bağlayan da məhz

bunlardır. Rəbbin yaratdığı kainatda o, imanı və pak əqidəsi sayəsində öz mövqeyini axtarır, öyrənir və nəhayət, özünü tanıyır. Allah da onun tutduğu bir xeyir işini əvəzsiz qoymur!

*(Mətn Hacı İsmayıl Feyzullabəyli, Əvəz Bayramovun «İslam. Sosial –iqtisadi münasibətlər» kitabından götürülmüşdür. Bakı, Araz, 2000, səh.176 – 188)*

## QAYALARIN GÖZ YAŞI

*(Türk əfsanəsi)*

Krımda, onun incisi sayılan Bağçasaraydan altı kilometr aralı Kara çayının üstündəki dərənin ağzında sütunabənzər, hündür iki qaya ucalır. Bir-birinə çox yaxın olan bu qayaların maraqlı və cəlbedici görüşləri və həm də çox düşündürücü adları vardır: «Vay-vay, anam Qaya» və «Qorxma, balam Qaya». Bu adlar qayaların çox maraqlı bir tarixə malik olduqlarından xəbər verir. Görünüşlərindən də kədər duyulan bu iki qaya həsrətlə bir-birinə baxan kimi görünür, öz lal durumu ilə adamı elə təəssüfləndirir ki, bu kədərli nidaları, fəryadları eşitmiş kimi olursan. Həqiqətən qayaların adları özündə maraqlı, eyni zamanda qüssəli bir əhvalat saxlayır. Dərənin ağzında on metr ucalıqda olan qaya, doğrudan da, bir insan fiquruna bənzəyir; ikinci qaya bir az aralıqda yolun üstündə asılmış vəziyyətdədir. Onu asanlıqla ilk baxışdan kürsüdə otumuş qadına bəzətmək mümkündür.

Bu yerlərdə qayalar barədə çox kədərli bir əhvalat dillərdə dolaşmaqdadır.

Zalım və qaniçən Topal bəy qonşusu Kamal Mirzənin gözəllər gözəli xatunu ilə ayüzlü yeniyetmə qızını qaçırır.



Topal xan məqsədinə çatmaqdan ötrü onlara çox işgəncələr verib zülm edir. Lakin nə qədər əsirlikdə saxlasa da, onlara sahib olub hərəminə daxil edə bilmir.

Bəy ana ilə balanın ona olan nifrətini görüb onlara ağır cəza verdirir: onları diri-diri qayaya hörməyi əmr edir.

Beləliklə, möcüzəli Krım torpağında Koş Dermen yaylağında iki qəribə qaya yaranır. Lakin çuğullar aylı gecələrdə qayanın mahcamallı gözəl bir qıza çevrildiyini şorgöz bəyə çatdırırlar. Kinli Topal bəy qayanı yerlə-yeksan etməyi əmr edir. Çünki asan «zəfərlərə» öyrənmiş bəy təhqiri, özünün rədd edildiyini unutmurdu.

Nökərlər atları, öküzləri götürüb gəlib qayaya çatırlar. Örkənləri, kəməndləri atıb onu yıxmağa başlarkən birdən qayadan qorxusundan dəhşətə gəlmiş qız səsi gəlir. «Vay-vay, anam» - «Qorxma, balam» - deyə o biri qaya səslənir.

Həmin an elə bil uca tanrının səbri tükənir, onlara qəzəbi tutur. Dərədə kim vardırsa, əllərində nələri vardırsa, eləcə də qoşqu heyvanlar – atlar, öküzlər – hər şey daşa gönür.

İndi də Koş Dermen yaylağında həmin yer müxtəlif biçimli və şəkilli saysız-hesabsız daş yığını ilə doludur.

*(İşləyəni Minaxnım Təkəli. «Savalan» qəzeti, 1999, 19 may)*

## SEVDALI ANQARA VƏ YENİSEY BAHADIRIN NAĞILI

*(Türk əfsanəsi)*

XII əsr ərəb səyyahı yazırdı: Baykal gölü yeraltı böyük çatdan əmələ gəlib. Odur ki, yaralı kimi inildəyir və bu iniltilər qiyamətə qədər sürəcək.

Ağ saçlı Baykalın oğlu çox idi: Barquzin, Anqa, Sarma… Amma gözünün ağı-qarası bircə qızı vardı: zərif, göyçək Anqara. Anqara onda kiçicik bir irmaq imiş. Baykal qızını çox sevir, əzizləyir, nazını çəkirdi. Qoca ata öz qızını itirməkdən qorxduğu üçün həmişə nəzarəti altında bağlı, ətraf aləmdən xəbərsiz saxlayırmış. Lakin qızın ərə getmək vaxtı çatanda Baykalın hökmü altında olan yerlərə hər yandan elçilər axışıb gəldi. Hirsli-hirsli İrkut at üstündə çapa-çapa özünü yetirdi. Gözəl və həm də təmkinli Alat da yaxına gəldi. Lakin gözəl Anqara onlara məhəl qoymadı. O artıq bahadır Yeniseyin sorağını almışdı. Gənclik həddinə çatıb daha da gözəlləşən Anqara qız bir gün öz məcrasında sakit-sakit axarkən iki qayanın söhbətini eşidir. Demə, uzaqlarda, lap günün batdığı yerdə güclü bahadır Yenisey yaşayır. Yenisey hündür, qarlı dağlardan baş alıb gəlir, haray qopara-qopara gurultu ilə daşların arasından özünə yol açır, çöllər boyunca axdıqca axır və nəhayət, öz sularını ucu-bucağı görünməyən dənizə tökür.

Anqara rahatlığını itirir, qəm-qüssəyə batır, gözəl Yenisey bahadırın fikri ona dinclik vermir. Nəhayət, qaranlıq gecələrin birində Anqara qaçmağa qərar verir. Baykal ata möhkəm yatmışdı. Qız atasının tək qalacağı fikrindən əzab çəksə də, var gücünü toplayıb gur sulu bir çaya çevrilir, sularını bütün Baykal boyunca coşdurur, sellər kimi gurlayıb axır.

Səksəkə içində yatan ata ayılır. Hər yan zülmət içində olsa da, Anqaranın qaçdığını həmən duyur. Yeganə qızının, sonbeşıyinin onu qoyub qaçdığını görüb özündən çıxır. Amma gec idi, olan olmuşdu. Dərddən ağlını itirmiş Baykal ata hiddətindən coşan dalğalarını sahillərə çırparaq geri çəkilir, böyük bir qayanı qopararaq bu nankor qızın ardınca atır. Qaya Anqaranın qabağına düşərək suyun qabağını kəsir. Lakin vurğun Anqara iki yana ayrılıb daşın hər iki tərəfindən axmaqla qaçmağa üz qoyur. İgid Yeniseyə qovuşana kimi gecəli-gündüzlü axır. Bir-birinə qovuşan sevdalı gözəl Anqara və bahadır Yenisey xoşbəxtliklərinə qovuşurlar.

Baykaldan həmişə soyuq küləklər əsir, göl lərzəyə gəlir, gup-gup döyünür, atanın heç vaxt sönməyən kin-küdurətini ifadə edir.

Baykal və Anqara arasındakı həmin daş qalır və Şaman daşı adlanır. Baykal atanın atdığı həmin daş öz minillik əzəmətini saxlamaqda, həm də fədakarlıq simvolu kimi durmaqdadır.

*(İşləyəni Minaxanım Təkəli*
*«Savalan» qəzeti, 19 may 1999)*

## SUMQAYIT ƏFSANƏSİ

İndiki Sumqayıt şəhərinin yerində qədimdə azərbaycanlılardan ibarət bir tayfa yaşayırmış. Bu tayfada Sum adlı igid bir oğlan və Ceyran adlı gözəl bir qız varmış. Bu iki gənc bir-birini təmiz bir məhəbbətlə sevirmiş və onlar əhd-peyman bağlayıblarmış.

Tayfanın yaşadığı yerin kənarında böyük bir çay axırmış. Bu çayda nəhəng bir əjdaha peyda olubmuş. Camaat

əjdahanın qorxusundan nə özünə, nə də mal-qarasına su apara bilirmiş. Çaya yaxın düşəni əjdaha o saat parçalayıb yeyirmiş. Tayfa başçıları adamyeyən əjdahanı rəhmə gətirmək üçün çayın kənarına gedib ona yalvarırlar. Əjdaha da bu yalvarışlardan «insafa» gəlib «güzəştə» gedir. Gündə onlardan bir adam istəyir. İnsanlar bu şərtlə sudan rahat istifadə edə bilirdilər. Əlacsız qalan tayfa başçıları adamyeyən əjdahanın tələbi ilə razılaşırlar.

Bu qərarı eşidən Sum bir neçə igidlə tayfa başçılarının yanına gəlir. Onlar əjdaha ilə aparılan danışıqlara etiraz edirlər.

- Gündə bir qurban vermək tayfamızın tədriclə məhv olması deməkdir.

Tayfa başçısı:

-Birdən məhv olmaqdansa tədricən məhv olmaq faydalı deyilmi?

Sum qəzəblənir:

- Belə «faydalar» əslində heç kimə fayda gətirməyib, elin qılınc vurub, qalxan tutan oğullarını səsləyin. Birlikdə əjdahanın üstünə gedək, şübhəsiz, onu asanlıqla məhv edərik.

Tayfa başçısı Sumun təkliflərindən qorxur:

- Yox bala, bizim əjdahaya gücümüz çatmaz, hamımızı birdən kamına çəkib tələf edər.

Sum təklənir. Beləliklə, adamyeyən əjdahaya gündə bir ailədən bir adam qurban gedir. Camaat əjdahaya qurban verəndə yasa batır, su alanda şadlanırlar.

Həhayət, növbə Sumla Ceyranın ailəsinə çatır. Sum deyir:

- Mən qurban gedəcəyəm!

Ceyran sevgilisinə qəti etiraz edir:

- Xeyr, mən gedəcəyəm. Səndən sonra onsuz da mən yaşaya bilmərəm.

Sum nə qədər çalışırsa Ceyranı razı sala bilmir. Axırda onu aldatmağa məcbur olur. Sum gecə Ceyranı yuxuya verib yaraqlanır, yasaqlanır, əjdahayla təkbaşına döyüşə yola düşür. Ceyran ayılanda işi başa düşür. Dəli kimi evdən çıxıb sevgilisini haraylayır:

- Sum, qayıt!.. Əjdahanın meydanına özüm gedəcəyəm. Sum, qayıt!..

Ceyranın səsi dağlarda, daşlarda əks-səda verir:

- Sum, qayıt!.. Sum qayıt!.. Sum qayıt!..

Ceyran çaya çatanda görür ki, indicə göz yaşı kimi axan çayın suyu qıpqırmızı axır. Dəhşətə gəlir… O, başa düşür ki, çayın yuxarısında əjdaha Sumu parçalayıbdır. Suyun rəngini qırmızı boyayan da öz cavan canını camaatına qurban verən Sumun qanıdır.

Ceyran tələsik özünü hadisə yerinə çatdırdı. Görür ki, Sum əjdahanı da öldürüb, özü də ölüb. O, sevgilisinin bu halına dözə bilmir, oradaca havalanır, yenidən Sumu tapmaq üçün fəryad edir, dağlara, daşlara səs salır:

- Hardasan, Sum!!! Sum, qayıt!!!

Ceyran bir gün yenə də çöllərdə Sumu axtararkən bir bataqlığa düşür. Onun taqəti belə olmur ki, bu sulu bataqlıqdan çıxsın. Bataqlıq onu yavaş-yavaş yerin təkinə çəkir və Ceyran burada boğulur. Vəfalı qız ölüm ayağında da sevgilisini səsləyir:

- Sum, qayıt!!! Sum, qayıt!!!

Ceyran ölümündən sonra həmin tayfa yaşadıqları bu yerin adını Ceyranın Sumu çağırdığı kimi, Sumqayıt qoyurlar. Ceyranın boğulduğu yer isə Ceyranbatan gölü adlanır.

## MƏHƏMMƏD PEYĞƏMBƏR ELM HAQQIDA

Məhəmməd Peyğəmbərin insanların paklığına və mənəvi saflığına çağıran kəlamları içərisində elm haqqında söylədiyi fikirləri indi hər bir ziyalının düşüncəsində özünə müəyyən yer tutur. Peyğəmbərimiz «ömrünü elmə sərf edən

adam heç vaxt ölmür» demişdir. Reyğəmbərimiz demişdir: «Beşikdən qəbrə qədər elm axtarın», «Elm axtarmaq xətrinə evini tərk edən adam Allaha sarı yol gedər», «Elmindən fayda gələn alim min abiddən üstündür» deyən Peyğəmbərimiz alimlərə və eləcə də bütün elm adamlarına çox yüksək yer vermişdir.

Mövcud bəndələrin ən yaxşısını fərqləndirən Peyğəmbərimiz belə buyurub: «Bilin ki, Allahın bəndələrinin ən yaxşısını bilikli və ədalətli başçılar, onların ən pisi zalım və cahil rəhbərlərdir». Elmin gücü barədə Peyğəmbərimiz deyir ki, «Elm öyrənin, çünki elm öz sahibini yaxşını pisdən seçməyə qadir edir, behiştin yolunu hamarlayır. Elm çöldə dostumuz, tənhalıqda munisimizdir. Elm köməksizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yol göstərənimiz, dostlar arasında silahımız hesab olunur». Peyğəmbərimiz dərin fəlsəfi kəlamı ilə deyir: «Heç bilirsinizmi dilin bəlası nədir? Alimlərin səhvləri, dinsizlərin münaqişələri və yolunu azmış başçıların əmrləri».

Peyğəmbərimiz: «Elmin bəlası unutmaqdır» - demişdir.

«Elm öyrənmək və Allahın cəlalı yolundakı Namaz, Oruc, Həcc də cahaddan üstündür» - deyən Peyğəmbərimiz elm öyrənməklə məşğul olmağı üstün tutmuşdur.

## OQTAY RZA
*(1934)*

1934-cü il noyabrın 2-də Salyanın Qalalı adlanın kəndində müəllim ailəsində doğulub. 1941-1948-ci illərdə Qalalı kənd yeddillik məktəbində oxuyub. Təhslini Salyandakı 2 saylı orta məktəbdə davam etdirib. 1946-cı ildə (5-ci sinifdə oxuyarkən) «Sosializm yolu» adlı rayon qəzetində ilk şeiri dərc olunub. Sonralar «Azərbaycan pioneri», «Azərbaycan gəncləri» qəzetində imzası görünüb.

1951-ci ildə onuncuda oxuyarkən Bakıya, gənc yazarların müşavirəsinə göndərilib. 1951-ci ildə indiki Azərbaycan Dövlət Neft Akademiyasının geoloji kəşfiyyat fakültəsinə daxil olub və oranı fərqlənmə diplomu ilə bitirib.

1961-1965-ci illərdə AMEA-da aspirant, elmi işçi, 1965-ci ildən isə geologiya-mexanika elmləri namizədi, dosentdir. ADPU-nun dosentidir, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 16 kitabı nəşr olunub. 1974-cü ildən «Qızıl qələm», 2009-cu ildən «Beynəlxalq Rəsul Rza», sonra da «Araz» mükafatları laureatıdır.

*Oqtay Rza*

### AZƏRBAYCAN TÜRKCƏSİDİR DİLİM MƏNİM

Bir bulaqdır – çirkab, ləkə götürməz o,
Çilçiraqdır – ziyasını itirməz o.
Yaşıl bağdır – tikan, qanqal bitirməz o.
Nitqim, nidam, həzin sədam, zilim mənim,
Azərbaycan türkcəsidir dilim mənim!

Şirinliyi ovsunlayıb çox milləti,
Misilsizdir musiqisi, şeiriyyəti
Əzəl gündən sevir haqqı, hürriyyəti.
Keşiyində durub xalqım, elim mənim,
Azərbaycan türkcəsidir dilim mənim!

Rübabdırsa – qırılmayan min simi var,
Kitabdırsa – möcüzəsi, tilsimi var,
Nə qədər ki, Həsənoğlu, Nəsimi var –
Ola bilməz yad nəfsə meylim mənim,
Azərbaycan türkcəsidir dilim mənim!

Ey insanlar! Harayıma qulaq asın:
- Gəlin kəsək köklərini şərin, yasın!
Bəşər gərək qəm içində yaşamasın.
Daş atmasın gülşənimə heç kim mənim,
Azərbaycan türkcəsidir dilim mənim!

## GENERAL PASKEVİÇ KİMDİR?

Azərbaycan torpağına qəsbkar kimi gələnlərdən biri də general İvan Paskeviçdir. O, 1872-ci ildə Poltavada doğulmuşdur. Atası birinci dərəcəli tacir idi. Onun ticarətini Sərkis başda olmaqla ermənilər tənzim edirdilər. Öz ağasının hədsiz etimadını qazanan Sərkis kiçik yaşlarından İvan Paskeviçə böyük təsir göstərmişdi. Hərbi məktəbi qurtardıqdan sonra o, rus ordusunun bir sıra işğalçı müharibələrində iştirak etmişdi. Azərbaycanla ilk tanışlığı da birinci Rus – İran müharibəsi (1805-1813) zamanı olmuşdu. Müharibənin gedişinə başçılıq edən Paskeviç taladığı külli miqdarda Azərbaycan sərvətini Peterburqa göndərirdi. Bu əliaçıqlıq ona imperiyada böyük hörmət qazandırmışdı.

İvan Paskeviç Gülüstan müqaviləsinin (1813-cü il oktyabrın 24-də) bağlanmasının təşkilatçısı idi. Bu müqavilə ilə Azərbaycanın şimalında Rusiyanın hökmdarlığının əsası qoyuldu. Müqaviləyə görə Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Lənkəran xanlıqları, azərbaycanlıların yaşadığı Şərqi Gürcüstan və Azərbaycan xanlıqlarından biri olan Dərbənd xanlığı ilə birlikdə Dağıstan Rusiyanın himayəsinə keçdi. Bununla yanaşı, Rusiya Xəzərdə sərbəstliyə nail oldu. Bu müqavilə ilə Azərbaycan xalqı və torpağı iki yerə parçalandı.

İvan Paskeviçin bədnam arzularından biri də Azərbaycanda ermənilərin sayını artırmaq idi. İvan Paskeviç Azərbaycanın cənubunda Rusiyanın təsirini gücləndirmək üçün Naxçıvanı mühüm strateji məntəqə bilir, burada hərbi qüvvəni artırırdı. I Nikolay 1827-ci ilin martında Qafqaz canişini İvan Paskeviçi həm də ali baş komandan təyin etdi.

1827-ci ilin yayında rus qoşunu o zaman Azərbaycan xanlıqlarından biri olan İrəvan xanlığına hücum etdi. İrəvan hakimi Həsən xan Abbasabad, Sərdarabad, Cavanbulaq və İrəvan qalalarında möhkəm istehkam yaratmışdı. Bu istiqamətlərdə vuruşlar oktyabr ayına kimi davam etdi.



Döyüşlərdə İrəvan hakimi və onun müttəfiqləri böyük itki verdilər.

1827-ci il oktyabrın ilk günlərində İrəvan qalası hər tərəfdən mühasirəyə alındı. İvan Paskeviç öz familiyasına Erivan sözünü də əlavə edərək Paskeviç Erivanski oldu. Cənubi Azərbaycan isə İran tərəfindən işğal olundu.

Rus işğalçı qoşunu müxtəlif istiqamətlərdə Araza tərəf hərəkət etdi. İlk vaxtlarda Cənubi Azərbaycanın Mərənd, Təbriz və digər əraziləri qan bahasına işğal olundu. Cənubi Azərbaycanda işğal olunan yerlərdə hərbi komendantlıq yaradılırdı. Komendantlar əsasən rus zabitləri idilər. Cənubi Azərbaycan üzrə komendant general Osten-Sakin öz qəddarlığı ilə xüsusi olaraq seçilirdi.

Ruş qoşunu Təbrizdən sonra Urmiyaya, Ərdəbil istiqamətində hərəkət etdi. Tehran ciddi təhlükə qarşısında qaldı. Belə bir şəraitdə İran şahı ruslarla sülhə razılıq verdi. 1827-ci ilin noyabrında sülh danışıqları başlandı, 1828-ci ilin fevralında isə Təbriz yaxınlığındakı Türkmənçay kəndində İranla Rusiya arasında müqavilə imzalandı. Həmin müqaviləyə əsasən Rusiya Naxçıvan, İrəvan daxil olmaqla Şimali Azərbaycana sahib oldu.

İvan Paskeviç İranda olarkən ermənipərəst siyasətinə dönmədən əməl edirdi. Hər yerdə onu erməni keşişləri Nersin, Stefan, habelə aliyə yaxın olan Sərkis müşayiət edirdi. O, ermənilərin cənubdan Şimali Azərbaycana köçürülməsinin əsas təşəbbüsçüsü idi. Bunun üçün İvan Paskeviç Azərbaycanın şimalına ermənilərin köçməsi ilə bağlı müvəqqəti erməni komitəsi yaratdı. Komitənin fəaliyyətinə rəhbərlik milliyyətcə erməni olan polkovnik İvan Lazarevə həvalə edildi. Bu hərbi hissə əsasən ermənilərdən ibarət idi. Köçürmə Qarabağda, Şəkidə, Naxçıvanda, Şamaxıda icra olunurdu. İrəvana xüsusi diqqət yetirilirdi. Burada əhalinin 95 faizinin azırbaycanlı olması təşviş doğururdu. İvan Paskeviçin göstərişi ilə İrəvanda köçürmə ilə bağlı ayrıca

komitə təşkil edilmişdi. Komitəyə erməni general-mayor Vasili Bebudov başçılıq edirdi.

İvan Paskeviçin hakimiyyəti dövrü Azərbaycanın ən ağır illəri idi. Vergilərin miqdarı ağlasığmaz dərəcədə artmışdı. O, Şimali Azərbaycanı iki əyalətə, əyalətləri isə qəzalara bölmüşdü. Birinci əyalətə Şəki və Qarabağ, ikinciyə isə Bakı, Quba və Dərbənd daxil idi. Bütün əyalətləri rus zabitləri idarə edirdilər. Hər yerdə ruslardan ibarət naiblər var idi. Onlar yerlərdə imperiya siyasətini icra edirdilər.

İvan Paskeviç Azərbaycanda vəhşilikləri ilə bərabər Türkiyədə də qanlı əlini sınadı. O, 1828-1829-cu illərdə Rusiyanın Türkiyəyə qarşı müharibəsində ordu başçısı oldu. Rusiya ilə Türkiyə arasında müqavilənin bağlanmasında iştirak etdi.

İvan Paskeviç 1831-ci ilin aprelinə kimi yenidən Qafqazda bəd əməlləri ilə məşğul oldu. Həmin ildə Polşaya canişin göndərildi. Polşada baş verən üsyanın, 1848-1849-cu illərdə Macarıstan inqilabının yatırılmasında olmazın qəddarlıq göstərdi. 1853-1856-cı illərdə isə Türkiyəyə qarşı müharibədə orduya başçılıq etdi və bu dəfə məğlub oldu.

İvan Paskeviç 1856-cı ildə Varşavada ölmüşdür. Amma qəsbkar, işğalçı kimi tarixin yaddaşında qalmışdır.

*«Xalq» qəzeti, 15 noyabr 1991*



**ATA VƏ ANAYA HÖRMƏT**

Ata və anaya ən azı ona görə hörmət etmək lazımdır ki, onların hər ikisi səninlə yaradan arasında vasitədir. Deməli, sən özünə və yaradanına hörmət etdiyin qədər, öz vasitələrinə də hörmət etməlisən. Ağlı başında olan hər övlad heç vaxt ata və ana haqqını unutmaz. Allah-Taala öz Kitabi-məcidində belə deyir: «İtaət ediniz Allaha, itaət ediniz Peyğəmbərə və öz amirlərinizə». Bu ayəni bir neçə şəkildə təsnif etmişlər. Onlardan birində belə oxumuşam ki, «amirlər» ana və atadır, çünki ərəb dilində «əmr» sözünün iki mənası vardır: iş və əmr. Amir ona deyərlər ki, həm iqtidar var, həm ixtiyar. İqtidar – yedirdib bəsləmək, ixtiyar – yaxşı şeylər öyrətməkdir.

Ehtiyatlı ol, ey oğul, ata və ananın qəlbini incitmə, onların ürəyinə toxunma, çünki yaradan ana və atanı incidənə ağır cəza verir.

Ana və ata sənin əsil böyüdənin və tərbiyə verənindir, sən onların haqqını ödəməkdə kahıllıq göstərsən, bu ona dəlalət edər ki, sən heç bir yaxşılığa layiq deyilsən. Çünki aşkar xeyirxahlığın qədrini bilməyən adam dolayı xeyirxahlığın qədrini haradan bilər? Qədir bilməyən adama yaxşılıq etmək nadanlıqdır. Sən də nadanlıq adını qazanmağa çalışma.

Övlad meyvəyə bənzər, ana-ata isə ağaca. Ağaca nə qədər çox xidmət etsən, o qədər onun meyvəsi yaxşı və gözəl olar, ata-anaya da nə qədər çox hörmət edib onlardan utansan, o qədər də onların sənin haqqındakı duaları tez müstəcəb olar, sən həm Allah yanında, həm valideyn yanında üzü ağ olarsan.

*(«Qobusnamə»dən)*

## NƏRİMAN HƏSƏNZADƏ
*(1931)*

1931-ci il fevral ayının 18-də Qazax rayonunun Poylu kəndində (indiki Ağstafa rayonu ərazisi) anadan olmuşdur. Atası Poylu dəmir yolunda işləmişdir.

Bir yaşında atasını, 23 yaşında isə anasını itirən gənc Nəriman ibtidai və orta təhsilini Poyluda almış, 1949-53-cü illərdə indiki Gəncə Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir. 1954-56-cı illərdə ordu sıralarında xidmətdə olmuşdur.

1954-cü ildə Azrbaycan Yazıçılar İttifaqının (Birliyinin), sonralar isə İdarə Heyətinin üzvü seçilmişdir.

1961-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirərək, ikinci ali təhsil almış, Moskvada ikillik Ali Ədəbiyyat kurslarında da oxumuşdur.

1962-1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının aspirantı olmuş, «Azərbaycan – Ukrayna ədəbi əlaqələri» mövzusunda dissertasiya müdafiə edərək (1965) elmlər namizədi alimlik dərəcəsini almışdır.

1962-ci ildə respublika Televiziya və Radio Verilişləri Komitəsində böyük redaktor, sonralar «Uşaq və gənclər ədəbiyyatı nəşriyyatı»nda redaktor, «Azərbaycan gəncləri» qəzetinin baş redaktoru (1976-90) vəzifələrində işləmişdir. 1991-2001-ci illərdə Mətbuat və İnformasiya nazirinin birinci müavini vəzifəsində çalışmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 221 saylı Sərəncamı ilə Mətbuat və İnformasiya nazirini əvəz etmişdir.

1991-95-ci illərdə Azərbaycanın millət vəkili olmuşdur. Hazırda Milli Aviasiya Akademiyasında «Humanitar fənlər kafedrası»nın müdiri işləyir, professordur. MAA Elmi Şurasının üzvüdür. Azərbaycan yazıçılarının XI qurultayında katibliyin qərarı ilə Ədəbiyyat Fondu İdarə Heyətinin sədri təyin edilmişdir (2004-cü il).



2002-ci ildə Beynəlxalq Elmlər Akademiyasının (Azərbaycan bölməsi) müxbir üzvü, 2004-cü ildə isə akademiki seçilmişdir. Əməkdar İncəsənət xadimidir. «Şərəf nişanı» ordeni, Azərbaycanın və Belarusun Fəxri fərmanları ilə təltif olunmuşdur.

O, 2001-ci ildə müstəqil Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuş və Fərdi Prezident Təqaüdünə layiq görülmüşdür.

Mətbuatda 1953-cü ildən çıxış edir, əsərləri çap olunur. Onun əsərləri keçmiş SSRİ və bir çox xarici ölkə xalqlarının (ingilis, fransız, alman, italyan, çex, hind, ərəb, xorvat və s.) dillərinə tərcümə edilmişdir.

Bakıda «Seçilmiş əsərləri» («Azərnəşr», 1987), Tehranda («Söyüd», 1990) və Tiflisdə «Seçilmiş əsərləri» («Merani», 1983) nəşr edilmişdir. «Nabat xalanın çörəyi» povesti Moskvada «Molodaya qvardiya» nəşriyyatında rus dilində (1987), Tbilisidə gürcü dilində (1998) nəşr olunmuşdur.

N.Həsənzadə epik-dramatik poemalar müəllifi kimi də tanınmışdır: «Nəriman» («Azərnəşr, 1968), «Zümrüd quşu» («Gənclik, 1976), «Kimin sualı var?» («Gənclik, 1984).

Onun «Bütün Şərq bilsin» pyesi isə əvvəlcə Sumqayıt Dövlət Dram Teatrında (1980), sonra Akademik Milli Dram Teatrında (1982), Moskvanın V.Mayakovski adına Akademik Dram Teatrında (1983), «Atabəylər» (1984) və «Pompeyin Qafqaza yürüşü» (1997) mənzum pyesləri Akademik Milli Dram Teatrında və Naxçıvan MR Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur.

N.Həsənzadə 34 bədii-poetik toplunun, «Tariximiz, taleyimiz» adlı irihəcmli elmi-ədəbi-tənqidi məqalələr kitabının müəllifidir.

Əsərləri haqqında respublika və xarici mətbuat səhifələrində məqalələr dərc olunmuş, ədəbi yaradıcılığı qiymətləndirilmişdir. «Nəriman Həsənzadənin lirikası» mövzusunda namizədlik dissertasiyası müdafiə edilmiş (Güldanə

Pənahova haqqında), «Nəriman Həsənzadənin yaradıcılıq yolu» adlı monoqrafiya (prof. Sadıq Şükürov) yazılmışdır. N.Həsənzadə bir sıra Avropa və Şərq ölkələrində keçirilən elmi-ədəbi konfransların, poeziya simpoziumlarının, rəsmi dövlət səfərlərinin iştirakçısıdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə N.Həsənzadəyə 2005-ci ildə xalq şairi fəxri adı verilmişdir.

Xalq şairi Nəriman Həsənzadənin xarici mətbuat səhifələrində «Vətənsiz» (Rumıniya, 2009) və «Nuru Paşa» (Türkiyənin 9 jurnalında) poemaları dərc edilmişdir.

2011-ci ildə N.Həsənzadənin 80 illik yubileyi təntənə ilə qeyd edilmiş, Azərbaycan Prezidentinin Fərmanı ilə o, «Şərəf nişanı» ordeni ilə təltif edilmişdir.

*Nəriman Həsənzadə*

**NURU PAŞA**

Nuru Paşa at belində,
Türkiyədən,
Karsdan gəlir.
«Azərbaycan» deyə-deyə,
Yaralı bir
aslan gəlir.
Erməninin xəyanəti
rusdan gəlir,
farsdan gəlir.
Bakı qətl meydanıdı –
geniş meydanlar
car çəkir,
daşnak başlı bolşeviklər
qan gölündə
avar çəkir.
Dərin dəryalar qoynunda
çökür
Osmanlı Dövləti.
«Çökməyəcək türk milləti» -
deyir hərbiyyə naziri



Ənvər Paşa.
Bu çağırış – sərəncamdı
əbədi bir
Qurtuluşa.
…Alovların qucağına
Nazirin
qardaşı gəlir.
Simurq quşu qanadında
bir dəyirman
daşı gəlir.
İldırımla çaxa-çaxa,
şimşəklə yanaşı gəlir.
…Var ol səni, arxam mənim,
arxalı
səs-sədam mənim,
Fatehlərin varisidir,
Turanlı
Şahzadəm mənim.
Türküm mənim,
irqim mənim.
…Türk döşündən süd əmibsə,
türkə bəsdi.
Türk laylası eşidibsə,
türk dönməzdi.
Türk belindən gəlibsə,
türk basılmazdı.
Türk naləsi eşidirsə,
türk almazdı.
İldırım! – de, türkə – azdı.
…Aç, sinəni səhərlərin
dağ yelinə
Nuru Paşa!
Qığılcımlar səpələnsin
at nalından at belinə
Nuru Paşa!

*(«Nuru Paşa» poemasından ixtisarla verilmişdir)*

## GÖKTÜRK ALFABESİ

Göktürkler tarihte ilk defa Türk adı alan Türkler`dir. O zamana kadar bir kavim veya aile adı olan türk sözü, Göktürkler devrinde büyük bir devlet ve millet adı olmuştur.

Göktürkler'in kullandığı yazı da bir çok bakımdan milli çizgiler taşır. Bu yazıda ok-uk sözleriyle okunan, birleşik bir harfın ok şeklinde olması; kalın ya sesini veren başka bir harfın yay biçiminde yazılması, Göktürk yazıları üzerinde Türkçe'nin, Türk sanat ve zekasının işlediğini gösterir, aynı yazıda Eb-b okunan bir harf, eski Türklerin eb-ev dedikleri çadır biçimindedir.

Göktürk yazısında 38 harf vardır. Bu yazılar, taşa kazılmak için biçim verilmiş ve Lâtınler`in kitap yazısı gibi birbirine birleştirilmeyen harflerle yazılmıştır.

Göktürk yazısında 4 tane sesli, 9 tane sessiz harf vardır. Bazı seslilerin ince və kalınları için ayrı harfler düşünülmediği halde, bir çok sessiz harflerin kalınları ve inceleri için başka başka şekiller bulunmuştur.

Göktürk harfleri, dikili taşlar üzerine ümumiyetle, yukarıdan aşağıya doğru sıralanmıştır. Aynı satırların yanyana dizilişi çok kere soldan sağa, bazan da sağdan sola doğrudur.

Gerek harflerin sayca çokluğu, zenginliği, gerek yazılışında belirli kaideler bulunuşu dolayısıyle Göktürk yazısı, Türklerin İslâm medeniyeti devresine kadar kullandıkları yazıların en iyisidir.

Bu yazının her harfının değilse bile, bir çok harfinin eski Türk damgalarından alınarak Türkler tarafından harf şekline konulduğu ise şüphe görülmez bir hakikattir. Bu harflerin bazıları Türkler tarafından çok sevilen, çok kullanılan silahlara ve başka eşyalara benzemektedir.

Türk edebiyatının ilk yazılı örnekleri, Göktürkler tarafından taşlar üzerine yazılarak bırakılmış eserlerdir. Bu



dikili taşlara Göktürkler «bengü taş» diyorlardı. Bengü taş, ebedi taş, abide demektir. Bu abideler, bugün, doğu Moğolustan'da Koşu Çaydam gölü civarında, Orhun adlı ırmağın eski yatağı yakınına dikilmiş olmasıdır

## ATATÜRKÜN SÖYLEMLERİ

Türkiye Cumhuriyeti Devleti'nin kurucusu Atatürk, Türkçe'nin koruyucusu olmuştur; Türk Dil Kurumu'nu dernek olarak kurmuş, ölüm döşeğinde ona varlık ve gelir vasiyet etmiştir; Türkçe'nin gelişmesi, herkesin birbirini anlaması, devlet dili, bilim dili olması için elinden geleni yapmıştır.

Türk dili ve tarihi bilgini de olan Atatürk'ün Türkçe üzerine söylemlerinden birkaçına burada yer verilmiştir.

Atatürk, 2.IX.1930'da şöyle demiştir:

«Milli his dil arasındakı bağ çok küvvetlidir. Dilin milli ve zengin olması milli hissin inkişafında başlıca müessirdir. Türk dili, dillerin en zenginlerindendir; yeterki bu dil, şuurla işlensin.

Ülkesini, yüksek istiklâlini, korumasını bilen Türk milleti, dilini de yabancı diller boyunduruğundan kurtarmalıdır».

Atatürk, 1 Kasım 1932'de Büyük Millet Meclisinin açış konuşmasında şöyle demiştir:

«Türk dilinin benliğine, aslınldakı güzellik ve zenginliğine kavuşması için bütün devlet teşkilatımızın dikkatli, alakalı olmasını isteriz ».

Atatürk, Bursa'da 07 Şubat 1933'te Anadolu Ajansı aracılığı ile millete şöyle demiştir:

«… Meselenin mahiyeti esasen din değil, dildir. Kati olarak bilinmelidir ki, Türk milletinin milli dili ve milli benliği hayatında hakim ve esas olacaktır».

Aatatürk, Türkçe'ye verdiği önemi şöyle belirlemiştir:

«İnanıyorum ki, Türk insani Ezanı ve Kur'an'ı kendi anadili ile okursa daha dindar ve asıl benliğini Dinin yüceliğini derinden ve şuurla kavramış olacaktır 15)».

## PRUT ƏMƏLİYYATI

Rus dövləti tarixində «Prut əməliyyatı» adlanan hərbi yürüş özünəməxsus maraqlı bir fenomendir.

Rusiya imperatoru Pyotr 1711-ci ildə on minlərlə əsgərdən ibarət ordusu, özü və ailəsi, zabitləri və bu zabitlərin arvadları ilə birlikdə türk ordusu tərəfindən mühasirəyə düşmüşdü. Rusların vəziyyəti çıxılmaz idi: ərzaq və atların yemi tamamilə tükənmişdi, silah çatışmırdı. Hərbi Şura dəmir hissələrdən qırma hazırlamağı, arıqlamış atları isə kəsib bişirməyi və hamıya paylamağı qərara almışdı.

İmperator türk komandanlığı ilə sülh danışığı aparmaq üçün P.P.Şafirovu göndərmiş və ona türklərin bütün tələblərini qəbul etmək üçün səlahiyyət vermişdi. Belə ki, Pyotr rusların işğal etmiş olduqları bütün əraziləri həm içveçlərə, həm də türklərə qaytarmağa razı idi. O, əlavə olaraq Pskovu və hətta başqa əraziləri də verməyə razı idi, təki türklər onları əsir etməsinlər.

40-minlik ordusu ilə hərbi tələyə düşmüş və heç bir çıxış yolu tapmayan çar Pyort Şafirova yeni göstəriş verdi: «Əgər həqiqi sülh haqqında danışıq gedərsə, onlara qul olmaqdan başqa bütün şərtlərə razı ol!»

Çox qəribədir ki, türk komandanı Mehmet Baltaçıoğlu Rusiya üçün çox yüngül, hədsiz əlverişli olan sağlam düşüncənin qəbul etmədiyi bir müqaviləni imzaladı: Türkiyə ancaq Azovu geri aldı.

Türk komandanının Rusiya üçün hədsiz əlverişli şərtlə razı olub imperatoru və ordusunu əsirlikdən buraxmadığının səbəbi çox müəmmalıdır. Rusiya tarixçiləri deyirlər ki, burada imperatorun arvadı Yekaterina (Litva kəndli-



sinin keçmiş əsir qızı, gələcək çariça I Yekaterina) mühüm rol oynayıb. Guya o, özü və bütün zabit arvadları qiymətli əşyalarını yığıb gecənin bir vaxtında türk komandanına şəxsən öz əlilə rüşvət veribmiş. Baltaçıoğlu kimi bir adamın bir neçə qızıla tamah salması ağlasığmazdır. Görünür ki, burada, həmin gecə türk komandanı M.Baltaçıoğlunun çadırında onunla, deyilənlərə görə, hədsiz gözəl imperator arvadı arasında, üçüncü nəfərin iştirak edə bilmədiyi, ehtimal ki, imperatorun öz razılığı ilə qızıldan qiymətli hədiyyənin təsirilə baş tutan sövdələşmə, yüzillərin qaranlığına gömülmüş böyük bir saziş bağladı. Hər halda Baltaçıoğlunun sirli-pərdəli gülünc humanistliyi Türkiyəyə çox baha başa gəldi, komandan özü isə layiqli, ancaq lüzumsuz şərt, ağır cəzasını aldı. «Prut əməliyyatı» Rusiya üçün fəlakətli olsa idi - Rusiya dövlətçiliyinin nəhəng memarı olan Pyotr həlak, ya da düşmənə əsir düşmüş olsaydı, bu ölkənin özünün və ətraf ölkələrin – Azərbaycan və s. sonrakı tarixi yəqin ki, tamamilə başqa məzmunda yazılmış olacaqdı («Prut əməliyyatı»nda rüsvay olmuş Pyotr ölüm yatağında da Türkiyədən qisas almağı düşünürmüş) – A.S.Puşkin).

*Məqalə İrşad İbrahimovun*
*«Vətəndaş və tarix» kitabından*
*götürülmüşdür. Bakı, Qanun, 2009, səh.446-447.*

## TÜRKÇEYİ KORUYANLAR

Türkçeyi, Türk halkı, her çağda korumuştur; şimdi de korumaya çalışmaktadır.

Türkçe`yi, Türk halkı arasından çıkmış, ancak halktan kopmamış, ozanlar, dilciler, devlet adamları da elbette korumaktadır.

Bunlardan, yüzyıllar önce yaşamış Kaşgarlı Mahmut, Ali Şir Nevai, Karamanoğlu Mehmet Bey, Aşık Paşa gibi birkaçından bu betiğin 3. Bölümünde kısaca söz edilmiştir.

Yirminci yüzyılda Türk halkının arasından çıkmış, ancak halktan kopmamış Atatürk, Türkçeyi öyle korumuş ve kollamıştır ki, bu yüzyıllır boyunca unutulmayacaktır. Atatürk, Türk Dil Kurumunu kurmuş; geceyi gündüze kAtarak Türkçenin gelişmesi  için çalışmıştır. Bununla yetinmemiş, kurduğu Türkiye Cumhuriyeti devletinin bütün yönetici və yetkililerini Türkçeyi korumaya çağırmış ve bunu sağlamıştır. Sağlığında, Türkiye Büyük Millet Meclisi Başkanını, Başbakanı, Genel Kurmay Başkanını, Milli Eğitim Bakanını ve Kültür Bakanını, Türkçe`yi korumakla görevlendirmiştir.

Atatürk ölüm döşeginde yazdığı vasiyeti ile onlarca para ve hisse senetlerini ve bunların yıllık gelirlerinden, akraba ve yakınlarına bir süre verileceklerden sonra, kalanı yarı yarıya Türk Tarih Kurumu ile Türk Dil kurumuna tahsis etmiştir, bu demek ki, ödenek vermiştir.

Atatürk`ün, «Son günlerinde sıksık»dil, dil; Aman dil! Dediğini ve son sözünün bu olduğunu başı ucunda bulunanlar bildirmektedirler.

Türk Dil Kurumu, Türkçenin özleşmesi, arılanması, gelişmesi, güzelleşmesi, yeryüzü dilleri arasında kendine yaraşır yüksekliğe uluşması için var gücüyle çalışmış Türkçe`ye sahip çıkmış, Türkçe`yi korumuş ve korumaktadır.

Türkiye Devletinin yönetci ve yetkililerinin, Türkçeyi, 1950 yılına değin koruduğu söylenebilir. Türk Dil Kurumunun seçilmiş üyeleri, Türkçeye gönül verenler; gercek Atatürkçüler, halk arasından çıkmış, ama halktan kopmamış her meslekten kişiler, sürekli olarak Türkçeyi korumuş ve korumayı  da sürdürmektedirler.

Türk Dil Kurumu, TRT- nin bütün kanalları, Cumhuriyet Gazetesi gibi kimi basılı yayınlar, Türkçe`yi var gücüyle korumuşlar ve korumalarını sürdürmektedirler.



## I PYOTRUN «VƏSİYYƏTNAMƏ»Sİ

*(1725-ci ildə yazılıb, 1738-ci ildə elan edilib)*

**... Bütün övladlarım bir-birindən sonra Avropa ölkələrində hökmran olacaqdır. Cünki Avropanın bütün dövlət quruluşu köhnəlmiş və qocalmışdır. Lakin rus səltənəti inkişaf edir. Biz bu inkişafı ağılla tapmışıq. Mən aşağıdakı «Vəsiyyətnamə»mi vəsiyyət şəklində yazıram ki, gələcək nəsillərimizin əlində təlimat olsun.**

1. Rus dövləti həmişə müharibə müvazinəti hazırlamalı və calışmalıdır ki, bu hazırlıq Rusiyanın tərəqqisinə səbəb olsun.
2. Mümkün qədər Avropa dövlətlərindən müharibə vaxtında hərbi sərkərdələri, sülh zamanı isə elm adamlarını Rusiyaya cəlb etməli.
3. Avropa ölkələri arasında fitnə-fəsad törətmək, ziddiyyət salmaq və bu işdə onların biri ilə əlbir olmaq lazımdır. Xüsusilə, alman xalqı arasındakı iğtişaşlarda fəal mövqe tutmağa calışmalı, cünki onlar bizimlə həmsərhəd və bitişikdir.
4. Polşada iğtişaş və qarışıqlıq salmalı, onların əyanlarına xəsislik etmədən rüşvət verib, dəyanətini pozmalı, dövlət işlərinə zərbə vurmalı, Moskvadan əsgər gətirib orda yerləşdirməli, əgər başqa dövlətlər bizim bu tədbirlərimizə etiraz edərlərsə, Polşadan bir parca kəsib onlara sükut payı verməli. İş tamam olandan sonra isə o parçanı geri almalı, rus səltənətini möhkəmləndirməli.
5. Mümkün qədər İsveç, Norveç ölkələrindən bir istinad məntəqəsi əldə etməli. Onların valisi əlimizdə olarsa, calışın ki, İsveç, Norveç, Danimarkaya düşmənçilik toxumu səpin.
6. Rusiya şahzadələri həmişə Almaniya əsilzadələrindən, nüfuzlu adamlardan, valilərdən, rutbə sahiblərindən qız almağı unutmamalıdır. Belə qohumluq bizə həmişə fayda verər.

7. İngilis hökuməti ilə ittifaqda olub, əlaqəni möhkəmləndirin. Cünki ticarət işində və dövlətin idarə edilməsində bu fayda verər. Gəmi qayırmağa gərək olan bütün ləvazimat onlardan alınacaqdır. Bu əlaqə həm silah, həm də gəmiçilik üçün faydalıdır.

8. Rusiya dövlətinin hüdudu Avropadan şimala Baltik dənizinə, cənubdan isə Qara dənizə qədər olmalıdır. Bunu mühafizə etmək və rus sərhədini genişləndirmək övladlarımın vəzifəsidir.

9. Rusiya dövlətini o zaman dünya dövləti adlandırmaq olar ki, onun paytaxtı Asiya və Avropa xəzinələrinin açarı olan İstanbul olsun. Tez və yerli-yerində calışıb, İstanbula sahib olan şah dünyada ilahi şah olacaqdır. Bu məqsədi həyata keçirmək üçün həmişə Türkiyə ilə İran arasındakı ixtilaflar böyük, kəskin silah və basılmaz ordudur. Rusiya nüfuzunu Asiyada qaldırmaq üçün sünni-şiə ixtilafları yaxşı bir vasitədir. Türkiyə ilə İran dövlətləri arasındakı müvazinəti fitnə-fəsadla elə pozmaq lazımdır ki, onlar bir-biri ilə dil tapa bilməsinlər. Həm İran, həm də Türkiyəni Avropa xalqları ilə təmas tapmağa imkan verməmək. Əgər bu ölkənin müsəlmanları göz açıb hüquqlarını qansalar, o bizə böyük zərbə olar, həm Türkiyə, həm də İranın din xadimlərini ələ almaq və onlar vasitəsilə sünni-şiə ixtilaflarını qızışdırmaq lazımdır. İslam əqidəsini Asiyadan uzaqlaşdırmaq, xristian dini əqidəsini və mədəniyyətini orada ciddi təbliğ etmək, yaymaq zəruridir.

10. Bundan əlavə, cürbəcür tədbirlər etmək ki, İran ölkəsi günü-gündən pulsuz, ticarətsiz qalsın. Xülasə, İranı həmişə tənəzzülə sövq edib, tabe halda saxlamaq lazımdır ki, Rusiya dövləti istədiyi vaxt onu zəhmətsiz öldürməyə qadir olsun. Amma Türkiyə dövləti məhv olmadan İranın canını almağımız məsləhət deyildir.

11. Yunanlarla sülh və dostluqla rəftar etməli. Müharibə zamanı onlar sizə imdad edərlər (cünki yunanlar Türkiyədən həmişə zərər görmüşlər).



12. İsveç, Norveç, Türkiyə və İran Polşanı istila etdikdən sonra İtaliya və Fransa ilə müttəfiq olub, əlaqəyə girin. Əgər onlardan heç birisi dostluğunuzu qəbul etməzlərsə, onda bir vasitə ilə o yer və əyalətləri məhv ediniz. Bu yerləri ələ kecirdikdən sonra dünya hökmranı olarsınız.

*«Dirilik» jurnalı 1916-cı il*

*Süleyman Rüstəm*

## DUZ-ÇÖRƏYİ İTİRMƏ

İnsanın şərəfi, bəzəyi, məncə,
Deyildir nə ipək, nə tirmə, oğlum.
Yaxşıdan yaxşı ol ellər içində,
Dostuna bir ziyan yetirmə, oğlum.

Yersiz gülümsəmə, yersiz ağlama
Bir könül də qırma, sinə dağlama,
Sirrini ellərdən gizli saxlama
Dilinə yalan söz gətirmə, oğlum.

Ürəyim arzuyla doludur, dolu,
Hünər meydanıdır bu həyat yolu.
Bilmədiyin işi gözüyumulu,
Söz verib öhdənə göturmə, oğlum.

Oxu öyüdümü sən sətir-sətir,
Dilindən məclisə səpilsin ətir.
Qazancını itir, malını itir,
Ancaq duz-çirəyi itirmə, oğlum

## AĞBABA MAHALI

Ermənistanda sovet hakimiyyəti qurulana qədər qədim Ağbaba torpağı Qars quberniyasının tərkibində olmuş, Sovet dövründə əvvəlcə Leninakan qəzasının Ağbaba nahiyəsi, 1930-cu illərdə isə Amasiya rayonu Ermənistanda azərbaycanlılar yaşayan rayonlar içərisində diqqəti daha çox cəlb edir. Çünki rayon əhalisinin 90 faizi azərbaycanlılardan ibarət idi.

1920-ci illərdə Sovet-Türkiyə sərhədləri müəyyənləşəndə qonşu Şörəyil mahalından fərqli olaraq Ağbaba mahalı təqribən bütünlüklə (Köhnə İbiş və Bəzirgan kəndlərindən başqa) Sovet tərəfində qalmışdır. Qonşu Şörəyil mahalının isə əksər ərazisi Türkiyə tərəfdə qalmışdır. Əhalisi bütünlüklə Azərbaycan türklərindən ibarət olan bu kəndlər sonralar hücumlar və təzyiqlər nəticəsində köcüb Türkiyəyə və başqa yerlərə getmiş, Şörəyil azəri-türk mahalı kimi süqut etmişdir. İndi kecmiş Şörəyil mahalının bu tərəfdə qalan ərazisində üç inzibati rayon – Axuryan, Ani, Artik rayonları yaradılmışdır. Bu rayonlarda olan kəndlərin əksəriyyətinin (90 faizinin) köhnə adları azəri-türk mənşəli adlardır. İndi onların adları aşağıdakı kimi dəyişilmişdir. Məsələn: Axuryan rayonunda: Düzkənd-Axuryan, Molla Mussa-Boskehats, Bacıoğlu-Haykavan, Ocaqqulu-Arapi, Aralıq-Yerezqovors, Orta Kilsə – Mayisyan, Qarakilisə – Azadan və s. Artik rayonunda: Məscidli-Norqyank, Arıq Vəlili-Mantaş, Kaftarlı-Horom, Tomardaş-Vartakap və s. Ani rayonunda Daşqala-Karaberd, Qapılı-Qusanaguğ, Kələli-Zoraberd adlandırılmışdır. Bunlardan başqa, Qonaqqıran, İlxıyabı, Tənədolaq, Qıqçaq, Talıboğlu, Cırpılı, Cilovxan, Bayandur, Qanlıca, Doşanqışlaq kimi köhnə kənd adlarına rast gəlmək olar. Bu kəndlər 40-50-ci ilə qədər öz köhnə adlarını daşımışlar. Sonralar bu adlar erməniləşmişdir.



Tarixin acı sınaqlarına qonşu Qayqulu eli də davam gətirə bilməmiş, öz doğma yurdlarını tərk etməyə məcbur olmuşlar. Sonralar həmin ərazidə Qukasyan rayonu yaradılmışdır. Bu rayonun keçmiş əhalisi də Azərbaycan türklərindən ibarət olmuşdur. Bunu son dövrlərə qədər köhnə adlarını saxlayan kəndlər də sübut edir: Qazancı, Şiştəpə, Qızılqoc, Düzxaraba, Korbulaq, Qurdbulaq, Palıdlı, Corlu, Bozyoxuş, Dərəköy, Təzəkənd, Güllübulaq, Cızıqlar, Təknəli və s.

Bütün qarma-qarışıqlıqlara, amansız hücumlara baxmayaraq, Ağbaba mahalı öz varlığını tam olmasa da müdafiə edə bilmişdir. Mahalın 40 kənindən səkkizinin (Sınıx, Mumuxan, Qoncalı, Ördəkli, Seldağılan, Mustuqlu, Bağcalı, Söyüdlü kəndləri) əhalisi 20-ci illərdən sonra köçüb Türkiyəyə getmiş, 5 kəndi (Qızıldaş, Qıdaşen, Qızılkilisə, Xancallı (Xəncərli), Bozqala kəndləri) 30-40-cı illərdə xarabalığa cevrilmiş, 3 kəndin (Daşkörpü, Şurabad, Qarabulaq kəndləri) əhalisi 1950-ci ildə zorla Azərbaycanın Ucar rayonuna köçürülmüşdür.

Lakin, sən demə, Ağbaba mahalının fəlakətli günləri qabaqda imiş. Ağbaba mahalının azəri türkləri Sovet dövlətinin «Çiçəklənən» hakimiyyəti dövründə – 1988-ci ilin noyabr-dekabr aylarında qovuldular. Soyqırımına məruz qaldılar (yenə erməni daşnaqlar tərəfindən).

Sovet hökuməti bu qanlı cinayətlərə göz yumdu. Heç bir əməli tədbir görmədi. Əksinə, Moskvaya arxalanan Ermənistan rəhbərliyinin hamısı bu qanlı cinayətlərin fəal icraçısı oldular.

Qədim Ağbaba eli – böyük bir tarixi keçmişə malik olan oğuz yurdu viranəyə çevrildi, mənfur xainlərin işğalına məruz qaldı.

*Məqalə «Vətən səsi» qəzetindən ixtisaslarla götürülmüşdür. 16 iyul 1991-ci il.*

## YUSUF AKÇURA
*(1876-1935)*

Yusuf Akçura – Türkçülük hərəkatının ən başlıca simalarından biri və bu ideologiyanın tarixçisidir. O, 2 dekabr 1876-cı ildə doğulub. İstanbulda Hərbiyyə Məktəbində oxuyub. Dövlət çevrilişinə cəhd etdiyi üçün 1897-ci ildə həbs olunub. Taşqışla Hərbi tribunalı tərəfindən haqqında ömürlük həbs cəzası hökmü çıxarlısa da, sonradan Osmanlı padşahının fərmanına əsasən cəzası sürgünlə əvəz edilib. Bir müddət sonra Fransaya qaçan Y.Akçura Parisdə fəaliyyət göstərən «Gənc Türklər» təşkilatına üzv olur və «Siyasi elmlər» ixtisası üzrə təhsilini davam etdirir. 1903-cü ildə Osmanlı imperatorluğunun dövlət qurumlarının tarixinə dair «Bir təcrübə» adlı elmi iş yazır. Təhsilini başa vuran Akçura Rusiyanın Kazan şəhərinə gəlib, orada müəllimlik edir. Bu dövrdə onun Misirdə çap olunan «Şurayi-Ümmət» və «Türk» qəzetlərində imzasız olmaqla xeyli məqaləsi işıq üzü görür. 1904-cü ildə «Türk» qəzetində nəşr olunan «Üç tərzi-siyasət» başlıqlı məqaləsi xüsusi əhəmiyyətə malikdir.

İkinci Məşrutiyyətin elanından sonra İstanbula qayıdan Yusif Akçura müəllimlik fəaliyyəti ilə məşğul olur, İstanbul Universitetində və Mülkiyyə məktəbində siyasi tarix fənnini tədris edir və türkçülük nəzəriyyəsinin ayrı-ayrı istiqamətlərini araşdırır. O, «Türk dərnəyi» və «Türk ocağı» təşkilatlarının qurucularından biri və məşhur «Türk yurdu» jurnalının baş redaktoru kimi adını tarixə yazdırır. İlk Məclisin millət vəkili, müstəqillik qazanılandan sonra isə «Türk tarix Qurumu» nun üzvü seçilir.

«Üç tərəzi - siyasət» dən başqa, «Şərq məsələsinə dair tarixi siyasi qeydlər» (1920), «Müasir Avropada siyasi və ictimai fikir cərəyanları» (1923), «Siyasət və iqtisad haqqında bir neçə xitab və məqalə» (1924), «Osmanlı imperatorluğunun dağılma dövrü» əsərləri məlumdur. «Türk ili» (1928) adlı irihəcmli əsərində o, Türkçülük hərəkatının qay-



naqlarını və inkişafını geniş araşdırmışdır. «Məvqufiyyət Həbsxana xatirələri» (1914) əsərində isə o, siyasi görüşləri üzündən Rusiyada həbsə atılmasından ətraflı bəhs edir.

Yusif Akçura 12 mart 1935-ci ildə ürək xəstəliyindən vəfat edib.

*Mətn «Türklüyün tarixi»kitabından götürülmüşdür. Bakı, Qanun, 2006*

## MÜDRİK KƏLAMLAR

Heç nə bilməyən və bilməyə çalşımayan adam çox bədbəxtdir. Çünki ona iki bədbəxtlik birdən üz vermişdir.

*Aristotel*

İnsanın şərəfinin bir dəlili də nitqdir. Lazımdır ki, hər kəs elə danışsın, elə yazsın ki, onu mümkün mərtəbədə avam da başa düşsün. Həqiqət, qəzetə camaat üçündür, camaat qəzetə üçün deyil.

*H.B.Zərdabi*

Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətin sənə bu dildə bəyan edir. Bir dil ki, sən hələ beşikdə ikən bir lay-lay şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlayıbdır.

*N.Nərimanov*

Bədii bir xalqın mənəvi sərvəti olmaqdan əlavə insanların fikrini, hissiyatını, zövqünü tərbiyə edən çox güclü vasitədir.

*Mirzə İbrahimov*

Ədəbiyyat – xalqın şüurudur, onun mənəvi həyatının dərinliyidir.

*V.Q.Belinski*

Böyük şairləri də, ustadları da ancaq bilik və xalq yetirə bilər.

*M.Ə.Sabir*

Kitablar olmasaydı, mən səfalət və alçaqlıq içində qərq olardım.

*M.Qorki*

Hər kəs öz dilinin altında gizlənmişdir.

*Əli Əmirəlmömin*

Düzlüklə pəhrizkarlıq birləşəndə əsl insanlıq cilvələnir. Gəlin, hamımız üz tutub bu səmtə yollanaq.

*Zərdüşt*

İnsanı insanın güzgüsü olsaydı, onda bütün çirkinliklər aradan qalxardı.

*Şəms Təbrizi*

İnsan haqqın və həqiqətin özüdür.

*Fəzlullah Nəimi*

«Var-dövlət, dost deyil, dost var-dövlətdir!»;
«Söz ruhun ölçüsü, ağıl sözün tərəzisidir».

*Q.Təbrizi*

«Çalış çörək əsiri olma»;
«Söz anlayan ona deyərlər ki, onun da sözünü başqaları anlasın».

*«Qabusnamə»dən*



«Hər kəs əvvəlcədən işin sonunu görə bilsə, axırda utanmaz».

*Cəlaləddin Rumi*

«Yaxşı iş görməkdə əziyyət çəksən, əziyyət keçər, yaxşılıq qalar, pis iş görüb ləzzət çəksən, ləzzət keçər, pislik qalar».

*Nəsrəddin Tusi*

# AZƏRBAYCAN DİLİNİN YAZI QAYDALARI



## AZƏRBAYCAN DİLİNİN YAZI QAYDALARI

**Böyük hərflərin yazıldığı yerlər**
**(Büyük harflerin kullanıldığı yerler)**

1. **Azərbaycan dilində hər cümlənin ilk və xüsusi isimlərin baş hərfi böyük yazılır.**

(Her cümlenin ilk harfı ve özel adların baş harfı cümlenin ilk harfi büyük yazılır). **Məsələn**:

Dil insanlar arasında ünsiyyət vasitəsidir. Dil bəşər tarixinin, insan dühasınını hikmətli kəşflərindəndir. (Bu cümlələrdə ilk hərflər böyük yazılır).

2. **Xüsusi isimlər böyük hərflə yazılır.** Xüsusi isimlər:

İnsan adları bildirir.

**Məsələn**: Əli Əhməd, Mehriban, Hacı, Əkbər və s.

Şəhər, kənd, dağ, dəniz, okean, çay, qitə adları bildirir:

**Ölkə adları bildirir**: Azərbaycan, Türkiyə, Amerika, Fransa, İtaliya.

**Şəhər adları bildirir**: Bakı, İstanbul, Gəncə, Sumqayıt, Bağdad, Ərzurum, Tokat

**Kənd adları bildirir**: Maştağa, Novxanı, Pirşağı, Əhmədli, Sarıkışlak, Süvəlan və s.

**Dəniz adları bildirir**: Ağ dəniz, Qara dəniz, Xəzər dənizi, Baltik dənizi, Mərmərə dənizi.

**Dağ adları bildirir:** Qayqaz, Himalay, Ağrı və s.

**Okean adları bildirir**: Hind okeanı, Sakit okean və s.

**Çay adları bildirir**: Araz, Kür, Dəclə, Yenisey, Volqa

**Qitə adları bildirir**: Afrika, Avropa, Asiya, Amerika, Avstriya və s.

**Əsər, qəzet, jurnal adları bildirir:** «Xosrov və Şirin» əsəri, «Ulduz» jurnalı. «Respublika» qəzeti.

**Yazı başlıqları böyük hərflə yazılır:**

**Məsələn**: Günün xəbərləri, Siyasi lirika və s.

**Saray, körpü, qala adları böyük hərflə yazılır:**

**Məsələn**: Osmanlı sarayı, Şirvanşah sarayı, Xudafərin körpüsü, Qız qalası və s.

**Nöqtə (Noktalama)**

Azərbaycan dilində nöqtə işarəsi hər cümlənin sonunda qoyulur. Nöqtə işarəsi cümlənin birini o birindən ayırır, yazının anlaşılmasını asanlaşdırır, hər cümlənin mənasını müəyyənləşdirir. Nöqtənin qoyulduğu yerdə həm də cümləni oxuyan nəfəs alıb fasilə edir.

Cümlələr:

1. Mahmud Kaşqarlı XI əsr Türk dünyasının böyük dilçisidir.
2. Azərbaycan dilində on bir nitq hissəsi var.
3. Mən Azərbaycanda təhsil alıram.
4. Azərbaycan Dövlət İqtisad Universitetində Türk Dünyası İşlətmə fakültəsi fəaliyyət göstərir.
5. Bakı Azərbaycanın paytaxtıdır.
6. Xəzər dənizi Bakını daha da gözəl göstərir.
7. Bizim universitetdə əcnəbi tələbələr də təhsil alır.
8. Mərcan nənə pilləkəndə qızına rast gəldi.
9. Mehriban gördüyü gözəl yerlərdən söhbət edirdi.
10. İndi hamı onun gözəlliyindən danışırdı.

**Bitişik yazılan sözlər**
**(Bileşik adlar)**

İki sözdən ibarət olan insan və yer adları bitişik yazılır.

**Məsələn**: Ağdam, Göyçay, Mirəli, Hüseynqulu, Məmmədəli, Abbasəli

**Qeyd:** *Bəzən mürəkkəb adlarda iki sait yanaşı gəlirsə, o zaman saitlərdən biri ixtisar olur.*

Ələkbər (Əli+Əkbər), Əlikram (Əli+İkram)



**-lar; -lər şəkliçiləri.** Bu şəkilçilər tək sözlərdən cəm sözlər yaradır. (Tekil adları çoğul yapmak için sonlarına *lar, lər* eki takılır).

**Məsələn**: şəhərlər, evlər, adamlar, tələblər, analar, qızlar, müəllimlər, küçələr, pəncərələr.

**Sual işarəsi (Soru işareti) (?)**

Azərbaycan dilində sual cümləsinin sonunda sual işarəsi yazılır.

Mı? mi? mu? mü? kim? nə? nə üçün? nə zaman? harada? məgər kimi sözlər sual cümləsini əmələ gətirir.

**Məsələn**:

Sən bu kitabı oxudunmu?
Kim deyir şeirin meydanı dardır?
Arif şəhərdən nə aldı?
Nə üçün səni unuda bilmirəm?
Nə zaman gəldin?
Harada yaşayırsan?

Millət necə tarac olur-olsun, nə işim var?
Düşmənlərə möhtac olur-olsun, nə işim var?
*(M.Ə.Sabir)*

İndi nə oldu? Mənmi alçaldım, yaxud bu müddətdə sizmi ucaldınız?
Məgər yaxında həkim yoxdur?

**Nida işarəsi (Ünlem işareti!)**

1. Hiss, həyəcan, sevinc, qorxu kimi duyğuları bildirən cümlələrin sonunda nida işarəsi yazılır.

Soru işareti (heyecan, coşku, sevinç, korku duygularını bildiren cümlelerin sonuna konur)

**Məsələn**:

1. Yaşasın hüriyyət!
2. Var olsun səadət, bir də məhəbbət!

3. Yaşasın bütün şülhsevər insanlar!

II. Tərkibində *ah, of, ay can, eh, ay aman, eh, bıy, aha, haray* kimi nida ifadə edən sözlər olan cümlələrdə nida işarəsi yazılır. Nida işarəsi ya bu sözlərdən sonra, ya da cümlənin sonunda yazılır.

**Məsələn**:

Eh, sən onun xasiyyətinə bələd deyilsən!
Ah! Kaş səni sevdiyimi biləydin!
Vay mənim halıma!
Ah, necə kef çəkməli əyyam idi!
Haray, kömək edin!
Bıy, bir buna bax!
Aha, artıq indi növbə sənə gəldi!

**Vergür (Vergül) (,)**

Vergül qısa fasilə işarəsidir (Vergül kısa durak işaretidir)
Vergülün yazıldığı yerlər.

**a) Həmcins üzvlər arasında vergül yazılır.**

Vergül işareti ard arda gelen sözler arasında konur.

Bağçada qızılgül, nərgiz, bənövşə, yasəmən çiçək açmışdı.

Bakıda, Sumqayıtda, Gəncədə, Qubada, Naxçıvanda özəl türk liseyləri fəaliyyət göstərir.

Hər bir canlı doğulur, böyüyür, yaşayır və ölür.

**b) Mürəkkəb cümlələr arasında vergül yazılır:**

Hava qaralır, evlərdə çıraq yanır, küçələrdən səs-səmir kəsilirdi.

Anama məktub yazdım, amma məktub ona yetişmədi.

**Bəli, yox, xeyr sözlərindən sonra vergül yazılır.**

**Tərkibində «bəli», «yox», «xeyr» sözləri olan cümlələrdə bu sözlərdən sonra vergül və ya nida işarəsi yazılır. (Cümle başında kullanılan bəli (əvət), yox (yok), xeyr (hayır) sözlərindən sonra virgül ve ya ünlem işarəti yazılır.**

**Bəli**, o məni coxdan unutmuşdu.



**Xeyr**, o sənin bildiyindən də nəcib bir insandır.

Xeyir! Sənin şəxsiyyətin məni əsla maraqlandırmır.

**İki nöqtə (iki nükte) (:)**

Bir cümlədə olan nümunələri göstərmək üçün cümlənin və ya sözün sonunda yazılır. (bir cümleden ya da herhangi bir sözden sonar sıralanacak örnekleri göstermek üzere cümlenin ya da sözün sonuna konur.)

Səməd Vurğunun dram əsərləri bunlardır: «Vaqif», «Fərhad və Şirin», «Xanlar», «İnsan».

O düşünürdü: Bir daha o evə dönməyəcək.

Atalar yaxşı demişdir: Ağıl yaşda deyil, başdadır.

**Mötərizə (parantez, aylaç)**

**Cümlə icərisindəki bir söz və ya sözlər o cümlənin mənasını gücləndirmək və anlatmaq üçün işlədilir.**

Mötərizə icindəki sözlər cümlənin quruluşuna təsir etmir.

Səməd Vurğun (əsl adı Səməd, soyadı Vəkilovdur) 1906-cı ildə anadan olmuşdur.

Bəxtiyar Vahabzadə (1925-2009) XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsidir.

**Tərkibində xitab olan cümlələr**

Xitab əgər cümlənin başında gələrsə, vergül və ya nida işarəsi ilə, cümlənin ortasında gələrsə, hər iki tərfədən vergüllə, cümlənin sonunda gələrsə, xitabdan əvvəl vergül, xitabdan sonra isə intonasiyadan asılı olaraq nöqtə, nida, sual işarəsi yazılır.

**Məsələn**:

**Maral**, sən hansı şəhərdə yaşayırsan?

**Gözəl qız!** Sən hansı şəhərdənsən?

Sən, **Məlahət,** bütün bunların doğru olduğuna inanırsanmı?

Bütün bunlar, **cənab səfir,** uydurma və iftiradır.

Belə hərəkət sənə yaraşarmı, oğlum!

Daş qəlbli insanları neylərdim, ilahi!

*(M.Ə.Sabir)*

**Azərbaycan!** Bu da mənim üçün cox müqəddəsdir.
Kazım dayı, bir söz desəm, yerə salmazsan ki?

**İdi, imiş sözləri**

Cümlə icərisində idi, imiş, isə sözcükləri ayrı yazıldığı kimi sözə bitişik olarıq şəkilçi kimi də yazılır. Bitişik yazıldığı zaman idi (dı, di, du, dü) şəklində, isə (sa,sə) şəklində, imiş (mış, miş, muş, müş) şəklində yazılır.

**Cümlə içində (imiş, idi) sözcükləri ayrı olarak yazıldığı gibi, ek olarak da kullanılır. Ek olarak kullanıldığı zaman kendisinden önce gelən sözcüge bitişik olarak yazılır).**

**Məsələn**: Yazmış idi (ayrı), yazmışdı (bitişik)
Oxumuş idi (ayrı), oxumuşdu (bitişik)
Görmüş idi (ayrı), görmüşdü (bitişik)
Gəlmiş idi (ayrı), gəlmişdi (bitişik)

Bilir **imiş** (ayrı) bilirmiş (bitişik)
Yazır **imiş** (ayrı) yazırmış (bitişik)
Yox **imiş** (ayrı) yoxmuş (bitişik)
Var **imiş** (ayrı) varmış (bitişik)

Onun bu kitabdan xəbəri var **imiş.**
Onun bu kitabdan xəbəri var**mış.**



# RƏSMİ VƏ İŞGÜZAR SƏNƏDLƏR

## ƏRİZƏ NÜMUNƏLƏRİ

**Azərbaycan Dövlət İqtisad**
**Universitetinin rektoruna**
**Bakı şəhəri, Atatürk prospekti, ev 35,**
**mənzil 93-də yaşayan Zakir Oqtay**
**oğlu Quliyev tərəfindən**

**Ərizə**

Universitetin mühasibat şöbəsində müvafiq işlə təmin edilməyimə köməklik göstərməyinizi xahiş edirəm.

**Zakir Quliyev**
2 sentyabr 2010-cu il

**Azərbaycan Dövlət İqtisad**
**Universitetinin rektoruna,**
**Beynəlxalq iqtisadi münasibətlər**
**fakültəsinin III kurs, 812-ci qrup**
**tələbəsi Əli Sultanov tərəfindən**

**Ərizə**

Ailə vəziyyətimin çətinliyini nəzərə alıb 2008/2011-ci tədris ilinin təhsil haqqını 01.09.2006-cı il tarixinədək hissə-hissə ödəməyimə icazə verməyinizi xahiş edirəm.

**Əli Sultanov**
1 fevral 2010-cu il



**Azərbaycan Dövlət İqtisad**
**Universitetinin rektoruna**
**İnformatika kafedrasının**
**baş müəllimi Həsən Qüdrət**
**oğlu Kamalov tərəfindən**

**Ərizə**

2004-2005-ci tədris ilinin tətil müddətinin on gününü universitetimizin təmir-tikinti işlərinə sərf etmişəm. Normallaşdırılmamış iş rejimi ilə işlədiyim günlərin hesabına tələbələrin qış tətili zamanı həmin müddətdə əvəzgün verilməsini xahiş edirəm.

**Həsən Kamalov**
10 sentyabr 2011-ci il

**Azərbaycan Dövlət İqtisad**
**Universitetinin rektoruna**
**Bakı şəhəri, Yeni Yasamal,**
**mənzil 48-də yaşayan**
**Ədalət Qasım oğlu Kazımov**
**tərəfindən**

**Ərizə**

Universitetimizin tədris binasına gecə növbətçisi vəzifəsinə işə qəbul edilməyim barədə sərəncam verməyinizi xahiş edirəm.

**Ədalət Kazımov**
11 aprel 2011-ci il

## ARAYIŞ NÜMUNƏLƏRİ

**Arayış**

Pərvin Rüstəm qızı İsmayılova həqiqətən Azərbaycan Dövlət İqtisad Universitetində laborant vəzifəsində çalışır.

Pərvin İsmayılovanın maaşı 300 manatdır.

Arayış Suraxanı rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinə təqdim etmək üçün verilir.

**Universitetin rektoru:** **prof. Sərvər Aslanov**

**Baş mühasib:** **Adil Qasımov**

M.Y.

**Arayış**

Nadir Sabir oğlu Əzimov həqiqətən Poladəritmə sexində gecə növbətçisi vəzifəsində çalışır.

Arayış Bakı şəhəri Nərimanov rayon 56 saylı mənzil istismar idarəsinə təqdim etmək üçün verilir.

**Kadrlar şöbəsi:** **Adilə Cavadova**

M.Y.



**Arayış**

Elçin Vaqif oğlu Hüseynov həqiqətən Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə-kredit fakültəsinin IV kurs tələbəsidir.

Arayış Nəsimi Rayon Hərbi Komissarlığına təqdim etmək üçün verilir.

**Maliyyə-kredit**
**fakültəsinin dekanı:** **prof.R.Məmmədov**

**M.Y.**

## TƏRCÜMEYİ-HAL NÜMUNƏLƏRİ

**Tərcümeyi-hal**

Mən, Əliyev Arif Həsən oğlu, 1962-ci il may ayının 8-də Bakı şəhərində anadan olmuşam. Hal-hazırda Bakı şəhəri Nərimanov rayon 82 saylı məktəbin X sinfində oxuyuram. Dərslərimdən yaxşı və əla qiymətlər alıram.

Atam - Əliyev Həsən Əli oğlu 1936-cı ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasında işləyir.

Anam - Qasımova Güllü Cavanşir qızı 1941-ci ildə Şəki şəhərində anadan olmuşdur, 47 saylı orta məktəbdə fizika müəllimidir.

Qardaşım - Qasımov Elçin tələbədir.

**Arif Əliyev**
18 iyun 2010-cu il

## Tərcümeyi-hal

Mən, Hacıyev Vasif Vaqif oğlu, 1987-ci il aprel ayının 1-də Bakı şəhərinin Səbayil rayonunda ziyalı ailəsində anadan olmuşam. İncəsənət Gimnaziyasını bitirmişəm. 2004-cü ildən Azərbaycan İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsində oxuyuram.

Atam - Hacıyev Vaqif Famil oğlu 1957-ci ildə Ağsu rayonunun Pirhəsənli kəndində anadan olmuşdur. Milli bankda mühəndisdir.

Anam - Hacıyeva Fatimə Bilal qızı 1962-cı ildə Qəbələ rayonunun Vəndam kəndində anadan olmuşdur. Eevdar qadındır. Orta məktəbdə kimya müəllimidir.

**Vasif Hacıyev**
3 mart 2008-ci il

## Tərcümeyi- hal

Mən, Sevda Akif qızı Hüseynova, 1958-ci ildə Bakı şəhərində anadan olmuşam. 1975-ci ildə 189 saylı orta məktəbi bitirmişəm. Məktəbi bitirdikdən sonra iki il 18 saylı poliklinikada tibb qeydiyyatçısı işləmişəm. 1977-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1983-cü ildə həmin İnstitutu bitirmişəm.

İnstitutu bitirdikdən və internaturanı keçdikdən sonra 1989-cu ilədək «Fidan» EİB tibbi sanitar şöbəsində pediatr həkim vəzifəsində işləmişəm.

Atam - Akif Əmrah oğlu Hüseynov 1925-ci ildə anadan olmuşdur. «Xəzərdənizneft» birliyində neftçi mühəndisdir.



Annam - Gülnarə Akif qızı Hüseynova 1931-ci ildə anadan olmuşdur. 7 saylı Uşaq poliklinikasında həkim-pediatrdır.

Qardaşım - Sadiq Akif oğlu Hüseynov  1951-ci ildə anadan olmuşdur, evlidir, bir övladı var.

Həyat yoldaşım - Elçin Abdulov 1952-ci ildə anadan olmuşdur, Ət-süd Sənayesi İdarəsinin Avtomatlaşdırma sistemi xüsusi konstruktor bürosunun şöbə müdiridir.

Qızım - Aytac Abdulova 1983-cü ildə anadan olmuşdur. Diş həkimidir.

**Sevda Hüseynova**
**14 aprel 2006-cı il**

## TƏBRİK MƏKTUBLARI

### Firmanın yubileyi

Hörmətli sədr!

Firmanızın 25 illik yubileyi ilə əlaqədar olaraq Sizi təbrik edir və ən xoş arzularımızı bildiririk.

Uzun illər ərzində yaranmış normal əməkdaşlığa görə minnətdaram.

Hörmətlə: **Əli Mehdiyev**

**Ad günü**

Hörmətli Sevinc xanım Mehdiyeva!

Sizi ad gününüz münasibətilə təbrik edirik. Sizə uzun ömür, cansağlığı arzulayır və ümid edirik ki, gələcəkdə də firmanızın inkişafı naminə yorulmadan çalışacaqsınız.

Hörmətlə:

**REKLAM NÜMUNƏLƏRİ**

**Reklam**

İngilis dilində sərbəst yazıb oxuya bilirsiniz? Bəs danışıq zamanı çətinlik çəkirsinizmi? İnglis dilini mükəmməl öyrənmək istəyirsiniz? Elə isə EF Enqlish First ingilis dili hazırlıq kurslarına müraciət edin. Burada sizinlə peşəkar müəllimlər işləyəcək və siz 10 ay ərzində ingilis dilini mükəmməl öyrənəcəksiniz. İyul ayında isə İngiltərənin Bringta şəhərinə səyahət etməyə şans əldə edəcəksiniz! Tələsin!

Ünvan: Bakı şəhəri, Təbriz küç.89, EF Enqlish First hazırlıq kursları.

Telefon: (+994 12) 453 95 82, 496 93 21
Email: ef baku.com.



**Reklam**

Tez, sərfəli və etibarlı!

Pulunuzu Kanadadan Azərbaycana köçürərik. Bir bank günü və pullar sizin hesabınızdadır.

Müraciət edin!
Telefonlar:
Ünvan: Bakı şəhəri,
Vidadi küçəsi, 34

**ELAN**

15 oktyabr 2010-cu il saat 14-00-da Biznes inzibatçılığı fakültəsinin Kiçik iclas salonunda fakültə elmi şurasının iclası olacaqdır.

*İclasın gündəliyi:*

1. Seçki.
2. 2010-2011-ci tədris ilinin yekunları və qarşıda duran vəzifələr.
3. Cari məsələlər.

*Dekanlıq*

**VƏKALƏTNAMƏ NÜMUNƏLƏRİ**

**Vəkalətnamə**

Biz, sizin idarədən 2011-ci ilin yanvarından dekabrına qədər şifrələri almağı öz işçimiz İlahə Zeynalovaya etibar edirik.

Bizim hesab nömrəmiz: 76453879, Bakı ş., Yasamal Rayon Mənzil-təsərrüfat Bankı.

*İ.Zeynalovanın şəxsiyyət vəsiqəsi: P-CQ N-685436, 6 sentyabr 2003-cü ildə Bakı ş. Nərimanov RİK-nin DİŞ-i tərəfindən verilib.*

İ.Zeynalovanın imzasını təsdiq edirik: (möhür)

**«Fidan» EİB-in direktoru:** **Ə.Əliyev**
**Baş mühasib:** **M.Məmmədov**

**Vəkalətnamə**

Biz, sizin idarənin 2010-cu ilin yanvarından dekabrına qədər təmiri üçün lazım olan avadanlıqları almağı öz işçimiz Samirə Əhməd qızı Aydınovaya etibar edirik.

Bizim hesab nömrəmiz: 76453 879, Bakı şəhəri, Nərimanov Rayon Bankı. Samirə Əhməd qızı Aydınovaya şəxsiyyət vəsiqəsi (P-AQ 685436) 6 sentyabr 2000-ci ildə Bakı şəhəri Nizami RPİ tərəfindən verimişdir.

Samirə Əhməd qızı Aydınovanın imzasının nümunəsini _________ təsdiq edirik.

**İdarənin müdiri:** **Z.Zeynalov**
**Baş mühasib:** **M.Mehmanov**

**M.Y.**

## ETİBARNAMƏ NÜMUNƏLƏRİ

**Etibarnamə**

Mən, Azərbaycan Dövlət İqtisad Universiteti Azərbaycan dili kafedrasının müəllimi Aslanova Məlahət Heydər qızı, elmi ezamiyyətdə olduğuma görə aprel ayı üçün maaşımın alınmasını iş yoldaşım Tahirə Məmməd qızı Əliyevaya verilməsinə etibar edirəm.

**M.H.Aslanova**

**20 mart 2010-cu il**



**Etibarnamə**

Verildiyi vaxt «____» ______________20____-cı il
Şəxsiyyət vəsiqəsinin seriyası __________________
Verilib_______________________polis şöbəsi tərəfindən____________________________________________
____________________________________________
/icra edən idarənin adı/
_________________malları götürmək üçün və fakturanın, kağızın tarixi/
Götürüləcək malların siyahısı
_______________________________
Götürüləcək malların adı_____________________
Ölçü vahidi________________________________
Miqdarı /hərflə/ ____________________________
___________________________________imzanı təsdiq edirik
/mal götürən adamın imzasının nümunəsi/

**İdarənin müdiri:** **M.Əmrahova**

**Baş mühasib:** **A.Həsənova**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, Maarif, 1966.

2. Azərbaycan dili. Bakı, Çaşıoğlu, 2007.

3. M.Şirəliyev, M.H.Hüseynzadə, Q.Ş.Kazımov. Azərbaycan dili. Bakı, Maarif, 1988.

4. Maarifə Hacıyeva. Azərbaycan dili (Fonetika). Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2006.

5. İşgüzar Azərbaycan dili. (Tərtib edən Tofiq Əbdülhəsənli). Azərbaycan Dövlət İqtisad Universiteti, 2006.

6. Muharrem Ergin. Türk Dilbilgisi. İstanbul, 1992.

7. Zeynep Korkmaz. Gramer Terimleri Sözluğu. Ankara, 1992.

8. Türkce sözlük I. Ankara, 1983.

9. Türkce sözlük II. Ankara, 1983.

10. Türkcə-Azərbaycanca lüğət. Bakı, 1992.

11. Azərbaycanca-Türkcə, Türkcə -Azərbaycanca sözlük. «Çağ» Öyrətim işlətmələri. Bakı, 2005.

12. Mehmet Yardımcı. Türkcenin ses özellikleri, yazım kuralları və noktalama. İzmir, 2000.

13. prof. Dr. Mehmet Yazıcı. Türkse´ye Sayğı. İstanbul, 2008.

14. Lətif Kərimli. Bitişik, yoxsa ayrı? Bakı, Nurlan, 2004.

15. Maarifə Hacıyeva. Azərbaycan dilində oxu və çalışma mətnləri. Bakı, Azərbaycan Dövlət İqtisad Universiteti, 2005.

16. Tərcümə və çalışma mətnləri. (Tərtib edəni Maarifə Hacıyeva). Bakı, Azərbaycan Dövlət İqtisad İnstitutu, 1992.

17. L.Sami Akalın Edebiyat terimleri sözdügü. İstanbul, 1965.

18. Azərbaycan dilinin orfoqrafiya sözlüyü. Bakı, 1975.



| | |
|---|---|
| **Nəşriyyatın müdiri** | ***Kamil Hüseynov*** |
| **Baş redaktor** | ***İsmət Səfərov*** |
| **Redaktor** | ***İsabə Hüseynova*** |
| **Korrektor** | ***Südabə Manafova*** |
| **Kompyuter operatoru** | ***Təranə Baxşəliyeva*** |
| **Dizayner** | ***Vüsalə Axundova*** |

**prof. Hacıyeva M., dos. Əbdülhəsənli T.**

**Azərbaycan dili**

---

*Dərs vəsaiti*

***Çapa imzalanıb 20. 12. 2011. Kağız formatı 60x84 1/16.***
***Həcmi 15 ç.v. Sifariş 291. Sayı 500.***

---

***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***